QƏRBİ KASPİ UNİVERSİTETİ

# ELMİ XƏBƏRLƏR

İctimai və texniki elmlər seriyası

# НАУЧНЫЙ ВЕСТНИК

Серия социальных и технических наук

# SCIENTIFIC BULLETIN

The series of social and technical sciences

1

2018

ISSN 2789-4606

# QƏRBİ KASPİ UNİVERSİTETİ

# ELMİ XƏBƏRLƏR

**İctimai və texniki elmlər seriyası**

**SAY 1 - 2018**

# ЗАПАДНО-КАСПИЙСКИЙ УНИВЕРСИТЕТ

# НАУЧНЫЙ ВЕСТНИК

**Серия социальных и технических наук**

№ 1 - 2018

# WESTERN CASPIAN UNIVERSITY

# SCIENTIFIC BULLETIN

**The series of social and technical sciences**

№ 1 - 2018

**BAKI - 2018**

## REDAKSİYA HEYƏTİ


**Baş redaktor:** **Hüseynqulu Bağırov –** Qərbi Kaspi Universitetinin fəxri prezidenti, fəlsəfə üzrə fəlsəfə doktoru, professor

**Redaktor:** **Gülnarə Seyidova** – filologiya üzrə fəlsəfə doktoru

**Üzvlər:** **Andris Leitas –** Qərbi Kaspi Universitetinin rektoru

**Urxan Ələkbərov** – AMEA-nın həqiqi üzvü, biologiya elmləri doktoru, akademik

**Nazim İmanov -** iqtisad üzrə elmlər doktoru, professor

**İlham Məmmədzadə -** fəlsəfə üzrə elmlər doktoru, professor

**William Fierman** - professor (Amerika Birləşmiş Ştatları)

**Randall Barker** – Qərbi Kaspi Universitetinin fəxri professoru (Amerika Birləşmiş Ştatları)

**Colin Love -** Qərbi Kaspi Universitetinin fəxri professoru (Böyük Britaniya)

**Andrey Markov** – iqtisad üzrə elmlər doktoru, professor (Belarusiya Respublikası)

**Həsən Səlcuq** –professor (Türkiyə Respublikası)

**Saylan Bayzakov –** iqtisad üzrə elmlər doktoru, professor (Qazaxıstan Respublikası)

**Marina Abramova** – iqtisad üzrə fəlsəfə doktoru, dosent (Rusiya Federasiyası)

**Fikrət Sadıxov** – Qərbi Kaspi Universitetinin professoru

**Dünyamalı Vəliyev –** iqtisad üzrə elmlər doktoru, professor

**Sevil Sadıxova -** sənətşünaslıq üzrə elmlər doktoru, professor

**Rəna Hacıyeva** – pedaqoji elmlər üzrə fəlsəfə doktoru, dosent

**Afaq Həsənova –** riyaziyyat üzrə fəlsəfə doktoru, dosent



# *Hörmətli oxucu!*

**Qərbi Kaspi Universitetinin "Elmi xəbərlər" jurnalı 2017-ci ildə oxucularla görüşə müəyyən yeniliklərlə gəlməkdədir.**

**Qərbi Kaspi Universitetinin "Elmi xəbərlər" jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyyə edilən dövri elmi nəşrlərin siyahısına daxil edilmişdir.**

**Diqqətinizə çatdırmaq istəyirik ki, cari ildən "Elmi xəbərlər" jurnalına göndərilən məqalələr redaksiyanın peşəkar ekspert heyətinə resenziyaya göndəriləcək, yalnız elmi-tədqiqat tutumlu əsərlərin dərc olunması mümkün olacaq.**

**Qərbi Kaspi Universitetinin "Elmi xəbərlər" jurnalının redaksiya heyətinin məqsədi yerli və xarici tədqiqatçılar, alimlər tərəfindən aparılan fundamental və tətbiqi araşdırmaları, pedaqoji, metodoloji və metodiki məsələləri əhatə edən, elm və təhsilin inkişafına xidmət göstərən elmi tutumlu yazıları geniş oxucu auditoriyasına çatdırmaqdır.**

**Həmçinin, "Elmi xəbərlər" jurnalı digər universitet və institutların dissertant və elmi işçilərinin elmi əsərlərini dərc etməyə açıqdır.**

**Ümid edirik ki, "Elmi xəbərlər" jurnalı ictimai və humanitar sahələrdə həyata keçirilən elmi tədqiqatların yayılmasında, məqalələrin geniş oxucu kütləsinə çatmasında bir növ vasitəçi rolunu oynayacaq. "Elmi xəbərlər" jurnalının redaksiya heyəti mütəxəssisləri, elm adamlarını, o cümlədən, gənc tədqiqatçıları əməkdaşlığa və jurnalda elmi məqalələrlə çıxış etməyə dəvət edir.**

***Hörmətlə, Qərbi Kaspi Universitetinin rektoru***

***Prof. dr. Andris Leitas***

## Уважаемый читатель!

В 2017 году журнал «Научные Новости» Университета “Western Caspian”, готов встретить своих читателей инновациями.

Журнал «Научные Новости» был включен в публикационный список, который был утвержден со стороны Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики.

Целью редакции журнала «Научные Новости» Университета “Western Caspian”, является информирование широкого круга читателей о проведение местными и зарубежными учеными исследований в области фундаментальных и прикладных, педагогических, психологических, методических и методологических вопросов, включая развитие науки и образования.

Мы надеемся, что журнал «Научные Новости», сыграет роль посредника для широкой читательской аудитории путём распространения научных исследований, проводимых в социальной и гуманитарной областях.

Редакционные эксперты журнала «Научных Новостей», ученые, в том числе и особенно молодые исследователи приглашаются к сотрудничеству с журналом. Также, хотим отметить, что наш журнал открыт к сотрудничеству с учёными и научными исследователями из других университетов.

Мы хотим обратить ваше внимание на то, что в текущем году все статьи журнала «Научные Новости», будут отправлены на рассмотрение профессиональным экспертам, и только работы научно-исследовательского потенциала смогут быть опубликованы.

С уважением,

**Ректор Др. Андрис Лейтас**

***

## Dear reader!

In 2017 the journal "Scientific News" of Western Caspian University, is looking forward to welcoming its readers with great innovations.

The journal "Scientific News" was included in the publication list, which was approved by the Higher Attestation Commission under the President of the Azerbaijan Republic.

The journal’s main objective is to inform a wide range of readers about research conducted by local and foreign scientists in the fields of fundamental and applied science - pedagogy, psychology, methodology and another reserch, included in the development of science and education.

We hope that "Scientific News" journal will play the role of an intermediary for a wide readership through the dissemination of scientific research in the social and humanitarian fields.

Editorial experts for the journal "Scientific News", scientists, especially young researchers are invited to cooperate with the journal. We want to note that our journal is open to cooperation with scientists and researchers from other universities.

We would like to draw your attention to the fact that in the current year all the articles of the "Scientific News" journal will be sent for consideration to professional experts, and only works of scientific and research potential will be published.

Yours faithfully,

**Rector Dr. Andris Leitas**

# İ Q T İ S A D İ Y Y A T

**UOT 336; 336.11**

## MALİYYƏ MÜNASİBƏTLƏRİ SİSTEMİNDƏ VERGİLƏRİN ROLU

**Pərviz Əhməd oğlu QURBANOV**
Qərbi Kaspi Universiteti
iqtisadiyyat üzrə fəlsəfə doktoru, dosent

## XÜLASƏ

Müasir şəraitdə Azərbaycanda vergi sisteminin formalaşması və təşkil məsələləri aktual sosial-iqtisadi inkişaf problemlərindən biridir. Bazar iqtisadiyyatı şəraitində dövlət maliyyəsinin formalaşması, vergi sistemi və onun inkişaf mərhələləri, vergi sisteminin səmərəliliyinin qiymətləndirilməsi və təkmilləşdirilməsi, iqtisadi proseslərin tənzimlənməsində vergi sisteminin yenidən qurulması, Vergi Məcəlləsinin təkmilləşdirilməsi iqtisadi elmin həll edilməli aktual məsələlərindən biridir.

Məqalədə əsas məqsəd maliyyə münasibətlərində verginin rolunu, maliyyə sisteminin formalaşmasında vergilərin nəzəri metodoloji əsaslarını tədqiq etməkdən, müasir şəraitdə büdcə vergi siyasəti və onun sosial-iqtisadi inkişafına təsir edən amilləri, müasir vergi sistemi və onun səmərəliliyinin yüksəldilməsi istiqamətlərini müəyyənləşdirməkdən ibarətdir.

Məqsədlərin reallaşdırılması nəticəsində vergi ödəyiciləri tərəfindən vergi qanunvericiliyinə könüllü əməletmə səviyyəsinin artmasına və büdcə gəlirlərinin proqnozlaşdırılması üçün daha real informativ bazarın yaranmasına nail olunacaqdır.

**Açar sözlər:** maliyyə, əmtəə-pul münasibətləri, büdcə-vergi siyasəti, büdcəyə daxilolmalar, qeyri-vergi gəlirləri, rüsumlar, vergi güzəştləri və vergi azadolmaları, yaşayış minimumu.

## РОЛЬ НАЛОГОВ В СИСТЕМЕ ФИНАНСОВЫХ ОТНОШЕНИЙ

### РЕЗЮМЕ

В современных условиях вопрос формирования и организации налоговой системы в Азербайджане является одной из актуальных социально-экономических проблем развития. В условиях рыночной экономики перед экономической наукой стоят такие вопросы, требующие своего разрешения, как формирование государственных финансов, налоговая система и этапы ее развития, оценка эффективности налоговой системы и ее совершенствование, реорганизация налоговой системы в регулировании экономических процессов, совершенствование Налогового кодекса.

Основная цель статьи – изучение роли налогов в финансовых отношениях, теоретико-методологических основ налогов в формировании финансовой системы, бюджетно-налоговая политика в современных условиях и ее факторы, влияющие на социально-экономическое развитие, современная налоговая система и направления повышения ее эффективности.

В результате реализации цели будет достигнуто повышение добровольного соблюдения налогового законодательства налогоплательщиками и создание более реальной информационной базы прогнозирования доходов бюджета.

**Ключевые слова:** Финансы, товарно-денежные отношения, бюджетно-налоговая политика, бюджетные поступления, неналоговые доходы, пошлины, налоговые льготы и освобождения от налогов, прожиточный минимум.

## THE ROLE OF TAXES IN THE FINANCIAL SYSTEM

### SUMMARY

Nowadays the formation of the taxation system is one of the key socio-economic development problems in Azerbaijan. In market economy, building the state finance, taxation system and its stages of development, the assessment and perfection of taxation system efficiency, resetting the taxation system in regulations of economical processes, improvement of tax code are topical problems that the economics should deal with.

The main aim of this article is to find out the role of taxes in financial relations, to research the theoretical-methodological basis of taxes in the formation of financial system and to determine the fiscal policy, the factors that

influence its socio-economic development and the ways that enhance its efficiency in current circumstances.

As a result of realization of goals, the intentional obedience of taxpayers to the tax legislation will be enhanced and to forecast budget revenues a more realistic informative market will be achieved.

**Keywords**: finance, commodity-money relations, fiscal policy, budget revenues, non-tax revenues, duties, tax breaks, tax exemptions

Son illərdə dünya iqtisadi sistemində çox mühüm dəyişikliklər baş verməkdədir. Bu dəyişikliklər iqtisadiyyatın bütün sahələrində həyata keçirilir, mülkiyyət, maliyyə və iqtisadi münasibətlər sferasında əhəmiyyətli dəyişikliklər baş verir. Bazar iqtisadiyyatı şəraitində maliyyə münasibətlərinin, xüsusi ilə vergi münasibətlərinin əhəmiyyəti xeyli artır, dövlətin iqtisadi tənzimləmə aləti kimi vergilər əsas rol oynayır.

İnkişaf etmiş cəmiyyətdə vergilər dövlət gəlirlərinin əsas mənbəyidir. Vergilər sırf maliyyə funksiyasından əlavə, dövlətin istehsala, onun strukturuna və quruluşuna iqtisadi təsir etmə vasitəsidir. Müasir şəraitdə ölkə iqtisadiyyatının tənzimlənməsində, daxili istehsalın stimullaşdırılmasında vergi siyasətinin rolu inkaredilməzdir. Bazar münasibətləri inkişaf etdikcə səmərəli vergi siyasətinin həyata keçirilməsi zəruriliyi daha da artır. Vergi siyasəti ÜDM-ın artırılması, istehsalın canlandırılması, daxili bazarın qorunması, ixrac məhsullarının rəqabət qabiliyyətinin artırılması, əhalinin rifah səviyyəsinin yüksəldilməsi, məşğulluq kimi problemlərin həll edilməsində real vasitədir. Vergi siyasəti onun nəzəri əsaslarının dəqiq müəyyənləşdirilməsini və yeni dövrün tələblərinə uyğun olaraq təkmilləşdirilməsini və səmərəli vergi sisteminin qurulmasını tələb edir. Burada əsas məsələ sadəcə olaraq vergi daxilolmalarının artırılmasına deyil, ümumiyyətlə iqtisadiyyatın tənzimlənməsində vergi sisteminin rolunun artırılmasına nail olmaqdır.

İqtisadiyyatın bazar münasibətləri əsasında yenidən qurulması başlandıqdan sonra respublikamızın vergi siyasətinin nəzəri cəhətdən formalaşması və vergi qanunvericiliyi üzrə bazanın yaranması məsələlərini tədqiq edən müasir alimlərdən Z.Səmədzadə, S.Məmmədov, M.Həsənli, A.Musayev, M.Sadıqov, D.Bağırov, S.Səfərov, B.Xankişiyev və başqalarının xidmətləri böyükdür.

Maliyyə elminin əsas anlayışlarından biri vergilərdir. Ona eyni zamanda həm iqtisadi, həm təsərrüfat və həm də siyasi kateqoriya kimi baxmaq lazımdır. İqtisadi və siyasi elmlərin inkişafı vergilərin mahiyyətini izah etmək üçün yeni imkanlar açır. Vergilər dövlətin öz funksiyalarını icra etməsindən ötrü zəruri olan, bu ölkənin qanunvericiliyinin tabeliyində olan fiziki və hüquqi şəxslərdən dövlət və yerli hakimiyyət orqanları tərəfindən məcburi qaydada tutulan vəsaitlərdir.

Ölkəmizdə vergi sistemində ədalətliliyə, sadəliyə, səmərəliliyə nail olunması və iqtisadi yüksəliş baxımından bütün maneələrin aradan qaldırılması məqsədilə tənzimləyici tədbirlər həyata keçirilir.

Müasir dövrdə həyata keçirilən vergi siyasəti vasitəsi ilə ölkəmiz gündən günə inkişaf edir. Vergilər iqtisadiyyatımızın inkişafında əsas rola malik olduğu kimi həm də dövlətin tənzimləmə mexanizmlərindən biri olmaqdadır.

Dövlətin iqtisadi və sosial siyasətinin həyata keçirilməsi vasitələrdən biri maliyyə sisteminin tərkib hissəsi olan büdcə sistemidir. Büdcə sistemi ali və yerli dövlət hakimiyyəti orqanlarının funksiyalarının icra olunmasının əsas maliyyə mənbəyi rolunu oynayır. Büdcə sisteminin qurulması, onun ayrı-ayrı həlqələri arasında maliyyə münasibətlərinin müəyyən edilməsi dövlətin funksiyalarının həyata keçirilməsinə, dövlətin iqtisadi və sosial cəhətdən inkişaf etməsinə xidmət edir.

Büdcə siyasəti respublikada maliyyə sabitliyinin saxlanılmasını, infliyasiyanın aşağı salınmasını təmin etməklə, genişlənməkdə olan islahatların sürətlənməsinə təkan verməlidir (3, s.27). Bu zaman islahatların ilkin nəticəsi kimi əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsi təmin olunmalıdır.

Yeni təsərrüfatçılıq şəraitində ilk növbədə büdcə vəsaitləri qoyuluşlarının istiqamətini dəyişdirmək lazımdır. Müasir şəraitdə büdcə mexanizminin təsərrüfat konyunkturuna və işgüzar sahibkarlıq fəaliyyətinin genişlənməsinə təsir istiqamətlərinə xüsusi fikir verməlidir. Vergilər, vergi güzəştləri, birbaşa büdcə maliyyələşdirilməsi vasitəsilə istehsal sahəsinin inkişafına maksimum şərait yaradılmalı, istehsal fondlarının təzələnməsi, elmi texniki naliyyətlərinin istehsalda tətbiqinə stimullar gücləndirilməlidir. Büdcənin elmi-texniki tərəqqinin sürətləndirilməsi mənafeyinə istifadə edilməsi elmin maliyyələşdirilməsində prinsipcə yeni büdcə mexanizminin yaradılmasını, müəssisələrdə yeni növ məhsulun və texnologiyanın reallaşdırılmasından əldə edilən mənfəətə güzəştli vergi rejiminin tətbiqini zəruri edir.

Büdcə gəlirləri dövlətin funksiyalarının yerinə yetirmək üçün mərkəzləşdirilmiş maliyyə vəsaitləridir. Onlar pul vəsaitləri fondlarının formalaşması prosesində yaranmış iqtisadi münasibətləri əks etdirir və hakimiyyət orqanlarının fəaliyyətinin həyata keçirilməsinə xidmət edir. Bazar iqtisadiyyatı şəraitində dövlət büdcəsinin gəlirlərinin öyrənilməsi ən vacib məsələlərdən biridir.

Büdcə gəlirləri – Azərbaycan Respublikasının dövlət büdcəsinə, Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə daxil olan vergilər, rüsumlar, digər ödənişlər və daxilolmalardır (5, s.39). Büdcə gəlirləri "Dövlət büdcəsi haqqında" qanun və digər qanunvericilik aktları ilə müəyyən edilir. Pul vasitələri fondunun formalaşması prosesində yaranmış iqtisadi münasibətləri əks etdirən büdcə gəlirləri dövlətin funksiyalarının yerinə yetirilməsi üçün mərkəzləşdirilmiş maliyyə vəsaitləridir. Son illər

respublikamızda büdcənin idarə edilməsi sahəsində mühüm dəyişikliklər həyata keçirilməkdədir. Bu dəyişikliklər hər şeydən əvvəl büdcənin gəlirlər bölümünün geniş sisteminin yaradılması ilə bağlıdır.

**Cədvəl 1.**

Azərbaycan Respublikasının dövlət büdcəsinin gəlir hissəsinin formalaşmasında ayrı-ayrı növlərinin xüsusi çəkilərinin dinamikası

| Vergi daxilolmaları | Daxilolmalar(min AZN) | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
| Gəlirlər-cəmi | 15 700.7 | 17 281.5 | 19 496.3 | 18 400.6 | 17 498.0 | 17 505.7 |
| o cümlədən | | | | | | |
| Fiziki şəxslərin gəlir vergisi | 715.7 | 813.0 | 859.7 | 980.3 | 928.5 | 1 145.7 |
| Hüquqi şəxslərin Mənfəət vergisi | 2 134.0 | 2 252.0 | 2 374.8 | 2 302.7 | 2 211.1 | 1 963.2 |
| Torpaq vergisi | 35.3 | 30.6 | 33.1 | 35.4 | 48.7 | 50.3 |
| Əmlak vergisi | 103.9 | 105.1 | 125.1 | 141.3 | 148.2 | 174.7 |
| Əlavə dəyər vergisi | 2 222.7 | 2 366.9 | 2 710.0 | 3 119.6 | 3 454.7 | 3 623.5 |
| Aksiz vergisi | 480.2 | 531.5 | 593.3 | 797.3 | 647.8 | 625.1 |
| Mədən vergisi | 129.8 | 125.8 | 121.5 | 116.2 | 116.1 | 110.3 |
| Xarici iqtisadi fəaliyyətlə bağlı vergilər | 433.1 | 592.5 | 675.2 | 684.7 | 934.5 | 861.2 |
| Digər vergilər | 140.6 | 157.6 | 161.5 | 192.7 | 247.7 | 457.0 |
| Sair daxilolmalar | 9 305.4 | 10 306.5 | 11 842.1 | 10 030.4 | 8 706.7 | 8 474.7 |

Cədvəl 1-dən göründüyü kimi, 2011-ci il ilə müqayisədə 2016-ci ildə dövlət büdcəsinə vergilərdən ümumi daxilolmalar 11.5% artmışdır (2, s.404). Əsasən, dövlət büdcəsinə daxilolmalar ƏDV, fiziki şəxslərin gəlir vergisi,

hüquqi şəxslərin əmlak vergisi və hüquqi şəxslərin torpaq vergisi hesabına baş verir. Azərbaycan Respublikasında büdcəyə vergi daxilolmalarının tərkibində gəlir vergisinin payının inkişaf etmiş ölkələrlə müqayisədə az olmasının bir neçə səbəbi vardır. Bunlardan birincisi Azərbaycan Respublikasında əmək haqqı səviyyəsinin həmin ölkələrlə müqayisədə qat-qat aşağı olması, ikincisi isə yüksək gəlirli şəxslərin öz gəlirlərini vergidən yayındırması ilə əlaqədardır. Göründüyü kimi Azərbaycan Respublikasında vergi daxil olmalarının strukturunun inkişaf etmiş analoji ölkələrdəki strukturdan fərqli olmasına təsir edən amillərdən biri ayrı-ayrı vergilər üzrə proqnozlara əməl edilməsi səviyyəsinin fərqli olmasıdır.

İqtisadiyyatın tənzimlənməsində vergi güzəştlərinin və vergi azad olmalarının rolu danılmazdır (4, s. 15). Vergi güzəşti dedikdə, vergi ödəyicilərinin vergini ödəməkdən tam və ya qismən azad olması, vergitutma bazasının qismən azaldılması, verginin aşağı dərəcələrlə hesablanması və ödənilmə müddətinin artırılması üzrə qanunvericiliklə təsbit olunmuş hüquqları nəzərdə tutulur.

Qeyd etməliyik ki, vergi tənzimlənməsinin alətlərindən biri olan vergi güzəştləri aşağıdakı prinsiplər əsasında tətbiq olunmalıdır.

- Vergi münasibətlərinin bütün iştirakçılarının maraqlarının balanslaşdırılması;
- Vergi tənzimlənməsi səmərəliliyinin təmin olunması;
- Vergi tənzimlənməsinin ünvanlı xarakterli olması;
- Vergi tənzimlənməsinin dövlətin digər tənzimlənmə tədbirləri ilə sistem halında uzlaşdırılması və tətbiqi.

Bu prinsipləri rəhbər tutaraq 2016 və 2017-ci illər üçün tətbiq edilmiş güzəştlər böyük maraq doğurur. Belə ki, Vergi Məcəlləsinin 102-ci (fiziki şəxslərin gəlir vergisi üzrə) (1, s.153), 106.1.17.-ci (hüquqi şəxslərin mənfəət vergisi üzrə) (1, s.165), 164.1.19-164.1.27-ci (ƏDV üzrə) (1, s.204-206) və 199.11-ci (əmlak vergisi üzrə) (1, s.239) maddələrinə edilmiş güzəşt xarakterli dəyişikliklərin əsas məqsədi sahibkarların və muzdlu işçilərin vergi yükünün azalmasına və beləliklə, iqtisadi artımın və rifahın təmin olunmasına şərait yaratmaqdır.

Fiziki şəxsin əsas iş yerində (əmək kitabçasının olduğu yerdə) hər hansı muzdlu işlə əlaqədar əldə edilən aylıq gəliri 2500 manatadək olduqda, ölkə üzrə yaşayış minimumunun 1 misli, illik gəliri 30000 manatadək olduqda, ölkə üzrə yaşayış minimumunun 12 misli məbləğində olan hissəsi gəlir vergisindən azad olunur. Yaşayış minimumu haqqında Azərbaycan Respublikasının Qanununa görə, 2018-ci ildə yaşayış minimumu ölkə üzrə 173 manat, müəyyən edilmişdir.

2016-cı il fevralın 1-dən etibarən 3 (üç) il müddətində yerli bank və xarici bankın Azərbaycan Respublikasında fəaliyyət göstərən filialı tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirləri, habelə emitent tərəfindən

investisiya qiymətli kağızları üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri və investisiya təşviqi sənədini almış fərdi sahibkar həmin sənədi aldığı tarixdən əldə etdiyi gəlirin 50 faizi-7 il müddətinə, investisiya təşviqi sənədini almış hüquqi şəxsin həmin sənədi aldığı tarixdən əldə etdiyi mənfəətin 50 faizi -7 il müddətində vergi verməkdən azaddırlar.

Malların ixracından başqa, malların təqdim edilməsinin, işlər görülməsinin və xidmətlər göstərilməsinin aşağıdakı növlərindən, Vergi Məcəlləsinə 20 oktyabr 2015-ci il və 19 yanvar 2016-cı il tarixdə edilmiş dəyişikliyə əsasən ƏDV tutulmur:

- Müvafiq icra hakimiyyəti orqanı tərəfindən hərbi məqsədlər üçün istifadə olunan bütün növ texnika və texniki vasitələr, onların ehtiyat hissələri, silah-sursat idxalı, müdafiə təyinatlı məmulatların yaradılması və istehsalı məqsədilə idxal edilən texnologiyalar, avadanlıqlar və dəstləşdirici hissələr;
- Azərbaycan Respublikasının ərazisində mövcud qaydada qeydiyyatdan keçmiş humanitar təşkilatlar, həmçinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurumun razılığı ilə digər hüquqi və fiziki şəxslər tərəfindən humanitar yardım kimi gətirilən mallar;
- Texniki yardım da daxil olmaqla, təmənnasız yardım və xeyriyyə məqsədi ilə dövlətlərin, hökumətlərin və beynəlxalq təşkilatların xətti ilə gətirilən mallar;
- Müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş hallarda və qaydada fiziki şəxs tərəfindən gömrük sərhəddindən keçirilən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallar;
- İxrac məqsədli neft-qaz fəaliyyəti ilə əlaqədar gətirilən avadanlıq və materiallar (müvafiq icra hakimiyyəti orqanı tərəfindən ixrac məqsədli neft-qaz fəaliyyəti üzrə Azərbaycan Respublikasına idxal olunan avadanlıq və materialların təsdiq olunmuş siyahısı gömrük orqanlarına təqdim edildiyi təqdirdə);
- Xüsusi iqtisadi zonaya idxal edilən mallar (aksizli mallar istisna olmaqla)
- Lizinq müqaviləsinin obyekti olan əsas vasitələrin idxalı;
- İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı-investisiya təşviqi sənədinin alındığı tarixdən 7 il müddətinə;
- Buğdanın idxalı və satışı, buğda ununun və çörəyin istehsalı və satışı - 2016-cı il yanvarın 1-dən 1 il müddətinə.

İnvestisiya təşviqi sənədini almış hüquqi şəxs və fərdi sahibkar həmin sənədi aldığı tarixdən müvafiq əmlakına görə 7 il müddətinə əmlak vergisini ödəməkdən azaddır.

2016-cı və 2017-ci illərdə Vergi Məcəlləsinə edilmiş dəyişikliklərin böyük əksəriyyətinin vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsinə, vergi yükünün azaldılmasına, vergi inzibatçılığının təkmilləşdirilməsinə, vergidən yayınma halları ilə mübarizənin gücləndirilməsi yolu ilə büdcə daxilolmalarının artmasına xidmət edir. Dövlət büdcəsinin icrası ilə yanaşı, sahibkarlığın inkişafı, xüsusilə kiçik və orta biznesin fəaliyyətinin genişlənməsininin təşviqi də vergi orqanlarının qarşısında duran əsas vəzifələrdəndir (6, s.49).

Vergi yükünün azaldılmasına yönəlmiş digər dəyişikliklər ƏDV-nin məqsədləri üçün qeydiyyata alınma öhdəliyi yaradan əməliyyatların həcminin 120 min manatdan 200 min manatadək, eləcə də ƏDV qeydiyyatının ləğvi üçün vergi tutulan əməliyyatların həcminin 60.000 manatdan 100.000 manatadək artırılması, bina tikintisi ilə məşğul olan şəxslərə sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququnun verilməsi, daşınmaz əmlakın təqdim edilməsindən əldə olunan gəlirlərdən notariuslar tərəfindən ödəmə mənbəyində sadələşdirilmiş verginin tutulması, ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərə satış dövriyyəsi 200.000 manatdan artıq olduğu halda ticarət fəaliyyəti üzrə 6 faiz, ictimai iaşə fəaliyyəti üzrə 8 faiz dərəcə ilə sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququnun verilməsidir. Bu dəyişikliklər, eləcə də məcburi ƏDV qeydiyyatına alınmaq öhdəliyi yaradan həddin artırılması dövriyyəsi 200 min manatadək olan şəxslərə sadələşdirilmiş vergitutma rejimində fəaliyyətlərini davam etdirməyə imkan verəcəkdir ki, bu da vergi inzibatçılığının sadələşdirilməsi ilə yanaşı həmin ödəyicilərin vergi yükünün azaldılmasını təmin edəcək, o cümlədən idman mərc oyunlarından əldə edilən uduşların ödəmə mənbəyində vergiyə cəlb edilməsi, Nazirlər Kabinetinin müvafiq qərarı ilə idxalda ƏDV-dən azad olunan malların siyahısının Vergi Məcəlləsinə daxil edilməsi, qeyri-filiz faydalı qazıntılar üzrə mədən vergisi dərəcələrinin optimallaşdırılması, vergi borcları olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüquqlarının müvəqqəti məhdudlaşdırılması, aksiz markası ilə markalanmalı olan malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi, alkaqollu içkilərin satışının yalnız nağdsız qaydada həyata keçirilməsi kimi məsələlərlə bağlı dəyişikliklər vergi intizamının güclənməsinə və nəticə etibarilə büdcəyə vergi daxilolmalarının artmasına öz müsbət təsirini göstərəcək.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi, Bakı – 2017
2. Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M. İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı: – 2002
3. Əyyubov V.S. “Büdcə və vergi sistemi”. Bakı – 2004
4. Kəlbiyev Y.A. Fiskal siyasət və milli iqtisadiyyatın tənzimlənməsi problemləri. – Bakı: “Elm”, 2005, 468s.
5. Kərimov A. Mühasibat uçotu, vergilər. Bakı – 2008
6. Məcidov M.K. Vergilər və vergitutma – Bakı: 2018

**UOT 338 (479.24)**

# SƏHİYYƏ MAARİFLİLİYİ VƏ DÖVLƏTİN SƏHİYYƏ XƏRCLƏRİ

**Murad Zaman oğlu HACIYEV**
Azərbaycan Respublikası Təhsil Nazirliyi
Qərbi Kaspi Universiteti
"İqtisadiyyat kürsüsü"nün müəllimi

m.hacibeyli@gmail.com

## XÜLASƏ

Araşdırmanın məqsədi səhiyyə savadlılığı ilə səhiyyə xərcləri arasındakı asılılığı göstərməkdən ibarətdir. Müqayisəli təhlil metodundan istifadə edilmişdir. Yetərsiz səhiyyə savadlılığı sağlamlıqla əlaqədar pis nəticələri ilə bərabər, dövlətin sağlamlıq xərclərinin də artmasına gətirib çıxarır.

**Açar sözlər:** sağlamlıq savadlılığı, səhiyyə xərcləri, sağlamlıq iqtisadiyyatı, inkişaf, rifah, məsrəf, xərc, qənaət, davamlılıq.

## МЕДИЦИНСКАЯ ГРАМОТНОСТЬ И ГОСУДАРСТВЕННЫЕ РАСХОДЫ НА ЗДРАВООХРАНЕНИЕ

## РЕЗЮМЕ

Показать взаимоотношение между медицинской грамотностью и государственными расходами на здравоохранение. Не достаточная медицинская грамотность приводит к негативным последствиям, а также повышает государственные расходы на здравоохранение. Метод сравнительного анализа

**Ключевые слова:** медицинская грамотность, расходы на здравоохранение, экономика здравоохранения, разработка, процветание, стоимость, расходы, экономия, долговечность

## HEALTH LITERACY AND PUBLIC EXPENDITURE ON HEALTH


### SUMMARY

To show relationship between medical literacy and the public expenditures on health care. Comparative analysis method. Insufficient health (medical) literacy leads to negative consequences and also raises the public expenditures on health care


**Keywords:** health literacy, health expenditures, health economics, development, prosperity, cost, expense, saving, durability

### Giriş

Bir iqtisadiyyatda davamlı inkişafa nail olmaq üçün sağlam bir cəmiyyət lazımdır. Ədəbiyyatlarda 1970-ci illərdən adı keçməsinə baxmayaraq (səhiyyə savadlılığı konsepsiyası konkret olaraq 1974-cü ildə Simond tərəfindən "Health Education as Social Policy" adlı bir məqalədə istifadə edilməyə başlanılmışdır.) önəmi son illərdə artan ***sağlamlıq***[1] ***savadlılığı*** (***eng.*** *health literacy*) [From Wikipedia, the free encyclopedia https://en.wikipedia.org/wiki/Health_literacy] anlayışı insanların müvafiq sağlamlıq haqqında qərarlar qəbul etmək və müalicə üçün təlimatlar əldə etmək, həmçinin sağlamlıq məlumatlarını oxumaq, anlamaq və istifadə etməkdən ibarətdir. Bu anlayışın təxminən 25 il müddətində məhdud miqyasda istifadə edilməsinə baxmayaraq, sonralar Amerika və Avropada geniş istifadə edilməyə başlanmışdır. Bu anlayış fərdlərin yalnız əllərinə verilən bir broşürü oxuya bilməsi mənası ilə məhdudlaşmır, eyni zamanda öz xəstəliyini bilmək, sağlamlığı ilə əlaqəli uyğun qərarlar qəbul edə bilməsi, səhiyyə sistemindən necə yararlanacağını və bu sistemdən necə faydalanacağını içərən geniş bir qavramı ifadə etməkdədir [Nutbeam D. Health promotion glossary. Health February 2016 Promot. Int. (1998) 13 (4): 349-364. PDF https://academic.oup.com/heapro/article/13/4/349/563193]

### Səhiyyə Savadlılığı

Dünyada sağlam yaşayışın daha da çoxalması, sağlamlıq şüurunu yaratmaq üçün fərdi əsaslı təcrübələrə diqqətin artırılması çərçivəsində səhiyyə sağlamlığı anlayışı gündəmə gəlməyə başlamışdır [Nadir Eroğlu, Türkiye'de Yerleşik Bireylerin Sağlık Okuryazarlık Düzeylerinin Genel Sağlık Harcamaları Üzerindeki Etkisi, İşletme ve Finans Çalışmaları Dergisi 6(2), 2017: 44-59 file:///C:/Users/Admin/Downloads/745-2076-1-PB.pdf]. Yetərsiz səhiyyə savadlılığının dövlətə ilk maliyyətini sistematik şəkildə öyrənilməsi ilk dəfə 2009-cu ildə Eichler tərəfindən aparılmışdır.

[1] **Qeyd:** Məqalədə sağlamlıq savadlılığı və səhiyyə savadlılığı (bəzən sağlamlıq savadsızlığı) eyni anlamda işlədilir.

Sağlamlıq savadlılığı anlayışı Azərbaycanda ən az tanınan anlayışlardan biridir. Savadlılıq ömür boyu sağlamlıq və rifahın mühüm göstəricisidir. Savadlılığın yaxşılaşdırılması daha yaxşı qərar verməyə kömək edir və gələcək illərdə daha yaxşı sağlamlıq və həyat keyfiyyətinə gətirib çıxardır. Dediyimiz kimi savadlılıq əvvəla oxumaq və yazma bacarığı olaraq təyin edilmiş olsa da, savadlılıq anlayışının konseptuallaşdırılması optimal işləmək üçün lazım olan müxtəlif qaynaqlardan məlumat ala bilmək və hərəkət etmək qabiliyyətinə daha geniş diqqət yetirmək üçün inkişaf etmişdir. Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO), savadlılığı "dəyişən kontekstlərlə əlaqəli yazılı və yazılı materiallardan istifadə etmək, anlamaq, şərh etmək, yaratmaq, əlaqələndirmək və hesablamaq bacarığı" kimi təyin edir. Ümumdünya Səhiyyə Təşkilatı isə sağlamlıq savadlılığını "Sağlamlığın qorunması və davamlılığı üçün fərdlərin sağlamlıq məlumatlarını əldə edə bilməsi, anlaması və istifadə etmə qabiliyyəti" kimi tanımlamışdır. Amerika Təbibləri Dərnəyi (The American Medical Association) sağlamlıq savadlılığına "fərdlərin sağlamlıqla əlaqəli məlumatları oxuya bilməsi, dərman qutularının üzərində yazılanları oxuyub anlaya bilməsi və tibb mütəxəssisləri tərəfindən söylənilənləri anlayıb həyata keçirə bilməsi" kimi tərif vermişdir. Savadlılıq fərdlərin öz məqsədlərinə nail olmasına, onların bilik və potensialını inkişaf etdirməyə və onların cəmiyyətinə və daha geniş cəmiyyətə tam şəkildə qatılmasına imkan verən tədris prosesini əhatə edir.

Sağlamlıq səviyyəsinin aşağı səviyyədə olması daha pis sağlamlıq statusu ilə bağlıdır. Aşağı səviyyədə maliyyə və sağlamlıq savadlılığı daha az qazanc deməkdir, əksi durum isə daha qənaətcil və uğurlu investisiya davranışlarında özünü göstərir. Yetərli sağlamlıq savadlılığının olmaması fərdi sağlamlıq xidmətlərinin səmərəli istifadəsi problemlərinə gətirib çıxarır və qeyri-sağlam həyat sürür, bu da cəmiyyət səviyyəsində aşağı məhsuldarlığa, xəstəlik və ölüm hallarının artmasına, xərclərin artmasına səbəb olur. Sistemli bir araşdırmaya əsasən müəyyən edilmişdir ki, sağlamlıq savadlılığının aşağı olması və yaxud məhdudluğu ümumi səhiyyə xidmətində səhiyyə ilə əlaqədar xərclərin əlavə 3-5% artmasına səbəb olmaqla əlavə məsrəf yaradır. [Eicher, K., Wieser, S., & Bruegger, U. (2009). The costs of limited health literacy: a systematic review. International Journal of Public Health, 54(5), 313-324. https://www.ncbi.nlm.nih.gov/pubmed/19644651]. Norveç, İtaliya, Kanada, Bermud, Meksika və ABŞ-da aparılan 2340 nəfər üzərində araşdırmanın nəticəsində yetərsiz səhiyyə savadlılığının fərdi səviyyədə illik 143 ABŞ dollarından 7,798 dollara qədər əlavə xərc yaratdığı müəyyən edilmişdir. [Yılmazel ve Çetinkaya https://www.researchgate.net/publication/299436169_Saglik_okuryazarliginin_toplum_sagligi_acisindan_onemi]

Savadlılıq məsələsi dünyada ən aktual məsələlərdən biridir. Bu məsələ hətta BMT-nin Davamlı İnkişaf Məqsədlərinin və Birləşmiş Millətlər Təşkilatının 2030 Davamlı İnkişaf Gündəminin əsas tərkib hissəsi kimi təyin edilmişdir. BMT-nin baş katibi Pan Gi Mun 8 Sentyabr - Beynəlxalq Savadlılıq günü münasibətilə müraciətində demişdir: "Təhsilin yaxşı gələcək üçün əsas meyar rolunu oynadığı dünyada dünya əhalisinin ümumi savadlılıq dərəcəsi dəhşətli dərəcədə aşağıdır. Çoxu qadın olmaq şərti ilə təxminən 776 milyon yetkinlik yaşına çatmış insan yazıb-oxumaq və hesablamaq bacarığına malik deyil. 75 milyon uşaq məktəbə getmir və hətta məktəbə getməyə başlayanlar arasında təhsilini dayandıranların sayı həddindən artıq çoxdur. Bununla belə, hazırda mövcud olan dəhşətli vəziyyəti dəyişmək üçün çox şey tələb edilmir. Hətta ən elementar savadın əldə olunması belə insanın şəxsi, sosial və siyasi həyatında imkanlarını genişləndirə bilər. Savad həyat səviyyəsinin yüksəlməsi, cəmiyyətdə lazımi qərarların qəbulunda iştirak, sağlamlıq və digər zəruri məlumatların əldə olunması üçün insanlara əvəzsiz imkanlar verir. Hər şeydən əvvəl isə savad şəxslərə bir vətəndaş və ən adi bir insan kimi öz hüquqlarından istifadə etməyə imkan yaradır. Savadlılıq yalnız yazmaq və oxumaq deyil, bu həmçinin hörmət, imkanlar və inkişaf deməkdir".

2000-ci ildə Don Nutbeam [*Professor of Public Health, School of Public Health. The University of Sydney*] 3 uğurlu bir model hazırlamışdır və səhiyyə savadlılığını funksional savadlılıq, interaktiv savadlılıq və kritik savadlılıq kimi dərəcələndirmişdir. Funksional savadlılıq – fərdin əsas sağlamlıq savadlılığı bacarıqlarını əhatə edir. İnteraktiv savadlılıq - inkişaf etmiş informativ savadlılığı və sosial bacarıqları əks etdirir. Kritik savadlılıq isə - çox inkişaf etmiş informativ savadlılığı və sosial bacarıqları əks etdirir. Səhiyyə savadlılığı qabiliyyətinin yetərincə səviyyədə olmaması inkişaf etməkdə olan ölkələrdə olduğu kimi inkişaf etmiş ölkələrdə də çox olduğu bilinməkdədir. Funksional savadlılıq bacarıqlarının qeyri-kafiliyi ölkələrə görə 7%- 47 % arasında dəyişir. Qadınların bu vəziyyətdən daha çox təsirləndiyi və dünya miqyasında qadınların 2/3-nin təməl savadlılıq bacarıqlarından məhrum olduğu ifadə edilir.

İnsanların sağlıq savadlılığının niyə bu qədər önəmli olduğuna haqqında araşdırmalara nəzər salsaq görərik ki fərdlərin öz sağlıq durumları ilə əlaqəli qərarları doğru ala bilməsi çox önəmlidir. Belə ki, yetərsiz və məhdud səviyyədə sağlıq savadlılığı olan fərdlərin savadlı olanlarla müqayisəsi göstərir ki, gərəksiz xəstəxana məsrəfləri çoxalmış, xəstəxanada yatmaq müddəti uzanmış, lazımsız müayinə etdirmə faizi yüksəlmişdir. Bundan əlavə, bu şəxslərin lazımsız təcili tibbi xidmətdən istifadəsi də artmaqdadır. Bütün bunlar lazımsız işçi qüvvəsi zərərlərini yaradır və öz növbəsində sağlamlıq xərclərini artırır. Bütün inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdəki sağlamlıq siyasətinin ümumi ortaq məqsədi səhiyyə xərclərini düzgün idarə etməsi və səhiyyə xidmətlərinə ədalətli çıxışın təmin edilməsindən ibarətdir. Bütün

ölkələrdə səhiyyə xərclərinə nəzarət tədbirləri ciddi müzakirə olunur və cəmiyyətin nəzarətində saxlanılır.

2001-ci ildə Amerikada aşağı səviyyədə səhiyyə savadlılığının ümumi maliyyətinin nə qədər olduğunu qiymətləndirmək məqsədi ilə vacib bir tədqiqat aparılmışdır. Dövlət statistikasında bu haqda məlumat olmadığı üçün insanlar arasında bir oxuma-yazma bilməyənlərin sayından istifadə edilmişdir. Araşdırmanın nəticəsində məlum olmuşdur ki, dövlət 2001-ci ildə sağlamlıq xərclərinə 32-58 milyon dollar arasında xərc çəkib. [2017https://www.researchgate.net/publication/299446907_Saglik_okuryazarliginin_saglik_harcamalari_ve_saglik_hizmetleri_kullanimi_acisindan_degerlendirilmesi Full-text (PDF) Nov 24, Yasemin Akbulut]. Başqa bir araşdırmalara görə ABŞ-da yaşayan yetkin yaşlı insanların yalnız 12%-i sağlamlıq savadına malikdir. (52% -i orta, 22% -i ibtidai səviyyədə, 14% isə ibtidaidən də az sağlamlıq savadlılığına malikdirlər). Bu, 90 milyondan çox yetkin insanın sağlamlıq savadlılığının az və ya aşağı səviyyədə olması deməkdir. Məlum olur ki, bu şəxslər, müəyyən bir dərmanın etiketini oxumaq da daxil olmaqla ümumi sağlamlıq-səhiyyə vəzifələrini bilmədikləri üçün çətinlik çəkirlər. Aşağı sağlamlıq savadlılığı müalicənin müvəffəqiyyət faizini azaldır və tibbi səhv etmə riskini artırır. Sağlamlıq savadlılığı sağlam fərdlərin və cəmiyyətlərin inkişaf etdirilməsində olduqca vacib göstəricidir. Bütünlükdə dövlət (cəmiyyət) sağlamlıq savadlılığının artırılması üçün məsuliyyət daşıyır. Ən əhəmiyyətlisi, səhiyyə savadlılığının yaxşılaşdırılmasından ibarətdir. Yəni səhiyyə və ictimai səhiyyə işçiləri və sistemlərinin məsuliyyətindən ibarətdir. Sağlamlıq şərtlərini başa düşən və düzgün sağlamlıq qərarlarını verə bilən əhaliyə sahib olmaq üçün səhiyyə işçiləri tərəfindən istifadə olunan dil tibbi sahədə olmayan digərləri başa düşə biləcək səviyyədə olmalıdır. Sağlamlıq işçiləri xəstələrə daha yaxşı xidmət etmək üçün onların auditoriyası ilə tanış olmalıdırlar. Bu peşəkarlar tərəfindən istifadə olunan dil düz və sadə olmalıdır. Düz dil yazılı və şifahi informasiyanı daha asan başa düşmək üçün bir strategiyadır; istifadəçilər ilk dəfə oxuduğu və ya eşitdiklərini başa düşən ünsiyyətdir.

Eyni məqsədlə İsveçrədə də bir araşdırma aparılmış və nəticədə məlum olmuşdur ki, yetərsiz səhiyyə savadlılığının maliyyəti 1.5 milyon frankdır. Aparılan bu tədqiqatların əsas məqsədi adı keçən məsələ ilə əlaqədar insanların fərqindəliyini artırmaq, iqtisadi maliyyətlər arasında səhiyyə savadlılığının önəmini göstərməkdən ibarətdir. Hər kəs səhiyyə savadlılığına sahib ola bilməsi çətin olduğu üçün Avropada ailə həkimləri fəaliyyət göstərir. Ailə həkimləri yaşı, cinsi, xəstəliyi ayrı-seçkilik etmədən hər kəsə baxmaq məcburiyyətindədir.

Dünyanın müxtəlif ölkələrində sağlamlıq savadlılığı səviyyəsinin qeyri-kafi olduğu müşahidə edilmişdir. Aparılan araşdırmaların nəticələrinə görə sağlıq savadlılığı səviyyəsi fərdlərin gender, yaş, təhsil kimi sosial-demoqrafik özəlliklərinə görə fərqlənirlər. Belə araşdırmalar, Tayvan, Avstraliya, İngiltərə,

ABŞ, Türkiyə kimi ölkələrdə aparılmışdır. Hətta Türkiyədə aparılan araşdırma nəticəsində ölkə üzrə ümumi sağlıq savadlılığı indeksi də müəyyən edilmişdir. Türkiyənin ümumi səhiyyə savadlılıq indeksi 30.4 olaraq tapılmışdır. [http://www.sagliksen.org.tr/cdn/uploads/gallery/pdf/8dcec50aa18c21cdaf86a2 b33001a409.pdf Türkiyede sağlık okuryazarlığı araştlrması 2014]. Qiymətləndirmə nəticəsində əhali 24%-i yetərsiz, 40%-i məhdud səhiyyə savadlılığı səviyyəsinə sahib olduğu aşkarlanmışdır. Yəni, təxminən 35 milyona yaxın insan sağlamlıq savadsızlığının qeyri-kafi və problemli olduğunu görülmüşdür [Tanrısu Över M. Türkiye sağlık okuryazarlığı araştırması. http://www.sagliksen.org.tr/MediaConte nt/vYcK-1419245270-mA r.pdf, 20.06.2015].

Sağlamlıq savadlılığına təsir edən bir neçə faktor var. Bunlar aşağıda verilmişdir.

• ümumi savadlılıq səviyyəsi;
• gəlir səviyyəsi (aşağı);
• iş statusu (işsizlik);
• sağlamlıq xidməti ilə təcrübə;
• necə məlumat verilir;
• mədəni amillər;
• yaş və s.

Sağlamlıq savadlılığı dörd əsas mərkəzi ölçü sahəsində müəyyənləşərək, savadlılıq modelinin təməlini qurur:

• əsas savadlılıq;
• elmi savadlılıq;
• vətəndaşlıq savadlılığı;
• mədəniyyət savadlılığı.

Ölkələr sağlamlıq xərclərini qiymətləndirərkən, xərclərin və resursların miqdarı, onun harada və necə istifadə olunduğu arşdırılır. Səhiyyə xərclərinin miqdarını qiymətləndirmək üçün iki əsas göstəricidən istifadə edilir [Prof. Dr. Recep AKDUR “SAĞLIK HARCAMALARI” http://www.recepakdur.com/upload/Utopya_sağlık_harcamalrı_RA.pdf] Birincisi, milli gəlir və ya ümumi milli məhsulun (ÜMM) içərisində səhiyyə xərclərinin payı, ikincisi isə adambaşına düşən illik səhiyyə xərcləridir. Xərclərin mənbələrini araşdırmaq üçün istifadə edilən ümumi qayda - ümumi xərclərin içərisində dövlət və özəl sektorun payının nə qədər olduğudur. Xərclərin içərisində dərmanların payı, insan gücünün payı və texnologiyanın payı kimi göstəricilərdən istifadə olunur. Başqa bir göstərici adam başına düşən səhiyyə xərclədidir. Bir ölkədə səhiyyə xərclərinin adam başına düşən miqdarı az olarsa, o ölkədə yaşayan insanların əsas sağlamlıqdan göstəricilərindən məhrum olduğunu göstərir. Xərclənən pulun əsasən hansı səhiyyə problemlərinə, cəmiyyətin hansı kəsiminə olduğu öyrənilir. Məsələn, az inkişaf və inkişaf

etməkdə olan ölkələrdə əsas səhiyyə xərclərin böyük payı daha çox infeksiya xəstəlikləri və gənclərə yönəlik olduğu halda, inkişaf etmiş ölkələrdə isə daha çox xroniki xəstəliklərə və yaşlılara çəkilən xərclərdən ibarət olur.

**Nəticə və təkliflər**

Səhiyyə savadlılığı səviyyəsinin sağlamlıq xərclərinə təsiri üzərində edilən araşdırmalar nəticəsində ortaya çıxmışdır ki, vətəndaşların yetərsiz səhiyyə savadlılığı sağlamlıq xərclərini artırır. Eyni zamanda bu prosesin davamı olaraq insanların sağlıq problemlərinin artdığı da müşahidə edilmişdir. Həmçinin aşağı səviyyəli sağlamlıq savadlılığının dövlətin sığorta xərclərini artırdığı da məlum olmuşdur.




**Qrafik.** Səhiyyə xərcləri ilə səhiyyə savadlılığı arasında asılılıq

Ölkəmizdə səhiyyə savadlılığı ilə bağlı heç bir məlumat yoxdur. Səhiyyə savadlılığının səviyyəsinin artırılması cəmiyyətin doğru səhiyyə xidmətlərini doğru zamanında və doğru qurumlardan almasını təmin edir. Səhiyyə savadlılığının əhəmiyyəti öncə siyasətçilər, səhiyyə işçiləri, səhiyyə menecerləri, digər maliyyə institutları və nəhayət xəstələr tərəfindən başa düşülməlidir. Səhiyyəyə ayrılan vəsaitlər səmərəli və effektiv istifadə edilməlidir. Bütün bu

araşdırmaların nəticəsi olaraq onu deyə bilərik ki, bir cəmiyyətdə səhiyyə savadlılığının inkişafı onun səhiyyə təhsilindən keçir. Bunun üçün erkən uşaqlıq dövründən sağlıq və səhiyyə ilə əlaqədar əsas anlayışlar aşılanmalıdır. Azərbaycanın durumu ümumi olaraq qiymətləndirildikdə, mövcud məlumatlar sağlamlıq savadlılığının yaxşılaşdırılmasının vacibliyini göstərir. Fərdlərin sağlamlığı, sağlam cəmiyyətin olması üçün əsas sağlıq məlumatlarının qavranılması, onu yorumlaya bilməsi və buna uyğun olaraq davranış sərgiləməsi ilə mümkün ola bilər. Ancaq bu şəkildə cəmiyyətin sağlamlığı qorunaraq, səhiyyə xidmətlərindən düzgün istifadə edilə bilər. Azərbaycanda da sağlamlıq savadlılığı indeksinin müəyyənləşməsinə və ailə həkimləri xidməti kimi modern səhiyyə xidmətlərinin yaradılmasına ehtiyac vardır.

Yetərli sağlamlıq savadlılığının olmaması fərdi sağlamlıq xidmətlərinin səmərəli istifadəsi problemlərinə gətirib çıxarır və qeyri-sağlam həyat sürülür, bu da cəmiyyət səviyyəsində aşağı məhsuldarlığa, xəstəlik və ölüm hallarının artmasına, xərclərin artmasına səbəb olur. Savadlılıqla əlaqədar bariyerlərin aradan qaldırılması, sağlamlıq savadlılığı səviyyəsindən asılı olmayaraq bütün xəstələrə qayğı göstərəcəkdir. Azərbaycanda adambaşına düşən səhiyyə xərcləri də çox aşağıdır. Məsələn, bu il səhiyyə xərcləri ötən ilkindən bir qədərdə az nəzərdə tutulub. 2018-ci ilin dövlət büdcəsində səhiyyə xərcləri üçün 740,7 milyon manat vəsait ayrılıb, həmin xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 1 faizdən az təşkil etdiyi görsənir. Hətta ilbəil azaldığı müşahidə edilir, belə ki, 2017-ci ildə səhiyyə bölməsi üzrə xərclər 745.4 mln. manat səviyyəsində olmuşdur ki, bu da ötən 2016-cı ilə nisbətən 85.4 mln. manat və ya 10.3% az olmuşdur. Səhiyyə xərclərinin az olması, həkimlərin maaşlarının aşağı olması xəstəxanaların, klinikaların effektiv işləməsinə maneçilik törədir. Əhalinin artımını nəzərə alaraq dövlətin ilbəil səhiyyə xərclərini artırması lazımdır. Amerika və inkişaf etmiş Avropa ölkələri ilə müqayisə bir yana qalsın, Azərbaycan səhiyyə sahəsində adambaşına düşən xərclərin səviyyəsinə görə MDB-də yalnız Tacikistandan irəlidədir, uyğun göstəricilərin müqayisəsində Azərbaycan Belarusdan 15 dəfə, Ukraynadan 6 dəfə geri qalır [Dövlət büdcəsi: Səhiyyə xərcləri. Economic Research Center 13.04.12 səh.3].

Ümumiyyətlə Azərbaycan dövlət büdcəsini sosialyönümlü saymaq mümkün deyildir. Məsələn, Avropa ölkələrinin təcrübəsində sosial yönümlü xərclər büdcənin 40-60 faizini təşkil etdiyi halda, Azərbaycanda ən yaxşı halda bu, 30 faizdir. Sosial müdafiə xərcləri 10 faiz civarında olur.

**Ədəbiyyat:**


1. From *Wikipedia*, the free encyclopedia https://en.wikipedia.org/wiki/Health_literacy
2. Dövlət büdcəsi: *Səhiyyə xərcləri*. Economic Research Center 13.04.12 səh.3.
3. Nutbeam D. Health promotion glossary. Health February 2016 Promot. Int. (1998) 13 (4): 349-364. PDF https://academic.oup.com/heapro/article/13/4/349/563193
4. Eicher, K., Wieser, S., & Bruegger, U. (2009). The costs of limited health literacy: a systematic review. International Journal of Public Health, 54(5), 313-324. https://www.ncbi.nlm.nih.gov/pubmed/19644651
5. Nadir Eroğlu, Türkiye'de Yerleşik Bireylerin Sağlık Okuryazarlık Düzeylerinin Genel Sağlık Harcamaları Üzerindeki Etkisi, İşletme ve Finans Çalışmaları Dergisi 6(2),2017: 44-59 file:///C:/Users/Admin/Downloads/745-2076-1-PB.pdf
6. Yılmazel ve Çetinkaya https://www.researchgate.net/publication/299436169_Saglik_okuryazarliginin_toplum_sagligi_acisindan_onemi
7. Yasemin Akbulut, 2017https://www.researchgate.net/publication/299446907_Saglik_okuryazarliginin_saglik_harcamalari_ve_saglik_hizmetleri_kullanimi_acisindan_degerlendirilmesi Full-text (PDF) Nov 24,
8. Türkiyede sağlık okuryazarlığı araştlrması 2014 http://www.sagliksen.org.tr/cdn/uploads/gallery/pdf/8dcec50aa18c21cdaf86a2b33001a409.pdf
9. Tanrısu Över M. Türkiye sağlık okuryazarlığı araştırması. http://www.sagliksen.org.tr/MediaConte nt/vYcK-1419245270-mAr.pdf, Erişim tarihi: 20.06.2015
10. Prof. Dr. Recep AKDUR "SAĞLIK HARCAMALARI" http://www.recepakdur.com/upload/Utopya_sağlık_harcamalrı_RA.pdf

**UOT 33**

# XARİCİ TİCARƏT ƏLAQƏLƏRİNİ TƏKMİLLƏŞDİRİLMƏSİNDƏ GÖMRÜK SİYASƏTİNİN ROLU

**Samirə Mübariz qızı ALLAHVERDİYEVA**
Qərbi Kaspi Universiteti
Bakı / AZƏRBAYCAN

samira.adiu@gmail.com

## XÜLASƏ

Yazılanları nəzərə alaraqdan deyə bilərik ki, istər təhlükəsizlik, istərsə də vergilər vasitəsi ilə dövlət büdcəsinin doldurulmasında, xarici ticarət siyasətinin düzgün şəkildə idarə edilməsində gömrük xidməti filtir rolunu həyata keçirir. Bu baxımdan da hər bir dövlətin düzgün şəkildə gömrük sistemini formalaşdırması qarşıya qoyulmuş əsas məqsədlərdən biridir. Respublikamız da bu istiqamətdə yetərincə böyük irəliləyiş, inkişaf yolu keçmişdir və düzgün formalaşdırılmış bir gömrük xidmətinə sahibdir deyə bilərik. Bu gün də dəyişən qlobal dünyada baş verən proseslərlə əlaqədar hər zaman qanunların daha da təkmilləşdirilməsi, yenilənməsi daha da asanlaşdırılması, tez həyata keçirilməsi istiqamətində (zaman sərfiyyatının azaldılması) yeni addımlar atılır, yeni işlər görülür.

**Açar sözlər:** xarici ticarət; gömrük siyasəti; tarif tənzimlənməsi; beynəlxalq əmək bölgüsü; proteksionizm; əmtəə nomenklaturası.

# РОЛЬ ТАМОЖЕННОЙ ПОЛИТИКИ В УЛУЧШЕНИИ ИНОСТРАННЫХ ДЕЛ

## РЕЗЮМЕ

Исходя из выше изложенного, можно сказать, что таможенные услуги выполняют роль фильтра в заполнении государственного бюджета посредством обеспечения безопаности, либо посредством налогов, а также в правильном управлении внешнеторговой политики. С этой точки зрения, одной из основных целей, поставленных перед каждым государством - является правильно сформулировать таможенную систему. Можно сказать, что наша республика значительно продвинулась вперед в этом направлении, прошла путь развития и имеет правильно

сформулированную таможенную службу. Предпринимаются новые шаги в быстрой реализации (сокращение временных затрат) по совершенствованию законов, содействию обновлению законов и неуклонно идти в ногу с процессами, происходящими в меняющемся глобальном мире.

**Ключевые слова:** внешняя торговля; таможенная политика; регегшрование тарифов; международное розделение труда; протекционизм; товарная номенклатура.

## THE ROLE OF CUSTOMS POLICY IN THE IMPROVEMENT OF FOREIGN TRADE RELATIONS

## SUMMARY

Considering the above-mentioned, it worth to note that State Custom Service plays a significant role to accomplish revenue of state taxes and to provide effective security, as well as proper management of foreign trade policy. From this point of view, creation of proper custom service should be one of top priorities for each countries. Carried out latest system of progress in this direction allow us to state that our country has a properly formed custom system. İn the current days, number of steps are taken to update, simplify (decrease time consuming) the legislative base of laws in the globally changing world.

**Keywords:** the foreign trade; customs policy; tariff regulation; İnternational division of labor; protectionism; the nomenclature of goods.

Xarici ticarət əlaqələrinin təkmilləşdirilməsində gömrük siyasətinin rolu əvəzedilməzdir. Gömrük hər bir dövlətin özəyidir və əsas vergi, gəlir mənbələrindən biridir və həmçinin təhlükəsizliyin əsas başlanğıc mərkəzidir. “Gömrük xidməti hər bir dövlətin müstəqilliyinin əsas atributlarından biridir”- deyən Ümummilli lider Heydər Əliyev bu sahənin ölkə həyatındakı rolunu yüksək qiymətləndirmiş, gömrük sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsini, bu xidmət sahəsinin beynəlxalq standartlara uyğunlaşdırılmasının vacibliyini vurğulamışdır.

Məlumdur ki, iqtisadiyyatımızın dünya təsərrüfatına inteqrasiyası ölkəmizə daxili istehsalçıların fəaliyyət bazarının həcminin genişləndirilməsinə, xarici investisiyalardan faydalanmağa, əlverişli xarici siyasət mühitinin yaradılmasına, istər regionda, istərsə də dünyada gedən əsas iqtisadi layihələrdən kənarda qalmamasına, dünya dövlətləri ilə iqtisadi, siyasi, hərbi, sosial, mədəni əməkdaşlığın inkişafına və s. şərait yaradır. Dünya təcrübəsi göstərir ki, açıq tipli iqtisadiyyata keçid dövlətin güclü, çevik müdaxiləsi yolu ilə sistemli iqtisadi və hüquqi islahatları ilə müşayiət edilməzsə, müəyyən

müddətdən sonra inkişaf etməkdə olan ölkələr inkişaf etmiş sənaye ölkələrinin xammal əlavəsinə çevrilmək təhlükəsi qarşısında qalırlar. Azərbaycanın gömrük-tarif siyasətinin əsas xüsusiyyəti hər şeydən əvvəl müasir şəraitdə xarici iqtisadi əlaqələrin gömrük-tarif tənzimlənmə sisteminin təkmilləşdirilməsinin zəruriliyi və onun elmi-tədqiqat predmeti kimi mühüm nəzəri metodoloji və praktiki əhəmiyyət kəsb etməsidir. Təsərrüfat həyatının beynəlmiləlləşməsi, dünya iqtisadiyyatında ölkələrin qarşılıqlı əlaqə və asılılığının güclənməsi, qlobal problemlərin kəskinləşməsi xarici iqtisadi fəaliyyətin məqsədyönlü tənzimlənməsini obyektiv zərurətə çevirmişdir. Burada söhbət ilk növbədə ölkələrarası qarşılıqlı ticarət, valyuta-maliyyə və kredit və s. münasibətlərinin, bir sözlə xarici iqtisadi fəaliyyətin tənzimlənməsindən gedir. Bu əlaqələr sistemində ölkələrin bir-biri ilə iqtisadi əlaqələri və həmin əlaqələrin tənzim olunmasının hüquqi əsasının yaradılması xüsusi əhəmiyyət kəsb etməkdədir. Xarici iqtisadi fəaliyyət hər bir cəmiyyətin sosial-iqtisadi tərəqqisinin güclü faktorlarından biridir və o bu tərəqqini sürətləndirə və ləngidə bilər.

Beynəlxalq əmək bölgüsünü formalaşdırmaq üçün beynəlxalq sferada istehsalın ixtisaslaşdırılması və koopersiyalaşdırılması, bununla da ölkələr arasındakı qarşılıqlı əlaqəni genişləndirmək önəmli şərtlərdəndir. Bəşəriyyət üçün ümumi olan elmi-texniki tərəqqi qanunauyğunluğunun formalaşdırılması Beynəlxalq Əmək Bölgüsünün (BƏB) inkişaf etməsinin əsasını təşkil edir. Başqa sözlə desək, dünya birliyinə daxil olan ölkələr öz aralarında elmi-texniki, ən yeni məhsul növləri istehsalı, elmi-tədqiqatların və təcrübə konstruktiv işlərinin nəticələrinin mübadiləsi sahəsində əməkdaşlıq etməkdə maraqlıdırlar. Ölkənin hüdudlarından kənarda birgə sahibkarlığın inkişaf etdirilməsinin əsas göstəricisindən biri də investorlar öz investisiyalarını xarici müştərək firmalara yatıraraq birgə sahibkarlıq fəaliyyəti ilə məşğul olmalarıdır. Bu da ölkənin hüdudlarından kənarda birgə sahibkarlığın inkişaf etdirilməsinə BƏB-in təsiri ilə istehsalın beynəlmiləlləşməsinə zəmin yaradır. Dünya iqtisadiyyatı inkişaf etdikcə ölkələrin əksəriyyətinin iqtisadi, sosial və demoqrafik inkişafı üçün beynəlxalq miqyasda işçi qüvvəsinin və əhalinin miqrasiyası başlıca amilə çevrilir. Beynəlxalq iqtisadi münasibətlərin ən mürəkkəb ünsürlərindən biri də məhz elə bu səbəbdəndir. Belə ki, onun obyekti insan resurslarıdır və buna görə də, bu da beynəlxalq miqrasiya ilə əlaqədar kəskin problemlər yaradır.

Xarici iqtisadi fəaliyyətin quruluşu və coğrafi istiqaməti, həmçinin, intensivliyi xeyli dərəcədə dövlətin istifadə etdiyi tənzimləmə metodlarından, o cümlədən bu sahədə milli hüquq normalarından asılıdır. Bazar iqtisadiyyatı şəraitində dövlətin XİF-ə təsir etməsinin xarakteri dəyişir, başqa sözlə, onun yuxarı orqanlar tərəfindən birbaşa mərkəzləşdirilmiş, sərt planlaşdırma və **istiqamətləndirici** göstərişlər yolu ilə idarə olunmasından tövsiyə xarakteri daşıyan idarəetmə metodlarına keçilir, əsas etibarilə təsiretmənin dolayı

vasitələrindən istifadə olunur. XİF-in dövlət tərəfindən tənzimlənməsində əsas məqsəd Azərbaycan Respublikasında ölkənin iqtisadi suverenliyini qorumaq, milli iqtisadiyyatın inkişaf etdirilməsini stimullaşdırmaq, iqtisadi təhlükəsizliyini təmin etmək və dünya iqtisadiyyatına inteqrasiya olunması şərtlərini hazırlamaqdan ibarətdir.

İstehsal prosesinin inkişaf etdirilməsi ölkələr arasındakı əlaqələri daha da rahat vəziyyətə gətirir, yəni istehsalın digər ölkələrə ötürülməsi, göndərilməsi asanlaşır və daha da rahat həyata keçirilir. Hər bir ölkənin istehsal sahəsində yaratdığı yeniliklər, vasitəsilə nəinki öz işlərini asandlaşdırır, bununla bərabər, mübadilə sahəsində əməkdaşlıq etməklə digər ölkələrə inteqrasiyanı gücləndirirlər. Belə ki, ölkələr öz aralarında qurduqları əməkdaşlıq nəticəsində yeni məhsul çeşidlərinin istehsalı, elmi-tədqiqatların və təcrübə nəticələrinin mübadiləsi sahəsində birgə fəaliyyət göstərməyə maraqlıdırlar. Çünki belə olan halda qazancdan əlavə bərabər istehsalın beynəlmiləlləşməsi ölkənin öz hüdudlarından kənarda da tanınmasına və sahibkarlığı inkişaf etdirməsinə şərait yaradır. Beynəlxalq iqtisadi münasibətlərin ən mürəkkəb ünsürlərindən biri də odur ki, zaman keçdikcə yeni texnologiyaların kəşfi və tətbiqi, ölkənin iqtisadiyyatının, sosial və demoqrafik inkişafı üçün beynəlxalq miqyasda işçi qüvvəsi və əhalinin miqrasiyası artır və bu da beynəlxalq miqrasiya ilə əlaqədar kəskin problemlər yaradaraq inkişafa maneə məqsədli fəaliyyət göstərir.

Elmi-texniki inqilabın geniş miqyas aldığı indiki şəraitdə BƏB-in təsiri ilə istehsalın beynəlmiləlləşməsi ona gətirib çıxarır ki, əslində hər şeyə malik olmağa cəhd göstərilməsi heç bir ölkə üçün sərfəli deyil. Hər bir ölkənin milli iqtisadiyyatının sərfəli inkişafı yalnız BƏB-in üstünlüklərindən istifadə edilməklə mümkündür. Bunlarla yanaşı, ölkələr arasında iqtisadi münasibətlər ya birbaşa, yaxud da müxtəlif beynəlxalq iqtisadi təşkilatların vasitəsilə idarə olunur. Belə təşkilatların əsas fəaliyyəti maliyyə-kredit sahəsində aktivlik göstərməsidir. Bunlara isə bir sıra bankları misal göstərmək olar. Məsələn, Beynəlxalq Valyuta Fondu (BVF), Dünya Bankı (DB), Beynəlxalq Hesablaşmalar Bankı (BHB), Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) və s.

Siyasi müstəqillik əldə olunduqdan sonra dünyada müstəqil iqtisadi və hüquqi subyekt kimi tanınmağa başlanan Azərbaycan ilk növbədə region qonşu dövlətlərindən başlayaraq dünya ölkələri ilə iqtisadi, o cümlədən xarici ticarət əlaqələrini genişləndirməyə başladı.

**Xarici ticarət** milli təsərrüfatlar arasında əmtəə və xidmətlərlə mübadilədir. “Xarici ticarət” termini ancaq ayrıca götürülmüş ölkə üçün tətbiq edilə bilər.

**Xarici ticarət siyasəti** anlayışı altında dövlətin müxtəlif vasitələrdən istifadə etməklə digər ölkələrlə ticarət münasibətlərinə məqsədyönlü təsiri başa düşülür. Xarici ticarət siyasəti dövlətin ümumi iqtisadi siyasətinin vacib tərkib hissəsidir. Ölkənin idxalat və ixracatına – bir sözlə, xarici ticarət balansına

(XTB) bir-başa təsir edən dövlət siyasətidir. Bu siyasət hər bir dövlətin xüsusi diqqət mərkəzindədir və iqtisadi, siyasi amillərdən asılı olaraq mütəmadi dəyişilir. Nəticə olaraq əgər XTB-nın qiyməti müsbət yekunlaşdırılarsa deməli bu dövlətin ixracyönümlü siyasətinin müsbət istiqamətdə irəliləyişinin göstəricisidir. Bu səbəbdən də ixracyönümlü proseslərin inkişaf etdirilməsində hər bir dövlət maraqlıdır və bunun üçün güclü səylər göstərirlər. Bununsa ən önəmli və effektiv üsullarından ikisi gömrük tarifi (və ya idxal rüsumu) və idxal kvotasıdır. Bildiyimiz kimi tarif idxal olunan məhsullar üzərinə qoyulan vergidir, hansı ki, nəticədə idxalatın azalmasına gətirib çıxardır. İdxal kvotası isə import olunan məhsulların həcmi üçün nəzərdə tutulan limitdir və nəticə baxımından gömrük tarifi ilə eyni xüsusiyyətə malikdir.

Gömrük siyasəti ölkənin iqtisadi siyasətinin mühüm tərkib hissəsi olmaqla bərabər, həm də respublikanın gömrük ərazisində mal mübadiləsinin tənzimlənməsi və gömrük nəzarəti vasitələrindən effektiv istifadə edilməsi ilə daxili bazarın müdafiəsi üçün proteksionizm (*proteksionizm* – bu terminin xüsusi şərti odur ki, dövlətin yerli istehsalçılara inhisar hakimiyyəti üçün maliyyə dəstəyi verməsi ilə milli rifah yüksəlir) siyasəti məsələlərinin həlli, milli iqtisadiyyatın inkişafının stimullaşdırılması, dövlətin iqtisadi siyasətinin əsas məsələlərinin həllinə təkan vermək məqsədi güdür.

Yeniləşən iqtisadi şəraitdə dövlətlərarası iqtisadi və siyasi əlaqələrin çoxşaxəli forma alması ölkənin iqtisadi maraqlarına müsbət təsiri olduğu kimi həm də mənfi istiqamətdə təsir göstərir. Xüsusilə də xarici ticarət dövriyyəsində artımın olması və bu artımın daxilində də ixracın idxalı üstələməsi ölkə iqtisadiyyatının təməlinin möhkəm qoyulması baxımından çox böyük əhəmiyyət kəsb edir, bu sahədə daha geniş əlaqələrin yaranmasına təkan verir, lakin bununla yanaşı ümumi olaraq bir o qədər də mürəkkəb vəziyyətin yaranmasına səbəb olur. Bu istiqamətdə də dövlətin iqtisadi tənzimlənmə alətləri içərisində əsas olaraq gömrük fəaliyyətinin əhəmiyyəti danılmazdır. Daxili bazarda rəqabətin artırılması, yerli istehsalçıları xarici təsirlərdən qorumaq, istehlakçıların tələbatını yerli istehsalatla təmin etməyə çalışmaq və bu məqsədlə ölkənin gömrük sərhəddinin əsas amillərdən biridir. Hər kəsə məlum olduğu kimi ölkəmiz tarixi ipək yolunun mərkəzində yerləşir və buna görə də respublikamızda ticarət əlaqələrinin qurulması və inkişafı daha da səmərəli şərait yaradır.

Son illər gömrük orqanlarının maddi-texniki bazasının yaxşılaşdırılması gömrük məntəqələrində hüquq pozuntularının aşkarlanmasında mühüm rol oynamışdır. Müxtəlif illər üzrə gömrük orqanları tərəfindən aşkarlanmış qanun pozuntularının ümumiləşdirilmiş şəkildə aşağıdakı kimi göstərmək olar (cədvəl-1.).

**Cədvəl 1.**

Gömrük orqanları tərəfindən aşkarlanmış bəzi hüquq pozuntularının strukturu [3, s. 1-2-3-4-5]

| Göstəricilər | İllər | | | | |
|---|---|---|---|---|---|
| | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
| Aşkar olunmuş faktların sayı | 87 | 133 | 158 | 213 | 130 |
| Tutulan narkotik vasitələrin və psixotrop maddələrin miqdarı (qramla) | 136876 | 135376,7 | 178369,9 | 91463,446 | 1136153,3945 |
| Tutulan narkotik vasitələrin miqdarı(qramla) | 122035 | 125170,799 | 178144,612 | 90014,677 | 1136025,015 |
| Psixotrop maddələrin miqdarı(qramla) | 14840,7 | 10205,924 | 225,312 | 166,057 | 107,5795 |
| Tutulmuş şəxslərin cəmi (nəfər) | 110 | 152 | 186 | 250 | 162 |
| Kişi | 103 | 138 | 160 | 220 | 143 |
| Qadın | 7 | 14 | 26 | 30 | 19 |

Azərbaycanın xarici iqtisadi əlaqələrinin inkişaf strategiyasının əsas istiqamətlərindən biri qlobal geoiqtisadi məkanda cərəyan edən yeni təzahür və tendensiyalara paralel reaksiya kimi yeni təsərrüfat proseslərinə aktiv müdaxiləsi və qoşulmasıdır. 1990-cı illərdə dünya təsərrüfatının inkişafı bir sıra amillərlə bağlı olmuşdur. Bunlara ən birincisi istehsalda, nəqliyyatda, beynəlxalq komunikasion sfera və əlaqələrdə yeni texniki çevrilişləri meydana çıxarmış Elmi Texniki Tərəqqinin (ETT-nin) davamlı inkişafı aiddir. Azərbaycanın müstəqillik qazanması ona beynəlxalq hüququn tamhüquqlu subyekti olması üçün şərait yaratdı. Keyfiyyətcə yeni şərait bütün fəaliyyət sahələrində ölkəmizin müstəqil siyasət yeritməsini şərtləndirərək, dünyanın demək olar ki, bütün ölkələri ilə bərabər hüquqlu əməkdaşlıq əsasında münasibətlər qurmağa sövq etdi. Bu zaman inkişaf etdirilməsi zəruri olan ən ümdə və vacib münasibətlərdən biri heç şübhəsiz ki iqtisadi münasibətlərdir.

Son illər Azərbaycan Respublikasının "Gömrük Məcəlləsi"nə [2] və "Gömrük tarifi haqqında" [5, 20-ci maddə] Qanununa uyğun olaraq gömrük tarifləri mexanizminin daha da təkmilləşdirilməsi yolu ilə xarici iqtisadi əlaqələrin səmərəliliyinin artırılması, sahibkarlıq fəaliyyətinin ölkədə rəqabətə davamlı məhsulların istehsalının inkişafı üçün lazımi şəraitin yaradılması və daxili bazarın qorunması məqsədilə ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri, gömrük rəsmiləşdirilməsinə görə alınan yığımların miqdarı haqqında AR Nazirlər Kabinetinin qərarı ilə bir sıra əlavə və dəyişikliklər qəbul edilmişdir. Bu əlavə və dəyişikliklərdə müəyyən edilib ki, Azərbaycan Respublikasının "Gömrük tarifi haqqında" Qanununa [5, 20-ci maddə] əsasən aşağıdakılar gömrük idxal rüsumuna cəlb olunmur:

- Beynəlxalq təşkilatların, xarici dövlətlərin hökumətlərinin, habelə dövlətlərarası və hökumətlərarası sazişlərə əsasən xarici hüquqi və fiziki şəxslərin ayırdıqları əvəzsiz maliyyə və texniki yardımları, qrantlar, kreditlər və borclar, həmçinin bu kreditlər və borclar hesabına həyata keçirilən layihələrdə Azərbaycan tərəfinin payı hesabına idxal olunan mallar;
- Təmənnasız paylanılması üçün humanitar yardım kimi fiziki şəxslər tərəfindən gətirilən mallar;
- Qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, bu sahəyə dövlət dəstəyinin daha da gücləndirilməsi, yeni və müasir texnologiyaların təşviq edilməsi məqsədi ilə idxal edilən mal-qara və bu kimi kənd təsərrüfatının inkişafına lazımlı idxal malları və s.

Məlumdur ki, nomenklatura – elm, texnika, praktiki fəaliyyətin müəyyən sahələrində işlədilən terminlər, adlar sistemidir. Əmtəə nomenklaturası – gömrük orqanlarının vəzifəli şəxslərinin və bəyannaməçilərin öz professional fəaliyyəti zamanı rastlaşdıqları malların adlarının məcmusudur.

Hər bir dövlətin iqtisadi əlaqələrlə xarakterik olan özünəməxsus vəzifələri vardır. Ələxsus da ki, qloballaşma prosesinin hər gün daha da sürətləndiyi belə bir iqtisadi şəraitdə, genişlənən xarici iqtisadi əlaqələr və siyasi tədbirlərin reallaşdırılmasına nail olmaq mühüm zərurətə çevrilmişdir. Belə əsaslı, özünəməxsus proseslərin tərkibində dövlətin təşkilatçılığı ilə keçirilən iqtisadi siyasətin önəmli komponentlərindən biri də gömrük siyasətidir. Gömrük siyasəti ölkənin ümumi iqtisadi siyasətinin ayrılmaz tərkib hissəsidir desək yanılmarıq. Bazar münasibətlərinin formalaşması və inkişafı şəraitində gömrük siyasəti daxili bazarın formalaşmasında əsas faktordur. Belə ki, gömrük siyasəti milli iqtisadiyyatı inkişaf etdirməklə yanaşı, həm də formalaşmaqda olan Azərbaycan iqtisadiyyatını kənar təsirlərdən qorumaq məsuliyyətini də özündə ehtiva edir.

Hazırki iqtisadi şəraitdə xarici iqtisadi fəaliyyət hər bir cəmiyyətin sosial-iqtisadi tərəqqisinin güclü faktorlarından biridir və o bu tərəqqini sürətləndirə

və ləngidə bilər. Bu fəaliyyətin milli iqtisadiyyata, milli maraqlara müsbət təsiri onda olur ki, o dövlət tərəfindən düzgün tənzimlənməklə ixracı stimullaşdıra bilsin, ölkənin ixrac potensialını artırsın, yəni ixrac yönümlü istehsal sahələrinin inkişafına diqqət yetirilsin. Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi üzrə dövlət orqanlarının fəaliyyəti praktiki olaraq dünyanın bütün ölkələrində mövcuddur. Lakin onun miqyası, forma və metodları hər bir ölkədə qarşıya qoyulmuş məqsəd və vəzifələrə, ölkənin müasir dünyada yerinə və roluna, habelə dövlətin xarici və daxili siyasətinə uyğun olaraq müəyyən edilir. Məhz bu məqamlar mövzunun aktuallığını şərtləndirir. Tədqiqatın predmeti xarici iqtisadi fəaliyyətlə bağlı yeni tendensiyalar, xarici iqtisadi fəaliyyətin tənzimlənməsində hüquqi mexanizmin, həmçinin bu tənzimlənmə prosesində milli, dövlətlərarası və beynəlxalq hüququn yeri və rolunun müəyyənləşdirilməsini təşkil edir.

**Ədəbiyyat:**

1. Ə. Həsənov “Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti”. Bakı, 2005, səh.178-201.
2. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi. Bakı. 2013,
3. Dövlət Gömrük Komitəsinin məlumatları
4. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı. 2001
5. «Gömrük tarifi haqqında» AR Qanunu, Bakı. 2013
6. «Normativ hüquqi aktlar haqqında» AR Qanunu, Bakı. 2000

**UOT 338(4/9)**

# TÜRKİYƏ ƏHALİSİNİN MİQRASİYA PROBLEMİ

**Məhəmməd BALKAYA CEYLAN**
Qərbi Kaspi Universitetinin dissertantı

## XÜLASƏ

Türk və avropa alimlərinin apardıqları tədqiqatların nəticələri mümkün miqrasiya axınının qiymətləndirilməsi və bununla bağlı problemləri özündə əks etdirir. Bəzi məhdudlaşdırıcı tədbirlər görülməsinə baxmayaraq, Türkiyədən AB-yə illik xalis miqrantların sayı 35 min nəfərə çatmışdır. Türkiyə əmək bazarının quruluşu, inzibati institutları və siyasi tənzimlənməsi baxımından kifayət qədər dəyişikliklər müşahidə edilmir. Xarici iş qüvvəsinin Türkiyəyə axını zamanı mövcud olan məhdudiyyətin aradan qaldırılması üçün bəzi qanunlara yenidən baxılmalı və bəzi institutların rolu müəyyən edilməlidir. Sosial təminat sisteminə nəzarətlə bağlı qanunların təkmilləşdirilməsi vurğulanır. Eyni zamanda müsbət dəyişikliklərin də olduğu qeyd edilir. Belə bir nəticəyə gəlmək olar ki, Türkiyədə yaşamağa maraq Avropa Birliyinin əhalisinin müəyyən kateqoriyaları arasında müşahidə edilir.

**Açar sözlər:** əhali, miqrasiya, iş qüvvəsi, əmək bazarı, əmək qabiliyyətli əhali, iqtisadi səmərə

# ПРОБЛЕМА МИГРАЦИИ ТУРЕЦКОГО НАРОДА

## РЕЗЮМЕ

Выводы турецких и европейских ученых включают оценку возможных миграционных потоков и связанных с ними проблем. Хотя были приняты некоторые ограничительные меры, число чистых мигрантов из Турции в ЕС достигло 35 000 человек. Недостаточно изменений в структуре рынка труда Турции, административных учреждениях и в политическом регулировании.

Необходимо пересмотреть некоторые законы и определить роль некоторых институтов в целях устранения существующих ограничений, влияющих на приток иностранной рабочей силы в Турцию. Подчеркивается необходимость совершенствования закона о контроле над

системой социального обеспечения. Отмечается, что происходят позитивные изменения. Можно сделать вывод, что интерес к Турции наблюдается в некоторых категориях населения Европейского Союза.

**Ключевые слова:** население, миграция, рабочая сила, рынок труда,трудоспособное население, экономический эффект

## THE PROBLEM OF MIGRATION OF THE TURKISH PEOPLE

## SUMMARY

The findings of Turkish and European scientists include an assessment of possible migration flows and related problems. Although some restrictive measures have been taken, the number of net migrants from Turkey to the EU has reached 35,000. There are not enough changes in the structure of the labor market in Turkey, administrative institutions and in political regulation.

It is necessary to revise some laws and determine the role of certain institutions in order to remove the existing restrictions that affect the influx of foreign labor to Turkey. The need to improve the law on control over the social security system is underlined. It is noted that there are positive changes. It can be concluded that interest in Turkey is observed in some categories of the population of the European Union.

**Key words:** population, migration, labor force, labor market, able-bodied population, economic effect

### Giriş

Avropa komissiyasının illik hesabatlarına əsasən Türkiyə əmək bazarının liberallaşdırılmasına tam hazır deyil, belə ki, onun quruluşu, inzibati institutları və siyasi tənzimlənməsi baxımından kifayət qədər dəyişikliklər müşahidə edilmir. Qeyd edilir ki, xarici iş qüvvəsinin Türkiyəyə axını zamanı mövcud olan məhdudiyyətin aradan qaldırılması üçün bəzi qanunlara yenidən baxılmalı və bəzi institutların rolu müəyyən edilməlidir. Hesabatda sosial təminat sahəsində əhəmiyyətli dəyişikliklərin müşahidə edilmədiyi vurğulanır.

Eyni zamanda hesabatda müəyyən müsbət dəyişikliklərin də olduğu qeyd edilir. Bunlardan sosial təminat sisteminə nəzarətlə bağlı qanunların təkmilləşdirilməsini vurğulamaq olar. Bu qanunlar qeyri-rezidentlərin sosial müdafiəsini təmin etmək və iş şəraitini tənzimləməklə bağlı müddəaları özündə əks etdirir. Bundan başqa, AB-nin meyarlarına uyğunlaşmaq istiqamətində Dövlət məşğulluq xidmətinin modernizə edilməsi nəzərdə tutulur. Türkiyə hökumətinin xidmətlərinə sosial müdafiə institutunun yaradılması ilə bağlı görülən işləri aid etmək olar. Müsbət fəaliyyət kimi bir ildən artıq ölkədə yaşayan xarici vətəndaşlar üçün tibbi sığorta haqqında qanunun tətbiqini

göstərmək olar [1, s. 59,34-35, 42]. Son hesabatların nəticələrini ümumiləşdirdikdə, belə bir nəticəyə gəlmək olar ki, Türkiyədə yaşamağa maraq Avropa Birliyinin əhalisinin müəyyən kateqoriyaları arasında müşahidə edilir. Burada söhbət yaşlı adamların miqrasiyasından gedir. Belə ki, son illərdə onların sayı artmışdır. Pensiya yaşında olanlar, əsasən Almaniyadan, Antalya və onun ətrafı, eyni zamanda məhşur turist mərkəzləri olan Bodrum, Marmaris və Didimdə daşınmaz əmlaka sahib olurlar. Hazırda belə köçənlərin rəsmi uçotu aparılmır. Lakin bəzi hesablamalara əsasən müəyyən edilmişdir ki, yalnız Alanyaya təqribən 5-7 min avropalı köçmüşdür. Türkiyədə miqrant-pensionerlərin sayı yalnız 2006 ildə 20 min nəfər təşkil etmişdir [2]. Qanuna edilən dəyişikliklərin müəyyən müsbət nəticələrinə baxmayaraq, Birliyin hüquqi normalarına uyğunluğun əldə edilməsi baxımından qənaətbəxş hesab edilmir.

**Türkiyədən iş qüvvəsinin Avropa bazarına azad çıxışı problemləri**

Əmək qabiliyyətli əhalinin sayının kifayət qədər artması Türkiyə əmək bazarı üçün həddən artıqdır. Türkiyə əhalisi təqribən 71,5 mln nəfər təşkil etmiş, illik 1,8% artım nəzərə alınmaqla, AB üçün müvafiq göstərici 0,2% təşkil etmişdir. Ölkə üçün əhalinin yaş strukturunda baş verən dəyişikliklər, əmək qabiliyyətli əhalinin daha sürətlə artmasını xarakterizə edir. Bu göstərici ildə 2% və ya 800 min nəfər təşkil edir [3]. Buna görə inkar etmək olmaz ki, ölkə əhalisi bu problemi Qərbi Avropadan emiqrasiya hesabına həll etməyə cəhd göstərəcək.

Türkiyə əhalisinin Kütləvi emiqrasiyası hələ keçən əsrin 60-cı illərində həyata keçirilməyə başlamışdı. Həmin dövrdə miqrasiya saldosu 80 min nəfəri və ya Türkiyə məcmu iş qüvvəsinin 0,5%-ni təşkil etmişdir [4, s. 18-20]. Lakin 70-ci illərin ikinci yarısında yüksək ixtisasa malik olmayan iş qüvvəsinə qərbdə tələb azaldı və bunun nəticəsində gəlir əldə etmək məqsədilə Avropaya leqal şəkildə gələnlərin sayı azaldı. Belə ki, 1980-ci ildə Türkiyə işçi qüvvəsinin miqrasiya saldosu 40-6- min nəfəri və ya ölkənin məcmu işçi qüvvəsinin 0,2% təşkil etdi [4, s.18-20].

Buna baxmayaraq, 2002-ci ildə AB ərazisində rəsmi olaraq 3 mln nəfərə qədər türk vətəndaşı qeydiyyata alınmışdı [5, s.45].

AB ölkələrindən birinci yerdə Almaniya (77,8%-bütün Türkiyə miqrantlarından və ya 2,3 mln nəfər), ikinci yeri Fransa (7,9% və ya 0,23 mln nəfər),daha sonra Avstriya (4,7% və ya 0,14 mln.nəfər) və Hollandiya (4,4% və ya 0,13 mln.nəfər) orada yaşayan türk vətəndaşlarının sayına görə fərqlənirlər [5,s.45].

Hazırda bəzi məhdudlaşdırıcı tədbirlər görülməsinə baxmayaraq, Türkiyədən AB-yə illik xalis miqrantların sayı 35 min nəfərə çatmışdır [6]. AB ərazisində yaşayan türk miqrantları üçün müəyyən imtiyazlar əldə emək mümkün oldu. Bu imtiyazların əsas hissəsi Türkiyə ilə AB arasında 1963-cü

ildə Ankara razılaşmasında nəzərdə tutulmuşdur. Üçüncü ölkələrdən gələn işçi qüvvəsindən fərqli olaraq türk vətəndaşları AB ərazisində rezidentlərlə eyni iş şəraitinə, iş vaxtının uzadılması hüququna, rəsmi şəraitdə 1 il məşğulluqdan sonrakı dövrdə AB ərazisində yaşamaq hüququna, bütün rüzidentlərin işə düzəlmə, 4 il muzdlu əməklə məşğul olduqdan sonra yeni iş yeri tapana qədər bu ərazidə yaşamaq, həmçinin ümumi əsaslarla ikinci nəsil emiqrantların ali təhsil almaq və işə düzəlmək hüquqlarına malikdirlər.

Türk və avropa alimlərinin apardıqları tədqiqatların nəticələri mümkün miqrasiya axınının qiymətləndirilməsi və bununla bağlı problemləri özündə əks etdirir.

Belə ki, AB ölkələri alimlərinin əldə etdikləri nəticələr müxtəlifdir, eyni zamanda istifadə olunan metodika da müxtəlifdir. Bəzi tədqiqat meylləri yaxın dövrə ekstropolyasiya edirlər. Daha uzunmüddətli proqnozlar (2025-2030 illərə qədər) verən tədqiqatlar, adətən Türkiyə və AB ölkələrində əhalinin gözlənilən gəlirlərinin fərqini nəzərə alırlar. Bu zaman miqrasiyanın həcmi 2000-2030-cu illərdə 0,5-4,5 mln.nəfər arasında tərəddüd edir.

V.Kvazir və S.Vud Qərbi Avropadan miqrasiya proseslərini tədqiq edərək qeyd edirlər ki, miqrasiya axınının intensivliyinə iqtisadi artım sürəti və məşğulluq dinamikası ilə yanaşı qəbul edən ölkədə əmək haqqı səviyyəsi də təsir edir.

Onların hesablamalarına görə 2015-ci ildən sonra emiqrantların sayı 4,5 mln nəfərə qədər təşkil edəcəkdir. Lakin Türkiyənin AB-nə daxil olmasına qədər müddətdə əmək haqqlarında olan fərqlər azalsa, onda potensial miqrantların sayı 1,3 mln nəfərə enəcək [7]. Türk diasporunun Avropada mövcud coğrafiyasını nəzərə alaraq nisbətən intensiv miqrant axını Almaniyaya, Fransaya, Hollandiyaya və Avstriyaya nəzərdə tutulur. Kvazir və Vuda görə miqrantların ixtisas səviyyələrinin aşağı olması Qərbi Avropada əhalinin qocalması nəticəsində iş yerlərinin miqrantlarla əvəz edilməsi problemini həll edə bilməyəcək. Onların fikrincə tam liberallaşdırma baş verməyəcək və AB seçkili miqrasiya siyasətinə üstünlük verəcək [7].

Digər avropa analitiklərinin – A.Lejura və R.Muj- fikrincə, uzunmüddətli dövrdə (2025 –ci ilə qədər) Türkiyədən AB-ə miqrasiya axını 2,7 mln nəfər olacaq, bu isə Türkiyə əhalisinin 4%-ni və AB əhalisinin 0,7%-ni təşkil edəcək [8]. Yuxarıda qeyd edilən alimlər, miqrantların ixtisas dərəcələrinin müəyyən edilmə çətinliyi baxımından iki model təklif edirlər: 1) birinci modelə görə Türkiyə emiqrantlarının ixtisas dərəcələri yüksək hesab edilir, yəni avropalılarla uyğunluğu qeyd edilir; 2) ikinci modelə görə - əksinə ixtisas dərəcələri avropalılardan aşağı hesab edilir.

Miqrasiyanın makroiqtisadi göstəricilərə təsirini təhlil edən A.Lejur və R.Muj miqrasiya axını nəticəsində ÜDM-nin uzunmüddətli dövrdə

dəyişilməsini, hər nəfərə düşən ÜDM göstəricisini qiymətləndirməyə cəhd etmişlər.

**Cədvəl 5.**

İxtisaslı türk vətəndaşlarının AB-15 ölkələrinə miqrasiyasından 2025-ci ilə gözlənilən iqtisadi səmərə [8]

| | Əhalinin sayının dəyişilməsi,% | ÜDM-nin dəyişilməsi,% | Hər nəfər hesabı ilə ÜDM-nin dəyişilməsi % |
|---|---|---|---|
| **Türkiyə** | -3,1 | -2,2 | 0,9 |
| **AB-15** | 0,7 | 0,7 | -0,0 |
| **Almaniya** | 2,4 | 2,2 | -0,1 |
| **Hollandiya** | 0,6 | 0,6 | -0,0 |

**Cədvəl 6.**

İxtisassız türk vətəndaşlarının AB-15 ölkələrinə miqrasiyanın 2025-ci ilə gözlənilən iqtisadi səmərəsi [8]

| | Əhalinin sayının dəyişilməsi,% | ÜDM-nin dəyişilməsi,% | Hər nəfərə düşən ÜDM-nin dəyişilməsi, % dəyişilməsi |
|---|---|---|---|
| **Türkiyə** | -3,1 | -1,8 | 1,4 |
| **AB-15** | 0,7 | 0,5 | -0,1 |
| **Almaniya** | 2,4 | 1,8 | -0,6 |
| **Hollandiya** | 0,6 | 0,5 | -0,1 |

Cədvəl məlumatlarından göründüyü kimi AB ölkələrinə gələn ixtisaslı və ixtisassız işçi qüvvəsi ÜDM-nin 0,5-0,7% artmasına, eyni zamanda Türkiyədə 1,8-2,2% azalmasına gətirib çıxarır. AB ölkələrində əhalinin sayının və ÜDM-nin dəyişilməsi göstəricilərinin uyğunluğu baxımından, miqrasiya prosesləri demək olar ki, hər nəfərə düşən ÜDM-yə təsir etməmiş, əksinə Türkiyədə hər nəfərə düşən ÜDM-nin 0,9-1,4% artımı gözlənilir. Beləliklə, əmək bazarının liberallaşdırılmasından əldə edilən makroiqtisadi səmərə AB ölkələri üçün çox təvazökar, Türkiyə üçün isə daha əhəmiyyətlidir.

Türk mütəxəssislərindən, miqrasiya axınlarının potensial həcmini tədqiq edən, müxtəlif variantlı proqnozları cəlb edən R.Erzan və onun həmmüəlliflərinin tədqiqatları maraq doğurur. Hesablamalar üçün reqressiya modelindən istifadə edilmişdir ki, burada dəyişənlər-gəlirlərin səviyyəsi (hər

nəfərə düşən ÜDM –nin alıcılıq qabiliyyəti pariteti baxımından) və miqrant qəbul edən və göndərən ölkələrdə məşğulluq səviyyəsi götürülür. Model bir neçə variantda hazırlanmışdır:

1) miqrasiya axınlarının 19 Avropa ölkəsindən, o cümlədən Türkiyədən Almaniyaya ( son 40 ildə (1967-ci ildən) miqrasiya proseslərinin ən təqdirə layiq statistikası olan ölkə) göstəriciləri əsasında;
2) Almaniyaya cənubi avropa ölkələrindən (AB-ə qoşulan ölkələr, o cümlədən, İspaniya,Portuqaliya,Yunanıstan) gələn miqrantlar və 1967-2001-ci ildən Türkiyədən gələn miqrantlar haqqında məlumata əsasən;
3) eyni dövrdə yalnız Türk vətəndaşlarının Almaniyaya miqrasiyası haqqında məlumat əsasında.

Eyni zamanda miqrasiyanın statistikasında öz əksini tapan bəzi hadisələrə dəyişikliklər edilmişdir (əmək bazarının liberallaşdırılmasının başlanması, xarici işçi qüvvəsinin qəbul edilməsi ilə bağlı çoxsaylı razılaşmaların əldə edilməsi, eyni zamanda Yuqoslaviya qaçqınlarını nəzərə alaraq miqrasiya axınının artması və s.) Daha sonra reqressiya əmsallarının köməyi ilə 2015-2030-cu illərdə Türkiyədən Almaniyaya mümkün miqrasiya axınının həcmi qiymətləndirilmişdir. Almaniyanın illik ÜDM artımı 2% qiymətləndirildiyi halda, məşğulluq səviyyəsi 1991-2001-ci illərin dəyişməz səviyyəsi kimi qəbul edilmişdir. Türkiyədə məşğulluq və gəlirlərin səviyyəsi ilə bağlı proqnozlar müxtəlif demoqrafik meylləri, o cümlədən şəhər və kənd əhalisinin artımı, doğulanların dinamikası, daxili miqrasiya, urbanizasiya və məşğulluq səviyyələrini nəzərə alaraq ölkənin iqtisadi artım ssenarisi əsasında müəyyən edilmişdir. Daha sonra modelin hər üç variantında 2 ssenari nəzərdən keçirilmişdir. Hər ikisi işçi qüvvəsinin hərəkəti ilə bağlı bütün məhdudiyyətləri aradan qaldırır. Lakin birinci ssenari tərəflər arasında iqtisadi inteqrasiyanın, xüsusilə əmək bazarında nail olunmasına əsaslanır. Müəlliflər bu ssenarini FREE adlandırmışlar. İkinci ssenari Türkiyə üçün qastarbayterlərlə bağlı məhdud razılaşmaların qorunmasını nəzərdə tutur. Bu ssenari (GUEST) cənubi-avropa ölkələrində tətbiq edilirdi. Beləliklə, hesab edilir ki, əmək bazarının tam liberallaşdırılması Türkiyənin AB-ə daxil olmasından bir neçə il sonra əldə edilə bilər.

2015-ci ildə miqrasiya saldosunun artımı enişlə əvəzlənir. Beləliklə, 2000-2030-cu illərdə miqrasiya saldosu təqribən 1,1 mln.nəfər təşkil edəcək (cədvəl 7) GUEST ssenarisi əsasında 2015-ci ildə miqrasiya əyrisində artım, 2020-ci ildə isə miqrantların sayının azalması müşahidə ediləcək. Lakin bu ssenari əsasında da türk vətəndaşlarından 2000-2030-cu illərdə Avropaya miqrasiya edənlərin sayı 1,8 mln nəfər təşkil etmişdir (cədvəl 7).

**Cədvəl 7.**

Müxtəlif ssenarilərə uyğun AB ölkələrinə gələn türk işçi qüvvəsinin miqrasiya saldosunun proqnozu (nəfər)[6]

| | | 2000-2015 | 2015-2030 | Cəmi |
|---|---|---|---|---|
| | | **Avropa ölkələrindən Miqrasiya axını haqqında məlumatların nəticələri** | | |
| **FREE ssenarisi** | | 460 000 | 613 000 | 1 073 000 |
| **GUEST ssenarisi** | | 564 000 | 1 274 000 | 1 838 000 |
| | | **Cənubi Avropa dövlətlərinin vətəndaşlarının miqrasiyası haqqında məlumatların nəticələri (İspaniya, Portuqaliya,** | | |
| **FREE ssenarisi** | | 320 000 | 640 000 | 960 000 |
| **GUEST ssenarisi** | | 440 000 | 1 480 000 | 1 920 000 |
| | | **Yalnız Türkiyə vətəndaşlarının miqrasiyası haqqında məlumatların nəticələri** | | |
| **GUEST** | **A) Yüksək iqtisadi artım sürəti, AB-ə daxil olma, əmək bazarının liberallaşdırılması** | 246 000 | 1 888 000 | 2 134 000 |
| | **B) Aşağı iqtisadi artım, AB-ə daxil olmanın perspektivdə mümkün olmaması, əmək bazarının liberallaşdırılması** | 760 000 | 1 974 000 | 2 734 000 |

Əmək bazarının liberallaşdırılmasını nəzərdə tutan birinci ssenari hələ hazırlıq mərhələsində sosial-iqtisadi inkişaf proqramının reallaşdırılmasını həyata keçirməyi nəzərdə tutur, bu isə miqrasiyanı zəiflədir. Bir halda ki, işçi qüvvəsinin yerdəyişməsi ilə bağlı məhdudiyyətlərin götürülməsi öz stimullaşdırıcı əhəmiyyətini itirir, bu halda güclü miqrasiya artımı gözlənilmir.

Türkiyədən Almaniyaya miqrasiya göstəriciləri əsasında qurulan modelin istifadəsi zamanı yalnız GUEST ssenarisindən istifadə edilir, bu çərçivədə inkişafın iki variantı təhlil edilir. Birinci variantda müəlliflər ehtimal edirdilər ki, AB-ə qoşulma prosesində Türkiyə iqtisadi cəhətdən inkişaf edəcək və 2015-ci ildə tərəflər arasında əmək bazarının liberallaşdırılması sahəsində razılaşmalar əldə ediləcək. Qeyd edək ki, Türkiyənin Almaniya əmək bazarı ilə qarşılıqlı əlaqəsinin yeganə təcrübəsi qastarbayterlər barəsində ikitərəfli razılaşmada öz əksini tapmışdır. 5-ci əyri (diaqram 1) miqrasiya saldosunun artımını əks etdirən kəskin artımı göstərir. Bu hesablamalara əsasən məcmu miqrasiya saldosu 2000-2030-cu illərdə 2,1 mln nəfər təşkil edəcək (cədvəl 7).

Alternativ variant (B) danışıqların uzadılmasını xarakterizə edərək iqtisadi artımın yüksək olmadığını və işsizliyin artdığını göstərir. Bu zaman tərəflər arasında viza rejimi saxlanılar, Türkiyədə şəhər və kənd əhalisi arasında işsizlik səviyyəsi artar və 2030-cu ildə 22%-ə çatar. Viza almaq zəruriliyi potensial miqrantların sayını azaldar. Lakin gəlirlərin artım sürətinin aşağı olması, əmək bazarında vəziyyətin gərginləşməsi miqrasiyanı əhəmiyyətli dərəcədə artırar. Durmadan artan miqrantlar bütün vasitələrdən

istifadə edərək AB ərazisinə daxil olmağa cəhd göstərəcəklər. Bu senari üzrə proqnoza əsasən miqrasiya saldosu 2000-2030-cu illərdə 2,7 mln nəfər təşkil edəcək (cədvəl 7). Əgər Türkiyə AB-ə daxil ola bilməsə, onda bütün məhdudiyyətlərə baxmayaraq qeyri-leqal immiqrant axını artacaq. Belə paradoksal proqnoz 3 səbəbdən real sayıla bilər.

Birinci, Türkiyənin iqtisadi artım təcrübəsi göstərir ki, iqtisadiyyatın yüksək templərlə artımına siyasi stabillik və xarici investisiyalar olmadan nail olmaq mümkün deyil. Lakin perspektivdə avrointeqrasiya olmadan yüksək iqtisadi artım və işsizliyin azalması arasında əlaqə mümkün olmayacaq.

İkinci, AB-ə daxil olma planları pozulduqdan sonra əhalinin gəlirləri və işsizlik səviyyəsi arasında fərq artacaq (gəlirlər və işsizlik səviyyəsi arasında differensiallaşmanı ifadə edən əmsallar Türkiyə təcrübəsinə əsaslanan hesablamalarda Avropa göstəricilərinə nisbətən yüksəkdir.

Üçüncü, AB-də fəaliyyət göstərən viza məhdudiyyəti sistemi və işçi qüvvəsinin mobilliyi ilə bağlı qərarların olmaması immiqrasiya prosesinin qarşısını ala bilməz. Hazırda AB-ə Türkiyədən hər il 70000 immiqrant gəlir. Eyni zamanda Avropaya işlə bağlı köçən türklər öz ailələrini də götürürlər. Qeyd edək ki, AB-də türk diasporu 3 mln nəfər təşkil edir, bu səbəbdən miqrasiyanı ləngidən müxtəlif metodlar AB siyasətində səmərəli hesab edilmir.

Beləliklə, R.Erzan və onun həmmüəllifləri hesab edirlər ki, Türkiyədən miqrasiya baxımından ən səmərəli ssenari işçi qüvvəsinin yerdəyişməsində məhdudiyyətlərin aradan qaldırılması və onun AB-ə tam hüquqlu üzv kimi daxil olması daha əlverişlidir. Eyni zamanda qeyd edək ki, türk müəlliflərinin işçi qüvvəsinin yerdəyişməsi ilə bağlı məhdudiyyətlər saxlandığı halda miqrasiya axınlarının qiymətləndirilməsi avropa alimlərinin orta qiymətləri ilə üst-üstə düşür. Beləliklə, türk tədqiqatçıları gözlənilən miqrasiya axınlarının həcmini azaltmağa meyllidirlər. Bundan başqa, işçi qüvvəsinin yerdəyişməsində mövcud olan məhdudiyyətlərlə bağlı verilən proqnozu Türkiyənin əmək bazarının liberallaşdırılmasında lobbiləşmə cəhdi kimi qiymətləndirmək olar.

Türk vətəndaşlarının AB-ə miqrasiya proqnozunun qiymətələndirilməsini mürəkkəb olmayan hesablamalarla da yoxlamaq olar. Son dövrlərdə miqrasiya saldosu göstəricilərinin çətinliklə əldə edilməsi ilə bağlı olaraq trend xətti AB ərazisində hər il türklərin sayının dinamikası əsasında qurulmuşdur. O nisbətən zəif enişə malikdir (qrafik 1)

**Qrafik 1.**

Yaxın 10 ildə türk vətəndaşlarının AB-ə miqrasiya axınının həcminin proqnozu




Mənbə: müəllif tərəfindən Türkiyə əmək nazirliyinin hesabatları əsasında tərtib edilmişdir: http://www.diyih.gov.tr

AB üçün Türkiyədən miqrasiyanın müsbət tərəfləri potensial miqrantların yaş göstəriciləri ola bilər. Türkiyə və AB ölkələri əhalisinin yaş strukturu aşağıdakı kimidir: Türkiyədə 0-14 yaş qrupunda olan əhali 30% təşkil edir və azalmağa meyllidir, AB ölkələrində isə 15%-ə qədərdir. Türkiyə və AB ölkələrində əmək qabiliyyətli əhali 65%-ə bərabərdir, lakin Türkiyədə artım meyli müşahidə edilir, AB ölkələrində isə azalma müşahidə edilir [9, s.73-79]. Türkiyədə əmək qabiliyyətli əhalinin artım prosesi əmək qabiliyyətli yaşında olan əhalinin əmək qabiliyyətli yaşından sonrakı dövrə keçidlə bağlı stabilləşəcəyi nəzərdə tutulur. BMT-nın proqnozuna əsasən Türkiyə əmək qabiliyyətli yaşda olan əhalinin azalması prosesi ilə 2020-ci ildən qarşılaşacaq və nəhayət 69,3% - ə catacaq [9, s.73-79]. Sonrakı dövrdə isə əmək qabiliyyətli yaşa qədər və əmək qabiliyyətli yaşda olan əhalinin xüsusi çəkisinin azalması nəticəsində ölkə əhalisi qocalma xüsusiyyəti daşıyacaq. Türk rəsmi statistikasının 2050-ci ilə proqnozuna əsasən əmək qabiliyyətli yaşdan sonra əhalinin xüsusi çəkisi 19% və ya 16 mln nəfər (2006-cı ildəki 5,9%) təşkil edəcək [10, s.7] .Türk iqtisadçısı A.İçduyğu Avropada demoqrafiq vəziyyəti tədqiq edərək qeyd edir ki, 2050-ci ildə əmək qabiliyyətli əhalinin azalma meyli hətta təqaüdçilərin sayının artması zamanı da güclənəcəkdir. Bu proseslərin

artma səbəbləri doğumun azalması və ömür müddətinin Avropada artmasıdır. Əmək qabiliyyətli əhalinin azalması proqnozu mütəxəssisləri ondan çıxma vasitələrinin axtarılmasına yönəldir. Bu zaman bir neçə variant, o cümlədən aktiv iqtisadi immiqrasiya siyasətinin işlənilməsi nəzərdən keçirilir. 2000-ci illərin əvvəllərində AB-ə xalis immiqrant axını ildə 1,2 mln nəfər, 2004-2005-ci illərdə isə özünün maksimum həddinə çatmış, yəni 1,7 mln nəfər təşkil etdi. Hesablamalara görə, əgər AB ümumiyyətlə miqrantlardan imtina etsəydi, onda 2050-ci ilə AB-də əmək qabiliyyətli əhali 29%-ə qədər azalardı. Beləliklə, istifdə edilmiş ehtiyatların əvəz edilməsi üçün AB-ə hər il 2005-2025-ci illər ərzində işçi qüvvəsinə tələbat 1,3 mln nəfər təşkil edəcək və 2005-2050-ci illər ərzində 1,6 mln nəfərə qədər artacaq [2].

**Nəticə**

Beləliklə, AB ölkələri Türkiyənin tam hüquqlu üzvlüyü zamanı onun demoqrafik üstünlüklərindən istifadə edə bilərlər, lakin bu imkandan istifadə vaxt çərçivəsi ilə məhdudlaşır. Qeyd etmək lazımdır ki, A.İçduyquya görə AB-nin əlavə işçi qüvvəsinə potensial tələbatı statistik olaraq türk tədqiqatçıları tərəfindən təklif edilən, analoji dövrdə Türkiyədən immiqrasiya axınının qiymətləndirilməsinə yaxındır. Əslində nəzərə almaq lazımdır ki, avropa əmək bazarı təkcə Türkiyədən gələn miqrantlar üçün deyil, həm də digər ölkələrdən gələn miqrantlar üçün cəlbedicidir. Deməli, avropa əmək bazarına müəyyən miqrasiya təzyiqi gözlənilir. Bu məqsədlə əgər gələcəkdə liberallaşmadan danışmaq lazım gəlsə, Türkiyəyə aralıq xarakteri daşıyan ssenari təklif ediləcək. Belə ssenarilər Cənubi Avropa ölkələri, o cümlədən İspaniya,Yunanıstan, Portuqaliyada tətbiq edilirdi.

**Ədəbiyyat:**


1. Turkey Progress Report, Brussels, 2005, p.59.; 2006, p.34-35; 2007, p.3435; 2009, p.42
2. A. İçduygu. Türkiye AB ilişkileri bağlamında uluslararası göç tartışmaları. TÜSİAD-T/2006-12/427.)
3. G.Lanzeri. Population in Europe 2007: first results. // Eurostat. Statiscs in focus, 81/2008, http://epp.eurostat.ec.europa.eu/cache/ITY_OFFPUB/KS-SF-08-081/EN/KS-SF-08-081-EN.PDFa)
4. Issues Arising From Turkey’s Membership Perspective, Commission of the European Communities, Commission Staff Working Document, Brussels, 2004, p.18-20.
5. Ивахнюк И.В. Международная трудовая миграция, М. 2005, с. 45.

6. Erzan R., Kuzubas U., Yildiz N. Growth and Immigration Scenarios for Turkey and the EU, EU-Turkey working papers № 13, December 2004.
7. Quaisser W., Wood S. «EU Member Turkey? Preconditions, Consequences and Integration Alternatives». Forost Arbeitspapier Nr. 25, München, 2004 8. Lejour M., de Mooij R.A., «Does Turkey's accession to the EU bring economic benefits?» Hague, Netherlands,2004
9. Republic of Turkey. Pre-Accession Economic Programme 2006. Ankara,p.73-79.
10. State Planning Organization. The Situation of Eldery People in Turkey and National Plan of Action on Agening. Ankara, 2007, p.7.

**UOT 33**

# AZƏRBAYCAN VƏ POLŞA QARŞILIQLI İQTİSADİ MÜNASİBƏTLƏRİNİN İNKİŞAF MEYİLLƏRİ

**Toğrul Mahmud oğlu ALLAHMANLI**
*Odlar Yurdu Universiteti, doktorant*

m.allahmanli@mail.ru

## XÜLASƏ

Azərbaycan və Polşa Respublikasının iqtisadi əməkdaşlığının təhlilində ən mühüm məsələlərdən birisi iqtisadi əlaqələrin inkişaf istiqamətlərinin aydınlaşmasıdır. Çünki dünya düzənində gedən proseslər, yeni iqtisadi islahatları, yeni texnologiyaların tətbiqini bir zərurət olaraq qarşıya qoyur. Həm Azərbaycanın, həm də Polşanın mövcud iqtisadi mənzərəsində ciddi perspektivləri müəyyənləşdirən sahələr vardır. Onların inkişaf etdirilməsi, ortaq layihələrin hazırlanıb həyata keçirilməsi, birgə investisiya siyasətinin aparılması və s. növbəti fəaliyyətdə xüsusi ilə diqqət mərkəzində saxlanmalıdır. Kənd təsərrüfatının, turizmin, təhsil mübadiləsinin, yüngül və ağır sənayenin ayrı-ayrı sahələrinin inkişafında birgə fəaliyyət proqramlarının hazırlanması və həyata keçirilməsi bu xüsusda mühüm önəm kəsb edir.

**Açar sözlər:** Azərbaycan iqtisadiyyatı, Polşa iqtisadiyyatı, sahəvi iqtisadiyyat, kənd təsərrüfatı, turizm, təhsil mübadiləsi

# СОБЫТИЯ АЗЕРБАЙДЖАНА И ПОЛЬШИ ОТНОСИТЕЛЬНО ЭКОНОМИЧЕСКИХ ОТНОШЕНИЙ

## РЕЗЮМЕ

Одним из наиболее важных вопросов анализа экономического сотрудничества между Азербайджаном и Польшей является прояснение направлений развития экономических отношений, как происходящих в мире процессов, новых экономических реформ и внедрения новых технологий. Есть области, которые имеют серьезные перспективы в нынешнем экономическом отношении как Азербайджана, так и Польши. Их разработку, подготовку и реализацию совместных проектов, совместную инвестиционную политику и т.д. следует держать в центре внимания в последующих действиях. В этом отношении большое значение имеет разра-

ботка и реализация совместных программ действий по развитию сельского хозяйства, туризма, образования, легкой и тяжелой промышленности.

**Ключевые слова:** экономика Азербайджана, экономика Польши, экономика сельского хозяйства, сельское хозяйство, туризм, обмен образованием

## DEVELOPMENTS OF AZERBAIJAN AND POLISH ECONOMIC RELATIONS

## SUMMARY

One of the most important issues in the analysis of economic cooperation between Azerbaijan and the Republic of Poland is the clarification of the directions of economic relations development, as the processes taking place in the world, new economic reforms, and introduction of new technologies are a necessity. There are areas that have serious prospects in the current economic view of both Azerbaijan and Poland. Their development, preparation and implementation of joint projects, joint investment policy, etc. should be kept in the center of attention in the following activities. Development and implementation of joint action programs for the development of agriculture, tourism, education, and light and heavy industries are of great importance in this regard.

**Keywords:** Azerbaijan's economy, Polish economy, agricultural economics, agriculture, tourism, education exchange

**Giriş.** Azərbaycan və Polşa Respublikalarının iqtisadi əlaqələrinin sistemli elmi-nəzəri təhlilində mühüm istiqamətlərdən biri iqtisadi əlaqələrin perspektivlərinin və onun təkmilləşdirilməsi istiqamətinin müəyyənləşməsidir. Düzdür, Azərbaycan və Polşa Respublikalarının siyasi, iqtisadi, mədəni əlaqələrinin kifayət qədər zəngin tarixi vardır. Lakin onun sonuncu mərhələsi sovetlər imperiyasının dağılmasından sonrakı dövrlə bağlıdır. Elə də uzun zaman müddətini əhatə etməyən bu əlaqələr böyük rəngarəngliklə, ciddi əhatəliliklə görünür. Qloballaşan dünyanın inkişaf tendensiyaları qarşılıqlı əlaqələri nəinki qaçılmaz edir, həm də əsas xəttə çıxarır. İqtisadi fikrin görkəmli nümayəndələrinin qənaətinə görə beynəlxalq iqtisadi münasibətlərin 80 faizdən çoxu xarici ticarət əlaqələrinə bağlanır.

Azərbaycan və Polşa ilə iqtisadi əlaqələrin inkişaf perspektivləri təxminən iyirmi beş illik zaman müddətində müsbət bir dinamika ilə səciyyələnir ki, bu da əmtəə və xidmət ticarətindən tutmuş kapitalın və investisiyaların hərəkətinə, işçi qüvvələrin miqrasiyasına, maliyyə və kredit münasibətlərinə, elmi-texniki əməkdaşlığa və s. qədər bir müxtəlifliyi əhatə edir. Polşa ilə xarici iqtisadi əlaqələrin inkişafında və təkmilləşdirilməsində bunlar mühüm istiqamətlər

olmaqla daha fundamental addımların atılması gərəkliyini də əsas edir. Əlbəttə son dövrün iqtisadi münasibətlərində elmi-texniki əməkdaşlıq, dünyanın müasir mənzərəsində və artan tələbatında elmi kadrların birgə fəaliyyət və mübadiləsi ciddi, həm də perspektivli tərəf kimi önəm daşıyır.

**Məsələnin qoyuluşu.** Azərbaycan və Polşa respublikasının iqtisadi əlaqələrinin inkişaf meylləri. Xarici iqtisadi əlaqələrin araşdırılmasının D.Rikardodan, E.Hekşer, B.Olindən, P.Samuelsondan, M.Rpoznerdən, R.Vernondan gələn özünəməxsus qiymətləndirmə və təhlil konsepsiyası vardır. Elmi nəzəri fikirdə belə bir tezis var ki, inkişaf etməkdə olan əmək və torpaq ehtiyatları ilə daha geniş imkanlara malikdirlər. Azərbaycan və Polşa Respublikalarının iqtisadi mənzərəsinə diqqət yetirdikdə və bu prizmadan yanaşdıqda ciddi perspektivlər müşahidə olunur. Azərbaycan neft ölkəsi kimi çağdaş dünya iqtisadi məkanında tanınmışdır və məsələnin mahiyyəti, yəni ölkənin vəd edən perspektivləri bununla yekunlaşmır, burada kapitalın digər sahələrə yönləndirilməsi və digər sahələrin də inkişaf etdirilməsi mühüm amilə çevrilir. Məsələn, Azərbaycanın və Polşanın iqlim şəraiti kənd təsərrüfatının inkişafı üçün əsaslı perspektivlərə imkan yaradır. Qeyri-neft sahəsində olan imkanlar alternativ sahə kimi xarici iqtisadi münasibətlər çevrəsində ciddi inkişafı vəd edir. Pambıqçılıq, tütünçülük, üzümçülük, baramaçılıq, qoyunçuluq, maldarlıq, meyvə və tərəvəz sahəsində müəyyənləşmiş dövlət proqramları yaxın zamanlarda iqtisadi əlaqələrin çevrəsinin və tutumunun daha da inkişaf edəcəyini aydınlaşdırır.

Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi və ixrac yönümlü məhsulların həcminin artırılması Azərbaycanın aqrar sahədə əsaslı layihələrin həyata keçirilməsinə şərait yaradır. Çünki neftdən sonra ən perspektivli sahə olan kənd təsərrüfatı Polşa ilə qarşılıqlı əlaqələrin inkişaf meyillərində mühüm tərəfdir. İstehlakçıların seçim zövqü, ölkənin beynəlxalq əmək bölgüsündə aktiv iştirakı, dünya təsərrüfat sisteminə inteqrasiya Azərbaycanın iqtisadi siyasətində xüsusi bir məqsəd kimi nəzərə alınır.

Polşa ilə iqtisadi münasibətlərin inkişaf meyillərində ən vacib məsələlərdən biri elmi-texniki tərəqqinin inkişaf mənzərəsi ilə bağlıdır. Burada məsələ təkcə Polşa və Azərbaycan iqtisadi münasibətləri səviyyəsində deyil, ümumilikdə qloballaşan dünyanın iqtisadi mənzərəsində bu vacib şərtdir. Elmi-texniki nailiyyətlərin surət tempi müasir dünyanı çox kiçiltmişdir və eyni zamanda faydalanmanın birgə fəaliyyət zərurətini yaratmışdır. Elmi-texniki tərəqqinin son nailiyyətləri, yeni maşın və texniki avadanlıqların istehsala tətbiqi, ümumiyyətlə idxal prosesinin uğurlu aparılması, xarici bazarda mövqeyin zəifləməməsi üçün bütün imkanlardan keyfiyyət baxımından yararlanma, ixrac üstünlüklərinin qorunuşu və s. əsas olaraq həmişə diqqətdə saxlanır.

Xarici əlaqələrin düzgün həyata keçirilməsi investisiyaları, kapital qoyuluşunu da zəruri edir. Bunlar əməyin kapitalla silahlanması olmaqla Polşa ilə

əlaqələrin daha intensivliyini və qarşılıqlı faydalanmanı, əməyin səmərəliliyini, məhsuldarlığı artırır. İstehsal təmərgüzləşmələri üçün yaranan şərait xarici əlaqələrin ümumi məzmununda dayanır. Məlum olduğu kimi, "istehsalın təmərgüzləşməsi əməyin məhsuldarlığını artırmaqla yanaşı, məhsulun qiymətini aşağı salır, əlaqədar sahələrdə əməyə qənaət etməyə imkan yaradır. İxrac olunan məhsul nomenklaturasının ölkə daxilində istifadə olunması isə keyfiyyət səviyyəsinin yüksəlməsi, texniki tərəqqinin sürətlənməsi və iqtisadi nisbətin rasionallaşmasına kömək edir və s" (2, s. 12). Polşa ilə iqtisadi münasibətlərinin dinamikasında nəzərə çarpan müxtəliflik ölkənin potensial imkanlarına hesablansa da ümumi mənada bunlar hələ keçən illər ərzində bütün olanları özündə ehtiva etmir. Bunu Azərbaycan prezidentinin Polşaya sonuncu səfərindəki söhbətlərdə, müzakirələrdə də görmək olur.

Azərbaycanın iqtisadi imkanları kontekstində iqtisadi əlaqələrin daha da gücləndirilməsi aqrar sənayenin, eləcə də qeyri-neft sahələrinin inkişaf etdirilməsi buna ciddi əsas verir. Metal konstruksiyalar, qara metallardan boru fitinqləri, yeyinti sənayesi üçün avadanlıqlar, paltaryuyan maşınlar, hesablama maşınları və qurğuları, süd və qaymaq, kərə yağı, digər süd yağları və pastaları, pendir və kəsmik, kartof, buğda unu, ət kolbasası, şəkərli qənnadı məmulatları, şokalad və şokalad məhsulları, makaron məmulatları çörək, unlu qənnadı məmulatları, sabun, dərman vasitələri, sintetik yuyucu maddələr, oturacaq mebelləri, ağacdan ofis, mətbəx, yataq və digər mebellər, kağız və kartondan sanitar-gigiyenik məmulatlar və s. idxal sahəsində olan göstəricilərdir. Azərbaycanda olan ayrı-ayrı illər üzrə idxal və ixrac məsələlərinə və Polşanın bu tərəfdaşlıq çəkisinə diqqət yetirdikdə əhəmiyyətli bir mənzərə yaranır. Məsələn, 2011-ci ildə idxal 119516,7, ixrac 3110,5 (dollarla), saldo – 116406,2 olmuşdur ki, 2011-ci ilin 2010-cu ilə nisbəti faizlə idxal 464,7%, ixrac 53,9%-dir. Azərbaycanın idxalında əsas tərəfdaş çəkisi 1,2 %, yeri 17-dir.

2012-ci ildə idxal 45255,8, ixrac 3483,0 ABŞ dolları, saldo -41772,8 olmuşdur. 2012-ci ilin 2011-ci ilə nisbəti faizlə idxal 37,9%, ixrac 112,0%-dir. Azərbaycanın idxalında əsas tərəfdaş çəkisi 0,5, yeri 29-dur.

2013-cü il üzrə idxal 46475,8, ixrac 3483,0 ABŞ dolları, saldo -36254,1 olmuşdur. 2013-cü ilin 2012-ci ilə nisbəti faizlə idxal 102,7,% ixrac 293,5%-dir. Azərbaycanın idxalında əsas tərəfdaş çəkisi 0,4, yeri 29-dur.

2014-cü il üzrə idxal 62348,9, ixrac 16329,8 ABŞ dolları, saldo -46019,1 olmuşdur. 2014-cü ilin 2013-cü ilə nisbəti faizlə idxal 134,2 %, ixrac 159,8%-dir. Azərbaycanın idxalında əsas tərəfdaş çəkisi 0,7%, yeri 24-dür.

Azərbaycan və Polşa Respublikalarının iqtisadi əlaqələrində özünü göstərən meyillər iqtisadi münasibətlərin çevrəsini genişləndirə bilmək imkanlarını aydınlaşdırır. Məlum olduğu kimi, "Azərbaycan istehlak etdiyindən əlavə bir sıra mallar dünya bazarlarına çıxarır. Lakin texnoloji imkanların məhdudluğu səbəbindən Azərbaycan yenə də xammal ixrac edən ölkə kimi çıxış edir.

Azərbaycan istehsal etdiyi pambığı, şərab yarımfabrikatlarını, fermentləşdirilmiş tütünü, kimya xammalını, neft məhsulları xammalını, elektron, elektronika, cihazlaşdırma sənaye sahələri üzrə yüzlərlə adda kompleksləşdirici məmulatı son məhsul həddinə çatmadan respublikadan kənara göndərməli olur" (1, s. 627). Azərbaycan və Polşa Respublikalarının iqtisadi münasibətlərinin ümumi mənzərəsində olan indiki göstəricilər ticarət əlaqələrinin daha perspektivli imkanları üçün əsaslı imkanlar yaradır. Ona görə də Azərbaycan xammal ixrac edən ölkə olmadan ikinci sferaya, yüksək texnalogiyalar əsasında məhsul edən ölkəyə çevrilməyi məqsədə çevirir.

$r_{41}$: «Если риски контрагентов и рыночные риски отсутствуют, то портфельные риски чересчур низкие»;

$r_{42}$: «Если риски контрагентов вероятнее всего не наступят, а рыночные риски отсутствуют, то портфельные риски очень низкие»;

$r_{43}$: «Если о возможности рисков контрагентов ничего определённого нельзя сказать, а рыночные риски вероятнее всего не наступят, то портфельные риски более чем низкие»;

$r_{44}$: «Если риски контрагентов и рыночные риски вероятнее всего не наступят, то портфельные риски низкие»;

$r_{45}$: «Если риски контрагентов и рыночные риски вероятнее всего наступят, то портфельные риски высокие»;

$r_{46}$: «Если риски контрагентов вероятнее всего наступят, а о возможности рыночных рисков ничего определённого нельзя сказать, то портфельные риски более чем высокие»;

$r_{47}$: «Если риски контрагентов наступят наверняка, а рыночные риски вероятнее всего наступят, то портфельные риски очень высокие»;

$r_{48}$: «Если риски контрагентов и рыночные риски наступят наверняка, то портфельные риски слишком высокие».

***Финансовые риски*:**

$r_{51}$: «Если портфельные и структурные риски, а также риски неплатёжеспособности отсутствуют, то финансовые риски чересчур низкие»;

$r_{52}$: «Если портфельные риски вероятнее всего не наступят, о возможности структурных рисков нельзя сказать ничего определённого и отсутствуют риски неплатёжеспособности, то финансовые риски очень низкие»;

$r_{53}$: «Если о возможности портфельных рисков ничего определённого нельзя сказать, а структурные риски и риски неплатёжеспособности вероятнее всего не наступят, то финансовые риски более чем низкие»;

$r_{54}$: «Если портфельные риски вероятнее всего не наступят, а о возможности структурных рисков и рисках неплатёжеспособности нельзя сказать ничего определённого, то финансовые риски низкие»;

$r_{55}$: «Если о возможности процентных и структурных рисках нельзя сказать ничего определённого, а риски неплатёжеспособности вероятнее всего наступят, то финансовые риски высокие»;

$r_{56}$: «Если портфельные и структурные риски вероятнее всего наступят, а о рисках неплатёжеспособности ничего определённого сказать невозможно, то финансовые риски более чем высокие»;

$r_{57}$: «Если о возможности портфельных рисков ничего определённого сказать невозможно, структурные риски наступят наверняка, а риски неплатёжеспособности вероятнее всего наступят, то финансовые риски очень высокие»;

$r_{58}$: «Если портфельные и структурные риски, а также риски неплатёжеспособности наступят наверняка, то рыночные риски слишком высокие».

***Функциональные риски*:**

$r_{61}$: «Если операционные и управленческие риски отсутствуют, то функциональные риски чересчур низкие»;

$r_{62}$: «Если операционные риски вероятнее всего не будут иметь место, а управленческие риски отсутствуют, то функциональные риски очень низкие»;

$r_{63}$: «Если о возможности операционных рисков ничего определённого нельзя сказать, а управленческие риски вероятнее всего не будут иметь место, то функциональные риски более чем низкие»;

$r_{64}$: «Если операционные и управленческие риски вероятнее всего не будут иметь место, то функциональные риски низкие»;

$r_{65}$: «Если операционные и управленческие риски вероятнее всего наступят, то функциональные риски высокие»;

$r_{66}$: «Если операционные риски вероятнее всего будут иметь место, а о возможности управленческих рисков ничего определённого нельзя сказать, то функциональные риски более чем высокие»;

$r_{67}$: «Если операционные риски имеют место наверняка, а управленческие риски вероятнее всего будут иметь место, то функциональные риски очень высокие»;

$r_{68}$: «Если операционные и управленческие риски имеют место наверняка, то функциональные риски слишком высокие».

***Внутренние риски*:**

$r_{71}$: «Если финансовые и функциональные риски отсутствуют, то внутренние риски чересчур низкие»;

$r_{72}$: «Если финансовые риски вероятнее всего не будут иметь место, а функциональные риски отсутствуют, то внутренние риски очень низкие»;

$r_{73}$: «Если о возможности финансовых рисков ничего определённого нельзя сказать, а функциональные риски вероятнее всего не будут иметь место, то внутренние риски более чем низкие»;

$r_{74}$: «Если финансовые и функциональные риски вероятнее всего не будут иметь место, то внутренние риски низкие»;

$r_{75}$: «Если финансовые и функциональные риски вероятнее всего будут иметь место, то внутренние риски высокие»;

$r_{76}$: «Если финансовые риски вероятнее всего будут иметь место, а о возможности функциональных рисков ничего определённого нельзя сказать, то внутренние риски более чем высокие»;

$r_{77}$: «Если финансовые риски имеют место наверняка, а функциональные риски вероятнее всего будут иметь место, то внутренние риски очень высокие»;

$r_{78}$: «Если финансовые и функциональные риски имеют место наверняка, то внутренние риски слишком высокие».

***Внешние риски***[2]**:**

$r_{81}$: «Если о возможности форс-мажорных рисков нельзя сказать ничего определённого, а экономические, политические и правовые риски отсутствуют, то внешние риски чересчур низкие»;

$r_{82}$: «Если экономические риски вероятнее всего не будут иметь место, о возможности политических и форс-мажорных рисков нельзя сказать ничего определённого, а также отсутствуют правовые риски, то внешние риски очень низкие»;

$r_{83}$: «Если о возможности экономических и форс-мажорных рисков ничего определённого нельзя сказать, политические и правовые риски вероятнее всего не наступят, то внешние риски более чем низкие»;

$r_{84}$: «Если экономические риски вероятнее всего не наступит, а о возможности политических, правовых и форс-мажорных рисков нельзя сказать ничего определённого, то внешние риски низкие»;

$r_{85}$: «Если о возможности экономических, политических и форс-мажорных рисков нельзя сказать ничего определённого, а правовые риски вероятнее всего будут иметь место, то внешние риски высокие»;

$r_{86}$: «Если экономические и политические риски вероятнее всего имеют место, а о возможности правовых и форс-мажорных рисках ничего определённого сказать невозможно, то рыночные риски более чем высокие»;

$r_{87}$: «Если о возможности экономических и форс-мажорных рисков ничего определённого сказать невозможно, политические риски будут

[2] В данном случае из-за невозможности прогнозирования форс-мажорных ситуаций риски, связанные с их наступлением, во всех случаях оцениваются как неопределённые.

иметь место наверняка, а правовые риски вероятнее всего будут иметь место, то внешние риски очень высокие»;

$r_{88}$: «Если о возможности форс-мажорных рисков нельзя сказать ничего определённого, а экономические, политические и правовые риски имеют место наверняка, то внешние риски слишком высокие».

***Уровень банковского риска*:**

$e_1$: «Если внутренние и внешние риски отсутствуют, то уровень банковского риска чересчур низкий»;

$e_2$: «Если внутренние риски вероятнее всего не будут иметь место, а внешние риски отсутствуют, то уровень банковского риска очень низкий»;

$e_3$: «Если о возможности внутренних рисков ничего определённого нельзя сказать, а внешние риски вероятнее всего не будут иметь место, то уровень банковского риска более чем низкий»;

$e_4$: «Если внутренние и внешние риски вероятнее всего не будут иметь место, то уровень банковского риска низкий»;

$e_5$: «Если внутренние и внешние риски вероятнее всего будут иметь место, то уровень банковского риска высокий»;

$e_6$: «Если внутренние риски вероятнее всего будут иметь место, а о возможности внешних рисков ничего определённого нельзя сказать, то уровень банковского риска более чем высокий»;

$e_7$: «Если внутренние риски имеют место наверняка, а внешние риски вероятнее всего будут иметь место, то уровень банковского риска очень высокий»;

$e_8$: «Если внутренние и внешние риски имеют место наверняка, то уровень банковского риска слишком высокий».

Приведённые рассуждения позволяют легко сформировать полный набор ЛП и НЛП для построения системы нечёткого вывода. Например, в случае рассуждений $r_{11} \div r_{18}$ все переменные для удобства можно упорядочит в виде табл. 1. Тогда система нечёткого вывода в виде НЛП в символьной форме будет представлена как:

$r_{11}$: $(x_{11}=A_{11})\&(x_{12}=A_{12})\&(x_{13}=A_{13}) \Rightarrow (y_1=TL)$;

$r_{12}$: $(x_{11}=B_{11})\&(x_{12}=C_{12})\&(x_{13}=A_{13}) \Rightarrow (y_1=VL)$;

$r_{13}$: $(x_{11}=C_{11})\&(x_{12}=B_{12})\&(x_{13}=B_{13}) \Rightarrow (y_1=ML)$;

$r_{14}$: $(x_{11}=B_{11})\&(x_{12}=C_{12})\&(x_{13}=C_{13}) \Rightarrow (y_1=L)$;

$r_{15}$: $(x_{11}=C_{11})\&(x_{12}=C_{12})\&(x_{13}=D_{13}) \Rightarrow (y_1=H)$;

$r_{16}$: $(x_{11}=D_{11})\&(x_{12}=D_{12})\&(x_{13}=C_{13}) \Rightarrow (y_1=MH)$;

$r_{17}$: $(x_{11}=C_{11})\&(x_{12}=E_{12})\&(x_{13}=D_{13}) \Rightarrow (y_1=VH)$;

$r_{18}$: $(x_{11}=D_{11})\&(x_{12}=D_{12})\&(x_{13}=D_{13}) \Rightarrow (y_1=TH)$.

**Табл. 1.** ЛП системы нечёткого вывода относительно рыночных рисков

| | | | |
|---|---|---|---|
| Входные ЛП | $x_{11}$ | Имя переменной | Риск по ценным бумагам |
| | | Терм-множество | {$A_{11}$=НЕ СУЩЕСТВУЕТ, $B_{11}$=ВЕРОЯТНО НЕ НАСТУПИТ, $C_{11}$=НЕОПРЕДЕЛЁННЫЙ, $D_{11}$=ВЕРОЯТНО НАСТУПИТ, $E_{11}$=НАСТУПИТ НАВЕРНЯКА} |
| | | Универсум | $U$={0; 0,25; 0,5; 0,75; 1} |
| | $x_{12}$ | Имя переменной | Валютный риск |
| | | Терм-множество | {$A_{12}$=НЕ СУЩЕСТВУЕТ, $B_{12}$=ВЕРОЯТНО НЕ НАСТУПИТ, $C_{12}$=НЕОПРЕДЕЛЁННЫЙ, $D_{12}$=ВЕРОЯТНО НАСТУПИТ, $E_{12}$=НАСТУПИТ НАВЕРНЯКА} |
| | | Универсум | $U$={0; 0,25; 0,5; 0,75; 1} |
| | $x_{13}$ | Имя переменной | Процентный риск |
| | | Терм-множество | {$A_{13}$=НЕ СУЩЕСТВУЕТ, $B_{13}$=ВЕРОЯТНО НЕ НАСТУПИТ, $C_{13}$=НЕОПРЕДЕЛЁННЫЙ, $D_{13}$=ВЕРОЯТНО НАСТУПИТ, $E_{13}$=НАСТУПИТ НАВЕРНЯКА} |
| | | Универсум | $U$={0; 0,25; 0,5; 0,75; 1} |
| Выходная ЛП | $y_1$ | Имя переменной | Рыночные риски |
| | | Терм-множество | {*TL*=ЧЕРЕСЧУР НИЗКИЕ, *VL*=ОЧЕНЬ НИЗКИЕ, *ML*=БОЛЕЕ ЧЕМ НИЗКИЕ, *L*=НИЗКИЕ, *H*=ВЫСОКИЕ, *MH*=БОЛЕЕ ЧЕМ ВЫСОКИЕ, *VH*=ОЧЕНЬ ВЫСОКИЕ, *TH*=СЛИШКОМ ВЫСОКИЕ} |
| | | Универсум | [0; 1] |

Для оценки исходных внутренних и внешних факторов воздействия на уровни риска по областям локализации банковских операций, в том числе в данном случае и для оценки составляющих рыночного риска, используются качественные критерии, которые опишем в виде следующих нечётких подмножеств дискретного универсума $U$={0; 0,25; 0,5; 0,75; 1} [4, с. 130]:

- РИСК НЕ СУЩЕСТВУЕТ: $A = \frac{1,0}{0} + \frac{0,5}{0,25} + \frac{0}{0,5} + \frac{0}{0,75} + \frac{0}{1}$;
- РИСК ВЕРОЯТНО НЕ НАСТУПИТ: $B = \frac{0,5}{0} + \frac{1}{0,25} + \frac{0,5}{0,5} + \frac{0}{0,75} + \frac{0}{1}$;
- НЕОПРЕДЕЛЁННЫЙ РИСК: $C = \frac{0}{0} + \frac{0,5}{0,25} + \frac{1,0}{0,5} + \frac{0,5}{0,75} + \frac{0}{1}$;

- РИСК ВЕРОЯТНО НАСТУПИТ: $D=\frac{0}{0}+\frac{0}{0,25}+\frac{0,5}{0,5}+\frac{1}{0,75}+\frac{0,5}{1}$;
- РИСК НАСТУПИТ НАВЕРНЯКА: $E=\frac{0}{0}+\frac{0}{0,25}+\frac{0}{0,5}+\frac{0,5}{0,75}+\frac{1}{1}$.

Термы из правых частей приведённых правил описаны в виде нечётких подмножеств дискретного универсума $J=\{0;\ 0,1;\ 0,2;\ \ldots;\ 1\}$. Для этого, согласно [4, с. 130, 5, с. 306], были использованы соответствующие функции принадлежности, а именно $\forall u \in J$:

- $TL$=ЧЕРЕСЧУР НИЗКИЕ РИСКИ: $\mu_{TL}(u)=\begin{cases}1, u<1\\ 0, u=1\end{cases}$;
- $VL$=ОЧЕНЬ НИЗКИЕ РИСКИ: $\mu_{VL}(u)=(1-u)^2$;
- $ML$=БОЛЕЕ ЧЕМ НИЗКИЕ РИСКИ: $\mu_{ML}(u)=\sqrt{-u}$;
- $L$=НИЗКИЕ РИСКИ: $\mu_{L}(u)=1-u$;
- $H$=ВЫСОКИЕ РИСКИ: $\mu_{H}(u)=u$;
- $MH$=БОЛЕЕ ЧЕМ ВЫСОКИЕ РИСКИ: $\mu_{MH}(u)=\sqrt{u}$;
- $VH$=ОЧЕНЬ ВЫСОКИЕ РИСКИ: $\mu_{VH}(u)=u^2$,
- $TH$=СЛИШКОМ ВЫСОКИЕ РИСКИ: $\mu_{TH}(u)=\begin{cases}1, u=1,\\ 0, u<1\end{cases}$.

На последующих стадиях обработки выходы каждой интегрированной нечёткой модели формируют входы для последующей. Полученные, таким образом, данные из внутренних и внешних источников риска формируют входные характеристики для оценки совокупного уровня банковского риска.

**Заключение.** Очевидно, что предлагаемые в статье типовые модели для оценки составляющих как внутренних, так и внешних факторов риска нуждаются в структурном и параметрическом обучении с тем, чтобы претендовать на необходимую степень адекватности поставленной задаче. Более того, не факт, что предложенная на рис. 1 НКК вобрала в себя абсолютное большинство факторов, влияющих на совокупный уровень банковского риска. Но предлагаемый подход именно тем и хорош, что является в определённом смысле гибким по отношению к возможным дополнениям и/или уточнениям, которые могут быть предъявлены экспертами и/или руководителями КБ. Тем не менее, даже в предложенном «несовершенном» варианте модель, не выдавая абсолютных значений для оценки уровней рисков, способна реагировать на возможные изменения в концептах НКК и стать основой для формирования сбалансированной финансовой политики, проводимой КБ.

**Литература:**


1. Zadeh L.A. Outline of a new approach to the analysis of complex systems and decision processes. – IEEE Trans., Syst., Man., Cybern., vol. SMC-3. 1973, Jan., pp. 28-44.
2. Как определить допустимый размер риска. Электронный ресурс. Доступен на: http://fxgear.ru/kak-opredelit-dopustimyj-razmer-riska/ (Дата обращения – 23.10.2017 г.)
3. Kosko B. Fuzzy cognitive maps //International Journal of Man-Machine Studies, 1986.–Vol. 1.– pp. 65–75.
4. Рзаев Р.Р. Интеллектуальный анализ данных в системах поддержки принятия решений. Verlag: LAP Lambert Academic Publishing GmbH & Co, 2013. 130 с.
5. Рзаев Р.Р. Аналитическая поддержка принятия решений в организационных системах. – Saarbruchen (Germany): Palmerium Academic Publishing, 2016. – 306 с.

**S İ Y A S İ E L M L Ə R**

**UOT 32**

# NÜVƏ TƏHLÜKƏSİZLİYİ PROBLEMİ AZƏRBAYCANIN MİLLİ TƏHLÜKƏSİZLİYİ KONTEKSTİNDƏ

**Akif Maarif oğlu MARİFLİ**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının elmlər doktoru proqramı
üzrə dissertantı, tarix üzrə fəlsəfə doktoru

akif.marifli@gmail.com

## XÜLASƏ

Məqalə nüvə terrorizmi təhlükəsizliyi və terror təşkilatlarının siyasi və iqtisadi məqsədləri naminə nüvə və kimyəvi silahların vasitəsilə insanları kütləvi şəkildə öldürməyin üsulları haqqında yazılmışdır. Eyni zamanda məqalədə informasiya texnologiyasının inkişafı nəticəsində insanların internetdən kütləvi qırğın silahlarının istehsalı üçün elmi və texnoloji bütün məlumatlara yiyələnməyindən söhbət açılır.

Dünya təcrübəsindən götürülmüş çoxsaylı nüvə terror hadisələrinə nəzər salınır və bunlar arasındakı oxşar və fərqli cəhətlər üzə çıxarılır. Burada qərb alimlərinin maraqlı təsbitlərinə nəzər yetirilmiş və məsələnin mahiyyəti təhlil edilmişdir. Əsasən, tədqiqatlar arasında fərqliliklərin izahı verilmişdir. Burada nüvə terrorizminin cinayət hüququnda yerini tapması və terroristlərin cəzalandırılması üçün beynəlxalq hüquqi çərçivə yaradılması kimi faktorların qoyuluşu məhz məqalənin aktuallığını önə çəkir. Eyni zamanda yerli və xarici tədqiqatçıların məsələyə fərqli yanaşmalarının maraqlı təhlili də məqalədə yer almışdır.

Burada digər maraqlı məsələ isə Ermənistan ərazisində köhnəlmiş, istismar müddətini başa vurmuş Metsamor Atom Elektrik Stansiyasının indi də işlədilməsinin təkcə Ermənistan üçün deyil, bu işğalçı dövlətin digər qonşuları üçün də böyük təhlükəli olduğunu diqqət mərkəzinə çəkir.

Məqalədə nüvə terrorizminin dünyanı təhdid edən ən güclü təhlükələrdən biri olduğu tədqiq edilərək, yerli və xarici mütəxəssislərin təsbitlərinə müraciət edilir.

**Açar sözlər:** terror, nüvə, təhlükə, atom, təşkilat, işğal, bomba.

# ПРОБЛЕМА ЯДЕРНОЙ БЕЗОПАСНОСТИ В КОНТЕКСТЕ НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ АЗЕРБАЙДЖАНА

## РЕЗЮМЕ

Статья посвящена безопасности ядерного терроризма и методам массового убийства людей посредством ядерного и химического оружия ради политических и экономических целей террористических организаций. В то же время в статье говорится о том, что в результате развития информационных технологий люди получили доступ посредством Интернета ко всей научно-технической информации для производства оружия массового уничтожения.

В данной статье рассматриваются многочисленные инциденты из мировой практики, связанные с ядерным терроризмом, и выявляются сходные и отличительные черты между ними. Здесь также были рассмотрены интересные выводы западных ученых и проанализирована суть проблемы. Было предоставлено объяснение различий между исследованиями. Рассмотрение таких факторов, как создание международных правовых рамок для понятия ядерного терроризма в уголовном праве и наказания террористов, указывает на актуальность статьи. Одновременно с этим, в статье был также приведен интересный анализ различных подходов отечественных и зарубежных исследователей к данному вопросу.

В центре внимания находится проблема эксплуатации устаревшей Атомной Электростанции «Мецамор» с истекшим сроком службы, находящейся на территории Армении, что представляет большую опасность не только для Армении, но и для других соседних стран этого окупирующего государства.

Данная статья рассматривает ядерный терроризм, как одну из САмых больших мировых угроз, и содержит ряд выводов местных и зарубежных экспертов.

**Ключевые слова:** террор, ядерной, угроза, атом, организация, оккупация, бомба.

# NUCLEAR SECURITY PROBLEM IN THE CONTEXT OF NATIONAL SECURITY OF AZERBAIJAN

## SUMMARY

The article is about the security of nuclear terrorism and the methods of the mass murder by means of nuclear and chemical weapons for the sake of political and economic purposes of terrorist organizations. At the same time, the article mentions that as a result of the development of information technology, people get access to all the scientific and technological information for the production of weapons of mass destruction from the Internet.

The numerous nuclear terrorist incidents taken from world history are exposed and similar and distinctive attitudes are revealed. Here, the interesting findings of western scientists were examined and the essence of the issue was analyzed. Basically, the the differences between researches has been explained. Here, the factors as the determination of nuclear terrorism in the criminal law and the creation of an international legal framework for the punishment of terrorists highlights the relevance of the article. At the same time, an interesting analysis of the different approaches of local and foreign researchers to the issue were also mentioned in the article.

Another interesting point here is that the article stresses the use of the outdated and time expired Metsamor Nuclear Power Plant in the territory of Armenia at present, is dangerous, not only for Armenia, but also for the neighbors of this occupying country.

The article explores the fact that nuclear terrorism is one of the most life-threatening dangers in the World and consults the findings of local and foreign experts.

**Keywords:** terror, nuclear, threat, atom, organization, occupation, bomb.

Nüvə terrorizmi, insanların və ya terrorist təşkilatların siyasi və iqtisadi məqsədləri naminə nüvə və kimyəvi silahların vasitəsilə insanları kütləvi şəkildə öldürmək, ekoloji zərər vermək, psixoloji qarışıqlıq yaratmaq üçün istifadə, yaxud istifadə təhdidi ehtiva edən hərəkətlərin reallaşdırılmasıdır (23). XX əsrin 90-cı illərində nüvə terrorizmi təhdidinin ortaya çıxmasının səbəbləri aşağıdakı şəkildə inkişaf etmişdir: İlk olaraq, Sovet İttifaqının yıxılmasının ardından kütləvi qırğın silahlarının bütün növləri üzərindəki nəzarət azalmışdır. İkincisi, informasiya texnologiyasının inkişafıyla birlikdə insanların internetdən kütləvi qırğın silahlarının istehsalı üçün elmi və texnoloji bütün məlumatlara nəqliyyatı asanlaşmışdır (27).

Nüvə terroru ilə bağlı dünya təcrübəsində hissedilməz çoxballı yayıcılıq təsiri ilə yadda qalan ilk terror hücumundan biri kimi 1995-ci ildə Tokyo metropolitenində baş vermiş hadisəni xatırlatmaq yerinə düşərdi. Belə ki, bu zaman iysiz, rəngsiz və yüksək zəhərli sinir qaz sarin şəhərin metro sisteminə buraxılmış və nəticədə 12 nəfər ölmüş, 5500 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri almışlar (22, 26). Yapon mənşəli yeni dini hərəkat olan Aum Şinrikyonun (Təşkilat Aum Shinrikyonun adını daşıyır) üzvləri törədilmiş terror aktının məsuliyyətini öz üzərlərinə götürmüşdülər. Bu hərəkat 2000-ci ildən sonra Alef (Aleph) adlanmağa başladı (21). Nüvə enerjisinin inkişafı, kütləvi qırğın silahlarına asanlıqla nail olmağa ciddi bir şəkildə təsir etməkdədir. Müasir dövrdə 30-dan çox ölkədə 440 sənaye və 280 tədqiqat reaktoru çalışır ki, bundan da min meqabaytlıq bir reaktor bir il ərzində 40-50 atom bombası istehsalı qədər platon istehsal edə bilir (18).

Dövlətlər üçün ən böyük təhlükələrdən biri, nüvə silahlarının terroristlər tərəfindən oğurlanması və terrorist hərəkətlərdə istifadə edilməsi təhlükəsi ehtiva etməsidir. Nüvə silah istehsalında istifadə edilən maddələrin terrorçuların əlinə keçməsi də eyni təhlükələrə daxildir. Tibb, sənaye, nəzarət və ölçü aparatlarından geniş bir şəkildə istifadə olunan radioaktiv mənbələrin idarə edilməməsi, bu cür maddələrin minlərlə itkisinə gətirib çıxarmışdır və terrorçu təşkilatlar tərəfindən bunların əldə edilməsi asanlaşmışdır (18).

ABŞ tədqiqat reaktorlarını istifadə etmək üçün 1978-ci ildən səylə çalışır. Onlar artıq yüksək zənginləşdirilmiş uranın istifadə etməməsini və ümumiyyətlə, ona ehtiyac olmadığı düşüncəsiylə aradan qaldırmağı qarşılarına məqsəd qoyurlar. Beləliklə, 1991-ci ildən 30 ölkə nüvə silahının materialından yüksək zənginləşdirilmiş uranı çıxarmışdır (13, s. 60-61). (30 ölkə bunlardır: Braziliya, Bolqarıstan, Kolumbiya, Danimarka, Yunanıstan, İraq, Latviya, Filippin, Portuqaliya, Sloveniya, Cənubi Koreya, İspaniya, Tayland, Avstriya, Çili, Çexiya, Macarıstan, Libya, Meksika, Rumıniya, Serbiya, İsveç, İsveçrə, Tayvan, Türkiyə, Ukrayna, Vyetnam, Özbəkistan, Gürcüstan və Camayka).

Müasir dövrdə nüvə silahından istifadənin nümunəsi kimi 23 noyabr 1995-ci ildə Rusiyada baş vermiş hadisəni göstərmək olar. Terroristlər, Moskvanın İzmaylovskiy Parkına radioaktiv izotop 137 və dinamit ehtiva edən atom bombası yerləşdirərək şəhəri bombalamağı planlamışdılar. Bomba, aktivistlər tərəfindən partladılmamışdan az əvvəl yerli televiziya kanalına bildirilmişdir. Bu da, Rusiyadakı Çeçen terrorçuların nüvə silahına nail ola biləcəklərini və bundan məharətlə istifadə edə biləcəyinin bir göstəricisi olaraq qiymətləndirilmişdir (11, s.21-23).

SSRİ-nin dağılması, beynəlxalq nüvə təhlükəsizliyi üçün qorxunc bir təhlükə yaratmışdır. Çünki Sovetlərə aid bütün kütləvi qırğın silahları müstəqilliklərini qazanan dörd ölkə arasında paylanmışdır. Kütləvi qırğın silahlarının Qazaxıstan, Belarus və Ukraynadan Rusiyaya gətirilməsi üçün

siyasi və iqtisadi xaos içində ciddi bir diplomatik səy göstərilmişdir. Rusiya Təhlükəsizlik Xidməti tərəfindən 2 min nüvə bombasının Rusiyaya aparıldığı məlumdur, lakin bütün kütləvi qırğın silahlarının müdafiəsinin təmin edilməsinə dair xüsusi bir zəmanət yoxdur. Terroristlərin hərəkətlərində kütləvi qırğın silahı istifadə edilməsi təhlükəsi bu gün də ciddiliyini qoruyur. ABŞ-ın "qara siyahısında" yer alan 33 beynəlxalq terrorist təşkilatın çoxu nüvə silahı istehsalı üçün istifadə olunan maddələrə maraq doğurmaqdadır.

Əl-Qaidə terror təşkilatının lideri Usama Bin Laden, 1998-ci ildə kütləvi qırğın silahlarının əldə edilməsini bir "dini vəzifə" olduğunu ifadə etmişdir. Əfqanıstanda Əl-Qaidə tərəfindən dəstəklənən təlim düşərgələrində terrorist təşkilat üzvlərinə internetdən, elmi və texnoloji qaynaqlardan, konfranslardan kimyəvi, bioloji, nüvə və radioloji silahlarla əlaqədar məlumatlar verilirmiş. Həmçinin Əl-Qaidənin təhlükəli kimyəvi maddə və toksinlər əldə etmək üçün müəyyən cəhdlər göstərdiyi məlum məsələdir. Əl-Qaidənin Əfqanıstandakı "bürosunda" olan sənədlərdən Bin Ladenin nüvə silahı istehsalı üçün ehtimal ediləndən daha ciddi layihələrinin olduğu müəyyən olunmuşdur. Hətta Laden bəyan etmişdir ki, onda nüvə silahı var və əgər amerikalılar Əfqanıstanda taktiki nüvə sursatlarını tədbiq etmək fikrinə düşsələr, o mütləq əlində olan nüvə silahından istifadə edəcəkdir. Qeyd etmək lazımdır ki, özlərində zavod şəraitində hazırlanmış nüvə partlayıcıları olsa da, onun tərəfdarları nüvə texnologiyasının nailiyyətlərindən istifadə etmək qabiliyyətlərinə malikdirlər. Bunun üçün də onlara "tam təmiz olmayan bomba" onun partladılması nəticəsində radioaktiv çöküntülər yarada bilən radioaktiv materiallardan olan örtük içərisində yerləşdirilmiş radioaktivliyi yaya bilən qurğunun düzəldilməsi kifayətdir. Müasir dövrdə istək və pul olduğu şəraitdə radiaktiv materialların əldə edilməsi elə də çətin məsələ deyil (6, s.108-109).

Nüvə terrorizminin cinayət hüququnda yerini tapması və terroristlərin cəzalandırılması üçün beynəlxalq hüquqi çərçivə yaradılmışdır. Həmin qanuni çərçivə, müqavilələr, sazişlər, Beynəlxalq Atom Enerjisi Agentliyi standartları (International Atomic Energy Agency – IAEA) və Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası (BMT TŞ) qərarlarından ibarətdir. Bundan başqa, nüvə maddələrin təhlükəsizliyini təmin etmək və nüvə silahların qeyri-qanuni hərəkəti ilə mübarizə etmək məqsədiylə başda ABŞ olmaqla, bəzi dövlətlərin liderliyində beynəlxalq platformada, ikitərəfli və çoxtərəfli təşəbbüslər göstərilmişdir. Bunların arasında ən əhəmiyyətliləri, Ortaq Təhlükələrin Azaldılması Təşəbbüsü (Cooperative Threat Reduction Initiative – CTRI), Qlobal Təhdidlərin Azaldılması Təşəbbüsü (The Global Threat Reduction Initiative – GTRI), Nüvə silahının yayılmasına qarşı Təhlükəsizlik Təşəbbüsü (The Proliferation Security Initiative – PSI) və Nüvə Terrorçuluğuna qarşı Mübarizə sahəsində Qlobal Təşəbbüs (The Global Initiative to Combat Acts of Nuclear Terrorism – GICNT) (25). Bu proqramlar, ABŞ-ın nüvə terrorizminə

qarşı “çoxlaylı müdafiə” strategiyasının bir hissəsi olub, nüvə terrorizmi ilə milli və beynəlxalq səviyyədə döyüşməyi hədəfləməkdədir (10, s.101-102).

Nüvə terrorizminə qarşı beynəlxalq mübarizənin hüquqi əsaslandırılmasında xüsusi rol oynayan hüquqi-normativ aktlardan biri də “Nüvə terrorçuluğu əməlləri ilə mübarizə haqqında beynəlxalq konvensiya”dır. Azərbaycan bu konvensiyaya 2 dekabr 2008-ci il tarixində qoşulmuşdur (8, s.3). Qeyd etmək lazımdır ki, 17 dekabr 1996-cı il tarixində Birləşmiş Millətlər Təşkilatının Baş Məclisinin 51/210 saylı qətnaməsi ilə təsis edilmiş Xüsusi Komitənin və Altıncı Komitənin İşçi Qrupu tərəfindən hazırlanmış Nüvə terrorçuluğu əməlləri ilə mübarizə haqqında Beynəlxalq Konvensiya olduqca mühüm bir sənəddir (12, s.17-18).

Bu konvensiyaya görə “Radioaktiv maddə” dedikdə tərkibində öz-özünə parçalanan (bir və ya bir neçə növ ionlaşdırıcı şüalanma, məsələn alfa-şüalanma, beta-şüalanma, neytron şüalanması və qamma-şüalanmanın buraxılması ilə müşayiət olunan proses) nuklidlər olan, özünün radioloji xüsusiyyətləri və ya parçalanma xüsusiyyətləri ilə ölüm, şikəstliklə nəticələnən, mülkiyyətə və ya ətraf mühitə əhəmiyyətli dərəcədə ziyan yetirən nüvə materialı və digər radioaktiv maddələr nəzərdə tutulur (9).

Ümumiyyətlə, Azərbaycan nüvə təhlükəsinin qarşısının beynəlxalq cəhdlərlə alınması məsələsində dəfələrlə öz prinsipial mövqeyini ən yüksək instansiyalarda bəyan etmişdir. 2010-cu ildən ABŞ Prezidenti Barak Obamanın təşəbbüsü ilə baş tutan Nüvə Təhlükəsizliyi Sammiti həm də beynəlxalq birlik üçün ciddi təhlükə yaradan nüvə terrorçuluğunun qarşısını almağa həsr olunan yüksək səviyyəli zirvə görüşüdür. Nüvə təhlükəsizliyi üzrə ilk Beynəlxalq Sammit 2010-cu ildə ABŞ-ın paytaxtı Vaşinqtonda keçirilib. Daha sonra belə sammitlər 2012-ci ildə Cənubi Koreyanın paytaxtı Seulda, 2014-cü ildə Niderlandın Haaqa şəhərində baş tutub. Həmin sammitdə 58 ölkənin dövlət və hökumət başçıları iştirak ediblər (3, s.1).

Azərbaycan Respublikasının Prezidentinin 24 aprel 2008-ci il tarixli 746 №li Fərmanı ilə respublikamızda nüvə və radioloji təhlükəsizlik sahəsində yaranan münasibətlərin nizamlanması, respublikamızın üzərinə düşən beynəlxalq öhdəliklərin lazımınca yerinə yetirilməsi məqsədilə Fövqəladə Hallar Nazirliyinin Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyi təsis edilmiş və 3 aprel 2009-cu il tarixli 74 nömrəli Fərmanla Agentliyin Əsasnaməsi təsdiq edilmişdir (1, s.1-2). Agentlik əhalinin və ərazilərin nüvə və radiasiya təhlükəsizliyinin təmin olunmasında, nüvə və radioloji fəaliyyətin tənzimlənməsi sahəsində dövlət siyasətinin hazırlanmasında iştirak edən, bu siyasətin həyata keçirilməsini təmin edən və həmin sahədə dövlət nəzarətini həyata keçirən icra hakimiyyəti orqanıdır. Nüvə silahının yayılma təhlükəsini və coğrafi mövqeyimizi nəzərə alaraq Azərbaycan, ərazisindən nüvə qaçaqmalçılığı üçün tranzit marşrutu kimi istifadəsi edilməsi hallarının qarşısının

alınmasına xüsusi əhəmiyyət verir. Azərbaycan beynəlxalq tərəfdaşlarla sıx əməkdaşlıq edərək yüksək standartlara əsaslanan möhkəm qanunverici baza vasitəsilə ixraca nəzarət üçün güclü sistem yaratmışdır. Bu sistem nüvə qaçaqmalçılığının qarşısının alınmasında özünü etibarlı mexanizm kimi doğruldur.

27 mart 2012-ci il tarixində prezident İlham Əliyev Seulda Nüvə Təhlükəsizliyi Sammitinin birinci plenar iclasında çıxışı zamanı qeyd etmişdir ki, Azərbaycan qlobal nüvə təhlükəsizliyinə mühüm əhəmiyyət verir və Beynəlxalq Nüvə Terrorçuluğu Aktlarının aradan qaldırılması Konvensiyası və Nüvə Materiallarının fiziki qorunması kimi mühüm beynəlxalq sazişlərə qoşulmuşdur. Azərbaycan nüvə təhlükəsizliyini təmin edən norma və standartların formalaşdırılması işində Beynəlxalq Atom Enerjisi Agentliyinin oynadığı rolu vacib hesab edir. Ölkəmiz nüvə təhlükəsizliyinin müxtəlif aspektləri ilə bağlı Agentliklə uğurlu əməkdaşlıq qurmuşdur. Azərbaycan coğrafi şəraitini və ətraf mühit üçün baş verə biləcək transsərhəd fəsadları nəzərə alaraq, mülki məqsədlər üçün nüvə qurğularının təhlükəsizliyini və etibarlılığını möhkəmləndirmək məqsədilə göstərilən səyləri tam dəstəkləyir. Sunami nəticəsində Fukusima Atom Elektrik Stansiyasında baş vermiş dəhşətli qəzaya çox ciddi şəkildə yanaşılmasının vacibliyini vurğulayan İlham Əliyev qeyd etmişdir ki, Azərbaycan Ermənistanın 1976-cı ildə fəaliyyətə başlamış və hazırda köhnəlmiş Metsamor Atom Elektrik Stansiyasından olduqca narahatdır. Metsamor stansiyası bütöv region və yaxınlıqda olan qonşular üçün potensial fəlakət mənbəyidir. O, son illərini yaşayan reaktorun soyudulması üçün zəruri olan su resurslarının çatışmadığı yüksək dərəcəli seysmik zonada yerləşir. Avropa İttifaqı Şərqi Avropa və keçmiş Sovet İttifaqında tikilmiş 66 sovet reaktoru arasında Metsamor reaktorunu "ən köhnəlmiş və ən etibarsız" hesab etmişdir. Hesabatda Metsamor "bütöv region üçün təhlükə" adlandırılır. Bununla belə, biz nüvə enerjisi qurğusunu tikməyi arzulayan tərəfə səlahiyyətləri verəcək regional nüvə təhlükəsizliyini və etibarlılığını müəyyənləşdirən rejimlərin tətbiq edilməsini təklif edirik. Bu halda öz qonşularından razılığın alınması, həmin sahələrin etibarlılığı və təhlükəsizliyi barədə məlumatların şəffaf şəkildə mübadiləsi, yoxlamaların qəbulu və risklərə görə kompensasiyanın ödənilməsi kimi prosedurlar nəzərdə tutula bilər. Azərbaycanın qoşulduğu Nüvə Terrorçuluğuna Qarşı Qlobal Mübarizə Təşəbbüsü və Prinsiplər Toplusu çərçivəsində beynəlxalq razılaşmanın və əməkdaşlığın daha da möhkəmləndirilməsinə çalışırıq (16).

Azərbaycan Respublikasının müvafiq istiqamətdə fəaliyyətinin pozitiv mərhələsi kimi "Milli Nüvə Tədqiqatları Mərkəzi" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsi və strukturu təsdiq edildi (5). Cəmiyyətin əsas məqsədi nüvə elmləri, nüvə texnologiyaları və nüvə energetikası sahəsində kompleks tədbirlərin həyata keçirilməsindən, o cümlədən nüvə texnologiyalarının müasir dövrün tələblərinə və milli mənafelərə uyğun dinc məqsədlərlə inkişaf etdiril-

məsindən və ondan istifadənin təmin olunmasından, nüvə elmləri və texnologiyaları sahəsinin maddi-texniki bazasının yaxşılaşdırılmasından, elmi tədqiqatların genişləndirilməsindən və yüksəkixtisaslı kadr potensialının gücləndirilməsindən ibarətdir.

Nüvə təhlükəsizliyinə qarşı mübarizə tədbirlərinin gücləndirilməsində önəmli məsələlərdən biri də milli qanunvericiliyin gücləndirilməsidir. Bu baxımından “Nüvə materialının fiziki mühafizəsi haqqında” Konvensiyaya qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu irəliyə atılmış addımlardan biridir (7). Azərbaycan Respublikası müvafiq icra orqanları arasında Fövqəladə Hallar Nazirliyinin fəaliyyəti də xüsusi ilə aktivdir. Qurum bir sıra beynəlxalq və yerli tədbirlərdə bu məsələlərlə bağlı olaraq praktiki təşəbbüslərini ortaya qoymuşdur.

Qeyd etmək lazımdır ki, Azərbaycan ərazisindən nüvə texnologiyalarının, materiallarının daşınması cəhdləri var. Əvvəllər də belə cəhdlər olub. Bu istiqamətdə Azərbaycan öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirir. Lakin onu da nəzərə almaq lazımdır ki, Ermənistan ərazisində köhnəlmiş, istismar müddətini başa vurmuş atom elektrik stansiyası fəaliyyət göstərir. Həmin stansiyanın yerləşdiyi ərazi seysmik zonadır və orada zəlzələ ehtimalı həmişə var. İstismar müddəti çoxdan başa çatmış Metsamor Atom Elektrik Stansiyasının indi də işlədilməsi təkcə Ermənistan üçün deyil, bu işğalçı dövlətin digər qonşuları üçün də böyük təhlükədir (20). Faktiki olaraq Ermənistan yürütdüyü işğalçılıq siyasətinə görə tamamilə təcrid olunmuş, özünə qapanmış şəraitdədir. Belə olan halda oradakı nüvə stansiyasının tullantıları saxlanılır, hətta o nüvə tullantılarının işğal altındakı Azərbaycan ərazilərində basdırılması ilə əlaqədar narahatlıq var. Ermənistanın sabiq baş naziri, parlamentin deputatı Qrant Baqratyan Ermənistanın nüvə silahına malik olması haqda kütləvi informasiya vasitələrində sensasion bəyanatla çıxış etmişdir. Daha sonra isə Ermənistanın hərbi elitasının nüfuzlu nümayəndələrindən biri olan Arkadi Ter-Tadovosyan Ermənistanın dinc Azərbaycan vətəndaşlarına qarşı “çirkli bomba” tətbiq etməyə hazır olduğunu bildirmişdir. Məlumdur ki, həm Ermənistanın, həm də Azərbaycanın atom enerjisi üzrə Beynəlxalq Agentliyi, Nüvə Silahlarının Hərtərəfli Qadağan Olunması üzrə Müqavilə Təşkilatının qarşısında müəyyən öhdəlikləri vardır. Və indi münaqişə tərəflərindən biri olan Ermənistan bütün dünya ictimaiyyətinin gözü qarşısında yalnız regional təhlükəsizlik sistemində olan tərəfə deyil, həm də bütün bəşəriyyətə qarşı faktiki olaraq meydan oxuyur (15).

Ermənistanın sabiq baş naziri və hazırda millət vəkili olan Q.Baqratiyanın Ermənistanın nüvə silahına sahib olması və ondan təhlükəsizliyinin təmin edilməsi məqsədilə istifadə edə biləcəyi ilə bağlı açıqlamaları İtaliyanın “Notiziegeopolitiche” analitik-informasiya portalının tədqiqatçı-jurnalisti Culiano Bifolkinin tərəfindən tədqiq və analiz edilərək məqalə formasında dərc

olunmuşdur. Məsələnin araşdırılması üçün müəllifin Ermənistanın İtaliyadakı Səfirliyinə ünvanladığı suala cavab olaraq səfirlik Baqratiyanın fikirlərinə şərh vermək istəməyib, lakin istənilən Ermənistan vətəndaşının ölkənin milli təhlükəsizliyi ilə bağlı fikirlərini söyləməkdə azad olduğunu deyib. Azərbaycanın İtaliyadakı Səfirliyi isə mövzuya münasibətdə Azərbaycanın beynəlxalq ictimaiyyəti dəfələrlə Ermənistandan irəli gələn nüvə təhlükəsi və nüvə terroru barədə məlumatlandırdığını və xəbərdar etdiyini bildirib. Sonda G.Bifolki bildirmişdir ki, Q.Baqratiyanın açıqlamaları parlamentin üzvü olan bir şəxsin azad fikirləri olsa da, keçmişdə baş nazir olmuş bir şəxsin fikirlərinin çəkisinin olduğunu da nəzərə almaq lazımdır. Bu fikirlər hazırda vəziyyətin daha da gərginləşdiyi Qafqaz kimi bir bölgədəki təhlükəsizlik məsələlərinə diqqətin yönəldilməsini tələb edir (19).

Ermənistanın bu fəaliyyəti ilə bağlı olaraq hələ 2002-ci ildə Azərbaycan AŞPA-ya özünün sübutlarını təqdim etmişdir: "Ermənistan–Azərbaycan münaqişəsinin nəticələrindən biri Ermənistan hərbi qüvvələri tərəfindən işğal edilmiş torpaqlarda, Qarabağ dağlarında və Azərbaycan Respublikasının digər yeddi rayonunda nəzarət edilməyən nüvə zonalarının yaradılması olmuşdur ki, bu da bütün Cənubi Qafqaz regionu üçün ciddi təhlükə törədir. İşğal edilmiş ərazidə 29 nüvə mərkəzi vardır. Bu sahədə radiasiya və nüvə tullantıları 80000 hektar kənd təsərrüfatı torpağını, 150000 hektar meşəni, 22000 hektar şəxsi sahələri və iki yaşayış qəsəbəsini zəhərləmişdir. Ermənistanın "Razdanmaş", "Armavir", "Akopyan", "CakMacMetals" və "Vartaniol" şirkətləri nüvə texnologiyalarını Dağlıq Qarabağdan keçirməklə İrana və İraqa ötürmüşlər. Sonuncu şirkət, həmçinin, işğal edilmiş ərazidə "C-300" və "Tayfun" tipli raketlərin təkmilləşdirilməsi prosesinə cəlb edilmişdir. Sankt-Peterburq Fizika İnstitutunun, Moskvanın Kurçatov adına Nüvə Texnologiyaları İnstitutunun, və Minsk Nüvə Fizikası İnstitutunun laboratoriyaları Qarabağ dağlarında işləyirlər. Bu laboratoriyaların və Ermənistanın "Metsamor" atom stansiyasının nüvə tullantıları xüsusi çəlləklərdə Qarabağın dağlıq regionunda yerləşən Almalı, Kolataq və Seyidbəyli yaşayış sahələrində basdırılmışlar. Baham adalarında yerləşmiş olan "Union Atomic Garbage Plc" adlı atom tullantılarının yerləşdirilməsi üzrə podratçı şirkəti, Qarabağ dağlarında nüvə tullantılarının basdırılması üçün xüsusi beton çalalar tikmişdir. Azərbaycanın işğal edilmiş Cəbrayıl rayonunun təxminən yarısı İran vətəndaşlarına icarəyə verilmişdir. Nüvə tullantıları bu rayonun şərq hissəsində basdırılmışdır və 219 kvadrat kilometrlik sahə yüksək radiasiya ilə əhatə edilmişdir. Bu rayonun İrana yaxın hissəsi (93 kvadrat kilometr) on illiyə İranın sərhəd qüvvələrinə icarəyə verilmişdir. Region üçün mövcud olan nüvə təhlükəsi, həmçinin, Ermənilər tərəfindən 1993-cü ildə Azərbaycanın Kəlbəcər rayonunun işğalı zamanı nüvə döyüş başlıqlarının istifadəsinin nəticəsi kimi özünü biruzə vermişdir və

ekspertlərin rəyi belədir ki, bu zəhərlənmiş zona ən azı iyirmi beş il ərzində təmizlənə bilər (2).

Nüvə terrorizmi ilə bağlı Azərbaycanı və dünya ictimaiyyətini narahat edən məsələlərdən biri də İranın nüvə proqramıdır. 2001-ci il sentyabr hadisələrindən sonra ABŞ-ın Əfqanıstanda antiterror kompaniyasına başlaması, daha sonra isə İraqda Səddam rejimini devirməsi İranda 1979-cu ildən bərqərar olmuş rejimi də təhlükə altında qoydu. İranın şimalında ABŞ-ın NATO üzrə tərəfdaşı olan Türkiyənin yerləşməsi və ABŞ-ın cənubda - İran körfəzi regionunda aktivliyi İranı öz təhlükəsizliyini təmin etmək yollarını axtarmağa vadar edirdi. İranda belə təminat kimi nüvə silahına yiyələnməyi yaranmış vəziyyətdən çıxış yolu kimi görürdülər. Lakin sanksiyalar şəraitində yaşayan İran üçün bu çox ağır məsələdir. Belə şəraitdə İrana nüvə sahəsində hər cür yardımı Rusiya göstərir. İranda Rusiyanın böyük iqtisadi maraqları vardı. Həm nüvə sahəsində, həm də hərbi-texniki sahədə əməkdaşlıq Rusiya üçün iqtisadi baxımdan əlverişlidir. Rusiyanın İranla əməkdaşlığı taktiki gediş, yoxsa uzunmüddətli strateji ittifaqa yönələn siyasətdir – sualı bu gün hamını düşündürür. Bu ittifaqa Çinin də meylli olması bir növ soyuq müharibədən sonra yaranan və ABŞ-ın liderlik etdiyi təkqütblü dünya sisteminə qarşı yeni bir güc mərkəzinin meydana gəlməsini göstərir (4, s.127-133).

Unutmaq lazım deyildir ki, İranın adı daim terrorçuluq fəaliyyətləri ilə birgə hallanmışdır. ABŞ-ın İrana qarşı sanskiyaların birinci əsaslı dövrü 1979-cu ildə başlamışdı. İslam İnqilabı və girov böhranından (24) sonra ABŞ-İran münasibətləri kəskin şəkildə pisləşdi. Bunun cavabında prezident Karter rəsmi Tehranı cəzalandırmaq və öz davranışında dəyişiklik etmək məqsədilə nəzərdə tutulmuş bir sıra iqtisadi sanksiyalar tədbiq etdi. Bu siyasəti Reqan Administrasiyası da davam etdirdi və İranı “beynəlxalq terrorizmin dəstəkçisi” elan etdi. Reqan Administrasiyası həmçinin 1987-ci ildə 12613 saylı əmri ilə ABŞ Silah İdarəsi nəzarəti altında olan silahların İrana satılmasını, habelə İranın neft və digər məhsullarının ölkəyə idxalına qadağa qoydu. 1992-ci ildə isə Buş Administrasiyası İran-İraq Silahlarının yayılmasının qarşısının alınması üçün sanksiyalar tətbiq etməyə davam etdi (14, s.36-38). 1980-cı ildə Ruhullah Xomeyninin əmri ilə İslam İnqilabının Sepahe – Pasdaran komandanlıq Şurası təsis edildi. 1985-ci ildə isə R.Xomeyni Sepahın quru, hava və su qoşunlarının yaradılması barədə fərman imzaladı. Ölkənin Əsas qanununda (Konstitusiya) islam inqilabını qoruyan hərbi-ideoloji qurum kimi xarakterizə olunan Sepahe-Pasdaran həm də xomeyniçilik ideologiyasının dünyaya ixrac edilməsi funksiyasını həyata keçirirdi. Bir müddət Sepahe – Pasdaran Nazirliyi (nazir Möhsün Rəfiqdust) kimi fəaliyyət göstərən bu qurum 1991-ci ildən etibarən Sepahe – Pasdaran komandanlığı (komandan Möhsün Rzayi) adı altında müstəqil hərbi-ideoloji qurum kimi öz fəaliyyətini genişləndirməyə başladı. Sepah müxtəlif təyinatlı 5 hərbi qurumu özündə birləşdirir: quru qoşunları, hava

qoşunları, dəniz qoşunları, bəsic müqavimət qüvvələr, Qüds qoşunu. Məlumatlara görə, Sepahe – Pasdaranın zabit heyəti 125 min, əsgərlərin sayı isə 275 min nəfərə yaxındır (17).

Belə qənaətə gəlmək mümkündür ki, nüvə terrorizmi dünyanı təhdid edən ən güclü təhlükələrdən biridir. Dünyada siyasi və hərbi proseslərin gedişi, beynəlxalq miqyasda cərəyan edən proseslər nüvə texnologiyalarının və eləcə də materiallarının asanlıqla ələ keçə bilməsi təhlükəsini formalaşdırır. Bu səbəblə nüvə terrorizminin qarşısının alınması istiqamətində beynəlxalq və milli fəaliyyətin gücləndirilməsi zəruridir.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 3 aprel 2009-cu il tarixli 74№ li Fərmanı // Azərbaycan qəzeti, 5 aprel 2009-cu il, s.1-2.
2. Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində nüvə texnologiyası və nüvə tullantıları, Sənəd. 9444, 7 may 2002-ci il.
3. Kəngərli R. Azərbaycan dünyanin təhlükəsizliyinə yönəlmiş bütün layihələrdə fəal iştirak edir. // Xalq qəzeti, 29 mart 2014-cü il, s.1.
4. Məmmədzadə G.M. İranın atom energetikasinin inkişafı proqramı. // Bakı Universitetinin Xəbərləri №4, Humanitar elmlər seriyası 2011, s.127-133.
5. "Milli Nüvə Tədqiqatları Mərkəzi" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 382 № li Qərarı, Bakı şəhəri, 3 dekabr 2014-cü il.
6. Nəbiyev Ə. Beynəlxalq terrorçuluq. Monoqrafiya. Bakı 2011. 282 s., s. 108-109.
7. "Nüvə materialının fiziki mühafizəsi haqqında" Konvensiyaya qoşulmaq barəsində Azərbaycan Respublikasının. Qanunu, № 547-IIQ, 9 dekabr 2003-cü il. // Azərbaycan qəzeti, 26 dekabr 2003-cü il, № 298.
8. "Nüvə terrorçuluğu əməlləri ilə mübarizə haqqında" Beynəlxalq Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. 2 dekabr 2008-ci il, № 725 – IIIQ. // Azərbaycan qəzeti, 16 yanvar 2009-cu il, № 11, s.3.
9. "Nüvə terrorçuluğu əməlləri ilə mübarizə haqqında" Beynəlxalq Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. 2 dekabr 2008-ci il, № 725 – IIIQ. // Azərbaycan qəzeti, 16 yanvar 2009-cu il, № 11, Maddə 1.

10. Gerçeker N. Küresel Felaket: Nükleer Terörizm, Uluslararası Hukuk Çerçevesine İlişkin Bir Değerlendirme. // Savunma Bilimleri Dergisi. Mayıs 2013, Cilt 12, Sayı 1, s. 91-121. ss.101-102.
11. Бутков П.П. Терроризм и проблема безопасности в современном мире. Учебное пособие. Санкт-Петербург 2004. 56 с. с.21-23.
12. Barnidge, Jr., Robert P. Non-State Actors and Terrorism. Applying the Law of State Responsibility and the Due Diligence Principle. Hague, T.M.C. Asser Press, 2007. 250 p. pp. 17-18.
13. Bunn M., Malin M. B., Roth N., Tobey W. H. Preventing Nuclear Terrorism Continuous Improvement or Dangerous Decline? Cambridge, MA: Project on Managing the Atom, Belfer Center for Science and International Affairs, Harvard Kennedy School, March 2016. p.166., pp. 60-61.
14. Gold B., Cordesman A.H., Coughlin-Schulte C. Iran – Sanctions, Energy, Arms Control, and Regime Change. A Report of the CSIS Burke Chair in Strategy. January 2014., p.226., pp.36-38.
15. Ermənistan nüvə terroru ixracatçısı kimi. // http://www.1news.az/az/koshe/20160519011426370.html
16. İlham Əliyev Seulda Nüvə Təhlükəsizliyi Sammitinin birinci plenar iclasında çıxış etmişdir. // http://president.az/articles/4547 (Azərbaycan Repsublikasının prezidentinin rəsmi internet saytı)
17. İsabəyli S. Sepahe- pasdaran beynəlxalq terror şəbəkəsinin nüvəsidir / http://daim.az/view.php?lang=az&menu=37&id=863
18. Demirci S.R. Nükleer terörizm tehdidi. / http://www.tasam.org/tr-TR/Icerik/1014/nukleer_terorizm_tehdidi
19. Bifolchi G. Relazioni Armenia – Azerbaigian: le armi nucleari come deterrente per future aggressioni o minaccia per la sicurezza regionale? 6 maggio 2016. // http://www.notiziegeopolitiche.net/?p=62864
20. Early Soviet Reactors and EU Accession. Appendix to Safety of Nuclear Power Reactors. July 2013. // http://www.world-nuclear.org/information-library/safety-and-security/safety-of-plants/appendices/early-soviet-reactors-and-eu-accession.aspx
21. Melton J.G. Aleph. Japanese new religious movement. / https://www.britannica.com/topic/Aleph
22. Pletcher K. Tokyo subway attack of 1995, Terrorist attack, Japan. / https://www.britannica.com/event/Tokyo-subway-attack-of-1995; Daly S, Parachini J, and Rosenau W. Aum Shinrikyo, al Qaeda, and the Kinshasa Reactor: Implications of Three Case Studies for Combating Nuclear Terrorism (Santa Monica, CA: RAND, 2005)
23. http://usinfo.state.gov/journals/itps/0305/ijpr/cameron.html

24. http://www.bbc.com/azeri/international/2015/12/151225_iran_us_hostage
25. http://www.gicnt.org/
26. http://www.rand.org/content/dam/rand/pubs/documented_briefings/2005/RAND_DB458.sum.pdf (accessed February 9, 2016).
27. http://www.zerkalo-nedeli.com/nn/show/371/3309

**UOT: 327**

# AVROPA İTTİFAQININ ÜMUMİ TƏHLÜKƏSİZLİK VƏ MÜDAFİƏ SİYASƏTİ

**Zümrüd Eldar qızı MƏLİKOVA**
Bakı Slavyan Universiteti
Beynəlxalq münasibətlər kafedrasının dosenti,
siyasi elmlər üzrə fəlsəfə doktoru
Bakı / AZƏRBAYCAN

zumrud2777@rambler.ru

## XÜLASƏ

Məqalə «Avropa İttifaqının ümumi təhlükəsizlik və müdafiə siyasəti» adlanır. Ümumi təhlükəsizlik və və müdafiə sahəsində Avropa ölkələrinin birgə fəaliyyəti ikinci dünya müharibəsindən sonra aktuallaşdı və Qərbi Avropa İttifaqı yaradıldı. Lakin NATO-nun yaradılması və müdafiə məsələlərində Avropa ölkələri arasında konsensusun əldə olunmaması Qərbi Avropa İttifaqı çərçivəsində hərbi inteqrasiyanın qeyri-mümkünlüyünü göstərdi. Yalnız postsoyuq müharibə dövründə bu məsələ ilə bağlı müzakirələr aparıldı və irəliləyişlər əldə olundu. 1992-ci il Maastrixt və 2007-ci il Lissabon müqavilələri Avropa İttifaqının təhlükəsizlik və müdafiə sahəsində siyasətini inkişaf etdirmək üçün yeni imkanlar yaratdı. Avropa İttifaqının ümumi təhlükəsizlik və müdafiə siyasətinın inkişafına soyuq müharibədən sonra baş verən bir sıra hadisələr, o cumlədən Yuqoslaviyada münaqişələr, Kosovo böhranı, ABŞ-ın İraqa təcavüzü az təsir göstərmədi. Avropa İttifaqının çevik qüvvələri (AİÇQ), Avropa polis korpusunun(APK) yaradılması, Bosniya-Herseqovinada APK-nin BMT-nin sülhməramlı qüvvələrini əvəz etməsi əməli addımlardan oldu. Avropa İttifaqı ÜTMS çərçivəsində üç qitədə mülki və hərbi alətlərindən istifadə etməklə əməliyyatlar həyata keçirir. Aİ-nin sülhyaratma missiyalarının 6-sı hərbi, 9-u mülkidir. Təhlükəsizlik və müdafiə sahəsində NATO ilə əməkdaşlıq edən Aİ Şimali Atlantika Alyansının təcrübəsindən, imkanlarından istifadə edərək strateji tərəfdaşlıq əlaqələrini inkişaf etdirir. Aİ-nin ÜTMS inkişaf etməkdədir və ittifaqın beynəlxalq siyasətə təsiretmə gücünün artmasına birbaşa təsir göstərir.

**Açar sözlər:** Avropa İttifaqı, Ümumi Xarici və Təhlükəsizlik Siyasəti, Maastrixt müqaviləsi, Ümumi Təhlükəsizlik və Müdafiə Siyasəti, Avropa Müdafiə Agentliyi.

## ОБЩАЯ ПОЛИТИКА БЕЗОПАСНОСТИ И ОБОРОНЫ ЕВРОПЕЙСКОГО СОЮЗА

### РЕЗЮМЕ

Данная статья называется «Общая политика безопасности и обороны Европейского Союза». Совместная деятельность европейских стран в области безопасности и обороны стала актуальной после второй мировой войны и был создан Западноевропейский союз. Однако образование НАТО и отсутствие консенсуса среди европейских стран по вопросу обороны показало невозможность военной интеграции в рамках Западноевропейского союза. Дисскусии по этому поводу возобновились после холодной войны и было намечено продвижение в переговорном процессе. Маастрихский (1992) и Лиссабонский (2007) договоры создали новые возможности для развития политики безопасности ЕС. На развитие общей политики безопасности и оборона Европейского Союза (ОПБО ЕС) не мало повлияли целый ряд событий, в том числе конфликты в Югославии, кризис в Косово, вторжение США в Ирак, которые произошли после окончания холодной войны. Создание сил быстрого реагирования Европейского Союза (СБР ЕС) и Европейского полицейского корпуса (ЕПК), замена ЕПК миротворческими силами ООН в Боснии и Герцоговине были практичными ощутимыми шагами. В рамках ОПБО ЕС проводит операции в трех континентах, используя гражданские и военные инструменты. Из миротворческих миссий ЕС шесть являются военными, девять гражданскими. Сотрудничая в области безопасности и обороны с НАТО, ЕС использует опыт и военные возможности Североатлантического альянса, и развивает отношения стратегического партнерства. В настоящее время ОПБО ЕС продолжает развиваться и это непосредственно влияет на повышение силы влияния ЕС на мировую политику.

**Ключевые слова:** Европейский союз, общая внешняя политика и политика безопасности, Маастрихтский договор, общая политика безопасности и обороны, Европейское оборонное агентство.

**COMMON SECURITY AND DEFENCE POLICY OF THE EUROPEAN UNION**

**SUMMARY**

This article is called the «Common Security and Defense Policy of the European Union». Joint activities of European countries in the field of security and defense became important after the Second World War and the Western European Union was created. However, the formation of NATO and the lack of consensus among European countries on the issue of defense showed the impossibility of military integration within the framework of the Western European Union. Discussions on this issue resumed after the Cold War and a progress was made in the negotiation process. The Maastricht (1992) and Lisbon (2007) treaties created new opportunities for the development of EU security policy. The development of a common security policy and the defense of the European Union (EU OPO) has been influenced by a number of events, including the conflicts in Yugoslavia, the crisis in Kosovo, the US invasion of Iraq that occurred after the end of the Cold War. Establishment of the Rapid Reaction Force of the European Union (EU RRF) and the European Police Corps (EPC), the replacement of the UN peacekeeping forces by the EPK were tangible steps.Within the framework of the CSDP, the EU conducts operations in three continents using civilian and military tools. Of the EU peacekeeping missions, six are military, nine are civilian. Cooperating in the field of security and defense with NATO, the EU uses the experience and military capabilities of the North Atlantic Alliance and develops relations of strategic partnership. Currently, the EU CSDP continues to evolve and this directly affects the strength of the EU's influence on world politics.

**Keywords**: European Union, Common Foreign and Security Policy, Maastricht Treaty, Common Security and Defence Policy, European Defence Agency.

**Giriş.** Öz iqtisadi göstəricilərinə, beynəlxalq siyasətə təsiretmə gücünə görə dünyanın ən güclü regional qruplaşması olan Avropa İttifaqı digər inteqrasiya birliklərindən kəskin fərqlənib Avropanın simasını, ümumi siyasətini müəyyənləşdirir. Avropa İttifaqı (Aİ) tarixi boyunca üç mərhələdən ibarət inkişaf yolu keçdi. Birinci mərhələ 1950-ci illərdən 1970-ci illərin əvvəllərinədək (1973-cü il), ikinci mərhələ 1980-ci illərin ortalarınadək (1981 və 1986-cı il), üçüncü mərhələ isə 2013-cü ilədək (1995, 2004, 2007 və 2013-cü il) davam etdi. Üçüncü mərhələdə Aİ öz fəaliyyətində mühüm dəyişiklər etdi. İnstitusional dəyişikliklərlə yanaşı, genişlənmə siyasətinə başlayan Aİ postsosialist ölkələrinin ittifaqa inteqrasiyasına imkan yaradaraq Avropanın

yeni dünya nizamında İkinci Dünya müharibəsindən sonra itirdiyi güc mərkəzi rolunu bərpa etməyə yönəlik siyasət yeritməyə başladı və «soyuq müharibə» illərində iki ideoloji cəbhəyə ayrılmış qitəni birləşdirməyə nail oldu.

Məlumdur ki, bipolyar nizamın sona çatması təhlükəsizlik sahəsində Avropanın ABŞ-dan asılılığını azaltdı və Aİ-də inteqrasiya proseslərinə təkan verdi. «Soyuq müharibə»dən sonra beynəlxalq münasibətlərdə baş verən hər yeni böhran (Yuqoslaviyada münaqişələr,1999-cu il Kosovo böhranı, 2001-ci il 11 sentyabr hadisələri, ABŞ-ın İraqa təcavüzü, Krımın Rusiya tərəfindən işğalı) təşkilatın böhranların qarşısının alınmasında və yeni təhdidlərə qarşı mübarizədə hələ də zəif olduğunu göstərdi. Bununla belə, hər bir böhran Ümumi Xarici və Təhlükəsizlik Siyasəti (ÜXTS (ing.CFSP)) və Ümumi Təhlükəsizlik və Müdafiə Siyasətinin (ÜTMS (ing.CSDP)) inkişafına müəyyən təsir göstərdi. Yeni geosiyasi durum AİB (1992-ci ildən Aİ) ölkələrini qitənin təhlükəsizlik məsələləri ilə bağlı birgə mövqedən çıxış etməsi üçün yeni və daha effektiv addımlar atmağa sövq etdi. Aİ ölkələri ÜXTS və ÜTMS-nin formalaşdırılması istiqamətində səylərini birləşdirdilər.

1992-ci ildə qəbul edilmiş Maastrixt müqaviləsi ittifaqın ÜXTS və ÜTMS-nin formalaşdırılması istiqamətində birlik ölkələrinin səylərinin nəticəsi oldu. Ümumi Təhlükəsizlik və Müdafiə Siyasəti (ing.-Common Security and Defence Policy) Aİ-nin ÜXTS-nin əsas elementi olub müdafiə, hərbi, eləcə də mülki böhranların idarə olunmasına aid olan siyasət sahəsidir. ÜTMS formal olaraq Aİ-nin qurumlarından olan Aİ Şurasının səlahiyyətləri sferasına daxildir.

## Avropa İttifaqının Ümumi Təhlükəsizlik və Müdafiə Siyasətinin təkamülü

Müasir Avropa təhlükəsizliyinin əsas zəminləri İkinci Dünya müharibəsi başa çatdıqdan sonra yaranmışdı. Ümumavropa səviyyəsində əməkdaşlıq etmək zərurəti bir sıra səbəblərlə, əsasən yeni qlobal münaqişədən çəkinməyə səy göstərməklə şərtlənmişdi. Avropa ölkələrini təhlükəsizlik sahəsində əməkdaşlıq etməyə və inteqrasiyaya, ilk növbədə nüvə müharibəsi təhlükəsi sövq etmişdi. İkinci Dünya müharibəsindən sonra Avropada sülh və əmin-amanlığı təmin etmək üçün beynəlxalq münasibətlərin yeganə forması məhz əməkdaşlıq oldu. Avropa xalqları arasında kəskin münasibətlər, mübahisəli ərazilər problemi, müharibənin başlanmasına görə məsuliyyət, müharibə xərcinin ödənilməsi və s. problemlər inteqrasiya təşəbbüslərinin inkişafına əngəllər yaratdı. Müharibədən sonra Qərbdə Avropa təhlükəsizliyi paradiqması «atlantizm» və «Avropa mərkəzçiliyi» kimi müəyyənləşdirilən beynəlxalq əməkdaşlıqda bir-birinə zidd olmayan iki əsas yanaşma istiqamətində inkişaf etməyə başladı. Bu konsepsiyalar təhlükəsizlik sahəsində Avropada regional əməkdaşlığın institusional

mexanizmlərinin formalaşmasında və bir sıra beynəlxalq hüquqi aktlarda öz əksini tapdı.

Dünkerk Paktı və Brüssel Müqaviləsi Avropada iqtisadi, sosial, mədəni əməkdaşlığın və kollektiv özünümüdafiə siyasətinin əsasını qoydu. Brüssel Müqaviləsinə əsasən Avropada müharibə təhlükəsinin qarşısını almaq üçün Qərbi Avropa İttifaqı (QAİ) yaradıldı. Lakin qitə ölkələrinin ehtiyatlarının azalması və Qərbi Avropanın ABŞ-dan əhəmiyyətli dərəcədə iqtisadi asılılıq vəziyyətində olması səbəbindən praktikada bunu reallaşdırmaq mümkün olmadı. «Soyuq müharibə» illərində SSRİ-nin nüfuzunun və hərbi potensialının artması səbəbindən Avropa dövlətləri siyasi, strateji və ideoloji müttəfiq kimi ABŞ-ın köməyinə arxalanmağa məcbur oldular [8].

Birliyin ümumi xarici və müdafiə siyasəti sahəsində inteqrasiyası böyük problemlərlə qarşılaşdı. İnteqrasiyaya ilk cəhd 1952-ci ilin əvvəllərində Fransa, Almaniya, İtaliya, Belçika, Niderland və Lüksemburqun Avropa Müdafiə Birliyinin (AMB) yaradılması haqda müqaviləni imzalaması ilə edildi. Lakin Fransa parlamenti AMB-nin yaradılmasına maneəçilik törətdi. İnteqrasiya siyasətdən iqtisadiyyata doğru istiqamətdə inkişaf etməyə başladı.

1974-cü ildə Siyasi İttifaqın yaradılması haqda tövsiyyələri qəbul edən dövlət və hökumət başçıları səviyyəsində AİB-in yeni orqanı - Avropa Şurası (1949-cu ildə yaradılmış və hal-hazırda 47 ölkəni sıralarında birləşdirən beynəlxalq təşkilat olan Avropa Şurası ilə səhv salınmamalıdır) təsis edildi. Siyasi İttifaqın yaradılması ilə bağlı danışıqlar və məsləhətləşmələr milli dövlətlərin səlahiyyətlərinin müdafiəçiləri və üstmillilik tərəfdarlarının ənənəvi qarşıdurması ilə rastlaşdı, eləcə də bir çox ölkələr NATO-nun funksiyalarının təkrarlanmasına qarşı çıxdılar.

1985-ci ildə Milanda AFR-in kansleri Helmut Kol və Fransa prezidenti Fransua Mitteran razılaşdırılmış xarici və müdafiə siyasətinin yürüdülməsini nəzərdə tutan birgə Avropa İttifaqı haqda Müqavilə layihəsini irəli sürdülər.

Avropa təhlükəsizlik siyasəti 1990-cı illər ərzində QAİ, NATO və Aİ çərçivəsində, bir neçə yol ilə inkişaf etdi. 1992-ci ilin iyununda Bonnda keçirilən görüşdə QAİ ölkələri NATO, Aİ və QAİ arasında əlaqələrə dair «Petersberq Bəyannaməsi»ni qəbul etdilər. Bəyannamə QAİ-nin funksiyalarının genişləndirilməsini nəzərdə tuturdu. O, iştirakçı ölkələrin ərazilərinin müdafiəsini təmin etməklə yanaşı, humanitar və xilasetmə əməliyyatların, sülhməramlı missiyaların keçirilməsi, eləcə də böhranların idarə olunması üzrə vəzifələrin yerinə yetirilməsi, o cümlədən Aİ-nin maraqlarına uyğun və NATO ilə qarşılıqlı əlaqədə sülhə məcburetmə tədbirlərinin görülməsini mənimsəməli idi. 1992-ci ildə QAİ ilə Aİ arasında əlaqələr quruldu və Aİ onun üzərinə «Petersberq vəzifələri» (humanitar missiyalar, eləcə də sülhün dəstəklənməsi və böhranların idarə olunması) qoydu. Bu vəzifələr sonralar Amsterdam müqaviləsi ilə QAİ-dən Aİ-yə verilmişdir [9]. Onlar yeni ÜXTS və ÜTMS-nin

bir hissəsi oldu. QAİ-nin elementləri Aİ-nin ÜXTS ilə birləşdirildi və QAİ-nin prezidenti Aİ-nin Ali Nümayəndəsi oldu. Nəticədə, QAİ Amsterdam müqaviləsi ilə Aİ-yə daxil oldu. 2010-cu ildə gerçəkləşmiş bu birləşmə nəticəsində QAİ 30 iyun 2011-ci ildə ləğv edildi [17].

ÜXTS və ÜTMS-nin formalaşdırılması istiqamətində Aİ-nin ilk addımı Maastrixt müqaviləsinin imzalanması oldu. Maastrixtt Müqaviləsinin hazırlıq çalışmalarını təşkil edən hökumətlərarası konfransda (HK) təhlükəsizlik və müdafiə məsələləri ilə bağlı müxtəlif təkliflər edildi. Bu təkliflər ətrafında aparılan uzun danışıqlar nəticəsində üzvlər arasında uzlaşma əldə olundu. Qeyd etmək lazımdır ki, Aİ üzvlərinin təhlükəsizlik və müdafiə məsələlərinə baxışlarının fərqli olması bu müzakirələrin çətin keçirilməsinə səbəb olmuşdur. Almaniya ilə Fransa AB-nin müdafiə məsələsində muxtariyyətə sahib olmasına çalışmış, Böyük Britaniya, İtaliya, Niderland, Danimarka və İrlandiya isə bu təklifə qarşı çıxaraq NATO-nun ağırlıqlı roluna toxunulmaması və Avropanın təhlükəsizliyinin təşkilatlanmasında mövcud vəziyyətin qorunması kimi bir yanaşmanı müdafiə etmişdilər [13, s.146].

Maastrixt Müqaviləsi özü ilə bərabər bir sıra radikal dəyişikliklər gətirdi. Müqavilədə Vahid Avropa Aktında göstərilən «siyasi əməkdaşlıq» anlayışı «siyasi birlik» anlayışı ilə əvəz olundu. AİB siyasi birlik anlayışı ilə ümumi xarici siyasət və ümumi müdafiə siyasətini hədəfləmişdi.

Maastrixt müqaviləsi 1993-cü ildə ilk dəfə Aİ-nin üç sütunu anlayışını irəli sürdu. Sütunlardan birincisi müqavilələrlə səlahiyyətləri artırılmış Avropa Birliklərindən ibarətdir [14, s. 422]. İkinci sütunu Ümumi Xarici və Təhlükəsizlik Siyasətinin formalaşması təşkil etdi. Sazişdə aşağıdakı prinsiplər elan olundu:

1. BMT-nin Nizamnaməsinə uyğun olaraq ümumi dəyərlərin qorunması;
2. Aİ-nin təhlükəsizliyinin gücləndirilməsi;
3. Beynəlxalq təhlükəsizliyin və sülhün qorunması;
4. Avropanın ümumi xarici siyasətin müəyyənləşdirilməsində Aİ-nin lider rolunun artırılması;
5. Beynəlxalq hadisələrin təhlil edilməsi və qərar qəbul etmək məqsədilə erkən xəbərdarlıq üçün yeni siyasətin planlaşdırılması üzrə bölmənin yaradılması;
6. Ümumi Xarici və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndə vəzifəsinin təsis edilməsi [9].

Bununla da, ÜXTS Aİ-nin fəaliyyətinin yeni istiqaməti oldu. Amsterdam Müqaviləsi (1997) ittifaqın fəaliyyətinin səmərəliliyinin artırılması məqsədi ilə ÜXTS-də dəyişikliklər etdi. Aşağıdakı institusional yeniliklər nəzərdə tutulmuşdu: «Ümumi Strategiya», xarici siyasi aksiyalarda iştirak zamanı «konstruktiv bitərəflik» imkanı, ÜXTS üzrə Ali Nümayəndə vəzifəsi, Aİ Şurasının Baş Katibliyinin tərkibində xarici siyasət üzrə əlavə aparatın yaradılması, eləcə

də QAİ və onun tabeliyində olan orqanlarının Aİ-nin institutlarının ümumi sisteminə tədricən daxil olması haqda müddəalar daxil idi [7].

1998-ci ilin dekabrında San-Maloda J.Şirak və T. Bleyrin görüşü ÜXTS-nin inteqrasiyası məsələsinin həllində dönüş nöqtəsi oldu. «Petersberq missiyaları»nı həyata keçirmək üçün Aİ-nin hərbi imkanlarını təmin etmək məqsədi ifadə edildi.

1999-cu ilin iyununda Köln sammitində Aİ ölkələri xarici siyasət koordinasiyasının dərinləşdirilməsi və təhlükəsizlik və müdafiə sahəsində ümumi siyasətin (ÜMTS) yürüdülməsinə keçid haqda qərar qəbul etdilər. Bu siyasətin işlənib hazırlanması və həyata keçirilməsi Aİ-nin xarici siyasət və təhlükəsizlik məsələləri üzrə Ali Nümayəndəsi vəzifəsini icra edən, NATO-nun keçmiş baş katibi Havyer Solananın səlahiyyətlərinə verildi. Beləliklə, xarici tərəfdaşlarla əlaqələrdə Aİ-nin siyasi və hərbi-siyasi təmsilçiliyi ilə bağlı səlahiyyətlər ittifaqın Ali Nümayəndəsinin əlində cəmləşdi.

Avropa Şurasının 1999-cu ildə Kölndə keçirilən görüşündən sonra təhlükəsizlik və müdafiə sahəsində ümumi siyasət ümumi və təhlükəsizlik sahəsində siyasətin əsas hissəsini təşkil etməyə başladı. 1999-cu ilin dekabrında keçirilən Aİ-nin Helsinki sammitində 2003-cü ilədək «Petersberq missiyaları»nın bütün spektrlərinin həyata keçirilməsi üçün sərbəst hərəkət edə bilən, iki ay ərzində sayı 60 min nəfərdən ibarət hərbi kontingentin («çevik qüvvələr korpusu») yaradılması haqda qərar qəbul edildi. «Çevik qüvvələr korpusu»nun yaradılmasında təşkilatın məqsədi beynəlxalq böhranların həlli üçün təşkil edilmiş hərbi sülhyaratma əməliyyatlarında iştirak etməklə dünyada öz siyasi çəkisini artırmaq idi [6].

2000-ci ildən Aİ-nin yeni strukturları - Siyasi və Təhlükəsizlik Komitəsi (xarici siyasət və hərbi məsələlərin koordinasiyası üçün) və Hərbi Komitə (üzv ölkələrin ali hərbi qərargah başçılarından ibarət) fəaliyyət göstərir. 2009-cu ildə Lissabon müqaviləsi ilə Aİ-nin xarici işlər və müdafiə siyasəti sahəsində səlahiyyətləri genişlənmişdir. Aİ-nin xarici və müdafiə siyasəti sahəsində nümayəndəliyi təsis edilmişdir [17].

Avropa İttifaqı haqda Müqavilə xarici siyasət və təhlükəsizlik siyasəti sahəsində ittifaqın fəaliyyətini kifayət qədər ümumi şəkildə ifadə edirdi. Müqavilənin XI maddəsinin I hissəsində qeyd olunur: «Aİ aşağıdakı məqsədləri rəhbər tutaraq ümumi xarici və təhlükəsizlik siyasətini həyata keçirir: ümumi dəyərlərin, əsas maraqların, BMT Nizamnaməsinin prinsiplərinə uyğun olaraq İttifaqın müstəqilliyinin və bütövlüyünün qorunması; bütün mümkün vasitələrlə İttifaqın təhlükəsizliyinin gücləndirilməsi; BMT Nizamnaməsi və Helsinki Yekun Aktının prinsiplərinə, o cümlədən Paris Xartiyasının məqsədlərinə uyğun olaraq beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi; beynəlxalq əməkdaşlığa yardım etmək; inkişaf, demokratiya və qanunun aliliyinin, əsas insan hüquq və azadlıqlarının müəyyənləşdirilməsi» [7].

Avropa İttifaqı haqda Müqavilənin XI maddəsinin II hissəsində göstərilmişdir ki, üzv dövlətlər loyallıq və həmrəylik (qarşılıqlı) prinsipləri əsasında ittifaqın xarici siyasət və təhlükəsizlik siyasətini açıq və fəal olaraq dəstəkləməlidirlər.

1998-ci ilin payızında Böyük Britaniyanın Avropada hərbi-siyasi əməkdaşlığa dair müxalif mövqeyindən imtina etməsi QAİ-nin Aİ-yə inteqrasiyası və Avropa Təhlükəsizlik və Müdafiə Siyasətinin (ATMS) inkişafı üçün yol açdı.

ATMS çərçivəsində Avropa çevik hərəkat qüvvələrinin (AÇHQ) yaradılması ilə bağlı Fransa-Britaniya planının və Avropa polis korpusunun (APK) formalaşmasına dair Danimarka-Niderland proqramının həyata keçirilməsinə başlanıldı. İlk plana əsasən humanitar və sülhməramlı tədbirləri keçirmək üçün iki ay müddətinə 50-60 min nəfərdən ibarət hərbi kontingentini təşkil edə biləcək Avropa çevik hərəkat qüvvələrinin (AÇHQ) yaradılması nəzərdə tuturdu [4]. Bu layihə 1999-cu ilin aprelində NATO-nun Vaşinqton sammitində bəyənildi.

1999-cu ildə Kosovoda müharibə başa çatdıqdan sonra Avropa Şurası «İttifaq NATO-nun əməliyyatlarına zidd olmayan və beynəlxalq böhranların həllində etibarlı hərbi qüvvələrin dəstəyi ilə sərbəst şəkildə hərəkət imkanlarına və həmin qüvvələrin onların istifadə edilməsi ilə bağlı qərar qəbul etmək vasitələrinə malik olmalıdır»- bəyan etdi. Bu məqsədlə Helsinki Məqsəd proqramı çərçivəsində Aİ-nin hərbi potensialının artırılması üçün bir sıra səylər göstərildi. Uzun müzakirələrdən sonra konkret nəticə Aİ-nin Battlegroups təşəbbüsü oldu. Bu təşəbbüsə görə 1500 nəfərin təcili səfərbər edilməsi planlaşdırılırdı. Aİ-nin hərbi qüvvələri Afrikada, Balkanlarda və Yaxın Şərqdə sülhü dəstəkləmə missiyalarında fəaliyyət göstərməli idilər.

Danimarka-Niderland təşəbbüsü 2003-cü ilədək böhranlı ərazilərdə hərbi qüvvələrin funksiyalarına xas olmayan mülki qaydaların və hüququn qorunması üçün 5 min nəfərə qədər Avropa polis korpusunun (APK) formalaşdırılmasını nəzərdə tuturdu. APK 30 gün ərzində böhranlı ərazidə 1000 nəfərədək polisi yerləşdirməyi bacarmalı idi. 2003-cü ildə Bosniya və Herseqovinada BMT-nin sülhməramlı qüvvələrini əvəz etməklə bağlı Aİ Şurasının qərarlarını yerinə yetirmək məhz polis qüvvələrinə tapşırıldı [3].

## Avropa İttifaqı-NATO arasında praktik əməkdaşlıq

Aİ-nin Avropa əməliyyatlarını keçirmək üçün NATO qüvvələrindən və vasitələrindən istifadə imkanları iki təşkilat arasında gedən gərgin danışıqlar zamanı müzakirə olundu və 2002-ci il dekabrın 16-da Avropa Təhlükəsizlik və Müdafiə Siyasətinə dair NATO və Aİ arasında birgə Bəyannamənin imzalanması ilə başa çatdı. Avropada təhlükəsizliyin qorunmasında NATO-nun aparıcı rolunu tanıyaraq Aİ ATMS çərçivəsində NATO-nun planlaşdırma vasitələrin-

dən (imkanlarına) istifadə etmək, o cümlədən Alyansın Mons şəhərindəki (Belçika) Avropada hərbi qüvvələrinin baş komandanlığının qərargahına giriş hüququ aldı [4].

NATO-Aİ arasında praktiki əməkdaşlığın inkişafı istiqamətində atılan mühüm addımlardan biri kimi Berlin Plyus razılaşmasını göstərmək olar. 2003-cü ilin martında razılaşdırıldığı kimi bu razılaşmalar NATO-QAİ əməkdaşlığı çərçivəsində 1996-cı ildə Berlində qəbul edilən qərarlara əsaslandığına görə Berlin Plyus adlandırılmışdır. Berlin Plyus razılaşmalarının əsas xüsusiyyəti aşağıdakı elementlərdən ibarətdir [1, s.249].

- Aİ-nin apardığı əməliyyatlarda hərbi planlaşdırmaya töhfə vermək qabiliyyətinə malik NATO-nun planlaşdırma imkanlarından Aİ-nin istifadə etməsinə zəmanət yaratmaq;
- Aİ-nin apardığı əməliyyatlarda istifadə üçün əvvəlcədən müəyyən-ləşdirilmiş Şimali Atlantika Alyansının imkanları və ümumi əmlakından Aİ-nin istifadə etmək ehtimalı;
- Aİ-nin apardığı əməliyyatlarda mövcud qüvvələrinə NATO-nun müdafiə planlaşdırma sisteminin geniş tətbiqinə daha da adaptasiyadır;
- Qarşılıqlı təhlükəsizlik müdafiəsi qaydaları çərçivəsində məxfi informasiyanın mübadiləsi ilə bağlı NATO-Aİ sazişi;
- NATO-nun əmlak və imkanlarından istifadə etməklə Aİ-nin apardığı böhranlara nəzarət əməliyyatları çərçivəsində NATO-Aİ məsləhət-ləşmə razılaşmaları [1, s. 249-250].

NATO-Aİ arasında strateji əməkdaşlıq həmçinin ümumi maraqlara səbəb olan digər sahələri də əhatə edir. Buraya planlaşdırma və hərbi imkanların inkişaf etdirilməsi ilə bağlı səylər daxildir. NATO mütəxəssisləri 2001-ci ilin noyabrında yaradılan Aİ-nin Avropa İmkanları üzrə Fəaliyyət Planının (AİFP) həm ilkin hazırlanması, həm də sonra həyata keçirilməsi üçün hərbi və texniki məsləhətlər vermişlər. 2003-cü ilin mayında əsası qoyulan NATO-Aİ İmkan Qrupu İttifaqın potensialından irəli gələn təşəbbüsləri və AİFP-nin birlikdə həyata keçirilməsi üçün çalışır və Berlin Plyus nizamlanmaları çərçivəsində NATO-Aİ gündəliyinin tərkib hissəsi kimi NATO Cavab Qüvvələri və yenicə yaradılmış Aİ Döyüş Qrupları arasındakı əlaqəni nəzərdən keçirir [1, s.251-252].

Döyüş qruplarından təşkil edilən Aİ çevik reaksiya birlikləri 2004-cü ilin fevralında elan edilən 2010-cu il üçün yeni Əsas Məqsədin tərkib hissəsidir. Məqsəd həmçinin müdafiə imkanlarını, tədqiqat, komplektləşdirmə və silahlanmaya diqqət yetirən Aİ Müdafiə Agentliyinin yaradılmasına gətirib çıxardı.

Müvafiq fəaliyyətləri üzrə informasiya mübadiləsi, mütəxəssis və heyət səviyyəsində məsləhətləşmə əlaqələr və birgə toplantılar vasitəsilə NATO və Aİ terrorizmlə mübarizə, kütləvi qırğın silahlarının yayılması, Aralıq dənizi məsələləri və Əfqanıstanda əməkdaşlıq üzrə birgə tədbirlər həyata keçirirlər.

İnformasiya mübadiləsi və əməkdaşlıq üçün əlavə sahələrə mülki əhalini kimyəvi, bioloji, radioloji və nüvə silahı hücumundan müdafiə, digər mülki fövqəladə vəziyyət planlaşdırması və kütləvi qırğın silahları ilə bağlı məsələlər daxildir.

## Lissabon müqaviləsinin Aİ-nin müdafiə siyasətinə etdiyi dəyişikliklər

Lissabon müqaviləsi (2009-cu il) əvvəlki müqavilələrdən fərqli olaraq Aİ-nin müdafiə siyasətinə mühüm yer ayırdı. «Ümumi Təhlükəsizlik və Müdafiə Siyasətinə dair müddəalar üzv dövlətlərin təhlükəsizlik və müdafiə siyasətinin ayrı-ayrı aspektlərinə xələl gətirmir. Aİ və milli dövlətlər BMT-nin Nizamnaməsinin müddəalarına sadiq qalır .....» (30-cu Bəyannamə) [17]. Ümumi Təhlükəsizlik və Müdafiə Siyasəti məsələləri üzrə qərarlar yekdilliklə qəbul edilir (Aİ haqda müqavilənin 17-ci maddəsi), proseduru dəyişmək imkanı və kvalifikasiyalı əksəriyyət prinsipinin tətbiq olunması istisna olunurdu (Roma müqaviləsinin 280 H maddəsi). Məhkəmə səlahiyyətləri bu sahəyə şamil olunmurdu (Roma müqaviləsinin 240 H maddəsi). Müdafiə sahəsində ümumi siyasətə keçid Avropa İttifaqı Şurasının yekdil qərarı əsasında həyata keçirilirdi (Roma Müqavilənin 27 (1) maddəsi). İslahatlar haqda bu müqavilə Aİ-yə üzv ölkələrin məcburi kollektiv məsuliyyətini müəyyənləşdirdi. Aİ-yə üzv dövlət təcavüzə məruz qalarsa, digər ölkələrin «bütün mümkün vasitələrlə» dəstək vermək və yardım etmək «öhdəliyi» daşıyırlar. Bu öhdəlik bir sıra ittifaq üzvlərinin (bitərəf dövlətlərin və ya xüsusi müqavilələrlə bağlı olan) təhlükəsizlik siyasətinin xüsusiyyətlərini və NATO çərçivəsində imzalanmış müqavilələri pozmur (Aİ haqda Müqavilənin 27 (7) maddəsi) [7].

## Avropa İttifaqının hərbi strukturları

Avropa İttifaqının hərbi srtukturlarına (ing.-*military of the European Union*) həm hökumətlərarası səviyyədə, həm də Aİ-nin institusional strukturları- ÜTMS və ÜXTS çərçivəsində üzv ölkələrin silahlı qüvvələri arasında yaradılmış müxtəlif əməkdaşlıq strukturları daxildir. Müdafiə siyasəti əsasən milli dövlətlərin səlahiyyəti sahəsinə daxildir.

Məlumdur ki, Avropada əsas hərbi ittifaq hökumətlərarası təşkilat olan Şimali Atlantika Müqaviləsi Təşkilatıdır. NATO hal-hazırda öz sıralarında 22 Aİ üzvünü, 5 Aİ üzvü olmayan (Albaniya, İslandiya, Monteneqro, Türkiyə və Norveç), eləcə də ABŞ və Kanadanı birləşdirir. ÜTMS-nin inkişafı NATO-nun rolu baxımından mübahisəli məsələdir. Avropa inteqrasiyasının hərbi forması XXI əsrin əvvəllərində gücləndi və ÜTMS-nin çoxsaylı əməliyyatlarının və Aİ-nin hərbi qruplarının yaradılmasına gətirib çıxardı. Lakin sonuncular əməliyyatlarda heç vaxt iştirak etməmişlər. Hərbi inteqrasiya üzrə digər təşəbbüslər –

Avropa korpusu, jandarma qüvvələri və hava nəqliyyatı komandanlığı hökumətlərarası olub Aİ-nin ÜXTS çərçivəsindən kənarda fəaliyyət göstərirlər.

Avropa İttifaqı haqda müqavilənin 42-ci maddəsi Avropa İttifaqının təşkilati strukturunda mühüm hərbi inteqrasiyanı nəzərdə tutur [10]. Tam inteqrasiya - dövlət və hökumət başçılarının Avropa Şurasında (Aİ Şurası) yekdilliyini tələb edən mümkün variantdır. Hal-hazırda o siyasi çıxmazdadır, belə ki, Böyük Britaniya tənqidi mövqe nümayiş etdirir. 42-ci maddə bəzi üzv dövlətlərin silahlı qüvvələri arasında daimi strukturlaşdırılmış əməkdaşlığı nəzərdə tutur. 2015-ci ilədək bu variant istifadə olunmurdu, baxmayaraq ki, keçmiş Fransa prezidenti Nikolya Sarkozi, Almaniya kansleri Angela Merkel, İtaliyanın keçmiş XİN Franko Frattini və Belçikanın keçmiş baş naziri Gi Verhofstadt kimi görkəmli xadimlər ümumi müdafiə ittifaq ilə bağlı çağırışlar etdilər [15], [16]. Bu məsələ ətrafında müzakirələr Ukrayna ilə bağlı Aİ və Rusiya arasında qarşıdurma nəticəsində fəallaşdı. Avropa Komissiyasının sədri Jan-Klod Yunker, eləcə də digər Avropa liderləri və siyasətçiləri Aİ-nin silahlı qüvvələri ilə bağlı çağırışlar etdilər. Almaniya parlamentinin xarici siyasət komitəsinin rəhbəri Norbert Röttgen Aİ ordusu «Avropa perspektivi idi və onun vaxtı çatıb» qeyd etdi [17]. 42-ci maddə 2015-ci ilin noyabrında Parisdə baş verən terror aktlarından sonra tətbiq edildi. Fransa prezidenti Fransua Olland Parisdə baş vermiş terror hücumlarının bütün Avropaya qarşı olduğunu iddia etdi [17].

Hal-hazırda Aİ-nin altı ölkəsinin ərazisində nüvə silahı var: Fransa və Böyük Britaniya öz şəxsi nüvə proqramlarına malikdirlər, Belçika, Almaniya, İtaliya və Niderland isə NATO-nun nüvə mübadiləsi siyasəti çərçivəsində ABŞ-ın nüvə silahını ərazilərində yerləşdirmişlər. Aİ-nin cəmi 525 nüvə başlığı vardır və ittifaq üzvləri öz ərazisində ABŞ-ın 90-130 nüvə başlığını yerləşdirmişdir [15, s.157]. Bəzi mənbələrdə ABŞ-ın Avropada 200 nüvə başlığı yerləşdirdiyi göstərilmişdir [5]. Aİ ölkələri ABŞ və Rusiyadan sonra nüvə silahlarının həcminə görə dünyada üçüncü yerdədir.

Bu gün Aİ-nin ÜXTS ilə yanaşı, təşkilatın vahid hərbi siyasətinin formalaşdırılması və ümumi silahlı qüvvələrin yaradılması istiqamətində fəaliyyəti səmərəli olaraq inkişaf etməkdədir. Aİ-nin silahlı qüvvələrinin NATO-ya alternativ kimi görən ABŞ-ın müqavimətinə və ittifaq daxilində problemlərə baxmayaraq bu proses davam edir.

Hələ 1990-cı illərdə Polşanın XİN Kşiştof Skubişevskinin təşəbbüsü ilə xarici siyasət məsələləri ilə bağlı məsləhətləşmələr məqsədilə yaradılmış «Veymar» üçbucağı bu gün birgə operativ hərbi birliyin formalaşdırılması ilə möhkəmlənmişdir. «Veymar» üçbucağı formatında əməkdaşlıq Almaniya, Fransa və Polşa arasında XİN səviyyəsində Avropanın bölünməsinin qarşısını almağa yönəlmişdi. Eyni tərkiblə hərbi əməkdaşlığa başlayan Aİ üzvləri təşkilatın hüdudlarından kənarda, böhranlı vəziyyətlərdə birgə fəaliyyət

göstərmək haqda qərar qəbul etdilər. «Veymar - Aİ»-də əsas rol Polşa kontingentinə məxsusdur, Fransa və Almaniya isə dəstək verməyi öhdələrinə götürdülər [18]. Veymar qrupunun yaradılması Avropa ordusunda Polşanın rolunu artırır. Dünyada müstəqil rol oynamağı hədəfləmiş Aİ-nin hərbi qruplarının yaradılması sırf siyasi məqsəd daşıdığı aydındır. Veymar qrupunun yaradılmasını Avropa ordusunda Şərqi Avropa ölkələrinin çəkisini artırmaq məqsədilə atılmış addım kimi qiymətləndirmək olar.

Qeyd etmək lazımdır ki, Aİ-nin hərbi taktiki qruplarının yaradılması konsepsiyasının müəllifi Böyük Britaniya və Fransa idi. Bu konsepsiyaya görə, 2008-ci ilədək Aİ-nin hüdudlarından kənarda qısa müddətdə böhran bölgəsinə göndəriləcək çevik qüvvələrin yaradılması nəzərdə tutulurdu. Hər birində 1,5-2,5 min nəfər olmaqla cəmi 13 belə qrupun yaradılması haqda razılıq əldə olunmuşdur. Qruplar monomilli və çoxmillətli qruplar şəklində çətin təbii-iqlim şəraitində hərəkət etmək bacarığına malik olmalıdırlar. Qərbi Avropa ölkələrinə monomilli qruplar yaratmaq həvalə olunsa da, Şərqi Avropa ölkələrinin heç birinə monomilli qrupa rəhbərlik etmək tapşırılmadı. Şərqi Avropa ölkələri çoxmillətli qrupların tərkibində və ya çoxmillətli qruplara rəhbərlik edirlər. Bu bölgü zamanı coğrafi yaxınlıq nəzərə alındı. Məsələn, Estoniya İsveçin rəhbərlik etdiyi, Macarıstan, Rumıniya və Sloveniya isə İtaliyanın rəhbərlik etdiyi qrupa daxil edilmişdi [4].

Aİ müdafiə sahəsində fəaliyyətinin səmərəliliyini artırmaq məqsədilə Avropa Müdafiə Agentliyini (ing.-European Defence Agency) təsis etdi və bu agentlik ittifaqın ÜTMS-ni dəstəkləyərək Avropanın müdafiə potensialının təkmilləşməsi üçün üzv dövlətlərin səylərinə yardım edir. 2004-cü ilin iyulunda yaradılan şurada dövlətlərin müdafiə nazirləri səviyyəsində görüşlər keçirirlər. Brüsseldə yerləşən AMA-nın missiyası müdafiə qabiliyyətini inkişaf etdirmək, müdafiə və texnologiyalar sahəsində araşdırmalara yardım etmək, eləcə də rəqabətəqabil müdafiə məhsullarının Avropa bazarını yaratmaq, Avropanın müdafiə, texnoloji və sənaye bazasını möhkəmləndirməkdir. Agentliyə Aİ-nin ÜXTS üzrə Ali Nümayəndəsi başçılıq edir.

Aİ-nin hərbi əməliyyatları ittifaqın bir sıra orqanları, o cümlədən Avropa Müdafiə Agentliyi (peyk mərkəzi və hərbi heyət) tərəfindən dəstəklənir. 2000-ci ildə aralıq orqan kimi yaradılmış Aİ-nin siyasi təhlükəsizlik məsələləri komitəsi Nitsada Avropa Şurasının qərarında müdafiə və təhlükəsizlik siyasəti və ümumi xarici və təhlükəsizlik siyasətinin «dayağı» kimi təsvir olunurdu. Onun vəzifələrinə böhranların nizamlanması üçün Aİ-nin əməliyyatlarına «siyasi nəzarət və strateji rəhbərliyi» həyata keçirən xarici işlər üzrə Şura üçün rəylərin hazırlanması aid idi. Komitə səfirliklər səviyyəsində milli nümayəndəliklərdən ibarət olub daima fəaliyyət göstərən orqandır və Brüsseldə həftədə 2 dəfədən (çərşənbə axşamı və cümə günləri) az olmayaraq keçirilir. Komitəyə Avropa Xarici Əlaqələr Xidməti başçılıq edir.

Hal-hazırda Aİ ÜTMS çərçivəsində üç qitədə (Avropa, Afrika və Asiya) özünün mülki və hərbi alətlərindən istifadə etməklə bir çox əməliyyat həyata keçirir. Aİ-nin mülki və hərbi missiyalarından 6-sı hərbi, 9-u mülkidir. Bosniya-Herseqovinada başlanmış hərbi sülhyaratma əməliyyatları hal-hazırda Somalidə, Mali və Mərkəzi Afrika Respublikasında, mülki missiyaları Fələstində, Somalidə, Gürcüstanda, Liviya, Kosovo, Əfqanıstan, Niger, Ukrayna və Moldovada fəaliyyət göstərir. Bu sahədə Aİ NATO ilə yaxından əməkdaşlıq edərək Alyansın təcrübəsindən və imkanlarından istifadə etməklə strateji tərəfdaşlıq əlaqələrini inkişaf etdirməkdədir.

Qeyd etmək lazımdır ki, Aİ-nin xarici siyasəti insan hüquqlarının müdafiəsinə yönəlmişdir. Bu sahədə fəaliyyət Aİ-nin xarici siyasətinə uyğun həyata keçirilir, birbaşa mülki əhaliyə qarşı yönəlmiş zorakılıq əməllərinin baş verdiyi ölkələrə Aİ-nin hərbi və iqtisadi müdaxiləsini mümkün edir. Hərbi planda Aİ-nin ÜXTS və ÜTMS-nin NATO-ya alternativ yaradacağı şübhə doğurur, belə ki, Aİ üzvlərinin bir çoxu ekspedisiya potensialını təmin etmək üçün öz silahlı qüvvələrinin islahatlarını ya hələ başa çatdırmamış, ya da həyata keçirməmişlər. Bundan əlavə, Aİ-nin müstəqil fəaliyyət göstərməsi üçün nəzarət, əlaqə, eləcə də kəşfiyyat və loqistika komandanlığı inkişaf etdirməlidir [2].

**Nəticə.** Ümumi Avropa ordusunun yaradılması ideyası AİB yaranandan sonra aktuallaşsa da, ittifaq üzvlərinin konsensusa gəlməməsi nəticəsində bu məsələ yalnız postbipolyar dünya nizamı dövründə müzakirələr doğurdu və irəliləyişlər əldə olundu. Aİ özü məhdud hərbi potensiala malikdir, belə ki, Birlik üzvləri öz ərazilərinin müdafiəsinə görə məsuliyyət daşıyırlar. Bundan əlavə, Aİ-nin əksər üzvləri Avropa təhlükəsizliyinin təminatçısı olan NATO-ya daxildirlər. Aİ-nin təsiri onun genişlənmə siyasəti nəticəsində artmaqdadır. Aİ öz təsirini yayarkən «yumşaq güc»dən istifadə edir. Aİ-nin öz qonşularına islahatlar prosesinə yardım etməsinin nümunəsi kimi, Moldova və Ukrayna hökumətinə sərhəd və gömrük prosedurlarının Aİ standartlarına uyğunlaşdırılması üçün yaradılmış Missiyasını göstərmək olar. Aİ-nin humanitar yardım ofisi və ya «ECHO» inkişaf etməkdə olan ölkələrdə Aİ-nin humanitar yardımını göstərir [12]. 2006-cı ildə onun büdcəsi 671 milyon avro təşkil etmişdir. Aİ dünyanın ən böyük yardım donorudur [11].

Nəticə etibarilə, bipolyar nizamın sona çatması təhlükəsizlik sahəsində Avropanın ABŞ-dan asılılığını azaltdı və Aİ-də inteqrasiya proseslərinə təkan verdi. Aİ haqda Maastrixt müqaviləsi, Lissabon müqaviləsi Aİ-nin müdafiə və təhlükəsizlik sahəsində siyasətini inkişaf etməyə imkanlar yaratdı. Müəyyən irəliləyişlərin əldə olunmasına baxmayaraq Aİ daxilində mərkəzdənqaçma meyllərinin baş qaldırması, eləcə də ittifaq üzvləri arasında təbəqələşmə, müdafiə və təhlükəsizlik məsələlərində mövqelərin üst-üstə düşməməsi və digər amillər təşkilatın bu sahədə siyasətinə əngəllər yaradır. Mövqelərin uyğunlaşdırılması və ümumi müdafiə və təhlükəsizlik məsələlərində bəzən kon-

sensusun əldə olunmasında problemlər yaşayan Aİ-nin ÜTMS inkişaf etməkdədir. Son illərdə Avropada terror dalğasının geniş vüsət alması, islamofobiyanın kəskin artması, miqrant axını və digər problemlər ittifaq üzvlərinin müdafiə və təhlükəsizlik sahəsində yekdil mövqe nümayiş etdirməsini və təhlükəsizlik sahəsində birgə fəaliyyət göstərmələrini, yaxın perspektivdə ÜTMS sahəsində Aİ-nin yeni addımlar atacağını labüd edir.

**Ədəbiyyat:**


1. NATO-nun məlumat kitabı. İctimai Diplomatiya Şöbəsi, 1110 Brüssel, 388 s.
2. Доннелли К. Европейская безопасность: новые вызовы и новые ответы. http://magazines.russ.ru/vestnik/2003/9/don-pr.html
3. Европейская политика безопасности и обороны (ЕПБО) http://n-europe.eu/glossary/term/592
4. Единая армия Евросоюза угрожает Америке. http://monavista.ru/news/edinaya_armiya_evrosoyuza_ugrozhaet_amerike/
5. Клинтон Х.: НАТО останется ядерным альянсом. 23.04.2010 http://rnd.cnews.ru/army/news/line/index_science.shtml?2010/04/23/387885
6. Общая оборонная политика ЕС. https://cribs.me/evropeiskoe-pravo/obshchaya-vneshnyaya-politika-i-politika-bezopasnosti-ovpb-es_
7. Правовые основы общей внешней политики и политики безопасности. Общая оборонная политика ЕС. http://jurisprudence-konspect.org/?content=5961
8. Стратегическая концепция. http://www/nato/int/cps/ru/SID-349727118-8D11946F/natolive/topics_56626.html (2010)
9. Хухлындина Л. Политика Европейского Союза в области безопасности и обороны. http://evolutio.info/content/view/201/49
10. Article 42, Treaty on European Union. http://www.lisbon-treaty.org/wcm/the-lisbon-treaty/treaty-on-european-union-and-comments/title-5
11. Commission calls for a European consensus to boost impact of humanitarian aid". European Commission. 13 June 2007. Retrieved 2007-08-13
12. DG for humanitarian aid – ECHO, financial report 2006". European Commission. 2006. Retrieved 2007-08-13
13. Heyman Charles. The Armed Forces of the European Union. 2012-2013. R&I: Defence Publications. 185 p.

14. Hurd D. Developing The Common Foreign and Security Policy // International Affairs, C.70, No. 3, July 1994, p. 421-428. 193.
15. Italy's Foreign Minister says post-Lisbon EU needs a European Army, The Times. 2009-11-15
16. Merkel's European Army: More Than a Paper Tiger? by Peter C. Glover, World Politics Review, 2007-04-25.
17. Security and Defence. https://eeas.europa.eu/headquarters/headquarters-homepage/area/security-and-defence_en
18. Weimar Triangle. http://www.msz.gov.pl/en/foreign_policy/europe/wweimar_triangle1

**UOT 32**

# ENERJİ STRATEGİYASININ MAHİYYƏTİ VƏ QLOBAL ENERJİ TƏHLÜKƏSİZLİYİ PROBLEMİ

**Könül Fəxrəddin qızı MƏMMƏDOVA**
Neftçala Heydər Əliyev Mərkəzində kiçik elmi işçi

konulmemmedova76@yahoo.com

## XÜLASƏ

Hər bir dövlətin dünyadakı imici və bir dövlət olaraq nüfuzu onun həyata keçirdiyi milli inkişaf və təhlükəsizlik siyasəti ilə bilavasitə bağlıdır. Milli inkişaf və təhlükəsizlik siyasəti ölkənin siyasi, iqtisadi, sosial və mənəvi inkişafının, xarici aləmdən qaynaqlanan təhlükələrə qarşı müqavimət gücünün göstəricisi kimi çıxış edir. Enerji təhlükəsizliyi müasir dövrdə milli təhlükəsizliyin əsas potensial bazası kimi daha ön planda mövqe tutur. Çünki bir ölkənin enerji təhlükəsizliyinin təmin olunması onun iqtisadi davamlılığını şərtləndirməklə yanaşı, siyasi gücünü, həm də nüfuzunu artırır.

**Açar sözlər:** enerji strategiyası, milli təhlükəsziliik, enerji siyasəti, iqtisadiyyat, qlobal enerji, enerji istehlakı

# THE ESSENCE OF ENERGY STRATEGY AND GLOBAL ENERGY SECURITY PROBLEM

## SUMMARY

The image and the prestige of each state in the world directly linked to its national development and security policy. National development and security policyacts as an indicator of resistance against the threats from external world of the political, economic, social and moral development country. Security policy in modern age is in the foreground as the main potential of national security. Because to provide energy security of a country increases both itseconomic viability and political power.

**Keywords:** energy strategy, national security, energy policy, economy, global energy, energy consumerism

# СУТЬ ЭНЕРГЕТИЧЕСКОЙ СТРАТЕГИИ И ПРОБЛЕМА ГЛОБАЛЬНЫОЙ ЭНЕРГЕТИЧЕСКОЙ БЕЗОПАСНОСТИ


## РЕЗЮМЕ

Образ и влияние каждого государства в мире напрямую связаны с политикой национального развития и безопасности. Политика национального развития и национальной безопасности выступает как показатель политического, экономического, социального и нравственного развития страны, а также как показатель сопротивления страны внешним угрозам. В наше время энергетическая безопасность стоит на переднем плане в качестве основного потенциала национальной безопасности, потому что обеспечение энергетической безопасности страны обуславливает ее экономическую жизнеспособность и наряду с этим, увеличивает ее политическую силу и влияние.


**Ключевые слова:** энергетическая стратегия, национальная безопасность, энергетическая политика, экономика, глобальная энергия, потребление енергии

İnsan həyatı, onun rifahı üçün bütün nemətlər vacibdir. Ancaq bunlar arasında elələri vardır ki, onların bir qismi istehlakının daimiliyi baxımından həmişə əhəmiyyətlidir. Qıt olduqda əsl problemlər yaradan ərzaq və enerji təminatı kimi sahələrin elə özünəməxsus xüsusiyyətləri vardır ki, burada aparılan düzgün planlaşdırma həyati təhlükəsizlik qədər əhəmiyyət daşıyır. Dünyada haqlı olaraq ərzaq və enerji təhlükəsizliyi kimi yanaşılan bu iki mühüm sahənin uğurlu fəaliyyəti iqtisadiyyatın digər sahələrinin də inkişafına təkan verir. Bu mövzu öz aktuallığı ilə, əslində, dövrümüzün insanlarına yaxşı tanışdır.

Enerji anlayışı kifayət qədər genişdir və bu barədə, demək olar ki, hər gün, hər yerdə və müxtəlif səviyyələrdə danışılır, müzakirələr aparılır. Təsərrüfatda və məişətdə müxtəlif enerji növlərindən istifadə etməklə insanlar həyatını asanlaşdıran, əl əməyini əvəz edən, soyuqda istiliyi, istidə sərin havanı təmin edən hər cür maşın və avadanlıqlar işlədir, enerjidən istifadə ilə yeni yollar, binalar tikilir, nəqliyyat, rabitə əlaqələri qurulur. Bir sözlə, enerjinin gücü ilə insanın bütün həyatı dəyişir, onun quruculuq arzuları reallaşır desək, yanılmarıq. Ona görə də neçə əsrlər boyu dünyada bütün qlobal maraqların arxasında, əslində, enerji maraqlarının da gizləndiyi bu gün heç kəsə sirr deyil (1).

Enerji strategiyası milli enerji təhlükəsizliyinin əsas tərkib hissəsi olaraq əksər iqtisadi inkişaf etmiş müasir modern ölkələrdə dövlətin uzunmüddətli strateji proqramlarından biri kimi təyinat alır. Enerji strategiyası milli enerji siyasətinin konkretləşməsi, dəqiq təyinatlı fəaliyyət məqsədlərinə və hərəkətin

təşkili metodlarına zəruri resurslar və mümkün potensial imkanlar müqabilində seçilmiş yolla nailolma çərçivəsində onun işçi sənədinə çevrilməsini şərtləndirir. Struktur kompozisiyada strategiya plan, idarəetmə sənədləri, qrafiklər, büdcə və digər bu kimi zəruri elementləri özündə birləşdirən modernizasiya və köklü yenidənqurmanın fəaliyyət proqramı kimi çıxış edir.

Enerji strategiyasi yeni institusional yaranış deyildir. Planetin iqtisadiyyatı enerji təməlində sistemləşdiyi zamanlardan anoloji strategiyalar silsiləvi olaraq müxtəlif ölkələrdə intişar tapmış, təbəddülatlara uğrayaraq yeni keyfiyyət və məzmun almışlar. Bir qədər fərqli adlanışda Sovetlər İttifaqında da müvafiq enerji strategiyası daim işlənmiş, hazırlanaraq realaşdırılmışdır. Qlobal axının gücləndiyi müasir zamanda isə hər bir ölkə enerji resurslarının mövcudluq diapazonunun fərqinə varmadan özünün enerji təhlükəsizliyini təmin etmək məqsədi ilə məxsusi enerji strategiyası formalaşdırmağa məhkumdur.

Enerji strategiyasının optimal forması Rusiyada 1992-ci ildən başlayaraq geniş tətbiq olunur. Lakin yeni reallıqlar növbəti mərhələlərdə bu strategiyanın korrektə olunmasını diktə etmişdir. Artıq burada məzmun və mahiyyətcə daha kamil formatda - 2020-ci ilə qədərki dövrü əhatə edən, taktikası biçimli və nikbin, hədəflərində neftin və qazın qiymətini nəzərə almaqla ÜDM-in artımına nailolmaya dayanan yeni enerji strategiyası işlənmiş və parlament müzakirəsindən keçərək Nazirlər Kabinetində təsdiqini tapmışdır. Enerji strategiyasının reallaşdırılmasına ölkənin akademik, sahəvi institutları, o cümlədən Yanacaq Enerji Kompleksi ilə bağlı mütəxəssislər cəlb olunmuş, Yanacaq Energetika Nazirliyinin yanında əlahiddə «Energetik Strategiya» adlanan elmi-tədqiqat institutu təsis edilmişdir (2).

Analoji enerji strategiyaları ölkənin modernizasiyası və inkişafı proqramının ayrılmaz hissəsini təşkil edərək Türkiyədə, Çin Xalq Respublikasında, əlahiddə, 2030-cu ilədək hesablanmış Ukraynada və digər ölkələrdə yeni quruluşda həyata keçirilməkdədir. ÜmumAvropa məkanında isə enerji strategiyası 50 ölkənin təmsil olunduğu «Enerji Xartiyası»nda birləşir. Bununla belə, hazırda Avropa Birliyi ölkələrinin enerji təhlükəsizliyinin daha dolğun təminatı «Avropa üçün təhlükəsiz, rəqabətqabiliyyətli və enerji girişli Yaşıl Kitab», «Enerji siyasətinin Brüssel konsepsiyası» «Enerji NATO-su» və sair bu kimi enerji strategiyalı proqram layihə və sənədlərdə inkişafını tapır. Enerji strategiyası regional kontekstdə «Şanxay Əməkdaşlıq Təşkilatı» ölkələrinin də assosiativ maraqlarının özəyində yer almışdır. Hələlik layihə mərhələsində olan bu reqlament sənədi «Asiya Enerji Strategiyası» adlanır. Məramına görə bu strategiya təşkilat ölkələrinin qarşılıqlı faydalı, balanslaşdırılmış, enerji bazarı ilə uzlaşan məqsədlərini ifadə edən enerji siyasətinin koordinasiyasını hədəf götürür (3, s.257).

Milli enerji strategiyasının formalaşması daxili potensialın təhlili ilə yanaşı, qlobal aləmdə gedən proseslərin, dünya enerji balansının inkişaf meylinin və bəşəri enerji istehlakının yüksəliş templərinin nəzərə alınmasını da

şərtləndirir. Dünya iqtisadiyyatında mineral-xammal sektoru sənaye istehsalı və energetikasının əsas bazasını təşkil edir. Xammal istehsalı və istehlakının dəyişkənliyi beynəlxalq ticarətdə sosial-iqtisadi duruma sirayət etməklə yanaşı, həm də qlobal kontekstdə dünya resurslar arsenalına təsir göstərir. Dünya iqtisadi artımı hər il daha çox enerji resurslarının mənimsənilməsi ilə təmin olunur və yeni-yeni enerji potensiallı ərazilər istehlak mənbəyinə çevrilir və onların istehlakı mütəmadi artır.

Neft və qazın resursları müasir sivilizasiyada təbiətlə cəmiyyət arasındakı tarazlığın saxlanılmasında həyati əhəmiyyətinin misilsiz olduğu danılmaz faktdır. Onların səmərəli istifadəsi qədər də yerləşməsi və əzəli ənənəvi ərazilərdə tükənməsi faktoru da narahatedicidir. Son dövrlərin statistikasına görə, planetar miqyasda hər il 14-15 milyard ton təbii ehtiyat üzvi yanacağa çevrilir. Enerji istehlakında neft-qaz resursları əhəmiyyətli yer tutsa da, neftin qlobal ehtiyatlarının 41 il, təbii qazın isə 67 ilə bəs edəcəyi proqnoz edilir. Bu resursların dünya yanacaq balansındakı aparıcı rolundan irəli gələrək onların axtarış-kəşfiyyat, hasilat-istismar dinamikası, texniki-texnoloji təchizatı prosesi də genişlənir. Hazırda innovasiya nailiyyətləri neftvermə əmsalının dünya üzrə orta çəkisini 40%-ə yaxınlaşdırmışdır. Əvvəllər texniki əlçatmaz, rentabelsiz hesab edilən ərazilərdə, okeanın daha dərin qatlarında neft-qaz ehtiyatlarının mənimsənilməsi reallığa çevrilir. Elektroenergetika balansında karbohidrogen təyinatlı resurslar yarıdan çox paya malikdirlər. Bununla belə, dünya əhalisinin $^1/_3$-nin elektrik enerjisinə çıxışı tamam yox, digər $^1/_3$-nin isə məhduddur. Əlbəttə, məhdudiyyətlər hər il azalmağa, tələblər isə artmağa meyillidir. Beynəlxalq Enerji Agentliyinin məlumatlarına görə 2050-ci ildə elektrik enerjisinə olan tələb 3 dəfə artacaq və bunun müqabilində istehlak da 2 dəfə yüksələcəkdir. Bütün bunlar bir daha onu göstərir ki, yaxın 30-50 il ərzində karbohidrogen erası sonlanacaq və yerini digər enerji resurslu yeni dövrə təhvil verəcəkdir. Başlıca olaraq isə onu atom energetikası, gələcəkdə isə qlobal istilik-nüvə sisteminin yaranışı əvəzləyəcəkdir. Bütün bu reallıqlardan irəli gələrək artan qloballaşma meylləri ilə bağlı yaxın 15-20 il ərzində dünya yanacaq və enerji sistemində yaşanacaq inkişaf ssenarisinin görüntülərinin yəqinləşdirilməsi zəruridir (4).

Müasir beynəlxalq münasibətlər sistemində iqtisadiyyatın getdikcə əhəmiyyət qazanma meyli özünü büruzə verir. Bu baxımdan, beynəlxalq münasibətlər leksikonunda geo-siyasət və geo-iqtisadiyyat anlayışlarının paralellik göstərməsi təsadüfi deyil. İqtisadiyyat sahəsində isə enerjinin əhəmiyyəti inkar edilməzdir. Hətta hal-hazırda enerji məsələsi ölkələrin milli təhlükəsizlik konsepsiyalarının əhəmiyyətli hissəsini təşkil edir. Belə bir vəziyyətin mövcud olması iqtisadiyyat və enerjinin milli təhlükəsizlik baxımından ələ alınmasına əsas təşkil edir.

Soyuq müharibə dövrünə nəzər salsaq, beynəlxalq nizamın şərtlərinə uyğun olaraq hərbi gücə söykənən təhlükəsizlik yanaşmasının üstünlük təşkil etdiyini görərik. Lakin 1973-cü ildə meydana gələn neft böhranı və 1980-ci illərdə Yaponiya və Almaniya kimi dövlətlərin iqtisadi baxımdan güclənməsi iqtisadi gücün əhəmiyyətli meyar kimi önə çıxmasına səbəb olmuşdur. Bunun ardınca, Sovet İttifaqının dağılmasında iqtisadi səbəblərin ağırlıq təşkil etdiyi müşahidə edilmişdir. Belə olan halda, hərbi gücün dominant mövqedəki əhəmiyyəti müzakirə edilməyə başlamışdır. Bu səbəblə, beynəlxalq nizamda təhlükəsizlik yanaşması baxımından hərbi gücün yanında, iqtisadi gücə söykənən təhlükəsizlik yanaşmasının da əhəmiyyət qazandığı müşahidə edilmişdir. Soyuq müharibə sonrasında dəyişən təhlükəsizlik yanaşmasında isə, iqtisadiyyat ilə birlikdə iqtisadiyyatın əsas faktorlarından biri olan enerjinin də iştirakını görə bilirik.

Bununla birlikdə, Soyuq müharibə sonrasında iqtisadiyyat və enerjinin təhlükəsizlik məsələsi ilə əlaqələndirilməsi enerji resursları baxımından bəzi nəticələrə gətirib çıxarmışdır. Bu vəziyyət, enerjinin milli və beynəlxalq maraqlara mövzu olmasına səbəb olmuşdur. Beləliklə, Soyuq müharibə sonrası nizamda aktorların təhlükəsizlik axtarışı səbəbiylə "enerji resurslarına yönəldiyi və bu resurslara rahat çata biləcəkləri bölgələrə" yönələn siyasətlər yeritdiyi görülmüşdür (5.s 59-66).

Bununla əlaqədar olaraq, beynəlxalq nizamdakı dəyişikliklərin neft və təbii qaz axınının təmin edilməsinə təsirləri vardır. Məsələn, Soyuq müharibə dövründə, RF və Xəzər bölgəsinin neft və təbii qaz resurslarının dünyanın geri qalan hissəsi üçün tamamən əlçatmaz olduğu deyilə bilər. Soyuq müharibədən sonra isə, Sovet İttifaqı və digər Şərq Bloku ölkələrində meydana gələn iqtisadi və siyasi dəyişikliklərin bu bölgələrdəki enerji resurslarının daha rahat əldə edilməsinə imkan yaratdığı söylənilə bilər. Bundan başqa, 1989-ci ildə Berlin Divarının yıxılmasının əhəmiyyətli nəticələrindən biri kimi beynəlxalq enerji bazarında daha çox enerji resursunun mövcud olması qeyd oluna bilər.

Beləliklə, Soyuq müharibədən sonra dünyanın müxtəlif bölgələrində tranzit baxımından yaşanan sərbəstliyin beynəlxalq dövriyyədəki enerji müxtəlifliyinin artmasına gətirib çıxardığının da şahidi oluruq. Bu vəziyyət beynəlxalq siyasətdə aktorların hərəkət sahəsini genişləndirmiş, enerji mənbələri və enerji tranzit yollarında hakimiyyət mübarizəsinin dünya miqyasında yayılmasına səbəb olmuşdur. Beləliklə, təhlükəsizliyin enerji ölçüsü üzərindəki rəqabəti beynəlxalq siyasətin "ən əhəmiyyətli mövzularından biri" halına gəlmişdir. Bu mövzuda, qarşıya çıxan enerji mənbələrinin başında isə neft və təbii qaz dayanır. Bu vəziyyətin səbəbləri arasında neft və təbii qazın istifadə sahəsinin müxtəlifliyi, kömürə görə nəql baxımından asanlığı və daha az çirklənməyə səbəb olması göstərilə bilər (6).

Soyuq müharibədən sonrakı dövrə nəzər salsaq görərik ki, bu dövrdə enerji təhlükəsizliyinin ölkələrin milli təhlükəsizliyi ilə əlaqələndirilməsindən danışıla bilər. Bu səbəblə, enerji təhlükəsizliyinin beynəlxalq siyasətdə dövlətlərin əsas maraq sahələrindən biri olaraq önə çıxmasından bəhs etmək mümkündür. Bu mövzuda, dövlətlərin enerji strategiyalarının və siyasətinin əsas hədəfi "enerji təminatı təhlükəsizliyinin iqtisadi, sosial və ətraf mühit təhlükəsizliyinə zərər vermədən, mümkün olan ən aşağı xərclə" təmin edilməsi kimi görülməkdədir. Enerji təhlükəsizliyinin ən əhəmiyyətli faktorları arasında isə "enerjinin fasiləsiz axışının təmin edilməsi, mənbə müxtəlifliyinin artırılması və enerji mənbələri üçün alternativ tranzit yollarının" yaradılması yer alır. Bu hədəfin reallaşması istiqamətində tətbiq olunacaq metod ölkə və mənbədən asılı olaraq müxtəlif olur.

Enerji mənbələrində müxtəliflik haqqında düzgün mülahizə yürütmə baxımından bu mövzuda önə çıxan anlayışlara açıqlıq gətirmək faydalı ola bilər. Məsələn, enerji mənbələri ümumi olaraq əsas və ikinci enerji mənbələri şəklində iki əsas başlıq altında araşdırıla bilər. Əsas enerji mənbələri öz içində yenilənə bilməyən və yenilənə bilən enerji mənbələri olaraq iki alt başlıqda ələ alına bilər. Məsələn neft, təbii qaz və kömür yenilənə bilməyən enerji qaynaqları arasındadır. Bununla birlikdə, su enerjisi, külək enerjisi və günəş enerjisi isə yenilənə bilən enerji mənbələridir. İkinci enerji mənbəyi isə elektrikdir. Bunun yanında, əsas enerji mənbələri arasında olan qalıq yanacaqlar- neft, təbii qaz və kömür olaraq ifadə edilə bilər (7).

Bundan başqa, enerji təhlükəsizliyinin üç ölçüdə ələ alınması mümkündür. Bunlar təminat təhlükəsizliyi, tələb təhlükəsizliyi və tranzit təhlükəsizliyi şəklində sadalanır. Enerji təhlükəsizliyini təşkil edən faktorlardan biri olan təminat təhlükəsizliyi "bir ölkənin inkişafı üçün zəruri olan, kafi miqdarda keyfiyyətli və ətraf mühitə zərər verməyən enerjinin məqbul qiymətlərlə və davamlı olaraq təmin edilməsi" şəklində göstərilir. Bu nöqteyi-nəzərdən, enerji təhlükəsizliyi enerji mənbələrini kənardan təmin edən istehlakçı mövqedəki ölkələr baxımından əhəmiyyətli görünür. Digər tərəfdən, enerji mənbələrinə sahib olan ölkələr üçün tələb təhlükəsizliyi əhəmiyyət kəsb edir. Bundan əlavə, enerji resurslarının nəqli yolunda olan ölkələr baxımından enerji nəqli təhlükəsizliyinin önə çıxan bir faktor olduğu ifadə edilir. Enerji nəqli təhlükəsizliyinin ön planda olduğu ölkələrə nümunə kimi Türkiyə və Ukrayna göstərilə bilər. Digər tərəfdən, enerji təhlükəsizliyinin təmin edilməsinin əhəmiyyətli şərtlərindən birinin müxtəlifliyin təmin edilməsi olduğunu ifadə etmək mümkündür.

Beynəlxalq münasibətlər baxımından enerji təhlükəsizliyinin gələcəyinə baxdıqda 2030-cu ilə qədərki dövr daxilində "mövcud enerji siyasəti və istehlak seçimlərinin davam etməsi şərtilə" dünya üzrə əsas enerji tələbatının 2007-ci ilin məlumatlarına nisbətən 40% həcmində artacağı proqnozlaş-

dırılır. Ayrıca 2030-cu ilə qədərki dövrdə, qalıq yanacaqların ümumi enerji istehlakındakı istifadəsinin 80%-ni qoruyacağı proqnozlaşdırılır. Qalıq resurslar arasında istehlakın isə 2035-ci ilə qədər neft baxımından 50% nisbətində artması gözlənilir. Beləcə, 2035-ci ilə qədərki dövrdə qalıq resurslar arasında neftin enerji istehlakında dominant yerini qoruyacağı hesablanır. Bir başqa qalıq resurs olan təbii qazın istifadəsinin isə 2035-ci ilə qədərki dövrdə 44% artış göstərəcəyi nəzərdə tutulur. Bu istiqamətdə 2030-cu ilə qədərki dövrdə, təbii qaz istehlakının dünya enerji istehlakının ikinci sırasında yer alması proqnozlaşdırılır. Beləliklə 2030-cu ilə qədərki dövr daxilində neft və təbii qazın ümumi enerji istehlakında payının 60% səviyyəsini qoruması nəzərdə tutulur. Bu səbəblə neft və təbii qazın "istehsalı, işlənməsi və ticarətində nəzarət sahibi olma" uğrunda mübarizənin beynəlxalq münasibətlər sahəsindəki əhəmiyyətini qoruyacağı proqnozlaşdırılır (8).

Yuxarıda ifadə edilənlər bu gün dünyada baş verən hadisələrin doğru analiz edilməsinə imkan yaradır. Beləcə, yüksək miqdarda neft və təbii qazın mövcud olduğu bölgələrdə, eyni zamanda neft və təbii qaz boru xəttlərinin keçdiyi bölgələrdə meydana gələn münaqişələrin səbəbi aydınlaşır.

Xarici siyasətin yalnız bu günkü iqtisadi vəziyyətinin gücləndirilməsi deyil, eyni zamanda sabahın təhlükəsizliyinin də təmin edilməsi olduğu deyilə bilər. Lakin burada əhəmiyyətli bu məsələ gözə dəyir:

Bilindiyi kimi, beynəlxalq münasibətlərdə dominant olan realizm nəzəriyyəsinə əsasən, dövlətlər mənfəətləri istiqamətində, öz gücünə və digər dövlətlər üzərindəki təsir həcminə əsaslanaraq siyasət yeridir. Bu səbəblə realizmə əsasən "siyasət bir güc mübarizəsi" olaraq qəbul edilir. Bu baxımdan realizm, beynəlxalq nizamı dövlətlərin davamlı olaraq daha çox güc əldə etməyə yönəldiyi bir quruluş olaraq qəbul etməkdədir.

Təhlükəsizlik sahəsində realizm yanaşmasına baxıldığında isə dövlətlərin, milli təhlükəsizliyini "digər dövlətlərin təhlükəsizliyi bahasına təmin etmək" meylində olduğu görülməkdədir. Bu vəziyyətdə realizm dünyagörüşü ilə güc mübarizəsi qaçılmaz olur. Buna bağlı olaraq, dövlətlərin tətbiq etdiyi təhlükəsizlik yanaşmalarının dövlətin mənfəətini təmin etməyə yönəlik olduğu görülə bilər. Buna əsaslanaraq, dövlətin mənfəətini təmin etmək məqsədi ilə strategiyaların təyin edilməsindən bəhs edilir. Buna əlavə olaraq, dövlətlərin sahib olduqları gücü öz maraqlarını reallaşdırmağa yönəlik olaraq istifadə etdiyi deyilə bilər (9, s. 587-623).

Beynəlxalq münasibətlərdə iqtisadiyyatın güclənməsi və enerji təhlükəsizliyinin təmin edilməsi üçün aparılan mübarizələr, realizm nəzəriyyəsinin təhlükəsizlik yanaşmasını təsdiqləməkdədir. Bu mübarizə xüsusilə təhlükəsizliyin enerji ölçüsü üzərində cəmləşməkdədir. Xüsusilə neft və təbii qaz sahəsindəki ziddiyyətlər beynəlxalq təhlükəsizliyi təhdid edir. Bu mövzu bizi daha həssas bir suala yönləndirir: Görəsən, beynəlxalq sülh və təhlükə-

sizliyin təmin edilməsimi, yoxsa bu mübarizədən əldə edilən gəlirlərmi daha əhəmiyyətlidir?

Hər bir dövlətin dünyadakı imici və bir dövlət olaraq nüfuzu onun həyata keçirdiyi milli inkişaf və təhlükəsizlik siyasəti ilə bilavasitə bağlıdır. Milli inkişaf və təhlükəsizlik siyasəti ölkənin siyasi, iqtisadi, sosial və mənəvi inkişafının, xarici aləmdən qaynaqlanan təhlükələrə qarşı müqavimət gücünün göstəricisi kimi çıxış edir. Enerji təhlükəsizliyi isə müasir dövrdə milli təhlükəsizliyin əsas potensial bazası kimi daha ön planda mövqe tutur. Çünki bir ölkənin enerji təhlükəsizliyinin təmin olunması onun iqtisadi davamlılığını şərtləndirməklə yanaşı, siyasi gücünü, deməli, həm də nüfuzunu artırır. Digər tərəfdən, cəmiyyət inkişaf etdikcə, insanların tələbatları artdıqca, enerji və resurs tələbləri də artır. Təbii ehtiyatların məhdudluğu, enerji resurslarından səmərəli istifadə məsələləri bu baxımdan hər bir ölkədə gələcəyə hesablanmış strateji inkişaf xəttinin əsasını təşkil edir.

**Məqalənin aktuallığı**: Müasir dövrün reallıqları göstərir ki, nəinki inkişaf etmiş ölkələrdə, hətta inkişaf etməkdə olan ölklələrdə də, həyatın müxtəlif sahələrində, ekologiyada, siyasətdə, iqtisadiyyatda və digər sahələrdə enerji təminatı və onun təhlükəsizliyi xüsusi çəkiyə malikdir. Bu aspektdən bütün dünyada müxtəlif sahələrin enerji təminatı və ölkə səviyyəsində enerji təhlükəsizliyinin təminatı siyasətinə baxılması və araşdırılması öz aktuallığını artırır.

**Məqalənin elmi yeniliyi:** Məqalənin elmi yeniliyi nəzəri və təsviredici bir araşdırma olaraq dünyada həyata keçirilən enerji strategiyasını, enerji təhlükəsizliyinin təmin edilməsi üçün həyata keçirilən tədbirlərin araşdırılaraq komplektləşdirilməsidir.

**Ədəbiyyat:**


1. http://www.serqqapisi.az/index.php/iqtisadiyyat/1210-enerzhi-tehlukesizliyi-rezhional-zhudz-muasir-izhtisadiyyat
2. http://www.intertek.ru
3. Мирзаджанзаде А.Х, Султанов Ч.А. Этюды нефтяной концепции Азербайджана, Баку, 1994, 100с, Hacızadə E.M. Energetik kompleks yeni islahatlar ərəfəsində, Bakı: Elm, 2000, 257 s.
4. Poneman, D. (2010). Remarks as Prepared for Delivery, U.S. Deputy Secretary of Energy. White House Energy Security Stakeholders Forum. Department of Energy: http://www.energy.gov/news/9277.htm.
5. Wang, Y. (2004). Defining Non-Traditional Security and Its Implications for China. China & World Economy. Cilt: 12 Sayı: 5,

s. 59-66. Institute of World Economics and Politics Chinese Academy of Social Sciences IWEP: http://en.iwep.org.cn/info/content.asp?infoId=1075.

6. İnat, K., Duran, B. ve Ataman, M. (2010). Dünya Çatışmaları Çatışma Bölgeleri ve Konuları. Cilt: 2. Ankara: Nobel Yayın Dağıtım.
7. U.S. Department of Energy. (2011). Fossil Fuels. U.S. Department of Energy: http://www.energy.gov/energysources/fossilfuels.htm.
8. Aksay, H. (2009). Enerji Güvenliğine Ortak Çözüm Arayışları Uluslararası Sempozyumu. Harp Akademileri Komutanlığı Stratejik Araştırmalar Enstitüsü SAREN: http://www.harpak.edu.tr/saren/default.asp?sayfa=5&alt_sayfa=14. S.7.
9. Tang, S. (2009). The Security Dilemma: A Conceptual Analysis. Security Studies. Cilt: 18, Sayı: 3, s. 587-623.

**T A R İ X**

**UOT 94(479.24)**

# SƏFƏVİ İMPERİYASININ XRİSTİAN ƏHALİSİ ARASINDA AVROPALI MİSSİONERLƏRİN DİNİ TƏBLİĞATI (“KARMELİT XRONİKASI” ƏSƏRİ ƏSASINDA)

**Sevinc Məlikməmməd qızı MƏLİKZADƏ**
AMEA A.A.Bakıxanov adına
Tarix İnstitutunun doktorantı

mako_zt@mail.ru

## XÜLASƏ

Məqalədə “Karmelit xronikası” əsasında XVII əsrin II yarısında katolik missionerlərinin Səfəvi imperiyasında dini təfriqəçilik fəaliyyətləri araşdırılır. Göstərilir ki, Səfəvi dövləti ərazisində itirilmiş imtiyazlarını bərpa etməyə cəhd edən katolik missionerləri öz məramlarını zaman-zaman davam etdirmişlər. Katolik missionerləri müsəlmanları xristianlaşdırmaq sahəsində heç bir əhəmiyyətli iş apara bilmədikləri halda isə vaxt və enerjilərinin əsas hissəsini imperiyanın xristian məzhəbləri, xüsusilə qriqoryan ermənilər üzərinə yönəldirdilər. Bu məqsədlə karmelitlər Səfəvi imperiyasının ayrı-ayrı vilayətlərində xristian kənd və qəsəbələrinin tarixi ilə yaxından maraqlanır, xristianların vəziyyəti ilə bağlı məlumatlar toplayaraq mütəmadi şəkildə bunların siyahısını da hazırlayırdılar.

**Açar sözlər:** Səfəvi imperiyası, Karmelit xronikası, xristian əhali, qriqoryan ermənilər, dini təfriqə

## THE RELIGIOUS PROPAGANDA OF EUROPEAN MISSIONARIES AMONG THE CHIRISTIAN POPULATION OF THE SAFAVID EMPIRE (ON THE “CARMELITE CHRONICLE”)

## SUMMARY

Schismatic activities of Catholic missionaries in the Safavids empire 2nd half 17th century is researched by the author in the article on the basis of “A Chronicle of Carmelites in Persia”. It is shown that Catholic missionaries

triying to rebuild thier privilges which lost thier previous continued thier missions time to time. When the Catholic missionaries achived nothing on Muslims, they were attractting thier attention on Chistians of Safavids empire, specially on Gregorian Armenians. For this purpose Carmelites were interested in the history of Chistian villages and settlements of Safavids, got information related to Christians living in the Safavids and also prepared their lists. Even Christian people living in the Persian Gulf was expressed to support by the Pope's letter, considered their wishes to convey by the priests of Carmelites and Franciscan Order to Rome repeatedly.

**Keywords:** Safavid Empire, Carmelite chronicle, Christian population, Gregorian Armenians, religious tide

## РЕЛИГИОЗНАЯ ПРОПАГАНДА ЕВРОПЕЙСКИХ МИССИОНЕРОВ СРЕДИ ХРИСТИАН НАСЕЛЕНИЯ ИМПЕРИИ СЕФЕВИДОВ (В «ХРОНИКЕ КАРМЕЛИТОВ»)

## РЕЗЮМЕ

В статье на основе «Хроники кармелитов в Персии» исследуется автором схизматическая деятельность католических миссионеров. Показано, что католические миссионеры, пытающиеся восстановить свои привилегии, которые потеряли предыдущий, время от времени продолжали свои миссии.

Из произведения известно, что кармелиты, также как и в период империи Сефевидов не могли успешно пропагандировать религию среди мусульман, вновь направляли свои внимание на христианские империи и григорианские армян.

А среди христианского населения информации, связанная с григорианскими армянами, занимала главное место.

**Ключевые слова:** империя Сефевидов, хроника кармелитов, христианское население, григорианские армяне, религиозный прилив

Azərbaycan tarixinin son orta əsrlər dövrü üçün zəngin məlumatlar verən "Karmelit xronikası" Azərbaycan Səfəvilər imperiyasının xristian əhalisi ilə bağlı məlumatlara nisbətən geniş yer ayırmışlar. Əsərdən məlum olur ki, müsəlmanlar arasında dini təbliğatı uğurla apara bilməyən karmelitlər əvvəlki Səfəvi hökmdarlarının dövründə olduğu kimi, yenə də əsas diqqəti imperiyanın xristian əhalisinə yönəldirdilər. Xristian əhali içərisində isə qriqoriyan ermənilərlə bağlı məlumatlar əsas yer tuturdu.

Ümumiyyətlə, karmelitlərin Səfəvi imperiyasının erməni icmasına belə "həssaslıqla" yanaşmalarında aşağıdakı məqamlar diqqəti cəlb edirdi. 1681-ci ildə Papaya göndərilən məktubda bu barədə deyilirdi: "Bizim katoliklərə qənim kəsilmiş Culfa erməniləri ... Stepan adlı keşiş fransızlar və ermənilər arasında nigahı qadağan edib" [8, s. 1, 456]. 1682-ci ildə isə göndərilmiş digər bir məktubda da eyniz məzmunlu məlumatla qarşılaşırıq: "Zati-müqəddəsləri, bu barədə artıq bir neçə dəfə Sizə yazmışam ki, Culfada katoliklər əleyhinə dini ayrı-seçkilik aparılır... Bu ayın əvvəlində (1682-ci ilin yanvarı –red.) mən çox hörmətli din xadimi, mənə erməni dilinin öyrənilməsində yol göstərən, dini işlərlə yaxından maraqlanan Basil ilə birlikdə Culfada yaşamağa gəldim. O, katolik dini inancına bağlı olan bir rahib kimi mənə yaxından kömək edirdi. Hətta o, buna görə 1670-ci ildə Romadan bu məqsədlə Şərqə, İsfahana gəlmişdir" [8, s. 1, 457]. Göründüyü kimi, karmelitlər Səfəvi ermənilərindən narahatlıqlarını belə gizlətməmişlər.

1694-cü ilin martından etibarən karmelitlərin papa XII İnnokentiyə rahib Elias tərəfindən göndərilmiş bir neçə məktubunda isə Culfada vəziyyətin normallaşması, xristianların təqibinin dayandırılması diqqəti cəlb edir: "Əvvəlki son 15 ildə Sizə ünvanladığım məktubumda da bəhs etdiyim kimi, Culfada katolik məzhəbi nəzərə çarpacaq formada genişlənib. Biz artıq burada ev götürmüşük, onun genişləndirilməsini arzu edirik, təxminən martın sonlarında 525 quruşa qonşuluqda yeni ev kirayələdim. Altı həftədən sonra Culfanın təfriqəçi Stepan adlı rahibi mənim təbliğat aparmağımın qarşısını aldı. Hətta Culfanın bir çox rəhbər şəxslərini də bu işə cəlb edərək, insanları bizə qarşı qaldırdı. Meydana toplaşmış kütlə onu cəzalandırmağı planlaşdırmışdı. Mən Polşa səfirindən bizi müdafiə etmək üçün bir neçə silahlı şəxs göndərilməsini xahiş etdim. Bu arada bizim bir çox tərəfdarlarımız qapı bağlı olduğuna görə evin damına çıxaraq müdafiə olunurdular" [8, s. 1, 462]. Məlumatlardan göründüyü kimi, karmelitlər şah Süleymanın hakimiyyətinin sonuna yaxın Culfada erməni icması ilə yaranmış gərgin münasibətlərdən bəhs edir, mərkəzi hakimiyyətin isə yaranmış gərginliklərlə bağlı biganəliyindən şikayətlənirdilər.

Ümumiyyətlə, "Karmelit xronikası" Şah Sultan Hüseynin dövründə Səfəvilər imperiyasının daxili-ictimai vəziyyətindən bəhs edərkən, əvvəlki dövrlərdə olduğu kimi yenə də xristian missionerlərinə qarşı daha qəddarlıq və amansızlığı önə çəkir, bu amili isə xarici siyasətdə uğursuz addım kimi qələmə verməyə çalışırlar. Orada yazılır: "İslamın qüdrətli çağında, Sarayda şah Sultan Hüseyn babasının azlıqlara olan münasibətindən tamamilə fərqli siyasət yürüdürdü. 1697 və 1698-ci illərdə hətta şah Sultan Hüseyn azlıqlara qarşı qəddarlıq nümayiş etdirirdi" [11, s. 473]. Rahib Elias Romada olarkən, 13 iyun 1702-ci ildə Kilsələr Şurasının iclasında aşağıdakıları yazırdı: "20 ildən çox davam edən təqib və zülmdən sonra katoliklər və təfriqəçi ermənilər hər zamankı kimi indi də cəzaya məruz qaldılar, şah Sultan hakimiyyətə çıxandan

bəri isə xristianların adının çəkilməsi belə qadağan olunmuşdu, hətta onun "Din Pərvər" adında özünü bütün dinlərin himayədarı hesab edən rəsmisi tabeliyində olan bütün dinlərə qarşı sərt mövqe nümayiş etdirir, onları Məhəmməd dininə etiqad etməyə məcbur edirdi. Bu proses başlayandan sonra Culfa ətrafında yaşayan qədim fars dini etiqadına sitayiş edən Qabrlar belə zorla islamlaşdırılırdı. 4-5 il əvvəl verilmiş qərarda Culfanın bütün xristian əhalisinin islamı qəbul etməsi bildirilirdi. Paytaxtdan gələndən sonra mən Polşada olarkən yeni xəbərlər aldım. Belə ki, onlar bir az əvvəl yuxarıda bəhs etdiyim göstərişi Böyük Ermənistanda (?!), bütün Kapanistan vilayətində icra etməyə başlayıblar, lakin buna qarşı olanlar zorla qovulub çıxarılır. İndi mənə ünvanlanmış məktubda isə İranın (Səfəvi – S.M.) əvvəlki paytaxtı olan Qəzvində zərərli bir plan cızılıb, bir neçə yüz min erməni Məhəmməd dinini qəbul etməyə məcbur edilib [8, s. 1, 474]. Bu sətirlərdən isə belə nəticə çıxarmaq olur ki, katolik rahibləri sanki qriqoryan ermənilərin "himayəçisi" rolunda çıxış edirlər, əslində isə bir az əvvəl də bəhs etdiyimiz kimi, katoliklər özləri də erməni icması arasında təfriqəçi planlar çızırdılar. Mənbədə daha sonra oxuyuruq: "Culfadan qovulduqdan sonra Karmelit arxiyepiskoplarının ilk addımı avqust ayında Romaya tələsmək olub. İki rahib Konrad və Cozef İqnatius prokurorun qərarına görə köməksiz vəziyyətdədir və təcili dəstəyə ehtiyacı var. Ola bilsin ki, ondan artıq din xadimi İsfahanda monastrda rahat vəziyyətdədir və onlara maliyyə veriləcək, bir neçə rahib isə oradan çıxıb gedib, biri Bəsrəyə, digəri Kunq, üçüncüsü isə xəstəliyi ucbatından əyalətə qayıdıb" [8, s. 1, 474].

R.Seyvorinin fikrincə, Şah Sultan Hüseyn özü şəxsən xristianlara qarşı düşmən münasibətdə olmamışdı, lakin onun üzərində güclü təsir qüvvəsinə malik dini liderlər, xüsusilə Mollabaşı Məhəmməd Bağır Məclisi, sonralar isə onun nəvəsi Mir Məhəmməd Hüseyn Xatunabadi tərəfindən ədalətsiz və qeyri-tolerant qərar qəbul etməyə təhrik edildi. Bu dini siyasət Səfəvi dövlətinin həm daxilindəki vəziyyətə, həm də onun xarici ölkələrlə münasibətlərinə mənfi təsir göstərirdi [9, s. 251; 7, s. 233]. Qeyd edək ki, bu məlumatlara biz vətən tarixinə dair ümumiləşdirilmiş əsərlərdə rast gəlmirik [1; 2; 3; 4; 5; 6]

"Karmelit xronikası"nda XVII əsrin II yarısında Səfəvi və Osmanlı dövlətində dini sahədə mövcud vəziyyətlərin müqayisəsi də diqqəti cəlb edir: "Türkiyədə olduğu qədər İranda (Səfəvi dövlətində - S.M.) dini məsələlərə qarşı elə bir qadağa yoxdur. Məsələn, Türkiyədə bu ölüm cəzasına məhkum edildiyi halda, İranda ən təhlükəli hal kimi hər kəs öz fikrini açıq şəkildə ifadə edə bilər" [8, s. 1, 474].

1695-ci ildə rahib Eliasın maliyyə yardımları göstərilməsi üçün etdiyi cəhdlər digər məktublarında da əksini tapmışdır. Məktubda deyilir: "Hakimiyyətə yenicə çıxmış şah I Sultan Hüseyn zati-Alinizə və biz katoliklərin imtiyazlarının alınması üçün hər şey edib, biz və burada olan digər xristianlar girov saxlanılıb, onlar arasında heç bir dostluq əlaqələri belə yoxdur. Bütün

bunlara qarşı dəfələrlə Saray rəsmilərinə etiraz etmişəm. Mən bu məsələləri hərəmağası, güclü təsirə malik İbrahim Ağa vasitəsilə şahın diqqətinə çatdırmaq istəyərkən, o (şah – S.M.) göstəriş verdi ki, Culfada dağıdılmış kilsələr yenidən bərpa ediləcək. Bu xəbərlər bizi çox sevindirdi. Lakin kraliçaya yenidən müraciət edərkən, tərəfdarlar arasında qarşıdurma yarandı, təfriqəçilər bunu təzyiq kimi qiymətləndirdi, katoliklər arasında nifaq yaradacağını düşünərək, ermənilərin cəzalandırılmasını tələb etdilər. Düşmənlərimiz elə fəxr edirdi ki, elə bir zəfər qazanmışdılar. Açıq şəkildə etiraf etmək lazımdır ki, burada katolik icmasını qorumaq üçün elə bir ümid yeri qalmır. Ümid edirəm ki, bu sonuncu hadisə ilə əlaqədar Romada olan digər nümayəndələrlə müzakirələr zamanı fikrinizi açıq şəkildə bildirəcəksiniz" [8, s. 1, 475].

Karmelit rahibləri 23 may 1695-ci ildə Həmədandan yazırdı: "Pis idarəetmə ucbatından hazırda burada çox az məmnundur... Şübhə etmirəm ki, yaxın bir neçə ildə bütün icmalar və yaxud onun böyük bir hissəsi parçalanacaq..." [8, s. 1, 475].

Roma papası XII İnnokentinin şah Sultan Hüseynə 28 yanvar 1695-ci ildə göndərdiyi məktubda isə bir az əvvəl bəhs etdiyimiz kimi Culfa ətrafında karmelitlərlə qriqoryan ermənilərin münasibətlərindən bəhs olunur, Culfadan köçürülən katoliklərin geri qaytarılması xahiş edilirdi. Məktubda yazılırdı: "Çox hörmətli, zati-müqəddəsləri, mərhəmətli və ulu Tanrının Sizə salamı olsun! Böyük bir hökmdara layiq ən yüksək məziyyətlər arasında Sizin mərhəmətiniz rəğbət doğurur. Biz bunu kifayət qədər müşahidə etmişik və çox yaxşı məlumdur ki, Xristian etiqadına sizin etimadınız ən yüksək yerdə qərar tutub. Lakin budəfəki istəyimizin əsas məqsədi bu etiqadın təbliğatına görədir. Zati-alinizdən Karmelit rahiblərinə lütf və mərhəmətli olmağınızı qəlbən xahiş edirik, xüsusilə bizim hörmətli qardaşımız, paytaxtda qarşıladığınız İsfahan yepiskopu Eliasa diqqət etməyinizi (təfriqəçi erməni arxiyepiskopunun ucbatından Culfa şəhərindən uzaqlaşdırılmış və yenidən şəhərə qayıtmasına icazə verilməsi) xahiş edirik. Bizə gələn məlumata görə ağır cəza ucbatından kütləvi şəkildə köçməyə məcbur olublar. Lakin məndə qəti bir inam var ki, Siz bizim xahişimizi qəbul edəcək, Uca Yaradana istəklərimizin qəbulu və səltənətinizin əbədiliyi üçün hər zaman dualar edəcəyik". [8, s. 1, 478].

6 sentyabr 1697-ci ildə yeni yepiskop tərəfindən papaya ünvanlanmış məktubda bu barədə deyilirdi: "Yerli rahiblərin və Konrad tərəfindən Səfəvilərdəki missiyamız ... həmçinin Sizə tərəfimdən Dinimizin qaydalarına uyğun andımı və dini mərasimin sənədlərini göndərirəm" [8, s. 1, 479].

Papaya göndərilmiş 28 iyun 1697-ci il tarixli məktubda daha sonra deyilirdi: "Rahib Konradın, İranda yerli rahiblərin və eləcə də Portuqaliya elçisinin gəlişi bu işlərimizə az töhfə vermədi. Belə ki, o, Culfada kilsə tikintisi üçün şah fərmanı (sənəd), eləcə də İran ərazisində öz fəaliyyətimiz üçün icazə sənədlərini aldı. Onun xahişi ilə həmçinin, şah İsfahanda monastrımızın dağı-

dılmış hissəsini dövlət vəsaiti hesabına bərpa olunacağına və digər məsələlərlə bağlı göstəriş verdi. Bütün bunları sizin diqqətinizə çatdırıram” [8, s. 1, 479].

Konrad papa, Polşa kralı, Venesiya və Toskana hersoqluğundan məktub gətirilməsini xatırlatdıqdan sonra rahib Elias kardinala 15 sentyabr 1697-ci il tarixli məktub ünvanladı. Məktubda mərkəzi hakimiyyət tərəfindən Culfada yeni kilsə tikilməsi və bu haqda şah fərmanının ona çatdırılması məlumat verilirdi. Məktubda daha sonra deyilirdi: “Son tamamlama işlərinə görə biz onun adına İran tərzinə uyğun xalat, kəmər, cübbə və baş geyimləri, qızıl və gümüşlə işlənmiş ipək saçaqlarından ibarət hədiyyələrlə və bir çox missioner və Avropa xristianlarının müşayiəti ilə təntənəli şəkildə Culfaya daxil olduq...” [8, s. 1, 480].

Göründüyü kimi, məlumatlar karmelitlərin yenidən Səfəvi imperiyasında fəallaşması üçün əllərindən gələni etdiyini deməyə əsas verir, hətta bu məqsədlə Avropanın bir çox ölkələrindən şah Sultan Hüseynə müxtəlif məzmunlu məktublar da ünvanlanmışdır. Bütün bunlara baxmayaraq, karmelitlərin sonrakı məktublarında şah tərəfindən verilmiş imtiyazların hələ də icra edilməməsi diqqəti cəlb edir.

27 aprel 1697-ci ildə yepiskop tərəfindən kardinala ünvanlanmış məktubda deyilir: “Şah Sultan Hüseyn tərəfindən verilmiş bir sıra imtiyazlar hələ də icra edilməyib, 1694-cü dağıdılmış kilsə isə bərpa olunmayıb” [8, s. 1, 480]. Göründüyü kimi, rahib Konrad şah tərəfindən verilmiş fərmanların icrasının hələ də mümkün olmadığını, karmelitlərlə qriqoryan erməniləri arasında münasibətlərin normal məcraya yönəlməməsini kardinala israrla çatdırırdı. Qeyd edək ki, bu məsələlər sonrakı məktublarda da açıq-aşkar hiss olunur.

Papa XII İnnokentinin bütün ermənilərin patriarxı Nahapiətə 3 may 1698-ci il tarixli göndərdiyi məktubda deyilirdi: “Çox hörmətli qardaşım, sizi Apostol kilsəsi adından salamlayıram. Ermənilərdən aldığımız üzücü xəbərlər Papa tərəfindən məyusluqla qarşılandı. Bizə göndərdiyiniz məktub və burada ifadə olunanlar onun kiçik bir hissəsidir. Sadə insanlarla aranızda yaranmış narazılıqlara görə Katolik kilsəsi baş verənləri pisləyir. Ölkənizdən çox uzaq olmağımıza baxmayaraq, biz sizin insanlarınızı təqdir edirik və sizin işlərinizə qarışmağı belə ehtimal etmirik. Belə ki, çox tez-tez biz erməni keşişlərinin bizim müqəddəs şəhərimizə ziyarətə gəldiyini və burada çox normal qarşılandıqlarının şahidiyik. Biz eyni irqin insanları arasında ayrı-seçkiliyin qəti əleyhinəyik, belə ki, Katolik Kilsəsi olaraq onlar arasında nifaq salınmasına qarşıyıq və sizləri də Roma Papalarının sələflərinin yolu ilə gedərək kimi rahat və məmnun yaşamanızı istəyirik... Əziz qardaşım, beləliklə, sizə işlərinizdə və birlik naminə salamlarımı ərz edir, ayrı-seçkiliyə son qoyulmasına və İsanın övladlarının birliyinin gücləndirilməsinə çağırıram” [8, s. 1, 483]. Göründüyü kimi, Papa tərəfindən göndərilən məktub ənənəvi ruhda yazılmış, cümlələrin məzmununda isə Katolik kilsəsinin hökmranlığı hiss olunmaqdadır. Daha sonra

məktubda yazılır: "Sizə rahatlığınız və qardaşlığımızın bariz nümunəsi olaraq, bizim, Roma Katolik Kilsəsində təhsil almış dəyərli övladımız erməni rahibi Xaçatur Arakeli sizin yanınıza göndərirəm..." [8, s. 1, 483]. Ümumiyyətlə, şah Sultan Hüseynin dövründə Papa ilə yazışmaların mətni göstərir ki, təkcə İsfahan və Culfada deyil, bütövlükdə imperiya ərazisində karmelitlərə münasibət mənfi idi, hətta bütün imperiya daxilində ermənilərlə gərgin münasibətlər hökm sürürdü.

Qeyd edək ki, karmelit, kappuçin və yezuitlərin Şah Sultan Hüseyn dövrü ilə bağlı verdikləri məlumatları Səfəvilər imperiyasına səyahət etmiş J.B.Tavernye də təsdiqləyir. O, 26 sentyabr 1702-ci il tarixində Romada olarkən yazırdı: "20 ildən artıqdır ki, bizim katoliklərə qarşı ermənilərin başçılığı ilə sərt tədbirlər davam edir, bu hal məktəblərdə, kilsələrdə daha da dözülməz şəkil alıb. Bunun qısa olaraq səbəblərini yazacam. Bu şeytan adam (Qaspar Şərimən – S.M.) hər şeydən öncə Fransa kral sarayında İran şahzadəsi kimi özünü qəbul etdirdi, bir çox dinləri çevirdiyinə görə, eləcə də Almaniya, İsveç, Polşa, Moskva və Türkiyədə bir neçə il xidmət etdikdən sonra, adı çəkilən Xristian dövlətlərindən məktubla İrana qayıdaraq gizli şəkildə və özünə "Comte de Segli" adını götürdü, fövqəladə elçi elan etdi, hətta İslam dinini qəbul etdi. Və beləliklə bu yolla hökmdarın və əsilzadələrin diqqətini cəlb edərək tacirlərdən 400.00 skudidən çox, təxminən 28 min Tümən toplaya bildi... Şərimən çox gizli şəkildə özünü elçi qismində təqdim etməklə katoliklərə qarşı mübarizə aparırdı..." [8, s. 1, 485]. Beləliklə məlumatlar göstərir ki, XVII əsrin sonlarında Avropa ilə Səfəvi imperiyası arasında həm dini, həm də işgüzar əməkdaşlıq sahəsində dərin uçurumlar mövcud idi və bəhs olunan məsələlərin aradan qaldırılması üçün karmelitlərlə yanaşı, xristian missionerlərinin digər nümayəndələri də dayanmadan çalışırdılar.

1697-ci ildə Avqustin Hermit yazdığı ikinci məktubunda Səfəvi imperiyasında olan Avropa missionerlərinin uğursuzluğundan, əksəriyyətinin isə islamı qəbul edərək evləndiyini və İsfahanda məskunlaşmasını üzüntülü şəkildə qeyd edirdi: "İsfahanda olan əvvəlki Avqustin rahibi Portuqaliyalı zavallı Antonio üç il əvvəl öz dinindən dönüb və bizim əleyhimizə çalışır və bu olduqca təhlükəli bir şəkil alıb..." [8, s. 1, 486].

Eyni vəziyyətin Naxçıvanda da davam etdiyini, Səfəvi rəsmiləri tərəfindən sıxışdırılan dominikçilər papaya müraciət ünvanlamışlar. Müraciətdə deyilirdi: "Naxçıvanın bu əyalətlərində katolik məzhəbi tədricən sıxışdırılır. Bu insanlar bizimlə yaxşı münasibət qurmaq əvəzinə, bizi soyur, arvad-uşaqları zorla girov götürür, onları dinlərindən dönməyə məcbur edirlər. Burada bir çox xoşagəlməz insanlar bizim düşmənimiz qismində çıxış edir. Əksər dindaşlarımız öz yerlərini tərk etməyə məcbur olub, onların əksəriyyəti Türkiyəyə qaçmağa məcbur olub və hazırda öz yerlərinə qayıtmağa belə ümid yeri yoxdur. Bütün bunlara baxmayaraq, İran şahının rəsmiləri bizə işgəncə verir, müxtəlif cəzalar

tətbiq edirlər. Biz gündə iki və bəzən üç dəfə xərac verməyə məcburuq, vergi verə bilməyənlər isə öz evlərini tərk etmək məcburiyyətində qalıblar. Bir çoxu buna görə öz dinini dəyişib, hətta ermənilər arasında yaşamağa belə məcburdur" [8, s. 1, 486].

Beləliklə, "Karmelit xronikası" əsasında Səfəvi imperiyasının xristian əhalisi arasında Avropalı missionerlərin dini təbliğatının araşdırılması göstərir ki, müsəlmanlar arasında elə bir uğur qazana bilməyən karmelitlər əvvəlki Səfəvi hökmdarlarının dövründə olduğu kimi, yenə də əsas diqqəti imperiyanın xristian əhalisinə yönəldirdilər. Xristian əhali içərisində isə qriqoriyan ermənilərlə bağlı məlumatlar daha çox yer almış, lakin bu məlumatlardan bəhs edərkən Azərbaycan tarixi başdan-başa təhrif edilmişdir.

**Ədəbiyyat:**


1. Azərbaycan tarixi: 3 cilddə, I cild. Bakı: AMEA-nın nəşri, 1958, 448 s.
2. Azərbaycan tarixi. I cild, Bakı: AMEA-nın nəşri, 1961, 447 s.
3. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrin əvvəllərinədək). Bakı: Elm, 1993, 284 s.
4. Azərbaycan tarixi: 7 cilddə, II cild. Bakı: Elm, 1998, 596 s.
5. Azərbaycan tarixi: 7 cilddə, III cild. Bakı: Elm, 1999, 584 s.
6. Azərbaycan tarixi. S. Əliyarlının red. ilə. Bakı: Azərbaycan Nəşriyyatı, 1996, 872 s.
7. Kruşinski Y.Q. Xristian səyyahın tarixi. Farscadan tərcümə. Bakı: Azərnəşr, 1993, 105 s.
8. A Chronicle of Carmelites in Persia: The Safavids and the Papal Mission on the 17$^{th}$ and the 18$^{th}$ centuries. Editor H. Chick, Introduction Rudi Matthee. Publisher: İ.B.Tauris: In 2 volumes. Vol. 1, London, 2012, 720 s.
9. Savory R.M. Iran under the Safavids. London: Cambridge University Press, 1980, 277 p.

**UOT 930**

# BİLİK SAHƏSİ KİMİ ELM TARİXİ VƏ ELMİN İLKİN PROBLEMLƏRİ

**Aytac Elvin qızı HƏSƏNOVA**
AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutunun dissertantı
Qərbi Kaspi Universitetinin Kadrlar və Tələbə şöbəsinin müdiri

aytac.asgerzadeh@gmail.com

## XÜLASƏ

Elm təhsili, elm tarixi ilə yaxından əlaqəli olmaqla perspektiv peşə alimlərinin təlimində və elm təbiəti ilə bağlı daha geniş ictimaiyyətin məlumatlandırılmasında əhəmiyyətlidir. Birincisi, sinifdə elm tələbələrinin pedaqoji təcrübəsini necə artıracağını və hətta daha effektiv elm təcrübələrinə çevrilməsinə kömək edə biləcəyini göstərir. Sonra elm tarixçiləri "ağıllı dizayn" üzərində müzakirələri öz məktəb müfredatlarında uşaqlara çatdırmaq üçün lazım olan, elm mövzusunda böyük suallar doğuran elm təhsilini necə dəstəkləyə biləcəyini araşdırırlar. Elmi tarix, bağlanmış akademik sahələrin, elm tarixinin ümumi təhsilə maraq və faydalılığının necə olacağını göstərmək üçün həyata keçirilə biləcək işi nəzərdən keçirir.

**Açar sözlər:** elm, tarix, bilik, alim, şərq, qərb

## THE HISTORY OF SCIENCE AND THE PRIMARY PROBLEMS OF SCIENCE AS THE FIELD OF KNOWLEDGE

## SUMMARY

Science education is closely related to the history of science in promoting prospective professional scientists and informing the wider public about the nature of science. First, it can show how science students in the classroom can improve their pedagogical experience and can even become more effective science experiences. Later, science historians are investigating how they can support science-based science-related questions that are needed to convey the "intelligent design" to their children in their school curriculum. The scientific history examines another issue that can be implemented to show how closely connected academic fields can be of interest and usefulness to general education.

**Keywords:** science, history, knowledge, scientist, east, west

# ИСТОРИЯ НАУКИ И ОСНОВНЫЕ ПРОБЛЕМЫ НАУКИ КАК ОБЛАСТИ ЗНАНИЙ

## РЕЗЮМЕ

Научное образование тесно связано с историей науки в продвижении перспективных ученых-профессионалов и информирует широкую общественность о природе науки. Во-первых, это может показать, как учащиеся естественных наук в классе могут улучшить свой педагогический опыт и могут даже стать более эффективными научным опытом. Позже историки науки изучают, как они могут поддерживать наукоемкие вопросы, связанные с наукой, которые необходимы для передачи «умного дизайна» своим детям в их школьной учебной программе. В научной истории рассматривается еще одна проблема, которая может быть реализована, чтобы показать, насколько тесно связанные академические области могут представлять интерес и полезность для общего образования.

**Ключевые слова:** наука, история, знания, ученый, восток, запад

Elmin tarixşünaslığı. Elmi tarixşünaslıq uzun bir dövrü əhatə edir və hər bir dövrdə tədqiqatçılar mövcud elmi ideya mənbələrini və müqəddimələrini anlamağa çalışır. Artıq Antik dövrlərdə elmin tarixi barəsində məlumatlar yaranmışdır. Hippokratın "Qədim tibb haqqında" əsərində, Herodot və Fukididin tarixi təsvirlərində, elmin təkmilləşdirilməsinə yönləndirilmiş düşüncələr, insan və təbiət barəsində biliklərin toplanması üzrə Aristotelin düşüncə prosesində, həndəsə, cəbr, astronomiya, fizika, tibb, mexanika, etnoqrafiya ilə bağlı ellinizm tarixində ("Xaldeyin uzaq keçmişi", "Misirin qədim keçmişi") tarixi-elmi materiallar mövcud olmuşdur.

Orta əsr dünyagörüşünün teologizmi bibliya sxeminə və insanın idrak tarixinə daxil edilir. Bu düşüncəyə görə, elmin tarixi təbiət və insan barəsində anlayışlara təsir göstərdi. Elmin bütövlüyü modelini qurmaq və onun mənbələrini və transformasiyasını aşkar etmək cəhdlərinə başlanıldı ("Elmin mənşəyi" traktatı -al-Farabi, "Elm ağacı" və onun "yayılıması"- Raymund Lulli). Tarixi-elmi məlumatlar eyni zamanda alimlərin bioqrafiyası formasında da nəsildən nəsilə ötürülmüşdür.

İntibah dövründə tarixi-elmi prosesin bütövlüyünü qəbul etməyə və inkişaf perspektivinə malik olan öz dövrünün nailiyyətlərini bütöv bir vahid kimi qiymətləndirməyə qadir olan tarixi-elmi düşüncə yaranmağa başlayır. Artıq XV yüzillikdə, qədim istiqamətdən fərqli olaraq yeni bir istiqamət kimi müasir dövr ("yeni zaman") düşüncəsi yaranır və bu məzmunda dövr və dövran elementləri ilə elmin inkişaf konsepsiyası ortaya çıxır (C.Bruno, J.Boden və

digərləri). Tarixi-elmi ədəbiyyatda avtoritetin orta əsr prinsiplərini devirən tənqidi mexanizm hökm sürür (1).

F.Bekon (“Yeni Atlantida”, “Elmin dəyəri və genişləndirilməsi barəsində”) yeni dövrün mənşəyində elmin tarixi proqramını yaradır ki, bu proqramın məqsədi – “yeni elmin” uğurlu fəaliyyətinə xidmət etməkdən ibarət idi. Burada yalnız mənbələr deyil, eyni zamanda elmin yaranması, onun inkişaf mərhələləri ilə yanaşı elmin təsis olunma tarixinə, onun cəmiyyət, din, incəsənət ilə qarşılıqlı əlaqəsinə aid olan faktlar ifadə olunur. Elmin tarixi T.Hobbsun, Q.Leybnisin, C.Vikonun, İ.Gerderin xüsusi tədqiqat mövzusu olub: elmi biliklərin yaranma vaxtı, qədim və yeni elmin əlaqəsi, istiqamət və dövr, eyni zamanda elmin inkişaf yoluna təsir göstərən faktorlar barəsində məsələlər müzakirə olunub. Elmin tarixinin işlənib hazırlanmasında xüsusi rol fransız maarifçilərinə məxsusdur: onlar tarixi-elmi prosesi dünya tarixi məzmununda dəyərləndirmiş, onun ziddiyyətini müəyyən etmiş (proqres/tənəzzül, yüksəlmə/fasilə, istiqamət/dövriyyə), elmin mənbəyini araşdırmışlar. Maarifçilik dövrünün tarixi-elmi düşüncəsinin yetkinliyi tarixi-elmi məktəblərin yaradılması ilə aşkar olunmuşdur ki, bu da elmin inkişafına, mədəni regionların formalaşmasına (avropa/şərq, eyni zamanda ərəb elmi), bununla yanaşı, elmi biliklərin konkret sahələrində iri həcmli konkret materialların toplanmasına və sistematizasiyasına səbəb oldu. Fransız maarifçilərinin məhşur “Ensiklopediyasında” məzmun etibarı ilə, XX əsrin ortalarına kimi mövcud olmuş elmin inkişafı ilə yanaşı elmin tarixi barəsində pozitivist düşüncənin əsasları qeyd olunmuşdur (2, s.265).

Elmin tarixi və fəlsəfəsi. Bu gün elmin tarixi bir tərəfdən elmin konkret sahələri çərçivəsində öyrənilir (fizikanın tarixi – fiziki elmlərdə, riyaziyyatın tarixi-riyazi elmlərdə, linqvistikanın tarixi – dil haqqında elmlərdə və s.), digər tərəfdən isə - elmin tarixi müəyyən bir vahid kimi fəlsəfənin tədqiqat mövzusudur (elmin əsas alt sistemlərinin məcmusu). Elmin fəlsəfəsində daha məhşur uzunmüddətli dövr elm tarixinin pozitivist şərhi idi. Elmin pozitivist tarix prinsipləri V.Uevel tərəfindən “İnduktiv elmin tarixi” əsərində verilmişdir. Elmin inkişaf prosesinin pozitivist metodologiyasında biliklərin tədricən fasiləsiz toplanma prosesi yaranır. Bu, böyük elm tarixçiləri tərəfindən tənqidi olaraq qəbul olunurdu. XX əsrin birinci yarısında, A. Koyre elmin tarixində elmi inqilab rolunu qəbul edir ki, bunun nəticəsində dünyanın elm tablosu və elmi düşüncə tərzi dəyişir; onun fikrincə elmin inkişafı üçün vacib faktorlar elmdaxili faktorlardır, həmin dövrdə onun həməsri D.Bernal elm ilə münasibətdə istehsal-texniki, sosial-siyasi, dini və digər faktorları həlledici faktorlar hesab edirdi. T.Kun elmin tarixini elmi paradiqmaların dəyişdirilməsinə səbəb olan elmi inqilabın zamanı kimi təqdim edərək, elmin pozitivist tarixini tarixə zidd faktlar kimi qiymətləndirib.

Elmin müasir fəlsəfəsində elmin tarixinin müxtəlif metodologiyası mövcuddur. Elmin yeni kantçılıq tarixində elmin müdaxilə mexanizmi, dilin rolu və simvolik formaları, eyni zamanda mədəniyyətin fərqli faktorlarının təsiri tədqiq olunur. Elmin fenemenoloji tarixi elmin başlanğıc problemlərindən, elmi rasionallığın klassik növündə krizisin başvermə səbəblərindən bəhs edir. Elmin tarixinin müxtəlif müzakirələrini bir-birini qarşılıqlı tamamlayan amillər kimi qiymətləndirmək lazımdır, hansı ki, hər biri elmin inkişaf prosesinin xüsusi mürəkkəb aspektlərini ortaya çıxarır (3, s. 49-76).

Bəşər tarixində elmi təkamülün əsas mərhələləri. Elmin tarixi real proses kimi bütün bəşəriyyətin tarixi ilə əlaqədardır. V.İ.Vernadski isə hesab edirdi ki, uzun müddət ərzində elmin inkişafı dünyanın bu və ya digər hissəsində ümumiyyətlə dayana və yekunlaşa bilərdi, lakin elmi düşüncə digər regionlarda yarana bilər və bununla yanaşı əvvəlki inkişaf səviyyəsinə nail ola bilər. Eyni zamanda ümumdünya bəşəriyyət tarixinin mövcudluğundan imtina edərək, Vernadski bütün bəşəriyyət miqyasında elmin inkişafının vahid xəttini qəbul etmişdir. Onun fikrincə bu xətt, heç şübhəsiz ki, inkişaf edən təkamüldür (4, s.68).

Elmin ümumdünya tarixinin bəşəriyyətin ümumdünya tarixindən nisbi sərbəstliyini və müstəqilliyini qəbul edərək elm tarixçilərinin əksəriyyəti elmin təkamülündə aşağıdakı əsas mərhələləri ayırırlar. Birinci mərhələ elmin yaranması ilə bağlıdır. Elmi tarixçilərə görə elmin yaranması ən mürəkkəb problemlərdən biridir, belə ki, bu mərhələnin zaman hüdudları tam müəyyən olunmamış, elmin yaranışına təsir edən faktor anlayışında, eyni zamanda elmin başlanğıcı adlandırıla biləcək meyarların müəyyən olunmasında vəhdət mövcud deyildir. Bu mərhələrini protoelm kimi yəni, inkişaf etməkdə olan elm kimi səciyyələndirmək olar. İkinci mərhələ - elmdən əvvəlki mərhələdir. Bu mərhələ üzrə elm tarixçilərinin onun yaranma vaxti və yerinə aid fikirləri üst-üstə düşür, eyni zamanda elmdən əvvəlki mərhələnin əlamətləri – biliyin tətbiqi və resept xüsusiyyəti, fasiləsiz dini-ruhi araşdırma və belə desək, mistik düşüncələrə bağlılıq idi. Üçüncü mərhələ antik elmdir. Onun fərqli cəhətləri məntiqə əsaslanmış elmin nəzəri-əsaslı formalarının yaranmasıdır. Dördüncü mərhələ orta əsr elmidir. Orta əsr elmində dünyagörünüşünün mövzusu dindir. Beşinci mərhələ Yeni dövr elmidir (və ya klassik elm). Yeni avropa elminin fərqli xüsusiyyəti eksperiment və faktlara söykənməkdir. Klassik elm antik və orta əsr elimdən prinsipial olaraq fərqli olan müasir elmi düşüncə növlərinin əsaslarını müəyyən etdi. XX-XXI yüzilliyə aid elmdə baş verən mühüm dəyişikliklərə baxmayaraq, klassik elmin əsaslı xüsusiyyətləri qorunub saxlanılır. Altıncı mərhələ qeyri-klassik elmdir. Onun fərqli xüsusiyyətləri klassik elmin dəyərlərindən əhəmiyyətli dərəcədə fərqlənən dünyanın yeni tablosu, hazırki eksperimentə subyektin təsirinin qarşısının alınma mümkünsüzlüyü və cəmiyyətin həyatındakı xüsusi roludur. XX əsrin sonuncu rübündə yeddinci mərhələ yaranmağa başladı. Bu mərhələni fərqləndirən cəhət, əsas kompüter eksperi-

menti, tədqiqat metodu və dünyanın elmi tablosunu yaradan, eyni zamanda elm daxili və sosial dəyərlərin formalaşmasına səbəb olan əhəmiyyətli dərəcədə yeni prinsiplərin yaranması idi (5, s.15).

Başlanğıc problemlər: Qədim Şərqin inkişaf edən elm və elmdən əvvəlki mərhələləri. Elmin mənşəyi, başlanğıcı problemlidir və ilkin forma meyarları barəsində nəzəri məsələlər ilə bağlı bir çox çətinliklər mövcuddur.

Elmin mənbəyində iki mərhələni ayırmaq məntiqə uyğundur– İnkişaf edən elm və elmdən əvvəlki mərhələ. İnkişaf edən elm mərhələsi bəşəriyyətin ən erkən yaranma mərhələsində - ibtidai cəmiyyətdə yaranır. Onun aşağı zaman həddi neolit inqilabı ilə əlaqədardır, halbuki yuxarı həddi Yaxın Şərq, Aralıq dənizi, Hindistan, Çin və digər böyük sivilizasiyaların yaranmasından əvvəlki dövrdür. İnkişaf edən elm mərhələsi ibtidai insanın dünyaya münasibətinin sinkretik bütövlüyünə aid edilir və dini, dini-ayin, sehrli- simvolik, mifopoetik və praqmatik tərtibi ilə fərqlənir. Ayin (dini ayin) – bu qədim insanın dünyaya olan dini münasibətinin əsaslarıdır; bu mərasimdə dünyanın yaradılması aktı həyata keçirilir və ənənələrin köməyi ilə insanın ona daxil olması simvolizə olunur. Təbiətə magik münasibət ondan irəli gəlir ki, təbiətin hər bir elementi və təbiət bütövlükdə hər bir şeyə təsir göstərə bilər – "hər şeydə hər şey vardır". Mifopoetik tərtibat qədim insanın düşüncə xüsusiyyətini açır: təfəkkür avtonom işləmir, mifoloji düşüncə birbaşa, emosional və sinkretikdir, təxəyyül ilə zəngindir, həssas-konkret mifopoetik obrazlarda dünyanın gizli mahiyyəti təsvir olunan zaman, bir çoxları sadəcə olaraq təsvirlərin köməyi ilə hiss olunur. Mifopoetik düşüncə ilə yaranan dünya nə deməkdir? V.N.Toporov onu dünyanın kosmoloji-kosmoqonik modeli adlandırır. Kosmoloji aspekt bu suala cavab verir ki, kosmos vardırmı? Kosmoqonik aspekt isə - o necə yaranır? Tədqiqatçı qeyd edir ki, ibtidai dünya – antropomorf və sosiomorf dünyadır; V.N.Toporov onu makrokosma və mikrokosma bərabərliyi kimi səciyyələndirir. Kosmosun mənşəyi xaotik destruktiv başlanğıc ilə kosmik nizamlayıcı başlanğıcın mübarizəsini təmsil edir; dünyanın ardıcıl yaranmasının təsviri (əvvəlcə "başlanğıca qədər" olanlar) – xaosun təsviri; bundan sonra kainat elementlərinin ardıcıl yaranışı – kosmikdən insana kimi. İbtidai cəmiyyətdə dünya barəsində təsəvvür məkan və zamanda strukturlaşdırılırdı. Məkan və zaman fərqli faktorlardır: ali dəyər dünyanın mərkəzindən eyniləşdirilir, məhz o maksimum dini mahiyyətə sahibdir, belə ki yaradılış aktı onda baş verir. Kosmosun bütöv obrazı "dünya ağacı"dır. O, dünyanın məkan və zaman strukturunu simvolizə edir. İnkişaf edən elm mərhələsində dünyanın xüsusi semantikası mövcuddur, hansı ki, işarələrin anlamında binar (cüt) fərqli işarələr sistemi (yuxarı/aşağı, sağ/sol, şimal/cənub, isti/soyuq, kişi/qadın, yaxın/uzaq, özünkü/yad, doğum/ölüm və s.) yaranırdı ki, bunların da dəsti dünyanın çətinliyini və müxtəlifliyini təsvir etməyə imkan verirdi. İbtidai insanın dil quruluşuna eyni zamanda elementar hesablama proseduru ilə əlaqədar olan rəqəm

xüsusiyyətləri də daxil edilir, lakin növbəti praktiki-ritual fəaliyyət növləri ilə yanaşı, eyni zamanda dini-mifoloji düşüncələr də əldə olundu (6.s.5-18).

Elmdən əvvəlki mərhələnin xronoloji və coğrafi hədlərinə gəldikdə isə, alt hədd b.e.ə. VI-III minillikdə Yaxın Şərq, Aralıq dənizi, Hindistan və Çinin böyük sivilizasiyasının yaranması ilə əlaqədar idi. Bu zaman Afrika və Asiyanın iri çaylarının sahilində mövcud olan yeni daş əsrinin icmaları əsasında daha müasir cəmiyyət formaları, yeni mədəniyyət mərkəzləri yarandı. Elmdən əvvəlki mərhələnin yuxarı həddi – e.ə. VII-VI yüzillikdə yunan elminin və fəlsəfəsinin yarandığı dövr idi.

Qədim şərq sivilizasiyasına aid insanın həyat tərzi nədən ibarət idi? Marksist mövqeyinə görə, həmin dövrdə maddi və mənəvi əmək üzrə belə desək "əməyin real bölünməsi", eyni zamanda onların hər biri daxilində ixtisaslaşma baş verdi. A.Men qədim sivilizasiyaya aid insanın həyat tərzinin həlledici faktoru qismində şəhərlərin yaranmasını göstərir (Mesopotamiyada – Nippur, Ur, Laqaş; Misirdə - Memfis və Fiva; e.ə. II miniliyyə aid qədim şərq sivilizasiyası ilə eyni ada malik məhşur Vavilyon, Hindistanda – Kaşmir, Pendjab və s.); o "şəhər inqilabı"ndan danışırdı. Elmdən əvvəlki biliklər ruhi-dini axtarışlar ilə sıx bağlı idi (erkən sivilizasiyaya aid ruhi-dini axtarışlara dair abidələr – "Ölülər kitabı", "Memfiss ilahiyyat əsəri", "Gilqameş barəsində epos", "Ritved himni", "Upanişadlar"). Ədəbiyyatın yaranması və inkişafı böyük əhəmiyyətə malik idi (e.ə. II minilliyin ikinci yarısında, finikiyalılarda əlifbanı icad etdi).

Astronomik biliklər inkişaf edirdi: Günəş və Ay barəsində müəyyən təsəvvürlər mövcud idi, onların tutulması, eyni zamanda ulduzların yeri və səmadakı bürclər, planet kimi göy cisimlərinin hərəkəti maraq doğururdu. Astronomik ölçü üçün müxtəlif alətlər yaradılırdı; astronomik biliklərin dəqiqliyi barəsində həmin ərazinin müxtəlif təqvimləri üzrə fikir yürüdülür, xüsusi olaraq misir təqvimi yüksək qiymətləndirilirdi. Təqvimlər, astronomik, mülki, təsərrüfat, günəş, ay təqvimlərinə ayrılmışdı, dini ehtiyaclar üçün də təqvimlər var idi. Astronomiya elmləri xüsusi olaraq riyaziyyat ilə sıx əlaqədar idi. On (Misir, Hindistan, Çin) və altmış (Mesopotamiya riyaziyyatında) hesablama sisteminin əsasları işlənib hazırlanmışdı. Misirlilər kəsr ilə vavilyon əməliyyatlarına - kvadrat tənliklərin həlli texnikasına sahibləmişdilər; onlar iki məchul ilə xətti və kvadrat tənliklərini, hətta kub və bikvadrat tənliklərinə aid tapşırıqları həll edirdilər. Vavilyon həndəsəsi sadə düz xətt fiqurlarının sahəsi və sadə cisimlərin həcmi üçün düsturlara malik idi, Pifaqor adlandırılan teoriya isə Şərqin bütün regionlarında məhşur idi.

Qədim şərq riyaziyyatı ilə yanaşı, bu dövrə malik biliklərin xüsusiyyətləri bütövlükdə öz tətbiqi xüsusiyyətlərindən - praktiki tələbatlarından yaranmış, əsas funksiyaları isə insanın həyat fəaliyyətinin müxtəlif sferalarına xidmətdən ibarət idi (torpaq bölgüsü, suvarma, tikinti, sənətkarlıq və s.). Riyazi düşüncə

artıq praktiki tələbatdan asılı olmayaraq tədricən inkişaf etməyə başlayır. Birinci səviyyəli abstraksiya, misal üçün ədəd, konkret həssas-qəbul olunan predmetlər ilə iş nəticəsində yaranıb, cəbri obyektlər və onlarla əməliyyatlar isə artıq konkret ədədlərdən ayrılma və onlarla əməliyyat zamanı yaranır. Qədim Şərq riyaziyyatında isbat adlı şey yoxdur: bizə gəlib çatan mətnlərdə yalnız qayda formasında göstərişlər verilir: "nəyi et, necə et"; bu resept biliyinin əlamətləridir. Qədim şərqin elmdən əvvəlki mərhələsində, astronomiya və riyaziyyatdan başqa təbiətə və insana xas olan bir çox məlumatlar mövcud idi. Və bütün bu bilik sahələri çox tətbiqi xüsusiyyətə malik idi.

Tibbin inkişafı botanika, zoologiya və minerologiya üzrə biliklərin toplanmasını və sistemləşdirilməsini tələb edirdi. Qədim hind mədəniyyətində psixologiyaya böyük diqqət göstərilirdı. Beləliklə, insanın daxili dünyasına maraq yarandı, bu zaman qədim çin mədəniyyətində tədqiqat mərkəzi etik-sosial məsələlər idi. Qədim hind mədəniyyəti eyni zamanda məntiq barədə ilk məlumatların işlənib hazırlanması xidmətinə görə tanınır.

Elmdən əvvəlki mərhələnin fərqli xüsusiyyətlərini qiymətləndirərkən, onun digər bir xüsusiyyəti- mifo-dini quruluşu haqqında da danışmaq lazımdı. Həmin dövrdə astronomiya astrologiya ilə sıx əlaqədar idi və bütövlükdə taleyin proqnozlaşdırılması və əlamətlər vacib empirik materialların toplanmasına imkan verirdi. Nəticə etibarı ilə, elmdən əvvəlki mərhələnin fərqli əlamətləri tətbiqi xüsusiyyətlər və onun resept tərkibi, dini-ruhi axtarışlar ilə ayrılmazlıq və belə desək mistika elmidir (7, s.19-21).

**Ədəbiyyat:**


1. James McAllister, Philosophical Foundations of the Historiography of Science, http://www.universiteitleiden.nl/en/research/research-projects/humanities/philosophical-foundations-of-the-historiography-of-science
2. Joseph Agassi, Science and Its History: A Reassessment of the Historiography of Science, Tel Aviv University and York University, Toronto, 2008, p. 265
3. Rorty, R. (2004). The historiography of philosophy. In R. Rorty, J.B. Schneewind & Q. Skinner (Eds.), *Philosophy in history. Essays on the historiography of philosophy* (pp. 49-76). New York: Cambridge University Press.
4. О.Д.Гаранина, История и Философия Науки, Московский Государственный Университет Гражданской Авиации, Часть I, Учебное пособие, Москва – 2006, с. 68

5. Т.В.Шелепанова, В.М. Грищенко, А.И.Тимофеев, История и философия науки, Учебное пособие, Часть 1, Общие проблемы философии науки, Санкт-Петербург, 2010, с. 15
6. Э.Г.Винограй, Философия Науки и Техники, Консепт Учебного Курса для Магистров, с. 5-18
7. Я.С. Яскевич, Методология И Этика, В Современной Науке: Поиск Открытой Рациональности, Учебно-Методическое Пособие, Минск БГЭУ 2007, С. 19-21

**UOT 94 (479.24)**

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ VƏ MİLLİ HÜQUQLARIMIZIN BƏRPASI
## (Dövlət dili haqqında ilk sənəd)

**Xaqan Əlirza oğlu BALAYEV**
AMEA, Hüquq və İnsan Haqları İnstitutu

xaqan28@gmail.com

## XÜLASƏ

1918-ci il mayın 28-də Azərbaycanda müstəqil dövlət – Azərbaycan Xalq Cümhuriyyəti elan ediləndən sonra xalqın və dilinin adı bərpa edildi. AXC Nazirlər Şurası 1918-ci il iyunun 27-də “Dövləti lisan türkcə qəbul edilərək müvəqqətən hökuməti müəssisələrdə rus lisanı istemalına müsaidə edilməsi haqqında” qərar qəbul etdi. Bu qərar Azərbaycanın dövlətçilik tarixində dövlət dili haqqında qəbul edilmiş ilk rəsmi sənəddir. Lakin qısa vaxtda yerli kadrlar hazırlamaq mümkün olmadığına görə AXC-nin mövcud olduğu müddət ərzində həmin qərar, əslində, yerinə yetirilməmiş qaldı. Yalnız Məclisi-məbusanın – Azərbaycanın dövlətçilik tarixində ilk parlamentin iclasları Azərbaycan dilində aparılmış, sənədləri ana dilində hazırlanmış, kargüzarlığı da bu dildə aparılmışdı.

**Açar sözlər:** Azərbaycan Xalq Cümhuriyyəti, parlament, dövlət dili, dövlət müəssisələri.

## АЗЕРБАЙДЖАНСКАЯ НАРОДНАЯ РЕСПУБЛИКА И ВОССТАНОВЛЕНИЕ НАЦИОНАЛНЫХ ПРАВ
### (Первый документ о государственном языке)

## РЕЗЮМЕ

После объявления Азербайджана 28 мая 1918 года независимым государством - Азербайджанской Народной Республикой были восстановлены подлинные названия народа и его языка. 27 июня 1918 года Совет Министров АНР принял «Постановление о признании турецкого (азербайджанского-ред.) языка государственным и временном допущении в правительственных учреждениях употребления русского языка». Данное

постановление является первым официальным документом о государственном языке в течении всей истории азербайджанской государственности.

**Ключевые слова:** Азербайджанская Народная Республика, парламент, государственный язык, государственные учреждения.

**AZERBAIJAN PEOPLE REPUBLIC AND THE ESTABLISHMENT OF OUR NATIONAL RIGHTS**
**(The first document about state language)**

**SUMMARY**

After the establishment of the Peoples Republic of Azerbaijan on May 28, 1918, as an independent state, the name of the nation and its language was returned. The Council of Ministers adopted a special resolution on June 27, 1918 "On the adoption of Turkish as an official language and on the temporary use of Russian in government offices". It was the first official document on the official language in the history of Azerbaijan as a state.

**Keywords:** Azerbaijan People Republic, parliament, official language, government offices.

1918-ci il mayın 26-da Zaqafqaziya Seymi buraxılandan və onun elan etdiyi Zaqafqaziya Federativ Respublikası süqut edəndən sonra Cənubi Qafqazda üç müstəqil dövlət – Azərbaycan, Gürcüstan və Ermənistan respublikaları yarandı. Sabiq Zaqafqaziya Seymi Azərbaycan fraksiyasının 1918-ci il mayın 27-də Tiflis şəhərində keçirilmiş fövqəladə iclasında M.Ə. Rəsulzadənin (Müsavat Partiyası Mərkəzi Komitəsinin sədri) sədrliyi ilə Müvəqqəti Milli Şura (Şurayi-Milli) yaratmaq qərara alındı. Mayın 28-də Milli Şura Azərbaycanın İstiqlaliyyəti Haqqında Əqdnamə qəbul etdi və "Cənub-Şərqi Zaqafqaziyadan ibarət" Azərbaycan Xalq Cümhuriyyəti elan olundu. Azərbaycan milləti "kulturnation (millət-mədəniyyət) statusundan tamamilə başqa siyasi-hüquqi və mənəvi-psixoloji statusa –statenation (millət-dövlət) statusuna qədəm qoydu. (7, s. 317).

Azərbaycanda ikihakimiyyətliliyin hökm sürdüyü (Bakı quberniyası Bakı Xalq Komissarları Sovetinin hakimiyyəti altında idi) və Azərbaycan Xalq Cümhuriyyətinin dövlət və hökumət orqanlarının hələ Gəncədə yerləşdiyi bir zamanda 1918-ci il iyunun 27-də AXC hökuməti "Dövləti lisan türkcə qəbul edilərək müvəqqətən hökuməti müəssisələrdə rus lisanı istemalına müsaidə edilməsi haqqında" qərar verdi. Bu qərar Azərbaycan dövlətçiliyi tarixində dövlət dili haqqında ilk sənəd idi. Qərarı AXC Nazirlər Şurasının sədri F.X. Xoyski imzalamışdı.

A.Abdullayev "Şah İsmayıl Xətainin öz zamanında dövlət idarələrini Azərbaycan dilində aparmaq üçün xüsusi fərmanlar verdiyini" yazsa da (1, s.5), həqiqət bundan ibarətdir ki, elm aləminə belə fərmanlar məlum deyildir və alim hansı mənbələrə əsasən bu nəticəyə gəldiyini göstərməmişdir.

N.Nərimanovun Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə irad tutaraq, "türk dilinin dövlət dili olması üçün dekret verməyə bir cəsarət etməyiblər" yazması "dövləti lisan" haqqında qərardan xəbərdar olmadığına görə yanlışlığa yol verdiyinə dəlalət edir. (5, s. 39 ).

AXC hökumətinin ilk ən mühüm qərarlar sırasında dövlət dili haqqında qərar verməsi təsadüfi deyildi. Şərqdə ilk demokratik respublikanın qurucusu olan dövlət xadimləri Azərbaycanın başqa görkəmli ziyalıları ilə birlikdə bütün fəaliyyətləri ərzində Azərbaycan dilinin hüquqları uğrunda mübarizə aparmışdılar. M.Ə.Rəsulzadə, H.B. Ağayev, S.M. Qənizadə və başqaları dil məsələlərinə həsr etdikləri məqalə və çıxışlarında bu mətləbə toxunmuşlar.

M.Ə. Rəsulzadə 1908-ci ildə qələmə aldığı "Yerli məktəblər" məqaləsində yazırdı: "Məktəblərin çoxusunda ana dili dərsi varsa da, dərsin özü və müəllimlərinin qədr və heysiyyəti yox dərəcəsindədir. Ana dili dərsi o dərəcə bir əhəmiyyətsizliyə düçar olmuşdur ki, hər mütəəllim bilatənbih dərsindən qaçdığı kimi bir çox müəllimlər də artıq bir qeydsizlik büruzə verirdilər və indi də çoxları qabaqkı suratlə davam etməkdə və müəllimliklərini ləng suratdə davam etməkdədirlər. Nə maarif idarəsi tərəfindən bir himayə, nə müəllimlər tərəfindən bir həmiyyəti-kəmalə, nə cəmaət tərəfindən bir qeydkeşlik görən ana dilinin rəsmi varlığı həqiqi yoxluq dərəcəsinə gəlmişdi. Demək olar ki, hənuz indi də bu haldadır" (12, s. 225).

Həmin ildə yazdığı "İbtidai yerli məktəblər" məqaləsində M.Ə. Rəsulzadə rus dilinin tədrisinə üstünlük verilməsinə qarşı çıxaraq, bunu "1881-ci ilin təlim layihəsinin yenidən elam və təsdiqi" kimi qiymətləndirirdi: "Yerli dilə əhəmiyyət verilməsindən bir nişan qalmamışdır. "Mənən və maddən əhaliyə köməkçi olmaq və gələcək məişətlərində rəhbər olmaq üçün" ana dilinə həftədə 6-ca saat veriliyor. "Rus milləti ilə tanış olub birləşmək üçün" rus dilinə tamam iki dəfə artıq olaraq həftədə 12 saat veriliyor. Böylə proqramın nə dərəcədə mənfəətsiz və kifəyətsiz olduğu hər kəscə məlum olduğu kimi görünüyor ki, məkatib müdiriyyətinə belə sabitdir" (10, s. 254-255).

1908-ci ilin noyabrında Dövlət dumasının maarif komissiyasında milli dillər barəsində müzakirələr zamanı dumada əksəriyyət təşkil edən oktyabristlərin yerli dillərə aid mülahizələrinə qarşı çıxan M.Ə.Rəsulzadə "Milliyyət və əyalət məsələləri" məqaləsini dərc etdirərək, onların iç üzünü açıb göstərmişdi: "Oktyabrist olan fon Anrep bu məsələ barəsində doklad etdikdə diyor ki, "əhalisinin çox hissəsi yerli əhalidən ibarət olan əyalətlərdə eləmək olar ki (kursiv M.Ə. Rəsulzadənindir-müəllif), tədris milli ana dilində olsun... "Eləmək olar ki" sözünün "lazımdır ki" (kursiv M.Ə.Rəsulzadənindir-müəllif) sözünə

təbdil olunmasına israr etdikdə fon Anrep bilirmisiniz nə bəyanat veriyor? O diyor ki, “bu məsələni şərtsiz qoymaq olmaz, zira öylə əyalətlər var ki, oralarda bəzi əhvali-xüsusi və mülahizəti-dövləti səbəbiylə ana dilini tətbiq etmək olmaz!..”

Oktyabristlərin bu mövqeyini hərtərəfli təhlil edəndən sonra M.Ə.Rəsulzadə bu nəticəyə gəlmişdi ki, “Öylə bir əyalətlərdən və təlimi-ibtidaisi ana dilində “ola bilənlərdən” biri də məlum olduğu üzrə Qafqazdır. Əcəba, Qafqazda mümkün olacaqmı ki, tədrisi-ibtidai ana dilində olsun? Əcəba, fon Anreplərin xüsusi mülahizat və siyasiyyati (kursiv M.Ə.Rəsulzadənindir-müəllif) bu zavallı əyalətə aid olmayacaqmı?” (11, s. 265-266).

Dövlət idarələrində işlərin rus dilində aparılmasından bəhs edən M.Ə. Rəsulzadə yazırdı: “Həmişə “bizə dilimizi qanan hakimlər verin”, “bizi bizim dilimizi, adətimizi, rəftar və kirdarımızı bilən amirlər vasitəsi ilə idarə edin”... kimi tələblər virdi-zəbanımız olmuyubmu?” (12, s. 226). Belə vəziyyəti onunla izah edirdi ki, “... daima Qafqazın məmurları bilümum... yerli əhalinin dilindən, adətindən, süluk və rəvişindən xəbəri olmayan İçəri Rusiya çinovnikləri olmuşdurlar” (12, s. 226).

AXC qurulanda da dövlət idarələrində rus, yaxud rusdilli məmurlar böyük əksəriyyət təşkil edirdilər. Dövlət dili haqqında qərarda nəzərdə tutulurdu ki, “Dövləti lisan türk dili qəbul edilərək... bu lisanı bilənlər olana qədər hökuməti müəssisələrdə rus dili istemalına da müsaidə edilsin.” (4,93).

Qərardan sonra daxili işlər naziri Behbud ağa Cavanşir “Azərbaycan” qəzetinin müxbiri ilə müsahibəsində bildirmişdi ki, “Azərbaycan müəssisələrində rus dilinin işlədilməsi onu sevməkdən deyil, hazırkı dövrün zərurətindən irəli gəlir. Əlbəttə, bu çox davam etməyəcəkdir. Yüksək vəzifədə işləyən və türk dilini bilməyən məmurlar uzun müddət işləyə bilməyəcəklər. İki ildən sonra Azərbaycanın bütün müəssisələri milliləşdiriləcəkdir. Türk dilini bilməyən məmurlar isə vəzifələrini itirməməkdən ötrü bizim dili öyrənməli olacaqlar” (6, s. 118-119).

Hökumət qeyri millətlərdən olan Azərbaycan vətəndaşlarının dövlət dilini öyrənməsi üçün tədbirlər görürdü. 1919-cu ilin sentyabrında türk dilinin öyrənilməsi üçün kurslar təşkil edilmişdi və bu məqsədlə 351 min manat vəsait ayrılmışdı (2, s. 484).

Yerli azərbaycanlı kadrlar hazırlamaq çətin bir proses olduğuna görə, B.A.Cavanşirin nikbinliyinə baxmayaraq irəliləyiş baş verməmişdi, əslində qərar icra edilməmiş qalmışdı, idarələrdə kargüzarlıq rus dilində aparılırdı. Dövlət dili haqqında qərar qəbul ediləndən 13 ay sonra Məclisi-Məbusanda baş vermiş müzakirə də bunu təsdiq edir. Məclisi-Məbusanın 29 iyul 1919-cu il tarixli iclasının stenoqramından:

“Katib-rusca oxuyur.

Səslər-olmaz! Türkcəsi yoxmu?

Sədr (katibi saxlayır)-tərcümə ediniz.

Katib – tərcüməsi yoxdur, necə edim?

Sədr - rica edirəm, oxuyunuz. Məktub hökumət məmurları tərəfindən gəlmişdir. Özünüz bilirsiniz, məmurların dörddə üç hissəsi rusdur.

M.Ə. Rəsulzadə (yerindən) – həpsi türkcə gəlmir. Başqaları da türkcə gəlmir.

Katib-rusca oxuyur. (Məhəmməd Əmin Rəsulzadə, Mustafa Vəkilov və Qara Ağazadə salondan çıxırlar)" (3, s. 896).

Dövlət idarələrindən fərqli olaraq, Məclisi-Məbusanda iclaslar və kargüzarlıq işləri türk dilində aparılırdı. Azərbaycan Xalq Cümhuriyyəti dövrünün tədqiqatçılarından biri olan N.Nəsibzadə yazır: "Parlamentin istifadə etdiyi dil dövlət dili statusuna malik Azərbaycan türkcəsi idi. Qeyri-yerli əhali nümayəndələri çıxışların rus dilində olmasını təklif etdikdə parlamentin iclaslarından birində bu məsələ xüsusi müzakirə olunmuş və bu xüsusda qərar qəbul edilmişdi. Qərara əsasən parlamentin rəsmi dili Azərbaycan türkcəsi elan olunmuş, digər millətlərin nümayəndələrinin öz çıxışlarını rus dilində etmələri məqbul hesab edilmişdi. Bununla belə, rəsmi sənədlərin hamısı dövlət dilində tərtib edilirdi. Dövlət dilində olmayan sənədlərin üstündə adətən parlamentin sədr müavini Həsən bəy Ağayev belə bir məzmunda dərkənar qoyurmuş: "Ərizə türkcə lisanda olmadığı üçün əncamsız qalır" (9, s. 81).

Məclisi-Məbusanın iclaslarında da türk dilinin dövlət dili statusuna riayət olunmamasının qarşısı dərhal alınırdı və bu işdə M.Ə.Rəsulzadə xüsusi səy göstərirdi. 6 mart 1919-cu il tarixli iclasda katib mətni əvvəl rusca, sonra türkcə oxumaq istəyəndə, M.Ə.Rəsulzadə yerindən "əksinə olmalıdır" (9, s. 338), yenə həmin iclasda "layihələrin bir üzünü türkcə, bir üzünü rusca çap etmək" təklifi irəli sürüləndə "yalnız türkcə, rusca lazım deyildir" (9, s. 343), 17 aprel 1919-cu il tarixli iclasda katib mətni ruscaya tərcümə edərkən "tərcümə nə lazım" (9, s. 459) söyləyərək, iradlarını qəbul elətdirmişdi.

1919-cu il aprelin 14 -də "Əhrar" partiyası fraksiyasının Məclisi-Məbusanın Rəyasəti-Alisinə təqdim etdiyi qətnamə də bu məsələyə aid idi. Partiyanın sədri Ə.Əfəndizadənin imzaladığı layihədə təklif olunurdu ki, "Məclisi-Məbusanda söylənən rusca nitqlər türkcəyə bahəmeyn-hal tərcümə edilməlidir." Rusca çıxışlardan sonra bəzən kor-təbii olaraq rus dilində davam edən müzakirələrə fraksiya kəskin münasibətini bildirərək bəyan edirdi ki, "Məclisi-Məbusan müzakirələrində rusca müzakirə davam elədiyi müddətdə fraksiyamız nümayəndələri komisyonlarda iştirak etməyəcəkdir" (9, s. 459-460).

Bu və başqa səylər nəticəsində Məclisi-Məbusanda türk dilinin dövlət dili statusu bərqərar olmuş və qorunub saxlanmışdı.

Dövlət idarələrində dövlət dili məsələsini tənzimləməyi nəzərdə tutan qərardan sonra 1918-ci il avqustun 28-də AXC hökuməti "Birinci və ikinci dərəcə ibtidai məktəblərin, həmçinin orta təhsil müəssisələrinin milliləşdiril-

məsi" haqqında qərar qəbul etdi. Qərarda qeyd olunurdu ki, birinci dərəcə ibtidai təhsil müəssisələrində təhsil şagirdlərin ana dilində aparılmalı, eyni zamanda türk dili artırılmış həcmdə məcburi qaydada tədris olunmalıdır; ikinci dərəcə ibtidai məktəblərdə və orta təhsil müəssisələrində isə tədris dövlət dili olan türk dilində aparılmalı idi. Orta tədris müəssisələri siniflərinin bütünlükdə erməni və rus dillərində dərs keçilən paralel şöbələri ləğv olunmalıydı.

Milliləşdirmə tədbirləri nəticəsində şagirdlərin bir hissəsinin məktəbdən kənarda qala biləcəyini nəzərə alan hökumət 1918-ci ilin noyabrında öz qərarında dəyişikliklər apardı. Müəyyən edilirdi ki, "yaşayış məkanlarında cəmi bir təhsil müəssisəsi varsa, yuxarı hazırlıq siniflərindən başlayaraq tədrisin rusca aparıldığı paralel siniflər açılmalı, müəyyən yerdə eyni tipli bir neçə tədris müəssisəsi olarsa, onların bir hissəsi milliləşdirilməli, qalanlarında isə dövlət dili məcburi fənn kimi keçilməklə, tədris rusca aparılmalıdır" (2, s. 482).

Milli məktəb ideyasının reallaşması üçün digər mühüm tədbirlər də həyata keçirilməyə başlandı. 1918-1919-cu illərdə Gəncə müəllimlər seminariyası milliləşdirildi. Bakı, Şəki, Zaqatala, Ağdam və Şuşada ibtidai siniflər üçün müəllimlər hazırlayan kişi və qadın kursları açıldı. Qori müəllimlər seminariyasının Azərbaycan bölməsi Qazaxa köçürüldü. 1919-cu ilin noyabrında parlament Göyçayda iki realnı məktəbin açılması haqqında qərar qəbul etdi. Türk dilində dərsliklərin hazırlanması üçün komissiya da yaradılmışdı.

AXC kalimiyyətinin maarif sahəsindəki ən mühüm xidmətlərindən biri parlamentin 1 sentyabr 1919-cu il tarixli qanunu ilə Bakı Dövlət Universitetinin açılması idi. Türkdilli kadrlar olmadığına görə universitetdə tədris rus dilində aparılacaqdı. Elə bu səbəbdən layihənin tərəfdarları ilə (M.Ə.Rəsulzadə, F.X.Xoyski, N.Yusifbəyli, S.M.Qənizadə, Ə.H.Qarayev, S.Ağamalıoğlu, və başqaları) yanaşı əleyhdarları da (Q.Qarabəyov, Y.Əhmədov, M.Əfəndizadə və başqaları) meydana gəldi və aralarında kəskin mübahisələr baş verdi. Məsələnin müzakirə olunduğu parlament iclasındakı çıxışında M.Ə.Rəsulzadə mübahisəyə yekun vuraraq söyləmişdi: "Burada universitetin açılması məsələsində iki fikir mövcuddur. Məsələyə müxalif olan münasibət onunla əsaslandırılır ki, bizdə kifayət qədər elmi kadrlar və mütəxəssislər yoxdur. Amma universitetin təsis edilməsi dövlətin əsas vəzifələrindən biri olmalıdır, buna görə də, bütün maneələr aradan qaldırılmalıdır. Əlbəttə, yaxşı olardı ki, açılacaq elm ocağı türk dilində olaydı, lakin bu hələlik mümkün deyildir. Lakin bu, başqa dildə də olsa, universitetin fəaliyyət göstərməsinə mane olmamalıdır... Universitetdə türk dili keçiləcək, tələbələrin özləri də Bakıda, doğma xalq içərisində özlərini rahat hiss edəcəklər" (2, s. 486).

Qanunda da türk dilinin icbari fənn kimi tədris edilməsinin xüsusi olaraq göstərilməsinə baxmayaraq, həmin maddə tətbiq olunmamışdı və Azərbaycanın Sovetlər qurultayı iki il sonra bu məsələ barəsində xüsusi qətnamə qəbul etməli olmuşdu.

Universitetə ilk qəbulda (cəmi 877 tələbə) azərbaycanlıların sayı yox dərəcəsində idi. Tarix-filologiya fakültəsinin 509 tələbəsindən yalnız 12 nəfəri azərbaycanlı idi. Bu fakt universitetin açılmasını bir neçə il təxirə salmaq tərəfdarlarının hansı düşüncələrə əsaslandıqlarını aydınlaşdırır.

AXC hökumətinin dil sahəsindəki növbəti tədbiri dövlət dilinin orduda tətbiqi ilə əlaqədar idi. 1918-ci il noyabrın 1-də yaradılmış Hərbi Nazirlik həmin dövrdə dövlət strukturunda xüsusi əhəmiyyət kəsb etdiyinə görə ilk vaxtlar ona Nazirlər Şurasının sədri F.X. Xoyski özü başçılıq etmişdi. 1918-ci il dekabrın 25-də artilleriya generalı S.Mehmandarov hərbi nazir təyin olundu (həmin vaxtadək nazirin müavini idi). Onun dekabrın 27-də imzaladığı ilk əmr orduda dövlət dilinin tənzimlənməsinə aid idi. 34 nömrəli həmin əmri ilə AXC-nin Hərbi Naziri "... orduda xidmət edən, lakin dövlət dilini bilməyən zabitlər qarşısında belə bir tələb qoyurdu ki, bir ay müddətində heç olmasa komanda sözlərinin azərbaycanca qarşılıqlarını öyrənsinlər və əsgərlərə Azərbaycan dilində komanda versinlər. Bir ay müddətində bu tələbi yerinə yetirə bilməyən zabitlər dərhal ordudan xaric edilməli idilər. Azərbaycan dilinin öyrənilməsi və savadsızlığın ləğvi üçün orduda müvafiq kurslar yaradıldı və həmin kursların aparılmasına təcrübəli mütəxəssislər cəlb edildi. Əsgərlərlə ünsiyyətin, təlimin ana dilində aparılması, heç şübhəsiz ki, şəxsi heyəti əsgəri xidmətə daha yaxından bağlayır, onların mənəvi-psixoloji vəziyyətinə müsbət təsir göstərirdi" (8, s. 397).

AXC-nin mövcud olduğu dövr ərzində dövlət dili ilə əlaqədar həyata keçirilmiş tədbirlər nəticəsində dövlət idarələrində Azərbaycan dilinin işlədilməsi obyektiv səbəblər üzündən mümkün olmasa da, təhsil sistemində, orduda ana dilinin tətbiqi sahəsində müsbət nəticələr əldə edildi. Ən başlıcası isə, Şərqdə ilk parlament olan Məclisi-Məbusan türk dilində fəaliyyət göstərərək, anadilli bir dövlət orqanı kimi bərqərar oldu və Azərbaycanın dövlətçilik tarixində şərəfli yer tutdu.

AXC hakimiyyəti devriləndən sonra onun dövlət dili sahəsindəki səyləri Azərbaycanın Sovet hökuməti tərəfindən yeni tarixi və ictimai quruluş şəraitində davam etdirildi.

**Ədəbiyyat:**

1. Abdullayev A. Azərbaycan dilinin tədrisi tarixinə dair. B., 1958
2. Alışanlı Ş., Abdullayev H., İsayev N., Aslanov M. Azərbaycan Cümhuriyyətində mədəni quruculuq. Azərbaycan tarixi. 5 c. B., 2001
3. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). 1 c. B., 1998
4. Dövləti lisan türkcə qəbul edilərək müvəqqətən hökuməti müəssisələrdə rus lisanı istemalına müsaidə edilməsi haqqında.

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli qərarı.- Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. B., 1990

5. Əhmədova F. Nəriman Nərimanov-ideal və gerçəklik. B., 1998
6. Həsənov C. Azərbaycan Demokratik Respublikasının yaranması və onun tarixdə yeri.-Siyasi tarix. 1 h. B., 1995
7. Həsənov C., Maksvell N. Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi.-Azərbaycan tarixi. 5 c. B., 2001
8. Maksvell N., Musayev İ., İsmayılov K., Süleymanov M. Azərbaycanda milli dövlətçiliyin bərqərar olması.- Azərbaycan tarixi. 5 c. B., 2001
9. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. B., 1990
10. Rəsulzadə M.Ə. İbtidai yerli məktəblər.-Əsərləri. 1 c. B., 1992
11. Rəsulzadə M.Ə. Milliyyət və əyalət məsələsi.- Əsərləri. 1 c. B., 1992
12. Rəsulzadə M.Ə. Yerli məktəblər.- Əsərləri. 1 c. B., 1992

## ƏTRAF-MÜHİTİN MÜHAFİZƏSİ

**UOT 539.3**

# СОВРЕМЕННЫЕ ЭКОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ КАСПИЙСКОГО МОРЯ И РЕКОМЕНДУЕМЫЕ МОДЕЛИ ИХ РЕШЕНИЯ

**Жанна Николавевна АНДРЕЕВА**
Западный Университет, кафедра «Экономика, маркетинг и менеджмент»
к.т.н., доцент

**Наталия Витальевна САФРОНОВА**
Азербайджанское Высшее Военное Училище им. Г.Алиева
докторант БГУ

## РЕЗЮМЕ

В статье представлена упрощенная математическая модель экосистемы Каспийского моря, дальнейшее исследование и совершенствование которой, позволит снизить негативные последствия различных факторов, связанных с загрязнением Каспия и гибелью огромного количества водной флоры и фауны.

**Ключевые слова:** экосистема, математическое моделирование, экологическая безопасность, информационная достаточность, биологическое сообщество, фитопланктон.

## XƏZƏR DƏNİZİNİN MÜASİR EKOLOJİ PROBLEMLƏRİ VƏ ONLARIN TÖVSİYƏ EDİLƏN HƏLL MODELLƏRİ

## XÜLASƏ

Məqalədə Xəzər dənizi ekosisteminin sadələşdirilmiş riyazi modeli, bu modelin Xəzərin çirklənməsi və çoxlu sayda su flora və faunasının tələf

edilməsi ilə əlaqədar müxtəlif amillərin neqativ nəticələrinin azaldılmasına imkan verən gələcək tədqiqi və təkmilləşdirilməsi təqdim olunmuşdur.

**Açar sözlər:** ekosistem, riyazi modelləşdirmə, ekoloji təhlükəsizlik, məlumat kifayətliliyi, bioloji birlik, fitoplankton.

## MODERN ENVIRONMENTAL PROBLEMS OF THE CASPIAN SEA AND RECOMMENDED MODELS FOR THEIR SOLUTIONS

### SUMMARY

The article presents a simplified mathematical model of the ecosystem of the Caspian Sea, further research and improvement of which will reduce the negative consequences of various factors associated with the pollution of the Caspian Sea and the loss of a huge number of aquatic flora and fauna.

**Keywords:** ecosystem, mathematical modeling, ecological safety, information sufficiency, biological community, phytoplankton.

Проблема сохранения экологической чистоты уникального объекта, которым является Каспийское море, в последние годы приобрела чрезвычайную актуальность. Углеводородные ресурсы и биологические богатства Каспия не имеют аналогов в мире.

Главным загрязнителем моря является нефть. Нефтяные загрязнения подавляют развитие фитобентоса и фитопланктона Каспия. Биологическая продуктивность водных экосистем в большой степени определяется продукцией фитопланктона, составляющего основу жизнедеятельности в водоеме.

Оценка биологической продуктивности экологических систем имеет большое значение для изучения состояния природной среды и возможностей рационального природопользования.

Конкурентным преимуществом морской добыч и нефти на Каспии в сравнении с добычей в Северных морях являются климатические и технические условия (теплый климат и меньшая глубина). Вместе с тем, увеличение масштабов недропользования в акватории Каспийского моря влечет и негативные последствия, а именно, влияние на экологическое состояние водоемов в окружении Каспийского моря и атмосферный воздух. Загрязнение Каспийского моря ведет к гибели огромного числа редких рыб и других живых организмов [3, с.21].

В исследовании экосистем широко используются методы математического моделирования, которые должны отражать:

- особенности оригинала предмета познания;
- модель должна быть адекватна оригиналу;
- в моделировании должен соблюдаться принцип информАционной достаточности.

Основоположниками математического моделирования водных экосистем выступили математики и биологи в первой трети XX века.

В странах Европы и Северной Америки моделировалось функциионирование рек, озёр и морей в целях изучения изменений под воздействием загрязняющих факторов в интересах промысловой эксплуатации

Исключительно большой объем информации, который необходимо обработать при решении проблемы экологической безопасности Каспия, приводит к пониманию того, что ее решение невозможно без использования методов компьютерного имитационного и математического моделирования.

Модель, как правило, предоставляет собой упрощенный образ оригинала, при котором сознательно удаляют из системы некоторые элементы и связи, чтобы упростить модель. С другой стороны, модель должна, в определенном смысле, верно и достаточно полно отражать оригинал.

В общем случае основу математических моделей экосистем или их подсистем составляют эволюционные уравнения вида [7, 94с.]:

$$\frac{dx}{dt} = F(t, a, x, u, q), \quad (1)$$

где *x(t,a)* – вектор-функция состояния экосистемы, *t* – время, *a* – пространственная характеристика, *u(t,a)* – функция управления, *q(t,a)* – функция влияния окружающей среды.

Влияние окружающей среды – это взаимодействие физических, химических и других факторов среды на живые компоненты водной экосистемы.

Если в модели состояние системы «*X*» зависит только от времени *t*, то такая модель называется точечной.

Теоретической основой исследования с точки зрения математического моделирования процессов, которые наблюдаются в водной среде Каспия, явились работы ученых-экологов Азербайджана и прикаспийских государств (Россия, Казахстан, Туркменистан, Иран) [5, 75с.].

Большой вклад в изучение экологии Каспийского моря и сохранения его ресурсов внес известный ученый, академик НАНА Мамедов Рамиз Махмуд оглы. Им разработаны ряд направлений и методик в исследовании экосистемы Каспия, выполнен мониторинг нефтяного загрязнения Каспийского моря, все исследования имеют международный статус.

Согласно современной концепции развития «Азербайджан-2020: взгляд в будущее», принятой руководством Азербайджана, предпринимаются практические шаги по усовершенствованию законодательства в области охраны окружающей среды в соответствии с инновационным международным опытом, особое внимание уделяется созданию эффективных механизмов мониторинга и контроля [1,2, 194-201с.].

Основными элементами при описании зависимости скорости роста фитопланктона в морской среде от клеточных запасов биогенных элементов являются непосредственно содержание элемента в клетке (клеточная квота), а также его минимальное содержание в клетке $q_{min}$ , при котором скорость роста $\mu$=0.

Концепция клеточной квоты берёт начало с работ М.Друпа, который предложил зависимость удельной скорости роста от содержания вещества в клетке в виде [6, 42 с.]:

$$\mu = \mu^{\sim} \frac{(q - q_{\min})}{k + (q - q_{\min})} , \qquad \text{где} \qquad (2)$$

$\mu^{\sim}$ – зависимость скорости роста;

$k$ – константа полунасыщения (в общем случае $\mu^{\sim}$ и $k$ зависят от вида фитопланктона).

Существуют некоторые данные, которые позволяли сравнивать результаты моделирования с использованием концепции «клеточной квоты» и без её использования (Л.А. Кугай), сравнивались модели, описывающие кругооборот биогенных ресурсов (азота и водорода).

Модели с использованием «клеточной квоты» М.Друпа дают большее число возможных сценариев развития фитопланктона и позволяют описать ситуации, реально встречающиеся в природе, например, ситуацию нарастания биомассы фитопланктона при изменяющихся внешних условиях окружающей среды [1, 85-95 с.].

Рассматривая вопрос обеспечения экологической безопасности при недропользовании, следует понимать, что в основе её обеспечения лежат инструменты, которые позволяют обеспечить баланс между потребностями человечества и возможностями окружающей среды. Среди основных инструментов исследователи выделяют:

- Экологическое нормирование;
- Экологическая экспертиза;
- Экологическое лицензирование и сертификация;
- Экологический надзор;

- Юридическая ответственность и экологические правонарушения.

Модели функционирования фитопланктонных сообществ описывают динамику преобразования веществ при фотосинтезе и построении растительного организма.

Рассмотрим модели замкнутых и открытых по веществу систем.

При описании микробиологических культур применяются открытые модели – это модели проточных культур, когда в систему попадают питательные вещества, а содержимое выбывает из системы. Такие модели применяются для описания функционирования фитопланктона. Модели представляются системой нелинейных дифференциальных уравнений. Фитопланктон представлен m – видами, их содержание в среде обозначается $y_i$, для вида $i$. Минимальное питание растительных организмов разбивается на $n$ – групп, содержание веществ группы $j$ в среде обозначается $z_j$.

Рост биомассы клеток вида $i$ проходит с удельной скоростью $\mu_i(z)$ в зависимости от содержания $z$ биогенов во внешней среде [8, 25с.].

Таким образом, одна из моделей сообщества в холеостате имеет вид:

$$\begin{cases} \frac{dy_i}{dt} = (\mu_i(z) - D)y_i \\ \frac{dz_j}{dt} = D\left(z_{y_0} - z_j\right) - \sum_{i=1}^{m} \gamma_{ij}(z_j)y_i \end{cases} \quad (3)$$

для $i=1...m$, $j=1...n$, $D$ – скорость протока вещества в системе; $z_0$ – содержание минеральных питательных веществ во входящем потоке; $v_{ij}(z_{ij})$ – удельные скорости поглощения вещества группы $j$ веществами вида $i$.

В отличии от открытых моделей замкнутые модели описывают динамику биомасс основных групп фитопланктонов, минеральных веществ и отмершей органики.

Замкнутая модель приобретает вид системы дифференциальных уравнений [8, 32 с.]:

$$\begin{cases} \dfrac{dy}{dx} = \mu_i\,(z)y_i \\ \dfrac{dz}{dt} = r(s) - \sum_{i=1}^{m} \mu_i(z)y_i \\ \dfrac{ds}{dt} = \sum_{i=1}^{m} e_i(y_i) - r(s) \end{cases} \qquad (4)$$

, где

функция $r(s)$ описывает скорость преобразования органики в минеральные соединения; функция $e_i(y_i)$ – удельные скорости элиминации (процесс естественный смертности микроорганизмов); остальные обозначения соответствуют предыдущей модели.

Вместе с тем, увеличение масштабов недропользования в акватории Каспийского моря влечет и негативные последствия, а именно влияние на экологическое состояние водоемов в окружении Каспийского моря, непосредственно Каспия, атмосферного воздуха и биоты.

Полностью исключить риск наступления этих факторов невозможно, но возможно снизить его последствия.

**Заключение.** В статье рассмотрены наиболее актуальные подходы к изучению природных биосистем, используя методы математического моделирования для описания динамики биомасс фитопланктонового сообщества в водной экосистеме.

Рассмотрены и проанализированы замкнутые и открытые модели. Свойства решений и функционирование в этих моделях существенно различно. В замкнутых моделях имеется континцальное множество положительных равновесных решений, в открытых моделях для проточных водоемов (систем) присутствует конечное множество изолированных неотрицательных равновесных решений.

Право выбора той или иной модели в зависимости от свойств рассматриваемых систем остается за исследователем.

В работе использовались различные методы сбора эмпирической информации: анализ статистических, отчетных и официальных материалов по природным характеристикам и экологии Каспийского моря, экономики, географии и экологии Каспийского моря.

## Литература:

1. Бутаев А.М., Гаджиев А.В., Гасанов Ш.Ш., Малахов С.К. Статья «Современное состояние и возможное направление развития экосистемы Каспийского моря». Вести ДНЦ, РАН, №4, 1999.

2. Мамедов Р.М., Панин Г.Н. и др. Монография «Современное состояние Каспийского моря»// Москва, Наука, 2005, 356 с.
3. Иванов В.П., Сокольский В.Ф. Научные основы стратегии защиты биологических ресурсов Каспийского моря от нефтяных загрязнений. Астрахань, 2000. 155 с.
4. Абакумов А.И., статья «Математическое моделирование водных экосистем: история, проблемы, перспективы»// ДВО РАН, Владивосток, 2010.
5. Баканов А.И. Методы математического моделирования водных экологических систем// Москва, 2012.
6. Droop M.R. Somethonghts on nutrient limit ion in algae. J.Phycol.1973.
7. Джеймс А. Математические модели контроля загрязнения воды. Москва, 1991, 472
8. Абакумов А.И. Статья «Устойчивость в моделях жизнедеятельности фитопланктона». Владивосток, 2012.

**P E D A Q O G İ K A**

**UOT 37**

# PEDAQOJİ TƏFƏKKÜRÜN FORMALAŞMASINDA İNTERAKTİV TƏLİMİN İMKANLARI

**Zülfiyyə Əlisaab qızı VƏLİYEVA**

Respublikanın Əməkdar Müəllimi
ADPU "Təhsilin pedaqoji problemləri"
ETL-nın elmi içisi

zulfiyye-veliyeva@mail.ru

## XÜLASƏ

Məqalə orta məktəb müəllimlər üçün faydalı olacaq. Məqalədə təhsil prosesində yeniliklərin mahiyyəti, mənası və öyrənmə prosesində yeni pedaqoji texnologiyalar təsvir edilmişdir. Məqalədə təhsilin keyfiyyətinin yüksəldilməsinin, şəxsiyyətə yönəldilmiş təhsilin tələblərinin əhəmiyyəti əks olunur. İnteraktiv tədris metodlarının vacibliyini, təhsilin əhəmiyyətini və uşaqların məktəbdə istifadəsi üçün müsbət nəticələrin əldə edilməsinin zəruriliyini ön plana çıxarır. Bu sahədə görkəmli alimlərin işləri öyrənilir, müasir müəllimin tələbləri müəyyənləşdirilir

**Açar sözlər:** Təfəkkür , interaktiv, təlim, texnologiya, keyfiyyət.

## ВОЗМОЖНОСТИ ИНТЕРАКТИВНОГО ОБУЧЕНИЯ В ФОРМИРОВАНИИ ПЕДАГОГИЧЕСКОГО МЫШЛЕНИЯ

## РЕЗЮМЕ

Статья будет полезна для учителей, которые преподают в средних школах. В статье говорится о сущности и значении инновации в системе образования и новые педагогические технологии в процессе обучения. Статья отражает высокое значение повышения качества образования, требования к учителю в личностно – ориентированном образовании. На

первый план выдвигается значимость образования и важность интерактивных методов и применение их детьми в школе для получения положительных результатов.

Исследуются работы выдающихся ученных в этой сфере, определяются требования к современному учителю.

**Ключевые слова:** Мышление, интерактивность, обучение, технология, качество.

## POSSIBILITIES OF INTERACTIVE LEARNING IN THE FORMATION OF PEDAGOGICAL THINKING

## SUMMARY

The article will be useful for teachers who teach in secondary schools. The article describes the essence and meaning of innovation in education and new pedagogical technologies in the learning process. The article reflects the high value of improving the quality of education for a teacher to learner - oriented education. At the fore the importance of interactive teaching methods, he importance of education and the requirement of involvement of children positive results for use in school Explores the work of outstanding scientists in this field are determined by the requirements of the modern master.

**Keywords**: Thinking, interactive, training, technology, quality

Elmi-texniki tərəqqinin sürətli inkişaf tempi, informasiya kommunikasiya texnologiyalarının inkişafın nəticəsi informasiya bolluğunun yaranmasına, bütün sahələrdə insanların həyat tərzinin, düşüncə qabiliyyətinin, vərdişlərinin köklü surətdə dəyişməsinə gətirib çıxardı. Bu inkişaf insanların təhsilə baxışında da dəyişikliklər etdi. Təlimin məzmunu, forması, üsulları sürətlə inkişaf edən cəmiyyətdən geri qalmaq istəməyən uşaqları qane etmir, onların inkişaf səviyyəsinə uyğun gəlmirdi. Onların köklü surətdə yeniləşdirilməsi dövrün başlıca sosial-pedaqoji tələbi kimi meydana çıxırdı. Tədris müəssisələrində təlimin keyfiyyətinin və səmərəsinin artırılması, prosesin optimallaşdırılması üçün axtarışlar aparılırdı. Bunun nəticəsi kimi müxtəlif tədbirlər həyata keçirilir, proqramlar, tədris planları yenİləndirilir, yeni məzmunlu dərsliklər çap edilirdi.. Açıq-aydın sistemin özünün köhnəldiyi fakt kimi qarşıda idi. Bu da məktəbin inkişafını ləngidir, şagirdləri məktəbdən, təhsildən soyudurdu.

“Azərbaycan - 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında qeyd olunur ki, "Şagirdlərin idrak fəallığını, ümumi inkişafını ləngidən mövcud “yaddaş məktəbi”ndən “təfəkkür və düşüncə məktəbi” nə keçidin təmin olunması məqsədi ilə sistemli tədbirlər görüləcəkdir” [1, s. 1]. Təfəkkür proses-

lərinin gücündə idrak prosesi həm dərinləşir, həm də genişlənir. Təfəkkür duyğu və qavrayışın köməyi ilə əldə edilmiş biliklərin ayrı-ayrı hissələrini müqayisə edir, qarşılaşdırır, fərqləndirir, münasibətləri ayırd edir, yeni bilikləri kəşf edir və hissi idrakdan verilən şeylərin əlamətlərini mücərrədləşdirir, qarşılıqlı əlaqələri aydınlaşdırır və gerçəkliyin mahiyyətinə vararaq onu dərk edir. Təfəkkür reallığı onun münasibət və əlaqələrində onun çoxobrazlı vasitəli tərəfləri ilə birlikdə əks etdirir. Qavrayış vasitəsi ilə təfəkkür proseslərinə ötürülən cisim və hadisələrin, onların əlamətlərinin bəzilərinin təkcə, digərlərinin mühüm olmayan əlamətləri, onların xarici əlamətləri birləşsələr də əlaqəli deyillər. Təfəkkür prosesləri zamanı hadisələrin mahiyyəti, xarakteri, əlamətləri arasında əlaqələrin yaranması nəzərdə tutulur.. Təfəkkürün məqsədi mühüm, əsas, zəruri əlaqələri, ikinci dərəcəli, formal əlaqələrdən, təsadüfi uyğunluqlarını situasiyalara görə ayırsın. Təfəkkür dərk etmə səviyyəsinin keyfiyyətcə yeni və daha yüksək mərhələsidir. Təfəkkürdə belə hadisələr üçün işarələrdən, nitqdən istifadə edirlər. Söz mücərrədləşdirmə alətidir və şeylərin mahiyyətini müəyyən etməyə imkan verir. Söz şeylərin əsas əlamətlərinin ümumiləşmiş inikası üçün vasitədir. Hər hansı təfəkkür ümumiləşdirmədə icra olunur. Təfəkkür - fikrin hərəkətidir ki, əlaqələrin açılmasına xidmət edir, təkcədən ümumiyə, ümumidən təkcəyə və oradan da xüsusiyə doğru gedir. Təfəkkür əlaqə, münasibətlərin vasitəli kəşfinə əsaslanır və real aləmin ümumiləşmiş dərkidir.Təfəkkür vasitəsi ilə insan dünyanı dərk edir, ona təsir edərək dəyişdirir. Təfəkkür insanın əmək fəaliyyətindən doğmuşdur və məqsədə çatmaq yolunda, müvəffəqiyyət qazanmada qarşıya çıxan maneələri aradan qaldırmağın yollarını arayır.' Təfəkkür insanın təlim, əmək, oyun fəaliyyətində və inkişafında, şəxsiyyətə çevrilməsində xüsusi rol oynayır.'Peşə fəaliyyətində əsas məzmun komponentini təfəkkür təşkil edir və bu iş tamamilə pedaqoji fəaliyyətə də aid edilir. Müəllimin peşəkarlığı alınan biliklərin kəmiyyəti ilə deyil, həmçinin biliklərin pedaqoji situasiyalarda tətbiqinə və təhlilinə yönəlib. Göründüyü kimi təlim prosesində təfəkkürün müxtəlif növlərinin formalaşdırılması əsas problem kimi qarşıda dururdu.Azərbaycanın görkəmli psixoloqu Əbdül Əlizadə yeni pedaqoji təfəkkürlə bağlı psixopedaqoji araşdırmalarında bu məsələyə münasibət bildirərək qeyd edir ki, “müasir dərs" anlamında “müasir” sözünün özünəməxsus evristik mənası var. “Müasir dərs” pedaqoji (psixoloji) elmlərin ən yeni uğurlarına söykənməlidir . Dərs həm də dövrün insanlarını yetişdirmək imkanına malik prosesə çevrilməlidir. Məktəbin vətəndaş yetişdirmək vəzifəsinin yerinə yetirilməsində uğurla çıxış etməlidir.

Müasir dövrdə dünyanın bütün qabaqcıl ölkələri təhsilin optimal modelinin axtarışındadır. Yeni tələblərə uyğun, yenidövrün ab-havasına uyğun yeni təhsil sistemi lazımdır. Müasir şəraitdə təhsil artıq “millətin gələcəyinin formalaşdırmağın ən başlıca yolu, üsulu” hesab olunur. Çünki müasir

məktəbin yeni pedaqoji təfəkkürə və müasir təhsil konsepsiyasına ehtiyacı var. Yeni pedaqoji təfəkkür konseptual modeldir, zamanın təkcə psixoloji və pedaqoji uğurlarında deyil, həm də fəlsəfi və sosioloji fikrinin uğurlarına əsaslanan elmi - metodiki konsepsiyadır. XX əsr pedaqoji - psixoloji fikrin formalaşmasında xüsisi çəkiyə malikdir. Bu mərhələ yeni pedaqoji təfəkkürün formalaşması ilə əlamətdardır.

Artıq 90 - cı illərin əvvəllərində təhsil siaysətinin əsas prinsipləri sırasında təhsilin humanistləşdirilməsi və humanitarlaşdırılması, təlimin fərdiləşdirilməsi və diferensasiyası kimi prinsiplər əhəmiyyət kəsb etməyə başlamışdı. Dərsin müasir şəkildə təşkili, dərsdə yeni təlim metodlarından istifadə etməklə təlimin keyfiyyətinin yüksəldilməsi, dünya təhsil məkanının mütərəqqi ideyalarının təhsil müəssisələrimizdə tətbiqi məsələləri dövrün aktual probleminə çevrilmişdi. 1999/2000 - ci dərs ili "Təhsilin humanistləşdirilməsi yolu ilə yeni pedaqoji təfəkkürün inkişafı ili" elan edilmişdir. Beləliklə də, təhsil məkanımızda yeni pedaqoji təfəkkürün uğurla həyata keçirilməsi sahəsində tədbirlər həyata keçirilməyə başladı. Dünya təcrübəsində sınaqdan çıxmış təlim modelləri nəzərdən keçirilərək təhsil müəssisələrində tətbiq edilməyə başladı. Beləliklə, interaktiv təlim modelinin tədris prosesinə tətbiqi geniş vüsət almağa başladı. Çünki interaktiv təlim prosesində şagird dərsin mərkəzində duraraq, şəxsiyyət kimi inkişaf edir, təlim prosesinin subyekti sayılır. Şəxsiyyət və subyekt anlamı yeni pedaqoji təfəkkür üçün konseptual anlamdır. İnteraktiv təlim prosesində şagird müəllimlə əməkdaşlıq edir, birgə fəaliyyət göstərir, müstəqil düşünə bilir, sərbəst qərar verir, kollektivin fikrini dinləməyi bacarır. Pedaqoji təfəkkür şagirdi subyekt kimi dəyərləndirərək, onu özünü təsdiq edən və reallaşdıran şəxsiyyət kimi qəbul edir.İnteraktiv təlimin pedaqoji təfəkkürün formalaşmasında nə dərcədə əhəmiyyət kəsb etdiyini göstərmək üçün professor Ə.Əlizadənin yeni pedaqoji təfəkkürlə bağlı araşdırdığı aşağıdakı postulatları nəzərdən keçirək:

- Hər bir şagird şəxsiyyət kimi təlim-tərbiyə prosesinin mərkəzi hadisəsidir;
- Təlimin məzmunu məqsəd deyil, şagird şəxsiyyətinin inkişafı üçün ancaq əsas vasitədir;
- Müəllim şagirdin şəxsiyyət kimi məziyyətlərini görməli, ona hörmət etməli və inanmalıdır;
- Şagirdin özünü reallaşdırması üçün məktəbdə müvəffəqiyyət və xeyirxahlıq situasiyası yaradılmalıdır;
- Şagirdi psixoloji - pedaqoji diaqnostikasına xüsusi diqqət yetirilməlidir: onun maraqları, qabiliyyətləri, istiqamətləri, "mən" konsepsiyası. Xarakter əlamətləri, idrak fəaliyyətinin xüsusiyyətləri sistemli öyrənilməllidir;
- Şəxsiyyətin inkişafı proqnozlaşdırılmalıdır;

Fərdiləşmə təlim prosesi strategiyasının əsas istiqamətlərindən birinə çevrilməlidir [2, s. 5].

Pedaqoji təfəkkürün formalaşması məhz interaktiv təlimdə şagirdə yanaşmanın əsas istiqamətlərini özündə əks etdirir. Bu təlim prosesində şagirddə idrak prosesləri aktivləşərək onu tədqiqat aparmağa sövq edir. Aydın məsələdir ki, bu zaman müəllim müxtəlif xarakterli şagirdlərlə rastlaşır və onların hər birinə fərdi yanaşaraq, tədqiqat aparmağa ruhlandırması üçün o, kifayət qədər psixologiya sahəsində biliklərə malik olmalıdır.

İnteraktiv təlim dövlətin təhsil sahəsində irəli sürdüyü prinsipləri reallaşdırmaq üçün daha məqsədəuyğundur. Burada şagird dərs prosesinin obyekti deyil, o, dərsdə müstəqil düşüncə tərzinə malikdir və öz təfəkkürünə əsaslanaraq sərbəst qərar verməyi bacarır. Bu zaman şagird özünə hörmət və etibar görərək ruhlanır və onu fəaliyyətə təhrik edən istək, maraq yaranır. İnteraktiv təlim prosesində müəllimin şagirdə psixoloji dəstək verməsi onu müəllimlə əməkdaşlıq etməyə sövq edir [3, s. 8]. Təhsilin humanistləşdirilməsi pedaqoji təfəkkürün formalaşmasının əsas istiqaməti kimi özünü göstərir. Təlim prosesində şagirdlərdə yalnız bilik və bacarıqların yox, vərdiş, dəyər və keyfiyyətlərin də aşılanması vacib şərtdir. İnteraktiv təlim şagirdlərin məhz bu istiqamətdə inkişafını təmin edir. Təlim prosesində əldə edilən bilik, bacarıq və vərdişlərin praktikada tətbiq edilməsini şagirdlərə aşılamaq təlimin əsas məqsədi olmalıdır. Şagirdin pedaqoji təfəkkürünün inkişafı onda təhsilə maraq yaradaraq onu hazır bilikləri mənimsəməyə yox, düşünərək və həyati biliklərinə əsaslanaraq yeni bilikləri kəşf etməyə vadar edir. Ü.Hacıbəyov 1909-cu ildə məqalələrinin birində göstərirdi ki, müəllim "dərsi elə yolla başa salmalıdır ki, şagirdlərin özləri həmin qaydanı kəşf etsinlər". Onun fikrincə "bu kəşf yolunda şagirdlərfh 'Əqli, dərrakəsi, zehni tərbiyə tapıb getdikcə kəsbi - qüvvət edir.

İnteraktiv təlim prosesində şagird müstəqil düşünür, sərbəst qərar verir, hadisələrə tənqidi yanaşır. Pedaqoji təfəkkürün formalaşdırılması şagirdləri düşünən, ağıllı, öyrənən şəxsiyyətə çevirmək məqsədi daşıyır. Müasir təlimin məqsədi şagirdə fikirləşməyi öyrətmək, onun başqa adamlara, özünə münasibətini, mənlik və əxlaqi şüurunu, sərvətlər sistemini formalaşdırmaq və şəxsiyyət kimi tərbiyə etməkdir. Neçə illərdir dünya təhsil məkanında sınaqdan keçirilmiş interaktiv təlim texnologiyası şagirdlərin pedaqoji təfəkkürünün formalaşmasının vasitəsi kimi çıxış edir. Pedaqoji təfəkkürün formalaşması prosesi interaktiv təlimin bütün mərhələlərində özünü göstərir. İnteraktiv dərsdə şagirdlərə azadlığın verilməsi, müəllimin onlarla eynihüquqlu şəxsiyyətlər kimi davranması şagirdlərin dərs prosesində aktiv fəaliyyət göstərməsinə səbəb olaraq onların dərsə marağını artırır..Təcrübələr göstərir ki, təlim modelini dəyişməklə, daha humanist model tətbiq etməklə şagirdlərdə təlimə marağı artırmaq, onları təhsil almağa həvəsləndirmək olar.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası. Bakı, 24 oktyabr, 2013 cü il.
2. Əlizadə Ə. Yeni pedaqoji təfəккür. Baкı, 2001.
3. Vəliyeva Z. İnteraкtiv təlim və şəxsiyyətin formalaşmasında onun rolu. Azərbyacan məкtəbi, 2002, №2
4. Şirinova N. İnteraкtiv metodlardan necə istifadə edirəm/ "İbtidai məкtəb və məкtəbəqədər tərbiyə" 2002, №1.

**S O S İ O L O G İ Y A**

**UOT 316**

# İSLAM HƏMRƏYLİYİ VƏ MİLLİ İDENTİKLİK

**Səbuhi Ənvər oğlu SULTANOV**
*Qərbi Kaspi Universitetinin müəllimi*

*sultan_sabouhi@yahoo.fr*

## XÜLASƏ

Məqalədə islam dunyasının və milli identikliyin əhəmiyyətindən geniş söhbət açılır. İslam həmrəyliyi prinsipləri və müasir dünyada bundan böyük tələbat elmi məqalədə geniş şəkildə analiz edilmişdir. Bundan əlavə, aktual dünyada islam mədəniyyətinin geniş şəkildə yayılması və digər dinlərə də siraət etməsi ətraflı şəkildə öz əksini tapmışdır. Azərbaycanın da müsəlman ölkəsi olaraq islam sivilizasiyasına böyük tohfələri məqalədə hərtərəfli olaraq təhlil edilmişdir. Məqalə islam tarixinin araşdırıcıları üçün mühüm elmi göstərici hesab oluna bilər.

**Açar sözlər:** İslam həmrəyliyi, islam dünyası, multikultural dəyərlər, islam cəmiyyəti.

## ISLAMIC SOLIDARITY AND NATIONAL IDENTITY

## SUMMARY

The article opens a broad discussion of the importance of Islamic solidarity for the Muslim world. Islamic Solidarity is a requirement of time that is widely analyzed. The principles of Islamic solidarity and the need for it in the modern world are widely analyzed in the scientific article. In addition, the wide spreading of Islamic culture in the actual world and the revival of other religions have also been reflected in detail. As a Muslim country of Azerbaijan, great articles on Islamic civilization have been thoroughly analyzed in the article. It can be considered as an important scientific indicator for researchers of Islamic history.

**Key words:** Islamic solidarity, Islamic world, multicultural values, Islamic society.

# ИСЛАМСКАЯ СОЛИДАРНОСТЬ И НАЦИОНАЛЬНАЯ ИДЕНТИЧНОСТЬ

## РЕЗЮМЕ

В статье широко говорится об исламской мире и о национальной идентификации. В статье в широкой форме анализуруются принципы исламской солидарности потребности к этому в современном мире. Этого в статье находят место широкое распростронение исламской культуры в актуальном мире и распростронение ислама на другие религии. Роль Азербайджана в исламской цивилизацию будучи мусульманской страной в статье были всесторонне анализированы.

Статья может считаться важными показателем для исследователей исламской истории.

**Ключевые слова:** исламская солидарность, исламский мир, многокультурные ценности, исламское общество.

Məqalədə əsas diqqət İslam həmrəyliyinin müsəlman dünyası üçün əhəmiyyətinə, bunun təkcə müsəlman dünyası üçün deyil, eyni zamanda, bütün dünya üçün önəminə toxunaraq həm İslam daxilində gedən problemlərə, həm də İslam və digər dinlər arasında gedən proseslərə yönəlib. Müasir dünyamızda irqçiliyin bir forması kimi islamofobiya getdikcə daha çox aktuallaşmağa başlamışdır. Bu gün demokratiyanın beşiyi hesab edilən Avropa ölkələrinin bir çoxunda İslam və müsəlmanlar əleyhinə şüarlar istər hakimiyyətdə olan, istərsə də hakimiyyətə gəlmək istəyən qrupların siyasi ritorikasının əsas məzmununu təşkil edir. Onlar İslamı demokratiyanın antonimi və qadınlara qarşı zorakılıqla xarakterizə edərək, islamofob davranışların artmasına gətirib çıxaran təbliğat aparırlar.

Harmoniya və həmrəylik əldə etmiş müsəlmanlar ayrı-seçkiliyə məruz qalmadıqca başqa dinlərə də yalnız barış və hörmət nümayiş etdirəcəklər. Bu baxımdan 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilməsi ölkəmizi bu prosesin avanqardına çevirir. "İslam Həmrəyliyi İli" yalnız din sahəsini deyil, eyni zamanda, müsəlman ölkələrinin həm sosial-iqtisadi, həm siyasi, həm də mədəniyyət sahəsində bir-birinə dəstək olması, həmrəylik nümayiş etdirməsidir və onların arasında nifaq salmaq istəyənlərə tutarlı cavabdır.

"İslam Həmrəyliyi İli" bütün dünya dinlərinin nümayəndələrini birləşməyə, qarşılıqlı anlaşmaya və dialoqa çağırır. Bu, Azərbaycanın təşəbbüsü ilə dünyaya yeni çağırışdır. Və həm də müasir dünyanın mübtəla olduğu irqçilik, ksenofobiya və islamofobiya mərəzlərinə qarşı ən yaxşı məlhəmdir.

Həmrəylik bir cəmiyyətdə fərdlərin duyğu, düşüncə və ümumi maraqlar naminə bir-birinə qarşılıqlı bağlanması deməkdir. Biz həmrəylik dedikdə, ümumiyyətlə, fərdlər, insan qrupları və ya ölkələr arasında yaranan birgəlik (rəğbət, mənəvi dəstək, maddi yardım və ya əməkdaşlıq) hissini nəzərdə tuturuq. O, həm passiv (duyğu, rəğbət və s.), həm də aktiv (müxtəlif sahələr üzrə geniş əməkdaşlıq, maddi dəstək və s.) ola bilər.

Fərd olaraq hər birimiz müəyyən vaxtlarda qohum, qonşu, dost-tanışlara maddi-mənəvi köməklik göstərir, onların sevincini, kədərini bölüşür və bununla da biri-birimizə qarşı həmrəylik nümayiş etdiririk. Məhz buna görə də həmrəylik həyatımızın ayrılmaz bir parçası, hissidir desək, yanılmarıq. Bu hiss, bu anlayış adət-ənənələrimizə söykənməklə yanaşı, dinimizdə də öz əksini tapmışdır. İslam dini vəhdət, birlik, sevgi və sülh dinidir.

Günümüzdə İslam dünyasının dini müstəvidə həmrəyliyə ehtiyac duyduğu qədər müsəlman xalqlarının, dövlətlərinin maddi və mənəvi cəhətdən də həmrəyliyə ehtiyacı vardır. Yəqin ki, heç kimə sirr deyil ki, böyük bir coğrafiyanı əhatə edən müsəlman ölkələri zəngin təbii resurslara malik olmalarına baxmayaraq, dünya iqtisadiyyatında elə də böyük pay sahibi deyillər. Müsəlman ölkələrinin heç də hamısında insanların sosial rifahı yaxşı deyil. Milyonlarla müsəlman müasir dövrün elmi, texniki, mədəni nailiyyətlərindən kənarda qalmaqdadır. Mövcud çətinliklərin aradan qaldırılması, müsəlman xalqlarının rifahının yüksəldilməsi, dövlətlərin siyasi və iqtisadi cəhətdən möhkəm olması üçün İslam aləminin dünyanın siyasi, iqtisadi arenasında bir-birinə sözdə və əməldə həmrəylik nümayiş etdirməsi dövrün tələbidir. Sözsüz ki, müxtəlif təşkilatlar çərçivəsində, həmçinin ölkələrarası qarşılıqlı münasibətlər əsnasında müəyyən həmrəylik, əməkdaşlıq olsa da, bu, dövrün tələbləri və şərtləri daxilində İslam dünyasının güclənməsi üçün yetərli deyil. Müsəlman ölkələri həmrəyliyi həqiqi mənada nümayiş etdirməli, beynəlxaq tribunalarda İslam dünyasının maraqları naminə bir-birilərinə dəstək olmalı, ölkələrimizin, xalqlarımızın inkişaf etməsi yolundakı maneələri birlikdə dəf etməli, bu istiqamətdə məqsədyönlü siyasi xətt yürütməlidirlər (1, s. 27-44).

Bu gün Yer kürəsində müharibə ocaqlarını körükləyənlər, terrorçulara qol-qanad verib günahsız insanların qanına bais olanlar bunu İslam dininin adına yazmaqdan, müsəlman ölkələrinə qara yaxmaqdan çəkinmirlər. Bu dinin əsl mahiyyəti qardaşlıq, bərabərlik, sevgidir. İslam dini milli kimliyindən, dilindən, dinindən, irqindən asılı olmayaraq, bütün insanların xoşbəxt yaşamaq, azad olmaq, öz hüququna sahib çıxmaq kimi ali haqlarının təbliğatçısı və müdafiəçisidir.

Təəssüf ki, biz bu gün bəşəriyyəti barışa, sülhə, həmrəyliyə dəvət edən, multikultural dəyərləri milli-mənəvi sərvətimiz kimi qoruyub saxlayan, onun qədir-qiymətini dərk edib bütün dünyaya yayan, fəqət torpaqları işğal olunmuş, hələ də igid oğullarının şəhid xəbərlərini alan, əsir, girov götürülmüş övladla-

rının taleyini düşünən, dünyadan ədalət istəyən bir ölkənin vətəndaşlarıyıq. Lakin bu qədər dərdlərin, problemlərin içərisində belə, bu məmləkətdə böyükdən kiçiyədək hər kəs yalnız öz vətəninə, xalqına deyil, bütün dünyaya sülh, əmin-amanlıq arzulayır (4, s. 76-82).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci ilin Azərbaycanda "İslam həmrəyliyi ili" elan edilməsi haqqında sərəncamı və bu istiqamətdə geniş fəaliyyətə başlanılması – mühüm siyasi addım və qlobal humanizm aktı kimi ölkəmiz üçün, bütün İslam ölkələri və eləcə də, bütün dünya üçün müstəsna əhəmiyyətə malikdir.

İnsanın mənəvi keyfiyyətlərini, iç duyğularını ifadə edən inancı –mənəvi aləmi nə qədər fərdi olsa da, sosial-mədəni münasibətlərin universallaşması və zənginləşməsi fonunda tədricən fərdi çərçivəsindən çıxaraq ictimailəşmiş, sonda kollektiv dəyərə çevrilmişdir. Bu tarixi prosesdə meydana gələn müxtəlif dinlər və onların ayrı-ayrı təmayülləri universal inanc identikliyinin formalaşmasına yol açmışdır. Lakin bu yol heç də həmişə hamar olmayıb. Bəzən dinlərin özünün ifrat şəkildə mütləqləşdirməsi, müstəsnalaşdırması, hətta ideolojiləşdirməsi prosesində onların dərin çatları, keçilməz sədləri də yaranmış, bir çox hallarda müxtəlif dinlər və onların cərəyanları, sektaları arasında uzunmüddətli konfliktlər də kükrəmişdir. XI-XII əsrlərdə Orta Şərqə ekspansionist xristian hərbçilərinin təşkil olunmuş çoxsaylı səlib yürüşləri (Expeditio sacra), orta əsrlər Avropasında inkvizisiya, islam dünyasında uzun əsrlər boyu davam edən təriqətlərarası çəkişmələr həmin konfliktlərin bariz nümunələridir. Lakin bəşər tarixində davamlı olaraq baş vermiş, hətta amansız savaşlara çevrilmiş o qanlı toqquşmalar heç bir halda bir dinin və ya inanc qrupunun digərləri üzərində mütləq üstünlüyünü bərqərar etməmişdir. Bununla da, insanlığın tarixi həyatının gerçəkliyi öz yenilməz həqiqətini və aktuallığını hər zaman qoruyub saxlamışdır: Bəşəriyyətə davamlı sabitlik gətirən, birgəyaşayış ənənələrini gücləndirən humanist mənəvi mühitin formalaşması həm fərdi, həm də kollektiv anlamda insan inancına, insanlığın inanc şəklində ifadə olunan mədəni-mənəvi dəyərlərinə olan hörmətdən qaynaqlanır.

Tarix boyunca müxtəlif dini etiqadlara malik olan insanların sülh şəraitində, bir-biri ilə qarşılıqlı hörmət və ehtiram ruhunda yaşamasının dərk edildiyi dünyanın nadir məkanlarından biri də Azərbaycandır. Vicdan azadlığını insan hüquq və azadlıqlarının yalnız bir parçası kimi deyil, həm də tarixi dəyər kimi uca tutan Azərbaycan xalqı müxtəlif dini inanc daşıyıcılarının birgəyaşayış ənənələrini zənginləşdirmiş, bütün dünya üçün örnək ola biləcək dini tolerantlıq modelini yaratmışdır. Məhz bu səbəbdən, Azərbaycan tarixən sivilizasiyalararası dialoqa önəmli töhfələr verən, dözümsüzlüyün bütün formalarını rədd edən humanist mənəvi məkan kimi öz mövqeyini qoruyub saxlaya bilmişdir (6, s. 74-82).

İslamın ümumdünya əhəmiyyətinə tarixi-kulturoloji planda yanaşsaq deyə bilərik ki, islam sivilizasiyasının intibah epoxası hesab olunan VIII-XIII əsrlər mədəniyyətin, fəlsəfənin, elmin yüksəlişində dönüş dövrü olmuşdur. Əl Fərabi, Rudəki, Əl Biruni, İbn Sina, İbn Rüşd, Nəsirəddin Tusi və s. kimi dahilər öz fəaliyyətləri ilə islamın elmi inkişafa, tərəqqiyə maneə törətmədiyini, əksinə, elm və dinin bir-birinə stimul yaratdığını, elmdə qüvvətli olan insanların islamda da yüksək dəyərə sahib olduğunu sübut etmişlər. O zamanlar Orta Şərqə səyahət edən avropalı səyyahlar, elm adamları, xüsusilə coğrafiyaçılar islam dünyasının yüksək elmi-mədəni intibaha nail olduğunu açıq şəkildə ifadə etmişlər. İslam və Türk sivilizasiyalarının unikal vəhdət məkanlarından və önəmli mərkəzlərindən biri olmuş Azərbaycan da islam dininin maddi və qeyri-maddi irsinin zənginləşməsinə hər zaman töhfəsini vermiş, islam mədəniyyətinin ümumdünya əhəmiyyətinin yüksəlməsində mühüm rol oynamışdır. Bu baxımdan, Azərbaycan islam dünyasında öz aparıcı mövqeyini qoruyub saxlamış, islami dəyərləri mühafizə edən və gələcək nəsillərə tolerant bir əxlaqla ötürən müqəddəs torpaqdır.

Hazırda dünya əhalisinin beşdə birindən çoxunu – 23,4 %-ni (1,7 milyard nəfər) müsəlmanlar təşkil edir. Orta Şərq və Şimali Afrikanın 91,2 %-i, Asiya-Okeaniyada məskunlaşan əhalinin 24,8%-i, Avropada yaşayan əhalinin isə 6%-i müsəlmanlardır. İslam dünyasının böyük insan kapitalına malik olması, əhalinin nisbətində gənclərin üstün mövqeyi hazırkı siyasi, sosial, iqtisadi reallıqlar şəraitində olduqca mühüm faktorlardır. İslam dünyasının getdikcə artan demoqrafik üstünlüyü də mühüm amildir. Belə bir şəraitdə bu üstünlüklərdən bəşəriyyətə, sosial-iqtisadi-mədəni intibaha töhfə verə biləcək, praqmatik və rasional siyasətin təşəbbüskarı və dəstəkləyici qüvvəsi kimi istifadə strategiyasının olması olduqca önəmlidir.

Təkzibolunmaz faktdır ki, Yaxın və Ortaq Şərqin bəzi müsəlman dövlətləri müasir dövrün siyasi-iqtisadi-mədəni gerçəkliklərinə adekvat münasibət formalaşdırmaqda çətinlik çəkir, müasirləşən dünyanın qabaqcıl tendensiyaları ilə ayaqlaşa bilmir, mahiyyətcə deyil, formaca modernləşməyə üstünlük verirlər. Məhz bu səbəbdəndir ki, yanlış dünyagörüşü əsasında və birtərəfli yöndə quruluş alıb təsisatlanan islam fundamentalizmi burada özünə dayaqlar tapa bilir və o, Qərb imperializminə qarşı yeganə “alternativ”, “təsirli alət” kimi qəbul olunur. Beləliklə, dağıdıcılığa qarşı əks destruktivlik – ifrata qarşı ifrat mübarizə üsulu olaraq seçilir. Bu “mübarizənin” haqq işi olmadığı isə ilk addımdaca özünü göstərir. Ekstremist və radikalların özlərinə düşmən hesab etdikləri Qərbə qarşı savaşı qısa zamanda onların öz içərisində təriqətlərarası toqquşmalarla, toplum qarşıdurması ilə əvəzlənir, hətta vətəndaş müharibələrinə yol açılır. Bir sözlə, mənəvi, hüquqi və dini baxımdan heç bir halda haqq qazandırıla bilməyən “islam keşikçiləri”, əslində, özləri Qərb imperializminin vuran əlinə, kor silahına çevrilirlər. Halbuki gerçək islam dəyərlərinə və milli-

siyasi dünyagörüşünə malik olan insanları bu yola təhrik etmək, konfliktlər burulğanına salmaq olmazdı.

Təsadüfi deyil ki, Azərbaycanda aparılan çoxmədəniyyətli dialoq artıq dünya miqyasında müxtəlif dinlərə və mənşəyə malik olan insanlar arasında sülh şəraitində birgəyaşayışın yaxşı nümunəsi kimi tanınır. Ölkədə yaşayan bütün etnoslar arasında təşəkkül tapmış qarşılıqlı qardaşlıq münasibətinin çoxəsrlik ənənəsi, onların ümumi taleyi və müstəqil Azərbaycanın bütövlüyü, inkişafı və firavanlığı uğrunda birgə mübarizəsi bizim ümumi və çox zəngin tarixi təcrübəmizdir. Əhalisinin tərkibi etnik, dini və məzhəb baxımından çox müxtəlif olan Azərbaycanda indiyədək dini və milli zəmində heç bir qarşıdurmanın baş verməməsi də elə burada formalaşmış multikultural dəyərlərə bağlı həyat tərzinin məntiqi nəticəsidir (1, s. 64-77).

Şübhəsiz, multikulturalizm öz-özlüyündə dünyanın və bəşəriyyətin ümumi sərvətlərindən biri kimi hamımız üçün istinad nöqtəsi olmalıdır. İslam həmrəyliyi isə onun tərkib hissələrindən biri kimi çıxış edir. Ona görə də bugünkü beynəlxalq ictimai-siyasi vəziyyət, müsəlman ölkələrinin daxilində gedən proseslər bizi bu məsələni daim diqqət mərkəzində saxlamağa sövq edir.

İslam dəyərlərinin və mədəniyyətinin düzgün anlaşılması əsrlər boyu davam edib və bu mövzu XIX əsrin II yarısından başlayaraq XX əsrin əvvəllərinədək daha sistemli araşdırılıb, ictimai düşüncəyə öz təsirini göstərə bilib. Çünki, XX əsrin əvvəllərinin Azərbaycan ziyalıları dini dəyərlərlə milli xüsusiyyətləri və dünyəvi baxışları özündə üzvi şəkildə birləşdirən yaradıcı şəxsiyyətlər olublar. Vaxtilə böyük mütəfəkkir Əlibəy Hüseynzadənin yazdığı kimi, "Avropa qiyafətli, İslam ümmətli, türk millətli" ziyalı modeli formalaşmışdı. Bu gün olduğu kimi, həmin dövrdə də düşünülürdü ki, maarifçilik mövhumat və cəhalət dərdinin ən böyük dərmanıdır. Məhz dərin elmi dərketmə, əsl maarifçilik gerçək İslam dəyərləri ilə fanatizm və mövhumatı əsaslı şəkildə fərqləndirməyin mahiyyətini ortaya qoyub dini baxışlar haqqında obyektiv qənaətləri cəmiyyətə çatdıra bilər. Təəssüf ki, bir çox Avropa ölkələrində törədilən islamofobiya hallarına qarşı o ölkələrin yazıçıları və alimlərinin reaksiyası hələ ki yox dərəcəsindədir. Çox hallarda süni şəkildə yaradılan dinlərarası qarşıdurmalar, "müsəlman kütləsi" anlayışı, acınacaqlı miqrasiya axınları və buna qarşı mübarizə özünün real bədii ədəbiyyatını, kinofilmini yaratmayıb. Hər kəs bu fikirdədir ki, müsəlman dünyasındakı dini radikalizmin də mahiyyətində savadsızlıq, mədəni gerilik, maarifsizlik dayanır. Bu səbəbdən də, elm və təhsilin sözügedən istiqamətdəki ilkin missiyası İslam həmrəyliyi ideyasının yeni elmi mənbələr üzrə təhlil edilməsi, müasir ədəbiyyat, incəsənət nümunələrinin yaradılması üçün mövzu verməsidir. Eyni zamanda, İslam həmrəyliyinin bir ideyasının təbliğinin uğurla nəticələnməsi və inkişafı üçün müəyyən olunmuş konkret məqsədlərə nail olunması da lazımdır. Bunun üçün İslam maarifçiliyini və mədəniyyətini dünya ictimaiyyətinə olduğu kimi

çatdırmaq, məzhəblərarası əqidə, ictimai və siyasi sahələrdə mədəni əlaqələri möhkəmləndirmək və bu yolla müştərək anlaşmanın yollarını tapmaq, şəriət məsələləri ilə bağlı normayaratmada və fikir müxtəlifliyinin ortaya çıxmasında elmi araşdırmanın rolunu düzgün qiymətləndirmək, məzhəblər arasında yaranan qərəzliliyi və şübhələri, həmçinin yayılan şayiələri dəf etmək və s. həyata keçirmək məqsədə müvafiq olar. Antiislam qüvvələrinin təqdim etdikləri kimi burada əsas məqsəd İslam dinində olan məzhəbləri birləşdirmək deyil, onların birgə sülh içində mövcud olmasına nail olmaq və məzhəbsizlik kimi yeni bir cərəyanın yaranmasına imkan verməməkdir ki, bu da ən uyğun və real mövqedir (2).

Sosial araşdırmalardan da bəlli olduğu kimi, elmsizlik istər ümumi müsəlman dünyasında, istərsə də məzhəblər daxilində dini zəmində çoxlu münaqişələrə səbəb olur. Müsəlman cəmiyyətlərini idarə edənlər arasında və sıravi müsəlmanlarda məlumatsızlığın özü belə zərərlidir. Bir çox hallarda məlumatsızlıq və ya yanlış məlumatlara malik olmaq xoşagəlməz təəssüb-keşliyə, müsəlman cəmiyyətlərində vəhdətin və həmrəyliyin pozulmasına gətirib çıxarır. Elmsizlik və siyasi məqsədlərə çatmaq uğrunda mübarizə heç də keçən əsrlərə məxsus hal və hadisə deyildir. Bir məzhəbin digər məzhəb haqqında tam və dolğun məlumatlara malik olmaması, yalan və təhrif olunmuş fikirlərə malik olması onların hər hansı dini məsələdə ortaq məxrəcə gəlməsinə mane olur və bu İslam həmrəyliyinə böyük mənfi təsir göstərirdi. Bəzən eyni məzhəb sahibləri belə biri digərinə silah qaldırır. Elmi masalarda həll edilməli olan məsələləri döyüş meydanında həll etmək istəyənlər vardır.

Göründüyü kimi, bu gün İslam həmrəyliyi ideyasının təbliğinə çox böyük ehtiyac yaranıb. Bu işdə isə elmin və təhsilin üzərinə böyük məsuliyyət düşür. İslam dünyasında birliyin, həmrəyliyin möhkəmlənməsi, qarşıdurmaların aradan qaldırılması üçün Azərbaycan cəsarətli bir addım atıb. 2017-ci ilin "İslam Həmrəyliyi ili" elan edilməsi özlüyündə dünyaya ölkəmizin simasında həmrəy İslam cəmiyyəti modelini təqdim edəcək. Sivilizasiyaların kəsişdiyi məkanda yerləşən Azərbaycanın islam həmrəyliyinə nail olunması istiqamətində həyata keçirdiyi əhatəli tədbirlər təkcə islam coğrafiyasında deyil, eyni zamanda beynəlxalq miqyasda davamlı sabitliyin təmin edilməsinə, konfessiyalararası anlaşmanın və tolerant dünyagörüşünün inkişafına münbit zəmin yaradır. İslam Həmrəyliyi siyasəti ilə – Azərbaycan İslam dünyasının vəhdətyaradıcı məkanı kimi bu dini dəyərlərin gerçəkdən bəşəri-humanist, mənəvi-əxlaqi dəyərlər olduğunu təsdiqləyir, bu ideyaların təkcə islam coğrafiyasında deyil, bütövlükdə dünyada birgəyaşayış və sabitlik mühitini yaradan təsirli vasitə olduğuna inamı möhkəmləndirir.

Bu siyasət İslam dünyasında "həmrəylik diplomatiyası" rəhbər tutulmaqla, siyasətdən mədəniyyətə, dindən elmə, ticarətdən turizmə qədər bütün sahələr üzrə birgə fəaliyyətlərin spektri yaradılmasını, qarşılıqlı

faydalanmanın innovativ təşəbbüslərinin dəstəklənməsini, müsəlman xalqlarının potensial imkanlarının üzə çıxarılmasını və hərəkətə gətirilməsini, islam dünyasının qlobal rəqabətdə dayanıqlığının təmin olunmasını, bir çox mühafizəkar, geriləyici meyllərdən əl çəkilməsini, mövcud problemlərin həllində həmrəylik nümayiş etdirməklə, qabaqcıl dünya dövlətləri ilə əməkdaşlığın daha effektli platforması üzərində səfərbər olunmağı özündə ehtiva edir.

**Ədəbiyyat:**

1. Bünyadzadə K. "İslam fəlsəfəsi: Tarix və müasirlik". Bakı, "Çaşıoğlu", 2010
2. Feyziyev C. "İslam həmrəyliyi siyasəti: Azərbaycanın qlobal humanizmə töhfəsi". www.1news.az 22 may 2017.
3. Qurbanov R. "İslam həmrəyliyi müsəlman dünyasının xilasıdır". "Yeni Azərbaycan" qəzeti, 28 Mart 2017.
4. Məmmədəliyev V. "İslam və gənclik". Bakı, 2006
5. Mirələmov H. "İslam həmrəyliyi-zamanın tələbi, milyonların arzusu". Xalq qəzeti, 13 aprel 2017.
6. Nəhmədov A. "İslam həmrəyliyi dövrün tələbidir". www.scwra.gov.az 22 fevral 2017.

**M Ə D Ə N İ Y Y Ə T Ş Ü N A S L I Q**

**UOT 008**

# QADIN PSİXOLOGİYASINDA FEMİNİZM REZONANSI

**Sədaqət Ağasəfər qızı ƏLİYEVA**
ADMİU-nun "Kulturologiya" kafedrasının müdiri
Kulturologiya üzrə fəlsəfə doktoru, dosent,
Əməkdar mədəniyyət işçisi

sadagat-aliyeva@mail.ru

## XÜLASƏ

Məqalədə mədəniyyətin, mentalitetin əsasında qadınlara münasibət və eləcə də qadınların kişilərə, uşaqlara, evə, sosial məkana münasibətləri durur. Bir sıra simvollar və mədəniyyətə münasibət özündə femin əsaslarını gizlədir. Həmçinin müəllif qadın psixologiyasında rezonans yaradan bir sıra alimlərin tədqiqatına istinad edir.

**Açar sözlər:** qadın psixologiyası, arxiteplər, Z.Freyd, gender tədqiqatçıları, K.Yunq, kişi düşüncəsi

## РЕЗОНАНС ФЕМИНИЗМА В ЖЕНСКОЙ ПСИХОЛОГИИ

## РЕЗЮМЕ

В статье рассматривается отношение к женщинам на основе культуры, менталитета, а также отношения к мужчинам и детям. Многие символы и отношения в культуре скрывают в себе феминистские основы. Также автор ссылается на исследования ученых, которые создали резонанс феминизма в женской психологии

**Ключевые слова:** женская психология, архетипы, З.Фрейд, исследователи по гендерным вопросам, К.Юнг, мысли мужчин

**THE RESONANCE OF FEMINISM IN FEMALE PSYCHOLOGY**

**SUMMARY**

The article focuses on the attitude to women, women's attitude to men, children, social area on the basis of culture and mentality. Many symbols and relationships hide the basics of the feminine in themselves in the culture. In the article it has been also applied for scientific research work of scientists who have created resonance of feminism in woman's psychology.

**Keywords:** woman's psychology, archetypes, Z.Freyd, gender researchers, K.Yunq, thought of man

Hər hansı mövzunun aktuallığı onun dəyəri, vacibliyi və nə dərəcədə gizli, implisit olanları əhatə etməsi ilə ölçülür. Mədəniyyətin, mentalitetin əsasında qadınlara münasibət və eləcə də qadınların kişilərə, uşaqlara, evə, sosial məkana münasibətləri durur. Bu fenomenin zəruriliyi özünü onda göstərir ki, qadın təzahürlərinin, yəni qadın anlayışının metamorfozlarının, transformasiyalarının ortadan götürülməsi və ya ciddi şəkildə zəiflədilməsi mədəniyyətin bir çox sahələrində köklü dəyişmələrin yaranmasına gətirib çıxaracaqdır (1, s. 17).

Mədəniyyətdə bir çox strukturlar, simvollar, münasibətlər özlərində gizlin lay kimi femin əsaslarını gizlədir. Misal üçün bir çox mədəniyyətlərdə kişi davranış və geyimlərinin necə olmasında qadına effektli görünmək istəyi xüsusi rol oynamır.

İngilisdilli ədəbiyyatda məşhur olan - «Qadın haqlarının müdafiəsi» (1792) feminist traktatının müəllifi Merri Vollstonkraft göstərmişdi ki, qadının geridə qalmış vəziyyəti onun təbiətindən deyil, sosial səhnəyə az çıxmasından irəli gəlir. Bu səbəbdən də o, özünü kişisinə qulluqçu kimi dərk edir. Əgər qadın zəka baxımından az bacarıqlı görünürsə, səbəb onun ictimai həyatdan təcrid olmasıdır (7, s.1-5). Bir sıra arxetiplər mövcuddur ki, K.Yunq onları təhlil edərək qadınların xarakteri ilə eyniləşdirmişdir. Matriarxatda Elektra arxetipi kompleksinin qızlarda formalaşmasını təsəvvür etmək çətindir. Karen Xorni də bu düzəlişi Freydə aid edərək göstərirdi ki, mazoxist psixologiya qadınlar üçün bütün hallarda və dövrlərdə xarakterik olmayıb. Əvvəlki nəsillərdə güclü olub, indiki nəsillərdə isə qadın azadlıqlarının artması ilə azalıb.

Onu da qeyd edək ki, freydistlərin qadını kişilərin paxıllığını çəkən, kişi doğulmadığı üçün paxıllanan varlıq kimi izah etməsi XX əsrdə populyar ideyaya çevrilsə də, feministlər və başqa psixoloji cərəyanların təmsilçiləri arasında böyük etiraza səbəb olmuşdu. Ona görə də Freydin konsepsiyası təkcə yeni baxışlara təkan verən baza kimi yox, həm də mübahisə törədən nəzəriyyə

kimi dəyər qazanmamışdı. Çox məşhur feministlər, psixoloqlar bu konsepsiyaya etiraz zamanı opponentlik kimi orijinal fikirlərə gəlmişdilər. Bu fikirlərin bəzilərinə nəzər salaq. Culiet Mitçell, Jermen Qrir, Doroti Dinerstayn və Nensi Çodorou anti-Freydist feministlərdən (onlar haqqında aşağıda danışacağıq) fərqli olaraq hesab edirdilər ki, psixoanalizin insan davranışlarının şüuraltı və şüursuz motivləri ilə bağlı üzə çıxardıqları qadınların nə üçün əsarətdə saxlanılmasının səbəblərini açmağa kömək edir. Beləcə, onlar patriarxal mədəniyyətin psixoloji qatlarına çıxırdılar ki, içəridən qadınlara yönəlik siyasi, kulturoloji "basqıların" səbəbini anlasınlar.

Psixoanalizi feminizmi intellektuallıq baxımından güclü etmək məqsədlərinə cəlb edən birinci kitab Culiet Mitçellin «Psixoanaliz və feminizm» əsəridir (1974). Liberal feministlər, yəni ideyalarını azadlıq dəyərləri üstündə quran feministlər hesab edirdilər ki, qadının emansipasiyasına, yəni buxovlardan qurtulmasına siyasət, mədəniyyət, sosial proqramlar yardım etsə, tam şəkildə cinslərin hüquqi bərabərliyi əldə olunar. Mitçel isə Freydə istinad edərək göstərməyə çalışırdı ki, qadının tam azadlıq əldə etməsi yalnız sosial-siyasi, iqtisadi proqram və amillərlə həll olunmur. Çünki onu buxovda saxlayan zəncirlərin bir qismi enərək psixoloji dərinliklərə gedir. Bu etirazında Mitçelə psixoanalizin insan psixologiyasının dib qatları haqqında irəli sürdüyü açıqlamalar yardımçı olurdu. O, Freyd və davamçılarına söykənərək göstərirdi ki, qadınların təzyiq, repressiya, basqı, boyunduruq altında saxlanmasının əsas səbəbi insan psixologiyalarının dərinində gizlənir. Biz bu dərinlikdə gizlənən səbəbin nə olmasını açan Elektra kompleksini, artıq, göstərmişik. İdeya feministlər və anti-feministlər üçün fundamental olduğu üçün indi həmin ideyanı freydizmin qadın tənqidçisi Lüsi İriqareyin formulasında yenidən açaq, çünki bu fikir həmin ideyanın bəzi görünməz çalarlarını önə çıxarır. İriqarey Freyd və onun davamçısı olan J.Lakanı onda tənqid edirdi ki, hər ikisinin cinslər arasında fərqlər haqqında mülahizələri kişi fantaziyasının məhsuludur. Bu, o deməkdir ki, qadını kişiyə «başqası» kimi təqdim etdikdə həmin qadını «çatışmazlıqlar terminində» düşünərək kişini standart, qadını isə bu standartın pozulması (biolojisizlik) şəklində göstərirlər. Ona görə də müasir elmdən görünən qadın kişilərin «çatışmazlıq terminində» yaratdığı qadındır və ya maskyulin mədəniyyət çərçivəsində təsəvvür edilən qadındır. Bu səbəbdən femin feminliyini, qadın qadınlığını yaratmağa ehtiyac var (5, s. 411).

Psixoanalizə əsaslanaraq qadınların məruz qaldığı ədalətsizliyin dərin psixoloji köklərini açmaq istəyən Mitçellin nələri səbəb kimi görməsini İriqareyin sözləri yaxşı açır: səbəb qızların kişilərə nisbətdə özlərini çatışmazlığa məruz qalmış, insan standartından sapınma məxluq kimi duymaları və bilmələridir. Beləliklə, biz konkret materialda Freydin qadın psixologiyası ilə bağlı irəli sürdüyü ideyaların feminizmdə yaratdığı rezonansı gördük. Bu rezonansın bir dalğası psixoanalitik feminizmin yaranmasında iştirak edərək onun

platformasını törədici ideyalarla təmin etmişdi. Bu idealın içində start nöqtəsini qız uşaqlarının biologiyası ilə şərtlənmiş kompleksi əmələ gətirirdi. Həmin rezonans dalğası öz növbəsində anti-psixonalitik feminizmə təkan vermişdi. Və bu axırıncının ideya sistemində start nöqtəsi qızların kompleksinin yanlış ideya olmasını sübut etmək idi. Hər iki feminizm cərəyanında çoxlu fikir mübadilələri və nüfuzlu adlar vardı. Bizim məqalənin məqsədi onlardan iri planın fokusunda yazmağa imkan vermir. İmkan yalnız paradiqma səviyyəsində əsas tendensiyanı göstərməyə çatır. Bu tendensiyanı isə Kerol Qilliqanın «Başqa səslə. Psixoloji nəzəriyyə və qadının inkişafı» kitabı açır. Burada o, kişilərin qadınlara nisbətdə daha yüksək mənəviyyat və ədalət duyğusuna sahib olması haqqında Freyd ideyasına qarşı çıxaraq göstərir ki, kişi və qadınlarda əxlaq haqqında fərqli təsəvvürlər olsa da, onların biri o birisindən dəyərcə heç də üstün deyil. Aydın məslədir ki, əxlaq həm də qadın və kişi psixologiyalarının problemi olduğu üçün, hamısı da kulturoloji perspektivlərdə məna və dəyər qazandığı üçün məsələyə konkret yanaşaq.

Qilliqan kişi və qadının əxlaqi təsəvvürlərini aşağıdakı bəndlərə bölür:

- qadın başqaları ilə münasibətlərində, davranışlarında mənəvi-əxlaqi tərəfə xüsusi fikir verir, kişilər isə quru qaydaları əsas tutur;
- qadın gəldiyi qərarın təsir dairəsinə düşən adamlarda həmin qərarın hansı nəticələr verməsinin qayğısına qalır, kişi isə həmin qərarın düzgünlüyünü insanların taleyi ilə əlaqədə götürmür;
- qadınlar kimsə pis hərəkət edəndə kişilərdən fərqli olaraq onun üzrünü asan qəbul edirlər;
- qadın əxlaqi qərar qəbul edəndə situasiyanın konkretliyni nəzərə alır, kişi isə bu konkretliyə diqqət etmir.

Bir sözlə, qadının mənəviyyatı və mənəviyyatından doğan əxlaqı «qayğı etikasıdır (8, s.74). Freydizmlə polemikadan doğmuş «qayğı etikası» feministlər arasında populyar terminə çevrildi, çünki qadınların kişilərdən mənəvi psixoloji fərqindən danışanda qadınların nədə üstün olduğunu konkret şəkildə göstərdi.

Qadın psixologiyasının biofizioloji əsasları mövzusuna son notları vurmaq üçün bəzi fikirləri də gözdən keçirək.

Məlumdur ki, feminizmi üç dalğaya bölürlər. Birinci dalğa qadınların kişilərlə seçki haqqı da daxil olmaqla hüquq bərabərliyinə yönəlmişdi və Qərb-də qələbə ilə nəticələnmişdi. İkinci dalğa XX əsrin 60-cı illərindən başlayaraq qadınlara qarşı ayrı-seçkiliyin ən görünməz, gizli formalarını aşkar edib aradan götürmək məqsədini güdmüşdü. Üçüncü dalğada isə (80-90-cı illərdə) gender tədqiqatları və onların əsasında siyasi, kulturoloji hərəkatlar başlamışdı (2, s.6) Feminizmin ikinci dalğasından əvvəlki araşdırmalarda qadınla kişi arasında dərin psixoloji fərqlərin olması postulaşdırılmışdı. Ancaq XX əsrin ilk onilli-yində Leta Hollinqvös tədqiqatında həmin postulatı doğrultmaq istəyəndə uğursuzluğa düçar olub bəyan etdi ki, kişi və qadın arasında prinsipial psixoloji

fərqə heç bir sübut tapa bilmədi. Sonralar Freyd və onun tələbələri Elektra kompleksi əsasında elə fərqləri ortaya çıxardılar ki, feminizm hərəkatında lehinə və əleyhinə çoxlu diskussiyalar törətdi. 1944-cü ildə Freydin tələbəsi Hellen Doyç «Qadın psixologiyası» kitabını çapdan çıxardı və orada qadınların daha incə psixoloji strukturlara malik olması ilə razılaşsa da, qadın psixologiyası üçün analığın və bioloji tələbatın əhəmiyyətini müzakirə mövzusuna çevirdi (6, s. 6). Hərçənd Freydizmə daha autentik olan fikri o oldu ki, qadınlar üçün xarakterik olan psixoloji hallar nərgizlik (narsisizm), passivlik və mazoxizmdir, hamısı da onların biologiyasından qaynaqlanır (6, s. 14).

Qadın psixologiyasının qeyri-psixoanalitik elmi «portretini» verənlərdən biri Karl Yunqdur. O, psixoanalizə dəxli olmayan, ancaq psixoanaliz qədər orijinallıq təsirini daşıyan bir nəzəriyyənin yaradıcısı olmuşdu. Nəzəriyyə insanların psixoloji tiplərini aşkar və təsnif etməyə yönəlmişdi. Xatırladaq ki, Yunqa qədər sanqvinik, melanxolik, fleqmatik kimi psixoloji tiplər nəzəriyyəsi vardı və onlarda gender spesifikası aparılmamışdı.

Karl Yunqun cızdığı portretlərdə həlledici iki tip vardı, introvert, yəni daxilə yönəlmiş, ekstravert, yəni xaricə yönəlmiş insan tipləri. Daha sonra Yunq o biri tipləri bu iki tipin kombinasiyasından almışdı.

Yunq daxilə yönəlikliyinə görə başqalarından gizli dünyası olan, bu dünyada yaşayan insan tipindən fərqli olaraq qadınlar üçün ekstravertliyi xarakterik sayırdı. Bu qadın tipində o, emosionallığı əsas cəhət kimi göstərirdi. Emosionallıq həmişə dost-tanışla bölüşmək üçün sevinc, kədər duyğularını başqalarına ifadə etməkdir. Bu baxımdan rəfiqələrinə, qohumlarına hissiyyatla yanaşmaq qadınlar arasında daha geniş yayılıb.

Yunq hesab edirdi ki, qadınların ekstravert emosional tipi özünü daha aydın və təkrarlı şəkildə onların sevgi obyektini seçməsində göstərir: bu qadınlar müvafiq saydıqları kişini sevirlər. Müvafiqlik deyəndə isə özlərinin gizli mahiyyətlərinə uyğun olanı nəzərdə tutmurlar. Bütün tələblərə cavab verən yaşı, mənsəbi və əhəmiyyəti nəzərdə tuturlar.

Bu tip qadınlar duyğularına heç bir şey mane olmadıqda "düzgün" duymaq qabiliyyətinə malik olurlar. Duyğulara isə ən çox təfəkkür, fikir əngəl olur, ona görə də həmin qadın tipi imkan olduğu dərəcədə fikirləşmə prosesini təzyiq altında saxlayır. Bu o demək deyil ki, həmin qadın düşünmür. O çox, həm də xeyli ağıllı düşünə bilər, ancaq düşüncələr onun üçün duyğularına epimetik əlavələrdir. Yəni belə qadınlar duya bilmədiklərini şüurlu düşünə bilmirlər. Bu qadın düşünəndə onun duyğularına əngəl olan hər hansı məntiqi nəticəni elə astanadan qovur. Nəticədə düzgün məntiqi nəticələr onun üçün haradasa şüurdan kənarda, yəni ruhun şüursuz sferasında baş verir. Ona görə də bu qadın tipinin gizli, özünün də xəbərsiz qaldığı məzmunu xüsusi bir düşüncə tərzi ilə müəyyənləşir. Bu düşünmə tərzi infantil, arxaik və neqativdir. O həmin

neqativ düşünmədir ki, "filan şey filan şeydən başqa bir şey deyil..." formulasına cavab verir.

Beləliklə, Yunq qadınları fikirlə hissiyyatlarına qalib gələ bilməyən məxluq kimi açırdı. Zərif cinsdə hissiyyatın gücünü göstərmək üçün Yunq hətta aforizm də söyləmişdi: - "Kişi deyir, mən sevirəm ki, yaşayım, qadın isə deyir, mən yaşayıram ki, sevim" (maraqlıdır ki, xeyli əvvəl oxşar fikri Füzuli söyləmişdi).

Yunqun qadın xarakterini dolayı yolla göstərən başqa fikirləri də var. Məsələn, o feminist gender tədqiqatçılarından yazanda göstərirdi ki, qadınların femin mövzusunda araşdırmalarına baxsaq, görərik ki, qadınlar heç də bu mövzuda maariflənməyin tərəfdarı deyillər. Əgər qadınlar yazıları ilə özlərinə yeni libas geyinmirlərsə, - libasla bəzənmək isə əbədi qadın sənətidir, - deməli, özləri ilə bağlı qeyri-müəyyənliyi, qorxunu yaymaq istəyirlər və beləcə, kişilər üzərində ağalıq əldə etməyə çalışırlar.

Yunq belə bir sualla çıxış edir: olubmu ki, qadın özü hansısa başqa qadında ağıl dərinliyini, hansısa qadın ürəyində yüksək ədalət duyğusunu etiraf etsin? Məgər, düz deyilmi ki, qadına nifrətlə biz yox, qadınların özü baxırlar?! (5, s. 38).

Göründüyü kimi, Yunq ekstravertlik haqqında çox maraqlı nəzəriyyə qursa da, bu nəzəriyyənin əsasında alınan qadın portreti ədəbiyyatda və adi fikirlərdə qadınlar haqqında gəzən tipik təsəvvürdən çox da uzağa getmir. Zərif məxluqun ağılla yox, ürəyi (və ya qulağı) ilə addım atması, təəssüratlar altında yaşaması, qadınların bir-birini sevməməsi çox kişi söhbətlərinin dəyişməz mövzusudur. Yunq sadəcə bu «məlum» fikir stereotipini anlayışların və arqumentlərin dilində söyləyir.

Qadın psixologiyası ilə bağlı Yunqun daha produktiv nəzəriyyəsi arxetiplər haqqında fikirlərdən doğur və bu haqda biz növbəti yarımfəsildə danışacağıq. Burada isə deyək ki, kişi psixoanalizinə qarşı «əleyhinə» prinsipində çıxış edən feminist Betti Fridan freydizmin tənqidinə bir prinsipial əlavə vermişdi: əvvəllər feydizmin təsiri altında qadınlara təlqin olunurdu ki, onların əsas dəyəri, keyfiyyəti qadınlıqdır. Bunun qədrini bilib inkişaf etdirmək lazımdır. Mütəxəssislər o qadınları alqışlayırdılar ki, əsas məqsədləri ərə gedib uşaq doğmaq və bununla öz qadınlıqlarını reallaşdırmaqdır (3, s. 5). Cin Şinoda Bolen bu mənada Freydi oxumağı, bəzi qadınlarda natamamlıq kompleksini doğurduğunu qeyd edirdi. Onlar uşaq dünyaya gətirmək əvəzinə karyeraya üstünlük verdiklərinə görə özlərini günahkar hiss edirlər (4, s. 272).

**Ədəbiyyat**:

1. Abbasov Ə. S., Mirzəzadə R. R. Milli genderşünaslığa ümumi nəzər // Azərbaycan bədii və ictimai-fəlsəfi fikrində qadın məsələsi. Gender müntəxəbatı. B.: Adiloğlu, 2004, s. 10-17
2. Abbasov Ə.S. Azərbaycanda gender tədqiqatları // fəlsəfə və gender, B.:2005, s.15-19
3. Ağayeva K.C. Azərbaycan cəmiyyətində sosial-əxlaqi davranışın etik-gender təhlili: Fəl. elm.dok... avtoref. Bakı, 2009, 27 s.
4. Alışanoğlu T. Mif və yazı arasında bir dünya // Tənqid. Net, №7, 01.2010, s. 299-302
5. Уайтхед А.Н. Избранные работы по философии. М.: Прогресс, 1990, 720 с.
6. Юнг. К.Г.Психологические типы. М.: 1924, 96 с.
7. Currie D. H. Raoul V. A. The Anatomy of gender: women's struggle for the body. Canada: Carleton University Press , 1992, 274 p
8. Gilligan C. In a Different Voice: Psychological Theory and Women's Development Harvard University Press, 1982, 184p.

# MÜNDƏRİCAT

## İQTİSADİYYAT

1. *Pərviz Əhməd oğlu QURBANOV*
Maliyyə münasibətləri sistemində vergilərin rolu .................................... 5
2. *Murad Zaman oğlu HACIYEV*
Səhiyyə maarifliliyi və dövlətin səhiyyə xərcləri .................................... 14
3. *Samirə Mübariz qızı ALLAHVERDİYEVA*
Xarici ticarət əlaqələrini təkmilləşdirilməsində gömrük siyasətinin rolu ........................................................................................... 23
4. Məhəmməd *BALKAYA CEYLAN*
Türkiyə əhalisinin miqrasiya problemi. .................................................. 31
5. *Toğrul Mahmud oğlu ALLAHMANLI*
Azərbaycan və Polşa qarşılıqlı iqtisadi münasibətlərinin inkişaf meylləri ................................................................................................ 42
6. *Hüseyn Kamal oğlu HƏSƏNOV*
Tikinti materialları istehsalı müəssisələrində strateji risklərin idarəetmə sisteminin xüsusiyyətləri ........................................................ 50

## TEXNİKA VƏ RİYAZİYYAT

7. *Sevinc Tofiq qızı BABAYEVA*
Daxili və xarici bank risklərin qiymətləndirilməsi məqsədilə inteqrasiya edilmiş qeyri-səlis modellər sistemi....................................... 62

## SİYASİ ELMLƏR

8. *Akif Maarif oğlu MARİFLİ*
Nüvə təhlükəsizliyi problemi Azərbaycanın milli təhlükəsizliyi kontekstində ........................................................................................ 76
9. *Zümrüd Eldar qızı MƏLİKOVA*
Avropa ittifaqının ümumi təhlükəsizlik və müdafiə siyasəti ...................... 89
10. *Könül Fəxrəddin qızı MƏMMƏDOVA*
Enerji strategiyasının mahiyyəti və qlobal enerji təhlükəsizliyi problemi ............................................................................................ 104

TARİX

11. *Sevinc Məlikməmməd qızı MƏLİKZADƏ*
Səfəvi imperiyasının xristian əhalisi arasında avropalı missionerlərin dini təbliğatı (“Karmelit xronikası əsəri əsasında). .................................. 113
12. *Aytac Elvin qızı HƏSƏNOVA*
Bilik sahəsi kimi elm tarixi və elmin ilkin problemlər ............................. 121
13. *Xaqan Əlirza oğlu BALAYEV*
Azərbaycan xalq cümhuriyyəti və milli hüquqlarımızın bərpası (Dövlət dili haqqında ilk sənəd) ............................................................................. 129

ƏTRAF-MÜHİTİN MÜHAFİZƏSİ

14. *Janna Nikolay qızı ANDREYEVA, Nataliya Vitaliy qızı SAFRONOVA*
Xəzər dənizinin müasir ekoloji problemləri və onların tövsiyə edilən həll modelləri.......................................................................................... 137

PEDAQOGİKA

15. *Zülfiyyə Əlisaab qızı VƏLİYEVA*
Pedaqoji təfəkkürün formalaşmasında interaktiv təlimin imkanları.......... 144

SOSİOLOGİYA

16. *Səbuhi Ənvər oğlu SULTANOV*
İslam həmrəyliyi və milli identiklik ........................................................ 150

MƏDƏNİYYƏTŞÜNASLIQ

17. *Sədaqət Ağasəfər qızı ƏLİYEVA*
Qadın psixologiyasında feminizm rezonansı ........................................... 158

# СОДЕРЖАНИЕ

## ЭКОНОМИКА

1. *Парвиз Ахмед оглы КУРБАНОВ*
Роль налогов в системе финансовых отношений ................................ 5
2. *Мурад Заман оглы ГАДЖИЕВ*
Медицинская грамотность и государственные расходы на здравоохранение........................................................................ 14
3. *Самира Мубариз кызы АЛЛАХВЕРДИЕВА*
Роль таможенной политики в улучшении иностранных дел ............. 23
4. *Мухаммед БАЛКАЯ ДЖЕЙЛАН*
Проблема миграции турецкого народа ............................................. 31
5. *Тогрул Махмуд оглы АЛЛАХМАНЛЫ*
События Азербайджана и Польши относительно экономических отношений........................................................................................ 42
6. *Гусейн Камал оглы ГАСАНОВ*
Особенности системы управления стратегических рисков на предприятиях по производству строительных материалов ............... 50

## ТЕХНИКА И МАТЕМАТИКА

7. *Севиндж Тофик кызы БАБАЕВА*
Система интегрированных нечётких моделей для оценки внутренних и внешних банковских рисков ........................................ 62

## ПОЛИТИЧЕСКИЕ НАУКИ

8. *Акиф Маариф оглы МАРИФЛИ*
Проблема ядерной безопасности в контексте национальной безопасности Азербайджана .............................................................. 76
9. *Зумруд Эльдар кызы МАЛИКОВА*
Общая политика безопасности и обороны европейского союза ......................................................................................................... 89
10. *Кенуль Фахраддин кызы МАМЕДОВА*
Суть энергетической стратегии и проблема глобальной энергетической безопасности............................................................ 104

## ИСТОРИЯ

11. *Севиндж Маликмамед кызы МАЛИКЗАДЕ*
Религиозная пропаганда европейских миссионеров среди христиан населения империи сефевидов (в «хронике кармелитов») ........ 113
12. *Айтадж Эльвин кызы ГАСАНОВА*
История науки и основные проблемы науки как области знаний ........ 121
13. *Хаган Алирза оглы БАЛАЕВ*
Азербайджанская народная республика и восстановление националных прав (Первый документ о государственном языке) ........ 129

## ОХРАНА ОКРУЖАЮЩЕЙ СРЕДЫ

14. *Жанна Николавевна АНДРЕЕВА, Наталия Витальевна САФРОНОВА*
Современные экологические проблемы каспийского моря и рекомендуемые модели их решения ........ 137

## ПЕДАГОГИКА

15. *Зульфия Алисааб кызы ВЕЛИЕВА*
Возможности интерактивного обучения в формировании педагогического мышления ........ 144

## СОЦИОЛОГИЯ

16. *Сабухи Анвар оглы СУЛТАНОВ*
Исламская солидарность и национальная идентичность. ........ 150

## КУЛЬТУРА

17. *Садагат Агасафар кызы АЛИЕВА*
Резонанс феминизма в женской психологии ........ 158

# CONTENTS

## ECONOMICS

1. *Parviz Ahmed GURBANOV*
The role of taxes in the financial system.................................................. 5
2. *Murad Zaman HAJIYEV*
Health literacy and public expenditure on health ...................................... 14
3. *Samira Mubariz ALLAHVERDIYEVA*
The role of customs policy in the improvement of foreign trade relations.................................................................................................. 23
4. *Muhammed BALKAYA CEYLAN*
The problem of migration of the Turkish people ...................................... 31
5. *Toghrul Mahmud ALLAHMANLI*
Developments of Azerbaijan and polish economic relations ..................... 42
6. *Huseyn Kamal HASANOV*
Features of the control system of strategic risks at the construction material enterprises ........................................................................... 50

## TECHNIQUE AND MATEMATICS

7. *Sevinj Tofig BABAYEVA*
The system of integrated fuzzy models for assessing internal and external banking risks ........................................................................ 62

## POLITICS

8. *Akif Maarif MARIFLY*
Nuclear security problem in the context of national security of Azerbaijan. ........................................................................................... 76
9. *Zumrud Eldar MALIKOVA*
Common security and defence policy of the european union .................... 89
10 *Konul Fakhraddin MAMMADOVA*
The essence of energy strategy and global energy security problem ........ 104

## HISTORY

11. *Sevinj Malikmammad MALIKZADEH*
The religious propaganda of european missionaries among the chiristian population of the Safavid empire (on the “Carmelite

chronicle”)........................................................................................ 113
12. *Aytaj Elvin HASANOVA*
The history of science and the primary problems of science as the field of knowledge ........................................................................................ 121
13. *Khagan Alirza BALAYEV*
Azerbaijan people republic and the establishment of our national rights (the first document about state language) ................................................ 129

ENVIRONMENT PROTECTION

14. *Janna Nikolay ANDREEVA, Nataliya Vitaliy SAFRONOVA*
Modern environmental problems of the Caspian Sea and recommended models for their solutions.......................................................................... 137

PEDAGOGY

15. *Zulfiyya Alisaab VALİYEVA*
Possibilities of interactive learning in the formation of pedagogical thinking ........................................................................................ 144

SOCIOLOGY

16. *Sabuhi Anvar SULTANOV*
Islamic solidarity and national identity.................................................... 150

CULTUROLOGY

17. *Sadagat Aghasafar ALIYEVA*
The resonance of feminism in female psychology ................................... 158

**MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!**

«Elmi xəbərlər» jurnalının redaksiya heyəti bildirir ki, nəşr etdirmək üçün təqdim edilən məqalələr aşağıdakı qaydalar əsasında tərtib edilməlidir:

- mətnlər (Azərbaycan, rus, ingilis dillərində) – Times New Roman şrifti (ölçüsü – 12) ilə yığılmalı;
- məqalələr (boşluqları nəzərə almaq şərti ilə həcmi 40 min işarə) və xülasələr kompüterdə çap olunmuş şəkildə elektron variantla birlikdə təqdim olunmalı;
- məqalənin UOT-u, ədəbiyyatı, istinadı, üç dildə xülasəsi (15 sətrdən artıq olmamaq şərti ilə), açar sözləri (ən çoxu 10) və məqalələrin başlıqları verilməli;
- ədəbiyyat siyahısı ya istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla ya da əlifba sırası ilə verilməli;
- cədvəllərin, sxemlərin, qrafiklərin və şəkillərin adı göstərilməlidir.

***Müəllif haqqında məlumat:*** soyadı, adı, atasının adı, telefon nömrələri, elektron poçt ünvanı, işlədiyi təşkilatın tam adı.

Əlyazmaların nəşri haqqında qərar qeydiyyatdan sonra bir ay ərzində qəbul edilir.

Məqalələrin çapı üçün pul ödənilmir.

**К СВЕДЕНИЮ АВТОРОВ!**

Редколлегия журнала «Сборник научных статей» доводит до вашего сведения, что направляемые в журнал статьи следует оформлять в соответствии со следующими правилами:

- рукописи принимаются на азербайджанском, русском и английском языках, шрифтом Times New Roman (12п);
- к тексту обязательно прилагается электронная версия текста;
- объем рукописи не должен превышать 40 тыс. знаков (включая пробелы);
- пронумерованный список использованной литературы (либо в алфавитном порядке, либо в порядке упоминания в тексте) дается в конце статьи;
- К рукописи прилагаются; УДК, аннотация (не более 15 строк), ключевые слова, название статьи (на трех языках), имена и фамилии авторов;
- таблицы, графики, схемы, рисунки должны быть озаглавлены;

***Авторская справка:*** фамилия, имя, отчество (полностью), официальное наименование места работы, должность, ученая степень, а также данные для связи с автором; адрес, номера телефонов сл., дом., моб., электронный адрес.

Статьи принимаются в течение одного месяца со дня регистрации рукописи в редакции.

Плата за публикацию рукописей не взимается.

**TO THE ATTENTION OF AUTHORS!**

The editorial staff of the «Collection of Scientific Publications» journal brings to your notice that articles submitted for publication must meet the following requirements:

- texts (Azerbaijani, Russian and English) must be typed with Times New Roman font (size 12 p);
- articles (no more than 40 thousand characters including spaces), list of references, abstracts (no more than 15 lines, in Azerbaijani, Russian and English) and keywords (maximum 10, in Azerbaijani, Russian and English) must be presented in typed form together with the diskette;
- list of references should be enumerated lither alphabetically or in the order of reference in the text and be presented at the end of the article;
- tables, graphs, diagrams, figures should be titled;

***Information about authors:*** surname, name, last name, position, academic degree, e-mail address, telephone number, name of the organization.

Articles are accepted within one month since the date of their registration in the publishing house. Payment for article publication is not required.

**Kompyuter yığımı və korrektoru:** Aynur Qəmbərova

Məqalələr aşağıdakı ünvana göndərilir:
E-mail: science@wcu.edu.az;
Məqalələrin online qəbulu: journal.wcu.edu.az

Статьи направляются по адресу:
E-mail: science@wcu.edu.az;
Онлайн прием статей: journal.wcu.edu.az

Articles should be sending to the following address:
E-mail: science@wcu.edu.az;
Submit online: journal.wcu.edu.az

***Formatı*** 70×100 $^1/_{16}$
***Həcmi*** F.ç.v. 10,75
***Sayı*** 500

Qərbi Kaspi Universitetinin nəşriyyat-poliqrafiya mərkəzində yığılmış və çap olunmuşdur.